# İlham Əliyevin ekoloji siyasəti

## Dayanıqlı inkişaf və yaşıl dünya

## (2003 - 2023)

## 3 clddə

### III cild

Fərmanlar və Sərəncamlar

**Layihənin rəhbəri və baş məsləhətçi:** **Sadiq Qurbanov,**
Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin
sədri, t.e.n., dos.

**Elmi redaktoru:** **Urxan Ələkbərov,**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik

**Tərtibçilər:** **Zakir İsmayılov**
**Səməd Vəkilov**

**İlham Əliyevin ekoloji siyasəti. Dayanıqlı inkişaf və yaşıl dünya (2003 - 2023). 3 cilldə. III cild. - Bakı, 2024. .- 336 s.**

Bu gün "yaşıl iqtisadiyyat” termini qlobal səviyyədə bəşəriyyətin inkişafının ana xətlərindən birini təşkil edir. Bunu Azərbaycan dövləti yaşıl enerji iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə sübut edir.

Hazırda dünya iqtisadiyyatında “yaşıl iqtisadiyyatın” xüsusiyyətləri aydın görünür. Bu istiqamətdə müəyyən tendensiyalar hər bir ölkənin iqtisadiyyatında müəyyən dərəcədə təzahür edir.

Azərbaycan iqtisadiyyatında da belə tendensiyalar var. Bunlara enerji səmərəliliyinin və enerjiyə qənaətin təmin edilməsi üzrə tədbirlər, bərpa olunan energetikanın inkişafı, istixana qazı emissiyalarının məhdudlaşdırılması barədə qərar və innovativ inkişafa və modernləşməyə doğru kursun özü aiddir. Bütün bunlar “yaşıl iqtisadiyyata” doğru atılan addımlardandır. Buna görə də ekoloji tələbləri nəzərə alan iqtisadiyyat, görünür, gələcəkdə “yaşıl iqtisadiyyatdan” çox, sadəcə alternativi olmayan müasir iqtisadiyyat kimi səslənəcək və gələcəkdə bu, daha aydın şəkildə özünü büruzə verəcək. Ona görə də bunun qanunvericilik bazasının yaradılması vacib şərtlərdən biridir.

Bu üçcildli toplunun 3-cü cildində Azərbaycan Prezidenti İlham Əliyevin “yaşıl iqtisadiyyat”a və ümumulikdə ekoloji siyasətinin ana xəttini təşkil edən sahələrə dair imzaladığı Fərmanlar və Sərəncamlarla daxil edilmişdir.

Bu toplu Azərbaycan dövlətinin ekoloji siyasət sahəsində mövcud qanunvericiliyi öyrənənlər üçün zəngin məlumat mənbəyidir.

# M ü n d ə r i c a t

Fərmanlar..........................................................................4
Sərəncamlar.......................................................................226

# FƏRMANLAR

**"ƏHALİNİN EKOLOJİ TƏHSİLİ VƏ MAARİFLƏNDİRİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQİ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASININ BƏZİ QANUNVERİCİLİK AKTLARINA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN İCRASININ TƏMİN EDİLMƏSİ HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

"Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədilə qərara alıram:

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, III kitab, maddə 612; 2001-ci il, №7, maddə 462, № 12, maddə 755; 2002-ci il, №1, maddə 49, № 5, maddələr 260, 275, № 8, maddələr 478, 484, 486; 2003-cü il, № 6, maddə 299, № 8, maddə 434, №9, maddə 478, №10, maddələr 546, 547, 560, 571, 582; Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 9 yanvar tarixli 12 nömrəli, 29 yanvar tarixli 20 nömrəli, 12 fevral tarixli 30 nömrəli və 3 mart tarixli 37 nömrəli fərmanları) 3-cü bəndinin səkkizinci abzasında "76-84-cü" rəqəmləri "76-84- 1-ci" rəqəmləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2004-cü il
№ 55

## AZƏRBAYCAN RESPUBLİKASININ HİRKAN MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsini rəhbər tutaraq qərara alıram:

"Azərbaycan Respublikasının Hirkan Milli Parkı haqqında Əsasnamə" təsdiq edilsin.

Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 aprel 2004-cü il
№ 5

*Azərbaycan Respublikası Prezidentinin*
*24 aprel 2004-cü il tarixli 57 nömrəli Fərmanı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

### Azərbaycan Respublikasının Hirkan Milli Parkı haqqında ƏSASNAMƏ

I. ÜMUMİ MÜDDƏALAR

Azərbaycan Respublikasının Hirkan Milli Parkı (bundan sonra - Milli Park) ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin (dəmirağacı, Hirkan şimşadı, şabalıdyarpaq palıd, Hirkanənciri, Xəzər lələyi, Hirkan biçəvəri, ipək akasiyası, bəbir, xallı maral, cüyür, talış qırqovulu, Hirkan arıquşu, qara leylək, berkut və s.) qorunub saxlanılması və ekoturizmin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 9 fevral tarixli 81 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Lənkəran və Astara rayonlarının inzibati ərazilərində yaradılmışdır.

Milli Park xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin və obyektlərinin yerləşdiyi, təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və başqa məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi tədqiqat idarəsi statusuna malik ərazidir.

Milli Park öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarmı, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarım, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin normativ hüquqi aktlarını və bu Əsasnaməni rəhbər tutur.

Milli Parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazidə olan torpaq, su, bitki və heyvanlar aləmi onun daimi istifadəsinə verilir.

Milli Parkdan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə əməl olunma şərti ilə təbiəti mühafizə, elmi tədqiqat, ətraf mühitin monitorinqi, sağlamlaşdırma, təlim-tərbiyə, turizm və istirahət (rekreasiya) məqsədləri üçün istifadə edilə bilər.

Milli Parkda onun məqsədli təyinatına, təbiət komplekslərinin və ayrı-ayrı obyektlərin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan şərtlərlə başqa fəaliyyət növləri həyata keçirilə bilər.

Xüsusi mühafizəni təmin etmək üçün Milli Parka bitişik olan torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər zonalar müəyyən edilə bilər. Bu zonaların torpaqlarında xüsusi mühafizə olunan təbiət ərazilərinin təbiət komplekslərinə və obyektlərinə zərərli təsir göstərən hər cür fəaliyyət qadağandır.

Milli Park dövlət büdcəsindən, yerli büdcələrdən, büdcədənkənar vəsaitlərdən, ətraf mühitin mühafizəsi üzrə fondların vəsaitləri hesabına və qanunvericilikdə qadağan edilməyən digər maliyyə mənbələrindən maliyyələşdirilir.

Milli Parkın idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarənin xüsusi fondu və vəsaitləri ola bilər. Bu fondun və vəsaitlərin yaradılması və onlardan istifadə qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Milli Parkın pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır. Pasportda Milli Parkın əhəmiyyəti, adı, yerləşdiyi yer, yaranma tarixi, torpaqdan daimi istifadə hüququna dair dövlət aktının qeydiyyat nömrəsi və tarixi, mühafizə olunan ərazinin xarakteristikası, onun ümumi görünüşünün sxemi, qorunan nadir fauna və flora növləri, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər öz əksini tapmalıdır.

Bu ərazinin pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində dövlət qeydiyyatına alınmaqla Milli Parkda saxlanılır.

Milli Parkda təbiət qoruq fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazinin perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

Milli Park müstəqil balansa, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən dövlət mülkiyyətində olan əmlaka, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Milli Parkın adı əks olunan möhürə, müvafiq blank və ştamplara, xəzinə hesablarına, bayraq və emblemə malikdir.

## II. MİLLİ PARKIN YARADILMASININ MƏQSƏDLƏRİ

2.1. Milli Parkın yaradılmasının məqsədləri aşağıdakılardır:

təbiət komplekslərini, genetik fondu, bioloji müxtəlifliyi, nadir və etalon təbiət ərazilərini, tarix-mədəniyyət obyektlərini qoruyub saxlamaq;

turizm və istirahət (rekreasiya) üçün şərait yaratmaq;

təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

əhalini ekoloji maarifləndirmək;

ekoloji monitorinqi həyata keçirmək;

zədələnmiş təbiət, tarix-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

## III. MİLLİ PARKIN XÜSUSİ MÜHAFİZƏ REJİMİNİN XÜSUSİYYƏTLƏRİ

3.1. Milli Parkın ərazisində onun təbiət, tarix-mədəniyyət və digər xüsusiyyətləri nəzərə alınmaqla, xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;

turizm və istirahət (rekreasiya) zonaları;

turistlərə və başqalarına xidmət göstərilən zonalar;

Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat -istehsalat zonaları.

Milli Parkın ərazisinin xüsusi mühafizənin ayn-ayrı rejimləri tətbiq olunan ayrı-ayrı fəaliyyət zonaları üzrə bölgüsü Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Milli Parkın turizm və istirahət (rekreasiya) zonalarında turizm və istirahət məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə (ov, idman, həvəskar balıq ovu və s.) yol verilir.

Milli Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilə bilər.

Milli Parkın ərazisində aşağıdakılar qadağan edilir:

təbiət komplekslərinə, bioloji müxtəlifliyə, genetik fonda və tarix-mədəniyyət obyektlərinin varlığına təhlükə yaradan hər bir fəaliyyət;

geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

hidroloji rejimin dəyişməsinə səbəb olan işlərin aparılması;

xüsusi ekoloji təhlükə yaradan kimya sənayesi, metallurgiya, nüvə energetikası və sair müəssisələrin fəaliyyəti;

Milli Parkın fəaliyyəti ilə bağlı olmayan magistral yollarının, boru kəmərlərinin, elektrik xətlərinin və digər kommunikasiyaların tikintisi;

müəyyən olunmuş yerlərdən kənar dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması;

dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması üçün müəyyən olunmuş yerlərdən və ümumi istifadə olunan quru və su yollarından kənar mexaniki nəqliyyat vasitələrinin hərəkəti və dayanacağı, ev heyvanlarının köçürülməsi;

meşələrdə əsas istifadə qırıntısı;

yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası.

Milli Parkın ərazisində ekoloji, elmi, estetik, mədəni və rekreasiya dəyərini aşağı sala bilən digər fəaliyyət növləri də Milli Park tərəfindən məhdudlaşdırılan və yaxud Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qadağan edilə bilər.

Milli Parkın mühafizəsi onun mühafizə xidməti Tərəfindən həyata keçirilir, bu işə Milli Parkın direktoru və Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan mühafizə işləri üzrə direktor müavini öz səlahiyyətləri daxilində rəhbərlik edirlər.

Milli Parkın mühafizə xidmətinin aşağıdakı hüquqları vardır:

3.8.1. Milli Parkın ərazisində və onun mühafizə zonasında xüsusi mühafizə rejimini pozanların sənədlərini yoxlamaq, nəqliyyat vasitələrini saxlamaq, qanunvericiliklə müəyyən edilmiş qaydada nəqliyyat vasitələrini, gəmiləri, ov alətlərini, əldə olunmuş məhsulları və başqa əşyaları yoxlamaq, hüquqpozma-ya səbəb olmuş alətləri, cihazları və əşyaları, qanunsuz əldə edilmiş məhsulları, habelə müvafiq sənədləri götürmək;

Milli Parkın ərazisində və onun mühafizə zonasında mövcud qanunvericiliyə və mühafizə rejiminə zidd olan fiziki və hüquqi şəxslərin fəaliyyətini dayandırmaq;

Milli Parkın ərazisində və onun mühafizə zonasında qanunvericiliyi pozmuş, cinayət və ya inzibati xəta törətmiş şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada saxlamaq, onları hüquq mühafizə orqanlarının sərəncamına vermək;

Milli Parkın ərazisindən istifadə qaydalarının, həmin ərazinin mühafizə rejiminin pozulmasına görə qanunvericiliklə müəyyən edilmiş qaydada inzibati xəta haqqında protokollar tərtib etmək;

Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə və istifadə sahəsində pozuntu hallarını aradan qaldırmaq haqqında icrası məcburi olan göstərişlər vermək və digər tədbirlər görmək.

IV. MİLLİ PARKIN ELMİ TƏDQİQAT FƏALİYYƏTİ

Milli Parkın elmi tədqiqat fəaliyyəti rekreasiya məqsədilə istifadə olunan şəraitdə ekoloji vəziyyətin proqnozlaşdırılmasına və qiymətləndirilməsinə, səciyyəvi və nadir təbiət komplekslərinin (o cümlədən bioloji müxtəlifliyin) elmi cəhətdən əsaslanmış üsullarla qorunmasına yönəldilir.

Milli Parkda elmi tədqiqat fəaliyyəti Milli Parkın elm şöbəsinin işçiləri Tərəfindən aparılır.

Milli Parkda elmi tədqiqatlar kənar elmi təşkilatların və ayrı-ayrı mütəxəssislərin cəlb edilməsi ilə də aparıla bilər.

Milli Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif, tədris tədbirlərinin həyata keçirilməsi və ekoloji maarifləndirmə işinin təşkil edilməsi məqsədilə Şura yaradıla bilər. Şuranın tərkibi və Əsasnaməsi Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Tərəfindən təsdiq edilir.

Milli Parkın elmi və herbari fondları yaradılır və həmişəlik saxlanılır.

Milli Parkın elmi əsərlər çap etdirmək hüququ vardır.

Milli Parkda elmi tədqiqat işində əldə edilmiş nəticələrin məqsədi:

heyvan və bitki ehtiyatlarının qorunub saxlanılmasının, törədilib çoxaldılmasının və səmərəli istifadə edilməsinin elmi əsaslarını işləyib hazırlamaq və Milli Parkın ərazisində yayılmış vəhşi heyvanların sayının optimal normadan artığının vaxtı ilə müvafiq ərazidə yayılmış və nəsli kəsilməkdə olan heyvan növlərinin əvvəlki yerlərinə baytarlıq-sanitariya tələblərinə uyğun olaraq köçürülməsini həyata keçirmək;

Milli Parkın ərazisində təbiət komplekslərinin təbii halda saxlanılmasını təmin edən tədbirləri, təbiət keompleksləri komponentlərinin faydalı məhsuldarlığının qiymətləndirilməsi və yüksəldilməsi metodlarını işləyib hazırlamaq;

Milli Parka bitişik ərazilərdə təbii ehtiyatlardan təsərrüfat məqsədilə istifadə edilməsinin səmərəliliyini müəyyənləşdirmək və nəticələrini aşkara çıxarmaq;

zərərli heyvan və alaq otlarına qarşı mübarizə metodlarını, ilk növbə-də bioloji metodların layihələrini işləyib hazırlamaq;

su rejimində, torpağın və bitki örtüyünün xassələrində, heyvanların sayında və bitkilərin (fitosenozların) məhsuldarlığında dəyişikliklərin proqnozlaşdırılması məqsədilə həmin dəyişikliklərin səbəbini öyrənmək;

təbiətdə cərəyan edən proseslər haqqında sistemləşdirilmiş faktiki materiallar və nəzəri nəticələr hesabına elmi bilikləri zənginləşdirmək;

Milli Parkın hüdudlarından kənarda, təsərrüfat məqsədləri üçün istifadə edilən ərazilərdə eyni və ya oxşar bioekoloji metodları işləyib hazırlamaq.

Elmi tədqiqatların aparılması metodları Milli Parkın rejiminin tələblərinə zidd olmamalıdır. Aparılan işlərin nəticəsi olaraq hazırlanmış elmi təkliflər tətbiq oluna bilər.

Milli Parkın aparacağı elmi tədqiqat işlərini, görəcəyi elmi, elmi-texniki və sair tədbirləri hər təqvim ili üçün Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi və maliyyələşdirdiyi planlar üzrə onun elm şöbəsinin işçiləri, Milli Parkla bu sahədə əməkdaşlığı Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi müqavilələr əsasında müvafiq profilli elmi tədqiqat idarələri və ali məktəblər ilə həyata keçirirlər.

V. MİLLİ PARKIN TƏSƏRRÜFAT FƏALİYYƏTİ

Milli Parkın təsərrüfat fəaliyyəti təbiət və tarix-mədəniyyət obyektlərinin tələb olunan səviyyədə mühafizəsindən, onlara xidmət və bərpa tədbirlərinin həyata keçirilməsindən, təbiətdə idarə olunan istirahət və turizm tədbirlərinin təşkilindən ibarətdir.

Təbiətdə istirahətin və turizmin inkişafı təsdiq edilmiş layihə sənədləri əsasında Milli Parkın ərazisində yerləşən binaların və qurğuların ayrı-ayrı fiziki və hüquqi şəxslərə icarəyə (və ya istifadəyə) verilməsi yolu ilə həyata keçirilə bilər.

Milli Parkın ərazisində mehmanxanaların, kempinqlərin, turbazaların, iaşə və digər obyektlərin tikintisi və istifadəsi, əhalinin istirahəti məqsədilə digər şəraitlərin yaradılması Milli Parkın fiziki və hüquqi şəxslərlə bağlanmış və ekoloji ekspertizadan keçmiş müqavilələri əsasında həyata keçirilə bilər.

Milli Parkda, onun məqsədli təyinatına və təbiət komplekslərinin və ayrı-ayrı obyektlərin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan başqa fəaliyyət növləri Milli Parkın fiziki və hüquqi şəxslərlə bağlanmış və ekoloji ekspertizadan keçmiş müqavilələri əsasında həyata keçirilir.

VI. MİLLİ PARKIN MÜHAFİZƏSİNƏ, QORUNMASINA VƏ İSTİFADƏSİNƏ DÖVLƏT NƏZARƏTİ

Milli Parkın vəziyyətinə, mühafizəsi, qorunması və bərpası üzrə tədbirlərin yerinə yetirilməsinə, qanunvericiliklə nəzərdə tutulmuş qaydalara və tələblərə əməl olunmasına dövlət nəzarətini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

VII. MİLLİ PARKIN FƏALİYYƏTİNİN TƏŞKİLİ

Milli Parkın strukturu, ştat cədvəli və xərclər smetası Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Tərəfindən  təsdiq edilir.

Milli Parka Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir.

Direktor Milli Parkın fəaliyyətinə görə şəxsən məsuliyyət daşıyır.

Direktor aşağıdakı səlahiyyətlərə malikdir:

Milli Parkın işinə ümumi rəhbərliyi həyata keçirir və onun fəaliyyətində qanunvericiliyin tələblərinə əməl olunmasını təmin edir;

təbiəti mühafizə, elmi tədqiqat və biotexniki planların layihələrinin hazırlanmasını təşkil edir, onların müvafiq qaydada təsdiq edildikdən sonra yerinə yetirilməsini təmin edir;

Milli Parkda elmi tədqiqat işlərinin planlarının, tapşırıqların yerinə yetirilməsinin gedişi haqqında müvafiq şöbələrin və ayrı-ayrı əməkdaşların hesabatlarını dinləyir;

Milli Parkın ixtisaslı kadrlarla komplektləşdirilməsini təşkil edir, kadrların ixtisaslarının artırılması istiqamətində qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görür;

Milli Parkın mühafizə rejimi, elmi tədqiqatların və onların tətbiqinin nəticələri haqqında hesabatları, habelə maliyyə-təsərrüfat fəaliyyəti barədə mühasibat, maliyyə və statistika hesabatlarını müəyyən olunmuş qaydada aidiyyəti üzrə təqdim edir;

Milli Parkın maddi-texniki təminatını təşkil edir;

Milli Parkın fəaliyyətinə aid olan məsələlərlə əlaqədar məhkəmələrdə çıxış edir, müvafiq prosessual hüquq və vəzifələri həyata keçirir;

Milli Parkın Şurasının fəaliyyətinə rəhbərlik edir.

Milli Parkın bütün işçiləri Milli Parkın rejiminin pozulması hallarının qarşısının alınmasında mühafizə işçilərinə kömək göstərməlidirlər.

Milli Parkın təbiət ərazilərindən və obyektlərindən istifadə qanunvericilikdə nəzərdə tutulmuş hallarda ödənişli ola bilər.

Əhali və ictimai birliklər Milli Parkın mühafizəsinə dair təkliflərini verə bilərlər. Bu təkliflərə Milli Park Tərəfindən  baxılır.

Milli Parkın ərazisi və obyektləri Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

Milli Parkın hüquqi və fiziki şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır.

Milli Parkın rejiminin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulması nəticəsində Milli Parka vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və təbiətin mühafizəsi ilə bağlı digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

Milli Parkın mühafizə rejimini həyata keçirən işçilərinə xidməti vəzifələrini yerinə yetirərkən üzərində fərqlənmə nişanı olan xüsusi geyim forması daşımaq, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.

**"OVÇULUQ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

"Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsində nəzərdə tutulmuş vəhşi heyvanların təsərrüfat subyektləri tərəfindən yetişdirilib ov yerlərinə buraxılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 9.1-ci maddəsində nəzərdə tutulmuş ovçular cəmiyyətlərinin ovçuluğun və ovçuluq təsərrüfatlarının təşkili və idarə edilməsində iştirak etməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 10.4-cü maddəsində nəzərdə tutulmuş dövlət ovçuluq kadastrının və ov obyektlərinin monitorinqinin aparılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 11.3-cü maddəsində nəzərdə tutulmuş ayrı-ayrı yırtıcı heyvan növlərinin vurulması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 13.2-ci maddəsində nəzərdə tutulmuş ovçuluq biletinin forması, qeydiyyatı və ovçuluq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərə verilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 14.2-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş ov etmək üçün icazənin verilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 14.6-cı maddəsində nəzərdə tutulmuş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində ov etmək üçün icazənin verilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.10. öz səlahiyyətləri daxilində "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

"Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsində, 9.1-ci maddəsində, 10.4-cü maddəsində, 11.3-cü maddəsində (ayrı-ayrı yırtıcı heyvan növlərinin vurulması qaydasının müəyyən edilməsinə dair), 13.2-ci maddəsində, 14.2-ci maddəsinin üçüncü cümləsində, 14.6-cı maddəsində, 15.1-ci maddəsində, 21.4-cü maddəsində, 21.5-ci maddəsində və 22.4-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 4.2~ci maddəsində, 4.3-cü maddəsində, 7.2-ci maddəsində, 7.3-cü maddəsində, 8,2-ci maddəsində, 9.3.3-cü maddəsində, 11.1-ci maddəsində, 11.2-ci

maddəsində, 11.3-cü maddəsində (ayrı-ayrı yırtıcı heyvan növlərinin vurulması limitlərinin müəyyən edilməsinə dair), 12.1-ci maddəsində, 13.1-ci maddəsində, 13.5-ci maddəsində, 14.2-ci maddəsinin birinci cümləsində, 14.5-ci maddəsində, 16.1-ci maddəsində, 16.2-ci maddəsində, 20.1.1-ci maddəsində, 20.2-ci maddəsində, 21.6-cı maddəsində, 21.7-ci maddəsində,

22.5-ci maddəsində, 23.0.11-ci maddəsində və 24.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir;

həmin Qanunun 15.3-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı“nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirin

həmin Qanunun 18.2.8-ci və 23.0.6-cı maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanlan"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 may 2004-cü il
№ 69

## "DÖVLƏT RÜSUMU HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQİ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASININ BƏZİ QANUNVERİCİLİK AKTLARININ QÜVVƏDƏN DÜŞMÜŞ HESAB EDİLMƏSİ VƏ BƏZİ QANUNVERİCİLİK AKTLARINA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2. Azərbaycan Respublikası Prezidentinin aşağıdakı fərmanlarına dəyişikliklər və əlavələr edilsin:

"Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 163; 2003-cü il, № 10, maddə 571) 2-ci bəndinin üçüncü abzasında "8-ci maddəsinin birinci hissəsinin axırıncı cümləsində və yeddinci hissəsində" sözləri "8-ci maddəsinin yeddinci hissəsində" sözləri ilə əvəz edilsin, "9-cu maddəsinin altıncı hissəsinin axırıncı cümləsində" sözləri çıxarılsın;

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 9, maddə 576; 2001-ci il, № 10, maddə 640; 2003-cü il, № 10, maddə 585) 2-ci bəndinin ikinci abzasından "17-ci maddəsinin 3-cü hissəsində" sözləri çıxarılsın;

"Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 3, I kitab, maddə 164; 2002-ci il, № 7, maddə 412; № 8, maddə 478, № 12, maddə 716; 2003-cü il, № 6, maddə 290) 2-ci bəndinin ikinci abzasından "165-ci" rəqəmi çıxarılsın;

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununa, "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan

Respublikası Prezidentinin 2002-ci il 7 yanvar tarixli 630 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 1, maddə 13) 2-ci bəndinin ikinci abzası çıxarılsın;

"Patent haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 755 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 8, maddə 505; 2003-cü il, № 10, maddə 571) 2-ci bəndində:

ikinci abzasdan "39-cu maddəsinin üçüncü abzasında" sözləri çıxarılsın;

üçüncü abzasda "4-cü maddəsinin 1-ci bəndində "sənaye mülkiyyəti sahəsində" sözlərindən sonra, 2-ci və 3-cü bəndlərində" sözləri "4-cü maddəsinin 1-ci bəndində "sənaye mülkiyyəti sahəsində" sözlərindən sonra və 2-ci bəndində" sözləri ilə əvəz edilsin;

üçüncü abzasdan "39-cu maddəsinin ikinci abzasında" sözləri çıxarılsın;

"Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 dekabr tarixli 522 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 4, maddə 273) 1-ci bəndinin beşinci abzasında "7.2-ci yarımbəndinin 1-ci və 2-ci abzaslarında" sözləri "7.2-ci yarımbəndinin 1-ci abzasında" sözləri ilə əvəz edilsin;

"Azərbaycan Respublikası Gömrük Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 616 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 6, maddə 448; 2001-ci il, № 10, maddə 640) 2-ci bəndinin üçüncü abzasında:

"44-cü maddəsinin 2-ci və 3-cü hissələrində, 53-cü maddəsinin 2-ci və 3-cü hissələrində" sözləri "44-cü maddəsinin 2-ci hissəsində və 53-cü maddəsinin 2-ci hissəsində" sözləri ilə əvəz edilsin;

"76-cı maddəsinin 2-ci və 3-cü hissələrində" sözləri "76-cı maddəsinin 2-ci hissəsində" sözləri ilə əvəz edilsin;

"145-ci maddəsinin 2-ci və 3-cü hissələrində" sözləri "123-cü maddəsinin 7-ci hissəsində, 145-ci maddəsinin 2-ci hissəsində" sözləri ilə əvəz edilsin;

"160-cı maddəsinin 1-ci hissəsində, 163-cü maddəsinin 9-cu hissəsində" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 iyul 2004-cü il
№ 87

## AZƏRBAYCAN RESPUBLİKASINDA YARADILMIŞ MİLLİ PARKLARIN ƏSASNAMƏLƏRİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələri təsdiq edilsin:

1.1. "Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Ordubad Milli Parkı haqqında Əsasnamə" (əlavə olunur);

1.2. "Azərbaycan Respublikasının Şirvan Milli Parkı haqqında" Əsasnamə(əlavə olunur);

1.3. "Azərbaycan Respublikasının Ağgöl Milli Parkı haqqında" Əsasnamə" (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmandan irəli gələn məsələləri öz səlahiyyətləri daxilində həll etsinlər.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 avqust 2004-cü il
№ 106

*Azərbaycan Respublikası Prezidentinin*
*2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

### Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Ordubad Milli Parkı haqqında ƏSASNAMƏ

I. Ümumİ müddəalar

1.1. Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Ordubad Milli Parkı (bundan sonra - Milli Park) ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin (bəbir, muflon, bezoar keçisi, ağboğaz bülbül, qəşəng dovdaq, şahin və s.) qorunub saxlanılması üçün Azərbaycan Respublikası prezidentinin 2003-cü il 16 iyun tarixli 1249 nömrəli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun inzibati ərazisində yaradılmışdır.

1.2. Milli Park xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi, təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və başqa məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi tədqiqat idarəsi statusuna malik ərazidir.

1.3. Milli Park öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası prezidentinin və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və

sərəncamlarını, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin normativ hüquqi aktlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. Milli Parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazidə olan torpaq, su, bitki və heyvanlar aləmi onun daimi istifadəsinə verilir.

1.5. Milli Parkın hüdudlarına ayrı-ayrı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada digər torpaq istifadəçilərinin və mülkiyyətçilərinin torpaq sahələri də daxil edilə bilər.

1.6. Milli Parkdan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə əməl etmək şərti ilə təbiəti mühafizə, elmi tədqiqat, ətraf mühitin monitorinqi, sağlamlaşdırma, təlim-tərbiyə, turizm və istirahət (rekreasiya) məqsədləri üçün istifadə edilə bilər.

1.7. Milli Parkda, onun məqsədli təyinatına və təbiət komplekslərinin və ayrı-ayrı obyektlərin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan başqa fəaliyyət növləri Milli Parkın fiziki və hüquqi şəxslərlə bağlanmış və ekoloji ekspertizadan keçmiş müqavilələri əsasında həyata keçirilir.

1.8. Xüsusi mühafizəni təmin etmək üçün Milli Parka bitişik olan torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonalar müəyyən edilə bilər. Bu zonaların torpaqlarında xüsusi mühafizə olunan təbiət ərazilərinin təbiət komplekslərinə və obyektlərinə zərərli təsir göstərən hər cür fəaliyyət qadağandır.

1.9. Milli Park dövlət büdcəsindən, yerli büdcələrdən, büdcədənkənar vəsaitlərdən, ətraf mühitin mühafizəsi üzrə fondların vəsaitləri hesabına və qanunvericilikdə qadağan edilməyən digər maliyyə mənbələrindən maliyyələşdirilir.

1.10. Milli Parkın idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarənin xüsusi fondu və vəsaitləri ola bilər. Bu fondun və vəsaitlərin yaradılması və onlardan istifadə qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

1.11. Milli Parkın pasportu Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iştirakı ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır. Pasportda Milli Parkın əhəmiyyəti, adı, yerləşdiyi yer, yaranma tarixi, torpaqdan daimi istifadə hüququna dair Dövlət aktının qeydiyyat nömrəsi və tarixi, mühafizə olunan ərazinin xarakteristikası, onun ümumi görünüşünün sxemi, qorunan nadir fauna və flora növləri, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər öz əksini tapmalıdır.

Bu ərazinin pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində dövlət qeydiyyatına alınmaqla Milli Parkda saxlanılır.

1.12. Milli Parkda təbiət qoruq fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazinin perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədi ilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

1.13. Milli Park müstəqil balansa, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən dövlət mülkiyyətində olan əmlaka, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Milli Parkın adı əks olunan möhürə, müvafiq blank və ştamplara, xəzinə hesablarına, bayraq və embleme malikdir.

II. Mİllİ Parkın yaradılmasının məqsədlərİ

2.1. Milli Parkın yaradılmasının məqsədləri aşağıdakılardır:

2.1.1. təbiət komplekslərini, nadir və etalon təbiət ərazilərini, tarix-mədəniyyət obyektlərini qoruyub saxlamaq;

2.1.2. turizm və istirahət (rekreasiya) üçün şərait yaratmaq;

2.1.3. təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

2.1.4. əhalini ekoloji maarifləndirmək;

2.1.5. ekoloji monitorinqi həyata keçirmək;

2.1.6. zədələnmiş təbiət, tarix-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

III. Mİllİ Parkın xüsusİ mühafİzə rejİmİnİn xüsusİyyətlərİ

3.1. Milli Parkın ərazisində onun təbiət, tarix-mədəniyyət və digər xüsusiyyətləri nəzərə alınmaqla xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

3.1.1. xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

3.1.2. təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;

3.1.3. turizm və istirahət (rekreasiya) zonaları;

3.1.4. turistlərə və başqalarına xidmət göstərilən zonalar;

3.1.5. Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

3.2. Milli Parkın ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan ayrı-ayrı fəaliyyət zonaları üzrə bölgüsü Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin razılığı ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

3.3. Milli Parkın turizm və istirahət (rekreasiya) zonalarında turizm və istirahət (rekreasiya) məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə (ov, idman, həvəskar balıq ovu və s.) yol verilir.

3.4. Milli Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilə bilər.

3.5. Milli Parkın ərazisində aşağıdakılar qadağan edilir:

3.5.1. təbiət komplekslərinə və tarix-mədəniyyət obyektlərinin varlığına təhlükə yaradan hər bir fəaliyyət;

3.5.2. geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

3.5.3. hidroloji rejimin dəyişməsinə səbəb olan işlərin aparılması;

3.5.4. xüsusi ekoloji təhlükə yaradan kimya sənayesi, metallurgiya, nüvə energetikası və sair müəssisələrin fəaliyyəti;

3.5.5. Milli Parkın fəaliyyəti ilə bağlı olmayan magistral yolların, boru kəmərlərinin, elektrik xətlərinin və digər kommunikasiyaların tikintisi;

3.5.6. müəyyən olunmuş yerlərdən kənar dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması;

3.5.7. dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması üçün müəyyən olunmuş yerlərdən və ümumi istifadə olunan quru və su yollarından kənar mexaniki nəqliyyat vasitələrinin hərəkəti və dayanacağı, ev heyvanlarının köçürülməsi;

3.5.8. yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası;

3.5.9. meşələrdə əsas istifadə qırıntısı.

3.6. Milli Parkın ərazisində ekoloji, elmi, estetik, mədəni və rekreasiya dəyərini aşağı sala bilən digər fəaliyyət növləri qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırıla və yaxud qadağan edilə bilər.

3.7. Milli Parkın mühafizəsi onun mühafizə xidməti tərəfindən həyata keçirilir. Bu işə Milli Parkın direktoru və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin razılığına

əsasən Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan mühafizə işləri üzrə direktor müavini öz səlahiyyətləri daxilində rəhbərlik edirlər.

3.8. Milli Parkın mühafizə xidmətinin aşağıdakı hüquqları vardır:

3.8.1. Milli Parkda xüsusi mühafizənin hüquqi rejimini pozmuş şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada nəqliyyat vasitələrinə baxış keçirmək, şeyləri və sənədləri götürmək, şəxsi axtarış və fiziki şəxsdə olan şeyləri yoxlamaq;

3.8.2. Milli Parkın ərazisində müvafiq qanunvericiliyə və xüsusi mühafizənin hüquqi rejiminə zidd olan fiziki və hüquqi şəxslərin fəaliyyətini dayandırmaq;

3.8.3. Milli Parkda xüsusi mühafizənin hüquqi rejimini pozmuş şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında protokollar tərtib etmək və ya cinayət məsuliyyətinə cəlb edilməsi barədə müvafiq tədbirlər görmək;

3.8.4. Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə və istifadə sahəsində pozuntu hallarını aradan qaldırmaq haqqında icrası məcburi olan göstərişlər vermək və digər tədbirlər görmək.

IV. Mİllİ Parkın elmİ tədqİqat fəalİyyətİ

4.1. Milli Parkın elmi tədqiqat fəaliyyəti rekreasiya məqsədi ilə istifadə olunan şəraitdə ekoloji vəziyyətin proqnozlaşdırılmasına və qiymətləndirilməsinə, səciyyəvi və nadir təbiət komplekslərinin (o cümlədən, bioloji müxtəlifliyin) elmi cəhətdən əsaslanmış üsullarla qorunmasına yönəldilir.

4.2. Milli Parkda elmi tədqiqat fəaliyyəti Milli Parkın elm şöbəsinin işçiləri tərəfindən aparılır.

4.3. Milli Parkda elmi tədqiqatlar kənar elmi təşkilatların və ayrı-ayrı mütəxəssislərin cəlb edilməsi ilə də aparıla bilər.

4.4. Milli Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif, tədris tədbirlərinin həyata keçirilməsi və ekoloji maarifləndirmə işinin təşkil edilməsi məqsədilə Şura yaradıla bilər. Şuranın tərkibi və Əsasnaməsi Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin təklifi ilə Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir.

4.5. Milli Parkın elmi və herbari fondları yaradılır və daimi saxlanılır.

4.6. Milli Parkın elmi əsərlər çap etdirmək hüququ vardır.

4.7. Milli Parkda elmi tədqiqat işində əldə edilmiş nəticələrin məqsədi:

4.7.1. heyvan və bitki ehtiyatlarının qorunub saxlanılmasının, törədilib çoxaldılmasının və səmərəli istifadə edilməsinin elmi əsaslarını işləyib hazırlamaq və Milli Parkın ərazisində yayılmış vəhşi heyvanların sayının optimal normadan artığının vaxtı ilə müvafiq əraziyə yayılmış və nəsli kəsilmiş heyvan növlərinin əvvəlki yerlərinə baytarlıq-sanitariya tələblərinə uyğun olaraq köçürülməsini həyata keçirmək;

4.7.2. Milli Parkın ərazisində təbiət komplekslərinin təbii halda saxlanılmasını təmin edən tədbirləri, təbiət kompleksləri komponentlərinin faydalı məhsuldarlığının qiymətləndirilməsi və yüksəldilməsi metodlarını işləyib hazırlamaq;

4.7.3. Milli Parka bitişik ərazilərdə təbii ehtiyatlardan təsərrüfat məqsədi ilə istifadə edilməsinin səmərəliliyini müəyyənləşdirmək və nəticələrini aşkara çıxarmaq;

4.7.4. zərərli heyvan və alaq otlarına qarşı mübarizə metodlarını, ilk növbədə bioloji metodların layihələrini işləyib hazırlamaq;

4.7.5. su rejimində, torpağın və bitki örtüyünün xassələrində, heyvanların sayında və bitkilərin (fitosenozların) məhsuldarlığında dəyişikliklərin proqnozlaşdırılması məqsədi ilə həmin dəyişikliklərin səbəbini öyrənmək;

4.7.6. təbiətdə cərəyan edən proseslər haqqında sistemləşdirilmiş faktiki materiallar və nəzəri nəticələr hesabına elmi bilikləri zənginləşdirmək;

4.7.7. Milli Parkın hüdudlarından kənarda, təsərrüfat məqsədləri üçün istifadə edilən ərazilərdə eyni və ya oxşar bioekoloji metodları işləyib hazırlamaq.

4.8. Elmi tədqiqatların aparılması metodları Milli Parkın rejiminin tələblərinə zidd olmamalıdır. Aparılan işlərin nəticəsi olaraq hazırlanmış elmi təkliflər tətbiq oluna bilər.

4.9. Milli Parkın aparacağı elmi tədqiqat işlərini, görəcəyi elmi, elmi-texniki və sair tədbirləri hər təqvim ili üçün Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılmaqla Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi və maliyyələşdirdiyi planlar üzrə onun elm şöbəsinin işçiləri, Milli Parkla bu sahədə əməkdaşlığı Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılmaqla Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi müqavilələr əsasında müvafiq profilli elmi tədqiqat idarələri və ali məktəblər ilə həyata keçirirlər.

V. Mİllİ Parkın təsərrüfat fəalİyyətİ

5.1. Milli Parkın təsərrüfat fəaliyyəti təbiət və tarix-mədəniyyət obyektlərinin tələb olunan səviyyədə mühafizəsindən, onlara xidmət və bərpa tədbirlərinin həyata keçirilməsindən, təbiətdə idarə olunan istirahət və turizm tədbirlərinin təşkilindən ibarətdir.

5.2. Təbiətdə istirahətin və turizmin inkişafı təsdiq edilmiş layihə sənədləri əsasında Milli Parkın ərazisində yerləşən binaların və qurğuların ayrı-ayrı fiziki və hüquqi şəxslərə icarəyə (və ya istifadəyə) verilməsi yolu ilə həyata keçirilə bilər.

5.3. Milli Parkın ərazisində mehmanxanaların, kempinqlərin, turbazaların, iaşə və digər obyektlərin tikintisi və istifadəsi, əhalinin istirahəti məqsədi ilə digər şəraitlərin yaradılması Milli Parkın fiziki və hüquqi şəxslərlə bağlanmış və ekoloji ekspertizadan keçmiş müqavilələri əsasında həyata keçirilə bilər.

VI. Mİllİ Parkın mühafİzəsİnə, qorunmasına və
İstİfadəsİnə dövlət nəzarətİ

Milli Parkın vəziyyətinə, mühafizəsi, qorunması və bərpası üzrə tədbirlərin yerinə yetirilməsinə, qanunvericiliklə nəzərdə tutulmuş qaydalara və tələblərə əməl olunmasına dövlət nəzarətini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

VII. Mİllİ Parkın fəalİyyətİnİn təşkİlİ

7.1. Milli Parkın strukturu, ştat cədvəli və xərclər smetası Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

7.2. Milli Parka Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən direktor rəhbərlik edir.

7.3. Direktor Milli Parkın fəaliyyətinə görə şəxsən məsuliyyət daşıyır.

7.4. Direktor aşağıdakı səlahiyyətlərə malikdir:

7.4.1. Milli Parkın işinə ümumi rəhbərliyi həyata keçirir və onun fəaliyyətində qanunvericiliyin tələblərinə əməl olunmasını təmin edir;

7.4.2. təbiəti mühafizə, elmi tədqiqat və biotexniki planların layihələrinin hazırlanmasını təşkil edir, onların müvafiq qaydada təsdiq edildikdən sonra yerinə yetirilməsini təmin edir;

7.4.3. Milli Parkda elmi tədqiqat işlərinin planlarının, tapşırıqların yerinə yetirilməsinin gedişi haqqında müvafiq şöbələrin və ayrı-ayrı əməkdaşların hesabatlarını dinləyir;

7.4.4. Milli Parkın ixtisaslı kadrlarla komplektləşdirilməsini təşkil edir, kadrların ixtisaslarının artırılması istiqamətində tədbirlər görür;

7.4.5. Milli Parkın meşə təsərrüfatı, elmi tədqiqatların, onların tətbiqinin nəticələri haqqında hesabatları, habelə maliyyə-təsərrüfat fəaliyyəti barədə mühasibat, maliyyə və statistika hesabatlarını müəyyən olunmuş qaydada aidiyyəti üzrə təqdim edir;

7.4.6. Milli Parkın maddi-texniki təminatına ümumi rəhbərliyi həyata keçirir;

7.4.7. Milli Parkın fəaliyyətinə aid olan məsələlərlə əlaqədar məhkəmələrdə çıxış edir, müvafiq prosessual hüquq və vəzifələri həyata keçirir;

7.4.8. Milli Parkın Şurasının fəaliyyətinə rəhbərlik edir.

7.5. Milli Parkın bütün işçiləri Milli Parkın rejiminin pozulması hallarının qarşısının alınmasında mühafizə işçilərinə kömək göstərməlidirlər.

7.6. Milli Parkın təbiət ərazilərindən və obyektlərindən istifadə qanunvericilikdə nəzərdə tutulmuş hallarda ödənişli ola bilər.

7.7. Əhali və ictimai birliklər Milli Parkın mühafizəsinə dair təkliflərini verə bilərlər. Bu təkliflərə Milli Park tərəfindən baxılır.

7.8. Milli Parkın ərazisi və obyektləri hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

7.9. Milli Parkın hüquqi və fiziki şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır.

7.10. Milli Parkın rejiminin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

7.11. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulması nəticəsində Milli Parka vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və təbiətin mühafizəsi ilə bağlı digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

7.12. Milli Parkın mühafizə rejimini həyata keçirən vəzifəli şəxslərinə xidməti vəzifələrini yerinə yetirərkən xüsusi geyim forması daşımaq, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.

*Azərbaycan Respublikası Prezidentinin*
*2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

**Azərbaycan Respublikasının Şirvan Milli Parkı haqqında**
**ƏSASNAMƏ**

I. Ümumİ müddəalar

1.1. Azərbaycan Respublikasının Şirvan Milli Parkı (bundan sonra - Milli Park) ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin (ceyranların və su-bataqlıq quşlarının, o cümlədən flaminqo, bəzgək, dovdaq, sultan toyuğu və s.) qorunub saxlanılması üçün Azərbaycan Respublikası

prezidentinin 2003-cü il 5 iyul tarixli 1298 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Bakı şəhəri Qaradağ rayonu, Salyan və Neftçala rayonlarının, inzibati ərazilərində yaradılmışdır.

1.2. Milli Park xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi, təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və başqa məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi tədqiqat idarəsi statusuna malik ərazidir.

1.3. Milli Park öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin normativ hüquqi aktlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. Milli Parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazidə olan torpaq, su, bitki və heyvanlar aləmi onun daimi istifadəsinə verilir.

1.5. Milli Parkın hüdudlarına ayrı-ayrı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada digər torpaq istifadəçilərinin və mülkiyyətçilərinin torpaq sahələri də daxil edilə bilər.

1.6. Milli Parkdan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə əməl etmək şərti ilə təbiəti mühafizə, elmi tədqiqat, ətraf mühitin monitorinqi, sağlamlaşdırma, təlim-tərbiyə, turizm və istirahət (rekreasiya) məqsədləri üçün istifadə edilə bilər.

1.7. Milli Parkda, onun məqsədli təyinatına və təbiət komplekslərinin və ayrı-ayrı obyektlərin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan başqa fəaliyyət növləri Milli Parkın fiziki və hüquqi şəxslərlə bağlanmış və ekoloji ekspertizadan keçmiş müqavilələri əsasında həyata keçirilir.

1.8. Xüsusi mühafizəni təmin etmək üçün Milli Parka bitişik olan torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonalar müəyyən edilə bilər. Bu zonaların torpaqlarında xüsusi mühafizə olunan təbiət ərazilərinin təbiət komplekslərinə və obyektlərinə zərərli təsir göstərən hər cür fəaliyyət qadağandır.

1.9. Milli Park dövlət büdcəsindən, yerli büdcələrdən, büdcədənkənar vəsaitlərdən, ətraf mühitin mühafizəsi üzrə fondların vəsaitləri hesabına və qanunvericilikdə qadağan edilməyən digər maliyyə mənbələrindən maliyyələşdirilir.

1.10. Milli Parkın idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarənin xüsusi fondu və vəsaitləri ola bilər. Bu fondun və vəsaitlərin yaradılması və onlardan istifadə qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

1.11. Milli Parkın pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır. Pasportda Milli Parkın əhəmiyyəti, adı, yerləşdiyi yer, yaranma tarixi, torpaqdan daimi istifadə hüququna dair dövlət aktının qeydiyyat nömrəsi və tarixi, mühafizə olunan ərazinin xarakteristikası, onun ümumi görünüşünün sxemi, qorunan nadir fauna və flora növləri, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər öz əksini tapmalıdır.

Bu ərazinin pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində dövlət qeydiyyatına alınmaqla Milli Parkda saxlanılır.

1.12. Milli Parkda təbiət qoruq fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazinin perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədi ilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

1.13. Milli Park müstəqil balansa, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən dövlət mülkiyyətində olan əmlaka, üzərində Azərbaycan

Respublikası Dövlət gerbinin təsviri olan, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Milli Parkın adı əks olunan möhürə, müvafiq blank və ştamplara, xəzinə hesablarına, bayraq və emblemə malikdir.

II. Mİllİ Parkın yaradılmasının məqsədlərİ

2.1. Milli Parkın yaradılmasının məqsədləri aşağıdakılardır:

2.1.1. təbiət komplekslərini, nadir və etalon təbiət ərazilərini, tarix-mədəniyyət obyektlərini qoruyub saxlamaq;

2.1.2. turizm və istirahət (rekreasiya) üçün şərait yaratmaq;

2.1.3. təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

2.1.4. əhalini ekoloji maarifləndirmək;

2.1.5. ekoloji monitorinqi həyata keçirmək;

2.1.6. zədələnmiş təbiət, tarix-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

III. Mİllİ Parkın xüsusİ mühafİzə rejİmİnİn xüsusİyyətlərİ

3.1. Milli Parkın ərazisində onun təbiət, tarix-mədəniyyət və digər xüsusiyyətləri nəzərə alınmaqla, xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

3.1.1. xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

3.1.2. təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;

3.1.3. turizm və istirahət (rekreasiya) zonaları;

3.1.4. turistlərə və başqalarına xidmət göstərilən zonalar;

3.1.5. Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

3.2. Milli Parkın ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan ayrı-ayrı fəaliyyət zonaları üzrə bölgüsü Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

3.3. Milli Parkın turizm və istirahət (rekreasiya) zonalarında turizm və istirahət (rekreasiya) məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə (ov, idman, həvəskar balıq ovu və s.) yol verilir.

3.4. Milli Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilə bilər.

3.5. Milli Parkın ərazisində aşağıdakılar qadağan edilir:

3.5.1. təbiət komplekslərinə və tarix-mədəniyyət obyektlərinin varlığına təhlükə yaradan hər bir fəaliyyət;

3.5.2. geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

3.5.3. hidroloji rejimin dəyişməsinə səbəb olan işlərin aparılması;

3.5.4. xüsusi ekoloji təhlükə yaradan kimya sənayesi, metallurgiya, nüvə energetikası və sair müəssisələrin fəaliyyəti;

3.5.5. Milli Parkın fəaliyyəti ilə bağlı olmayan magistral yolların, boru kəmərlərinin, elektrik xətlərinin və digər kommunikasiyaların tikintisi;

3.5.6. Müəyyən olunmuş yerlərdən kənar dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması;

3.5.7. dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması üçün müəyyən olunmuş yerlərdən və ümumi istifadə olunan quru və su yollarından kənar mexaniki nəqliyyat vasitələrinin hərəkəti və dayanacağı, ev heyvanlarının köçürülməsi;

3.5.8. yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası.

3.6. Milli Parkın ərazisində ekoloji, elmi, estetik, mədəni və rekreasiya dəyərini aşağı sala bilən digər fəaliyyət növləri qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırıla və yaxud qadağan edilə bilər.

3.7. Milli Parkın mühafizəsi onun mühafizə xidməti tərəfindən həyata keçirilir. Bu işə Milli Parkın direktoru və Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan mühafizə işləri üzrə direktor müavini öz səlahiyyətləri daxilində rəhbərlik edirlər.

3.8. Milli Parkın mühafizə xidmətinin aşağıdakı hüquqları vardır:

3.8.1. Milli Parkda xüsusi mühafizənin hüquqi rejimini pozmuş şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada nəqliyyat vasitələrinə baxış keçirmək, şeyləri və sənədləri götürmək, şəxsi axtarış və fiziki şəxsdə olan şeyləri yoxlamaq;

3.8.2. Milli Parkın ərazisində müvafiq qanunvericiliyə və xüsusi mühafizənin hüquqi rejiminə zidd olan fiziki və hüquqi şəxslərin fəaliyyətini dayandırmaq;

3.8.3. Milli Parkda xüsusi mühafizənin hüquqi rejimini pozmuş şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında protokollar tərtib etmək və ya cinayət məsuliyyətinə cəlb edilməsi barədə müvafiq tədbirlər görmək;

3.8.4. Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə və istifadə sahəsində pozuntu hallarını aradan qaldırmaq haqqında icrası məcburi olan göstərişlər vermək və digər tədbirlər görmək.

IV. Mİllİ Parkın elmİ tədqİqat fəalİyyətİ

4.1. Milli Parkın elmi tədqiqat fəaliyyəti rekreasiya məqsədi ilə istifadə olunan şəraitdə ekoloji vəziyyətin proqnozlaşdırılmasına və qiymətləndirilməsinə, səciyyəvi və nadir təbiət komplekslərinin (o cümlədən, bioloji müxtəlifliyin) elmi cəhətdən əsaslanmış üsullarla qorunmasına yönəldilir.

4.2. Milli Parkda elmi tədqiqat fəaliyyəti Milli Parkın elm şöbəsinin işçiləri tərəfindən aparılır.

4.3. Milli Parkda elmi tədqiqatlar kənar elmi təşkilatların və ayrı-ayrı mütəxəssislərin cəlb edilməsi ilə də aparıla bilər.

4.4. Milli Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif, tədris tədbirlərinin həyata keçirilməsi və ekoloji maarifləndirmə işinin təşkil edilməsi məqsədilə Şura yaradıla bilər. Şuranın tərkibi və Əsasnaməsi Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir.

4.5. Milli Parkın elmi və herbari fondları yaradılır və daimi saxlanılır.

4.6. Milli Parkın elmi əsərlər çap etdirmək hüququ vardır.

4.7. Milli Parkda elmi tədqiqat işində əldə edilmiş nəticələrin məqsədi:

4.7.1. heyvan və bitki ehtiyatlarının qorunub saxlanılmasının, törədilib çoxaldılmasının və səmərəli istifadə edilməsinin elmi əsaslarını işləyib hazırlamaq və Milli Parkın ərazisində yayılmış vəhşi heyvanların sayının optimal normadan artığının vaxtı ilə müvafiq ərazidə yayılmış və nəsli kəsilmiş heyvan növlərinin əvvəlki yerlərinə baytarlıq-sanitariya tələblərinə uyğun olaraq köçürülməsini həyata keçirmək;

4.7.2. Milli Parkın ərazisində təbiət komplekslərinin təbii halda saxlanılmasını təmin edən tədbirləri, təbiət kompleksləri komponentlərinin faydalı məhsuldarlığının qiymətləndirilməsi və yüksəldilməsi metodlarını işləyib hazırlamaq;

4.7.3. Milli Parka bitişik ərazilərdə təbii ehtiyatlardan təsərrüfat məqsədi ilə istifadə edilməsinin səmərəliliyini müəyyənləşdirmək və nəticələrini aşkara çıxarmaq;

4.7.4. zərərli heyvan və alaq otlarına qarşı mübarizə metodlarını, ilk növbədə bioloji metodların layihələrini işləyib hazırlamaq;

4.7.5. su rejimində, torpağın və bitki örtüyünün xassələrində, heyvanların sayında və bitkilərin (fitosenozların) məhsuldarlığında dəyişikliklərin proqnozlaşdırılması məqsədi ilə həmin dəyişikliklərin səbəbini öyrənmək;

4.7.6. təbiətdə cərəyan edən proseslər haqqında sistemləşdirilmiş faktiki materiallar və nəzəri nəticələr hesabına elmi bilikləri zənginləşdirmək;

4.7.7. Milli Parkın hüdudlarından kənarda, təsərrüfat məqsədləri üçün istifadə edilən ərazilərdə eyni və ya oxşar bioekoloji metodları işləyib hazırlamaq.

4.8. Elmi tədqiqatların aparılması metodları Milli Parkın rejiminin tələblərinə zidd olmamalıdır. Aparılan işlərin nəticəsi olaraq hazırlanmış elmi təkliflər tətbiq oluna bilər.

4.9. Milli Parkın aparacağı elmi tədqiqat işlərini, görəcəyi elmi, elmi-texniki və sair tədbirləri hər təqvim ili üçün Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi və maliyyələşdirdiyi planlar üzrə onun elm şöbəsinin işçiləri, Milli Parkla bu sahədə əməkdaşlığı Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi müqavilələr əsasında müvafiq profilli elmi tədqiqat idarələri və ali məktəblər ilə həyata keçirirlər.

V. Mİllİ Parkın təsərrüfat fəalİyyətİ

5.1. Milli Parkın təsərrüfat fəaliyyəti təbiət və tarix-mədəniyyət obyektlərinin tələb olunan səviyyədə mühafizəsindən, onlara xidmət və bərpa tədbirlərinin həyata keçirilməsindən, təbiətdə idarə olunan istirahət və turizm tədbirlərinin təşkilindən ibarətdir.

5.2. Təbiətdə istirahətin və turizmin inkişafı təsdiq edilmiş layihə sənədləri əsasında Milli Parkın ərazisində yerləşən binaların və qurğuların ayrı-ayrı fiziki və hüquqi şəxslərə icarəyə (və ya istifadəyə) verilməsi yolu ilə həyata keçirilə bilər.

5.3. Milli Parkın ərazisində mehmanxanaların, kempinqlərin, turbazaların, iaşə və digər obyektlərin tikintisi və istifadəsi, əhalinin istirahəti məqsədi ilə digər şəraitlərin yaradılması Milli Parkın fiziki və hüquqi şəxslərlə bağlanmış və ekoloji ekspertizadan keçmiş müqavilələri əsasında həyata keçirilə bilər.

VI. Mİllİ Parkın mühafİzəsİnə, qorunmasına və
İstİfadəsİnə dövlət nəzarətİ

Milli Parkın vəziyyətinə, mühafizəsi, qorunması və bərpası üzrə tədbirlərin yerinə yetirilməsinə, qanunvericiliklə nəzərdə tutulmuş qaydalara və tələblərə əməl olunmasına dövlət nəzarətini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

VII. Mİllİ Parkın fəalİyyətİnİn təşkİlİ

7.1. Milli Parkın strukturu, ştat cədvəli və xərclər smetası Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir.

7.2. Milli Parka Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir.

7.3. Direktor Milli Parkın fəaliyyətinə görə şəxsən məsuliyyət daşıyır.

7.4. Direktor aşağıdakı səlahiyyətlərə malikdir:

7.4.1. Milli Parkın işinə ümumi rəhbərliyi həyata keçirir və onun fəaliyyətində qanunvericiliyin tələblərinə əməl olunmasını təmin edir;

7.4.2. təbiəti mühafizə, elmi tədqiqat və biotexniki planların layihələrinin hazırlanmasını təşkil edir, onların müvafiq qaydada təsdiq edildikdən sonra yerinə yetirilməsini təmin edir;

7.4.3. Milli Parkda elmi tədqiqat işlərinin planlarının, tapşırıqların yerinə yetirilməsinin gedişi haqqında müvafiq şöbələrin və ayrı-ayrı əməkdaşların hesabatlarını dinləyir;

7.4.4. Milli Parkın ixtisaslı kadrlarla komplektləşdirilməsini təşkil edir, kadrların ixtisaslarının artırılması istiqamətində qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görür;

7.4.5. Milli Parkın mühafizə rejimi, elmi tədqiqatların və onların tətbiqinin nəticələri haqqında hesabatları, habelə maliyyə-təsərrüfat fəaliyyəti barədə mühasibat, maliyyə və statistika hesabatlarını müəyyən olunmuş qaydada aidiyyəti üzrə təqdim edir;

7.4.6. Milli Parkın maddi-texniki təminatını təşkil edir;

7.4.7. Milli Parkın fəaliyyətinə aid olan məsələlərlə əlaqədar məhkəmələrdə çıxış edir, müvafiq prosessual hüquq və vəzifələri həyata keçirir;

7.4.8. Milli Parkın Şurasının fəaliyyətinə rəhbərlik edir.

7.5. Milli Parkın bütün işçiləri Milli Parkın rejiminin pozulması hallarının qarşısının alınmasında mühafizə işçilərinə kömək göstərməlidirlər.

7.6. Milli Parkın təbiət ərazilərindən və obyektlərindən istifadə qanunvericilikdə nəzərdə tutulmuş hallarda ödənişli ola bilər.

7.7. Əhali və ictimai birliklər Milli Parkın mühafizəsinə dair təkliflərini verə bilərlər. Bu təkliflərə Milli Park tərəfindən baxılır.

7.8. Milli Parkın ərazisi və obyektləri hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

7.9. Milli Parkın hüquqi və fiziki şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır.

7.10. Milli Parkın rejiminin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

7.11. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulması nəticəsində Milli Parka vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və təbiətin mühafizəsi ilə bağlı digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

7.12. Milli Parkın mühafizə rejimini həyata keçirən vəzifəli şəxslərinə xidməti vəzifələrini yerinə yetirərkən xüsusi geyim forması daşımaq, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.

*Azərbaycan Respublikası Prezidentinin*
*2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

**Azərbaycan Respublikasının Ağgöl Milli Parkı haqqında**
**ƏSASNAMƏ**

I. Ümumİ müddəalar

1.1. Azərbaycan Respublikasının Ağgöl Milli Parkı (bundan sonra - Milli Park) ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin (soltan toyuğu, bəzgək, qara leylək, ərsindimdik, qızıl qaz, mərmər cürə, yaşılbaş, bizquyruq, ala, qırmızı dimdik, kəkili qara və boz ördəklər, qu quşları və s.) qorunub

saxlanılması məqsədi ilə Azərbaycan Respublikası prezidentinin 2003-cü il 5 iyul tarixli 1298 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Ağcabədi və Beyləqan rayonlarının inzibati ərazilərində yaradılmışdır.

1.2. Milli Park xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi, təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və başqa məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi tədqiqat idarəsi statusuna malik olan ərazidir.

1.3. Milli Park öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin normativ hüquqi aktlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. Milli Parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazidə olan torpaq, su, bitki və heyvanlar aləmi onun daimi istifadəsinə verilir.

1.5. Milli Parkın hüdudlarına ayrı-ayrı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada digər torpaq istifadəçilərinin və mülkiyyətçilərinin torpaq sahələri də daxil edilə bilər.

1.6. Milli Parkdan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə əməl etmək şərti ilə təbiəti mühafizə, elmi tədqiqat, ətraf mühitin monitorinqi, sağlamlaşdırma, təlim-tərbiyə, turizm və istirahət (rekreasiya) məqsədləri üçün istifadə edilə bilər.

1.7. Milli Parkda, onun məqsədli təyinatına və təbiət komplekslərinin və ayrı-ayrı obyektlərin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan başqa fəaliyyət növləri Milli Parkın fiziki və hüquqi şəxslərlə bağlanmış və ekoloji ekspertizadan keçmiş müqavilələri əsasında həyata keçirilir.

1.8. Xüsusi mühafizəni təmin etmək üçün Milli Parka bitişik olan torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonalar müəyyən edilə bilər. Bu zonaların torpaqlarında xüsusi mühafizə olunan təbiət ərazilərinin təbiət komplekslərinə və obyektlərinə zərərli təsir göstərən hər cür fəaliyyət qadağandır.

1.9. Milli Park dövlət büdcəsindən, yerli büdcələrdən, büdcədənkənar vəsaitlərdən, ətraf mühitin mühafizəsi üzrə fondların vəsaitləri hesabına və qanunvericilikdə qadağan edilməyən digər maliyyə mənbələrindən maliyyələşdirilir.

1.10. Milli Parkın idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarənin xüsusi fondu və vəsaitləri ola bilər. Bu fondun və vəsaitlərin yaradılması və onlardan istifadə qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

1.11. Milli Parkın pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır. Pasportda Milli Parkın əhəmiyyəti, adı, yerləşdiyi yer, yaranma tarixi, torpaqdan daimi istifadə hüququna dair Dövlət aktının qeydiyyat nömrəsi və tarixi, mühafizə olunan ərazinin xarakteristikası, onun ümumi görünüşünün sxemi, qorunan nadir fauna və flora növləri, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər öz əksini tapmalıdır.

Bu ərazinin pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində dövlət qeydiyyatına alınmaqla Milli Parkda saxlanılır.

1.12. Milli Parkda təbiət qoruq fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazinin perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədi ilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

1.13. Milli Park müstəqil balansa, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən dövlət mülkiyyətində olan əmlaka, üzərində Azərbaycan

Respublikası Dövlət gerbinin təsviri olan, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Milli Parkın adı əks olunan möhürə, müvafiq blank və ştamplara, xəzinə hesablarına, bayraq və emblemə malikdir.

II. Mİllİ Parkın yaradılmasının məqsədlərİ

2.1. Milli Parkın yaradılmasının məqsədləri aşağıdakılardır:

2.1.1. təbiət komplekslərini, nadir və etalon təbiət ərazilərini, tarix, mədəniyyət obyektlərini qoruyub saxlamaq;

2.1.2. turizm və istirahət (rekreasiya) üçün şərait yaratmaq;

2.1.3. təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

2.1.4. əhalini ekoloji maarifləndirmək;

2.1.5. ekoloji monitorinqi həyata keçirmək;

2.1.6. zədələnmiş təbiət, tarix-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

III. Mİllİ Parkın xüsusİ mühafİzə rejİmİnİn xüsusİyyətlərİ

3.1. Milli Parkın ərazisində onun təbiət, tarix-mədəniyyət və digər xüsusiyyətləri nəzərə alınmaqla, xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

3.1.1. xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

3.1.2. təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;

3.1.3. turizm və istirahət (rekreasiya) zonaları;

3.1.4. turistlərə və başqalarına xidmət göstərilən zonalar;

3.1.5. Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

3.2. Milli Parkın ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan ayrı-ayrı fəaliyyət zonaları üzrə bölgüsü Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

3.3. Milli Parkın turizm və istirahət (rekreasiya) zonalarında turizm və istirahət (rekreasiya) məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə (ov, idman, həvəskar balıq ovu və s.) yol verilir.

3.4. Milli Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilə bilər.

3.5. Milli Parkın ərazisində aşağıdakılar qadağan edilir:

3.5.1. təbiət komplekslərinə və tarix-mədəniyyət obyektlərinin varlığına təhlükə yaradan hər bir fəaliyyət;

3.5.2. geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

3.5.3. hidroloji rejimin dəyişməsinə səbəb olan işlərin aparılması;

3.5.4. xüsusi ekoloji təhlükə yaradan kimya sənayesi, metallurgiya, nüvə energetikası və sair müəssisələrin fəaliyyəti;

3.5.5. Milli Parkın fəaliyyəti ilə bağlı olmayan magistral yolların, boru kəmərlərinin, elektrik xətlərinin və digər kommunikasiyaların tikintisi;

3.5.6. müəyyən olunmuş yerlərdən kənar dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması;

3.5.7. dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması üçün müəyyən olunmuş yerlərdən və ümumi istifadə olunan quru və su yollarından kənar mexaniki nəqliyyat vasitələrinin hərəkəti və dayanacağı, ev heyvanlarının köçürülməsi;

3.5.8. yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası.

3.6. Milli Parkın ərazisində ekoloji, elmi, estetik, mədəni və rekreasiya dəyərini aşağı sala bilən digər fəaliyyət növləri qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırıla və yaxud qadağan edilə bilər.

3.7. Milli Parkın mühafizəsi onun mühafizə xidməti tərəfindən həyata keçirilir. Bu işə Milli Parkın direktoru və Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən mühafizə işləri üzrə direktor müavini öz səlahiyyətləri daxilində rəhbərlik edirlər.

3.8. Milli Parkın mühafizə xidmətinin aşağıdakı hüquqları vardır:

3.8.1. Milli Parkda xüsusi mühafizənin hüquqi rejimini pozmuş şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada nəqliyyat vasitələrinə baxış keçirmək, şeyləri və sənədləri götürmək, şəxsi axtarış və fiziki şəxsdə olan şeyləri yoxlamaq;

3.8.2. Milli Parkın ərazisində müvafiq qanunvericiliyə və xüsusi mühafizənin hüquqi rejiminə zidd olan fiziki və hüquqi şəxslərin fəaliyyətini dayandırmaq;

3.8.3. Milli Parkda xüsusi mühafizənin hüquqi rejimini pozmuş şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında protokollar tərtib etmək və ya cinayət məsuliyyətinə cəlb edilməsi barədə müvafiq tədbirlər görmək;

3.8.4. Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə və istifadə sahəsində pozuntu hallarını aradan qaldırmaq haqqında icrası məcburi olan göstərişlər vermək və digər tədbirlər görmək.

IV. Mİllİ Parkın elmİ tədqİqat fəalİyyətİ

4.1. Milli Parkın elmi tədqiqat fəaliyyəti rekreasiya məqsədi ilə istifadə olunan şəraitdə ekoloji vəziyyətin proqnozlaşdırılmasına və qiymətləndirilməsinə, səciyyəvi və nadir təbiət komplekslərinin (o cümlədən, bioloji müxtəlifliyin) elmi cəhətdən əsaslanmış üsullarla qorunmasına yönəldilir.

4.2. Milli Parkda elmi tədqiqat fəaliyyəti Milli Parkın elm şöbəsinin işçiləri tərəfindən aparılır.

4.3. Milli Parkda elmi tədqiqatlar kənar elmi təşkilatların və ayrı-ayrı mütəxəssislərin cəlb edilməsi ilə də aparıla bilər.

4.4. Milli Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif, tədris tədbirlərinin həyata keçirilməsi və ekoloji maarifləndirmə işinin təşkil edilməsi məqsədilə Şura yaradıla bilər. Şuranın tərkibi və Əsasnaməsi Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir.

4.5. Milli Parkın elmi və herbari fondları yaradılır və daimi saxlanılır.

4.6. Milli Parkın elmi əsərlər çap etdirmək hüququ vardır.

4.7. Milli Parkda elmi tədqiqat işində əldə edilmiş nəticələrin məqsədi:

4.7.1. heyvan və bitki ehtiyatlarının qorunub saxlanılmasının, törədilib çoxaldılmasının və səmərəli istifadə edilməsinin elmi əsaslarını işləyib hazırlamaq və Milli Parkın ərazisində yayılmış vəhşi heyvanların sayının optimal normadan artığının vaxtı ilə müvafiq əraziyə yayılmış və nəsli kəsilmiş heyvan növlərinin əvvəlki yerlərinə baytarlıq-sanitariya tələblərinə uyğun olaraq köçürülməsini həyata keçirmək;

4.7.2. Milli Parkın ərazisində təbiət komplekslərinin təbii halda saxlanılmasını təmin edən tədbirləri, təbiət kompleksləri komponentlərinin faydalı məhsuldarlığının qiymətləndirilməsi və yüksəldilməsi metodlarını işləyib hazırlamaq;

4.7.3. Milli Parka bitişik ərazilərdə təbii ehtiyatlardan təsərrüfat məqsədi ilə istifadə edilməsinin səmərəliliyini müəyyənləşdirmək və nəticələrini aşkara çıxarmaq;

4.7.4. zərərli heyvan və alaq otlarına qarşı mübarizə metodlarını, ilk növbədə bioloji metodların layihələrini işləyib hazırlamaq;

4.7.5. su rejimində, torpağın və bitki örtüyünün xassələrində, heyvanların sayında və bitkilərin (fitosenozların) məhsuldarlığında dəyişikliklərin proqnozlaşdırılması məqsədi ilə həmin dəyişikliklərin səbəbini öyrənmək;

4.7.6. təbiətdə cərəyan edən proseslər haqqında sistemləşdirilmiş faktiki materiallar və nəzəri nəticələr hesabına elmi bilikləri zənginləşdirmək;

4.7.7. Milli Parkın hüdudlarından kənarda, təsərrüfat məqsədləri üçün istifadə edilən ərazilərdə eyni və ya oxşar bioekoloji metodları işləyib hazırlamaq.

4.8. Elmi tədqiqatların aparılması metodları Milli Parkın rejiminin tələblərinə zidd olmamalıdır. Aparılan işlərin nəticəsi olaraq hazırlanmış elmi təkliflər tətbiq oluna bilər.

4.9. Milli Parkın aparacağı elmi tədqiqat işlərini, görəcəyi elmi, elmi-texniki və sair tədbirləri hər təqvim ili üçün Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi və maliyyələşdirdiyi planlar üzrə onun elm şöbəsinin işçiləri, Milli Parkla bu sahədə əməkdaşlığı Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi müqavilələr əsasında müvafiq profilli elmi tədqiqat idarələri və ali məktəblər ilə həyata keçirirlər.

V. Mİllİ Parkın təsərrüfat fəalİyyətİ

5.1. Milli Parkın təsərrüfat fəaliyyəti təbiət və tarix-mədəniyyət obyektlərinin tələb olunan səviyyədə mühafizəsindən, onlara xidmət və bərpa tədbirlərinin həyata keçirilməsindən, təbiətdə idarə olunan istirahət və turizm tədbirlərinin təşkilindən ibarətdir.

5.2. Təbiətdə istirahətin və turizmin inkişafı təsdiq edilmiş layihə sənədləri əsasında Milli Parkın ərazisində yerləşən binaların və qurğuların ayrı-ayrı fiziki və hüquqi şəxslərə icarəyə (və ya istifadəyə) verilməsi yolu ilə həyata keçirilə bilər.

5.3. Milli Parkın ərazisində mehmanxanaların, kempinqlərin, turbazaların, iaşə və digər obyektlərin tikintisi və istifadəsi, əhalinin istirahəti məqsədi ilə digər şəraitlərin yaradılması Milli Parkın fiziki və hüquqi şəxslərlə bağlanmış və ekoloji ekspertizadan keçmiş müqavilələri əsasında həyata keçirilə bilər.

VI. Mİllİ Parkın mühafİzəsİnə, qorunmasına və İstİfadəsİnə
dövlət nəzarətİ

Milli Parkın vəziyyətinə, mühafizəsi, qorunması və bərpası üzrə tədbirlərin yerinə yetirilməsinə, qanunvericiliklə nəzərdə tutulmuş qaydalara və tələblərə əməl olunmasına dövlət nəzarətini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

VII. Mİllİ Parkın fəalİyyətİnİn təşkİlİ

7.1. Milli Parkın strukturu, ştat cədvəli və xərclər smetası Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir.

7.2. Milli Parka Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir.

7.3. Direktor Milli Parkın fəaliyyətinə görə şəxsən məsuliyyət daşıyır.

7.4. Direktor aşağıdakı səlahiyyətlərə malikdir:

7.4.1. Milli Parkın işinə ümumi rəhbərliyi həyata keçirir və onun fəaliyyətində qanunvericiliyin tələblərinə əməl olunmasını təmin edir;

7.4.2. təbiəti mühafizə, elmi tədqiqat və biotexniki planların layihələrinin hazırlanmasını təşkil edir, onların müvafiq qaydada təsdiq edildikdən sonra yerinə yetirilməsini təmin edir;

7.4.3. Milli Parkda elmi tədqiqat işlərinin planlarının, tapşırıqların yerinə yetirilməsinin gedişi haqqında müvafiq şöbələrin və ayrı-ayrı əməkdaşların hesabatlarını dinləyir;

7.4.4. Milli Parkın ixtisaslı kadrlarla komplektləşdirilməsini təşkil edir, kadrların ixtisaslarının artırılması istiqamətində qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görür;

7.4.5. Milli Parkın mühafizə rejimi, elmi tədqiqatlar və onların tətbiqinin nəticələri haqqında hesabatları, habelə maliyyə-təsərrüfat fəaliyyəti barədə mühasibat, maliyyə və statistika hesabatlarını müəyyən olunmuş qaydada aidiyyəti üzrə təqdim edir;

7.4.6. Milli Parkın maddi-texniki təminatını təşkil edir;

7.4.7. Milli Parkın fəaliyyətinə aid olan məsələlərlə əlaqədar məhkəmələrdə çıxış edir, müvafiq prosessual hüquq və vəzifələri həyata keçirir;

7.4.8. Milli Parkın Şurasının fəaliyyətinə rəhbərlik edir.

7.5. Milli Parkın bütün işçiləri Milli Parkın rejiminin pozulması hallarının qarşısının alınmasında mühafizə işçilərinə kömək göstərməlidirlər.

7.6. Milli Parkın təbiət ərazilərindən və obyektlərindən istifadə qanunvericilikdə nəzərdə tutulmuş hallarda ödənişli ola bilər.

7.7. Əhali və ictimai birliklər Milli Parkın mühafizəsinə dair təkliflərini verə bilərlər. Bu təkliflərə Milli Park tərəfindən baxılır.

7.8. Milli Parkın ərazisi və obyektləri hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

7.9. Milli Parkın hüquqi və fiziki şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır.

7.10. Milli Parkın rejiminin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

7.11. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulması nəticəsində Milli Parka vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və təbiətin mühafizəsi ilə bağlı digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

7.12. Milli Parkın mühafizə rejimini həyata keçirən vəzifəli şəxslərinə xidməti vəzifələrini yerinə yetirərkən xüsusi geyim forması daşımaq, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.

## "AZƏRBAYCAN RESPUBLİKASINDA YARADILMIŞ MİLLİ PARKLARIN ƏSASNAMƏLƏRİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 3 AVQUST TARİXLİ 106 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli fərmanı ilə təsdiq edilmiş əsasnamələrdə aşağıdakı dəyişikliklər edilsin:

1. "Azərbaycan Respublikasının Şirvan Milli Parkı haqqında Əsasnamə"nin 7.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"7.1. Milli Parkın strukturu, ştat cədvəli və xərclər smetası Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir";

2. "Azərbaycan Respublikasının Ağgöl Milli Parkı haqqında Əsasnamə"nin 7.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"7.1. Milli Parkın strukturu, ştat cədvəli və xərclər smetası Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 avqust 2004-cü il
№ 117

## “OVÇULUQ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQİ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASININ BƏZİ QANUNVERİCİLİK AKTLARINA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarını həmin Qanuna uyğunlaşdırsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri daxilində "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin VII hissəsinin üçüncü cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 noyabr 2004-cü il
№ 143

## AZƏRBAYCAN RESPUBLİKASININ ALTIAĞAC MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamə təsdiq edilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmandan irəli gələn məsələləri öz səlahiyyətləri daxilində həll etsinlər.

Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 noyabr 2004-cü il
№ 147

*Azərbaycan Respublikası Prezidentinin*
*2004-cü il 23 noyabr tarixli 147 nömrəli Fərmanı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

### Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında ƏSASNAMƏ

I. ÜMUMİ MÜDDƏALAR

Azərbaycan Respublikasının Altıağac Milli Parkı (bundan sonra-Milli Park) ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi və nəsli kəsilməkdə olan nadir flora və fauna növlərinin (Qafqaz palıdı, Qafqaz vələsi, Şərq fıstığı, Adi göyrüş, İtiyarpaqlı ağcaqayın, cüyür, qonur ayı, çöl donuzu, vaşaq, qırqovul, qaratoyuq, bildirçin, çobanaldadan, çöl qartalı və s.) qorunub saxlanılması və ekoturizmin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 avqust tarixli 365 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Xızı və Siyəzən rayonlarının inzibati ərazilərində yaradılmışdır.

Milli Park xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin və obyektlərinin yerləşdiyi, təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və başqa məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi tədqiqat idarəsi statusuna malik ərazidir.

Milli Park öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarım, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin normativ hüquqi aktlarını və bu Əsasnaməni rəhbər tutur.

Milli Parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazidə olan torpaq, su, bitki və heyvanlar aləmi onun daimi istifadəsinə verilir.

Milli Parkın hüdudlarına ayrı-ayrı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada digər torpaq istifadəçilərinin və mülkiyyətçilərinin torpaq sahələri də daxil edilə bilər.

Milli Parkdan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə əməl etmək şərtilə təbiəti mühafizə, elmi tədqiqat, ətraf mühitin monitorinqi, sağlamlaşdırma, təlim-tərbiyə, turizm və istirahət (rekreasiya) məqsədləri üçün istifadə edilə bilər.

Milli Parkda onun məqsədli təyinatına, təbiət komplekslərinin və ayn-ayrı obyektlərin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan başqa fəaliyyət növləri Milli Parkın fiziki və hüquqi şəxslərlə bağlanmış və ekoloji ekspertizadan keçmiş müqavilələri əsasında həyata keçirilir.

Xüsusi mühafizəni təmin etmək üçün Milli Parka bitişik olan torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonalar müəyyən edilə bilər. Bu zonaların torpaqlarında xüsusi mühafizə olunan təbiət ərazilərinin təbiət komplekslərinə və obyektlərinə zərərli təsir göstərən hər cür fəaliyyət qadağandır.

Milli Park dövlət büdcəsindən, yerli büdcələrdən, büdcədənkənar vəsaitlərdən, ətraf mühitin mühafizəsi üzrə fondların vəsaitləri hesabına və qanunvericilikdə qadağan edilməyən digər maliyyə mənbələrindən maliyyələşdirilir.

Milli Parkın idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarənin xüsusi fondu və vəsaitləri ola bilər. Bu fondun və vəsaitlərin yaradılması və onlardan istifadə qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Milli Parkın pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır. Pasportda Milli Parkın əhəmiyyəti, adi, yerləşdiyi yer, yaranma tarixi, torpaqdan daimi istifadə hüququna dair Dövlət aktının qeydiyyat nömrəsi və tarixi, mühafizə olunan ərazinin xarakteristikası, onun ümumi görünüşünün sxemi, qorunan nadir fauna və flora növləri, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər öz əksini tapmalıdır.

Bu ərazinin pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində dövlət qeydiyyatına alınmaqla Milli Parkda saxlanılır.

Milli Parkda təbiət qoruq fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazinin perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

Milli Park müstəqil balansa, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən dövlət mülkiyyətində olan əmlaka, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri olan, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Milli Parkın adı əks olunmuş möhürə, müvafiq blank və ştamplara, xəzinə hesablarına, bayraq və embləmə malikdir.

II. MİLLİ PARKIN YARADILMASININ MƏQSƏDLƏRİ

2.1. Milli Parkın yaradılmasının məqsədləri aşağıdakılardır:

təbiət komplekslərini, nadir və etalon təbiət ərazilərini, tarix-mədəniyyət obyektlərini qoruyub saxlamaq;

turizm və istirahət (rekreasiya) üçün şərait yaratmaq;

təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

əhalini ekoloji maarifləndirmək;

ekoloji monitorinqi həyata keçirmək;

zədələnmiş təbiət, tarix-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

III. MİLLİ PARKIN XÜSUSİ MÜHAFİZƏ REJİMİNİN XÜSUSİYYƏTLƏRİ

3.1. Milli Parkın ərazisində onun təbiət, tarix-mədəniyyət və digər xüsusiyyətləri nəzərə alınmaqla, xüsusi mühafizənin ayrı-ayn rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;

turizm və istirahət (rekreasiya) zonaları;

turistlərə və başqalarına xidmət göstərilən zonalar;

Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

Milli Parkın ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonaları üzrə bölgüsü Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Milli Parkın turizm və istirahət (rekreasiya) zonalarında turizm və istirahət (rekreasiya) məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə

(ov, idman, həvəskar balıq ovu və s.) yol verilir.

Milli Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilə bilər.

Milli Parkın ərazisində aşağıdakılar qadağan edilir:

təbiət komplekslərinə və tarix-mədəniyyət obyektlərinin varlığına təhlükə yaradan hər bir fəaliyyət;

geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

hidroloji rejimin dəyişməsinə səbəb olan işlərin aparılması;

xüsusi ekoloji təhlükə yaradan kimya sənayesi, metallurgiya, nüvə energetikası və sair müəssisələrin fəaliyyəti;

Milli Parkın fəaliyyəti ilə bağlı olmayan magistral yolların, boru kəmərlərinin, elektrik xətlərinin və digər kommunikasiyaların tikintisi;

müəyyən olunmuş yerlərdən kənar dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması; dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması üçün müəyyən olunmuş yerlərdən və ümumi istifadə olunan quru və su yollarından kənar mexaniki nəqliyyat vasitələrinin hərəkəti və dayanacağı, ev heyvanlarının köçürülməsi;

meşələrdə əsas istifadə qırıntısı;

yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası.

Milli Parkın ərazisində ekoloji, elmi, estetik, mədəni və rekreasiya dəyərini aşağı sala bilən digər fəaliyyət növləri qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırıla və yaxud qadağan edilə bilər.

Milli Parkın mühafizəsi onun mühafizə xidməti tərəfindən həyata keçirilir. Bu işə Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan Milli Parkın direktoru və mühafizə işləri üzrə direktor müavini öz səlahiyyətləri daxilində rəhbərlik edirlər.

Milli Parkın mühafizə xidmətinin aşağıdakı hüquqları vardır:

Milli Parkda xüsusi mühafizənin hüquqi rejimini pozmuş şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada nəqliyyat vasitələrinə baxış keçirmək, şeyləri və sənədləri götürmək, şəxsi axtarış və fiziki şəxsdə olan şeyləri yoxlamaq;

Milli Parkın ərazisində və onun mühafizə zonasında mövcud qanunvericiliyə və xüsusi mühafizənin hüquqi rejiminə zidd olan fiziki və hüquqi şəxslərin fəaliyyətini dayandırmaq;

Milli Parkda xüsusi mühafizənin hüquqi rejimini pozmuş şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında protokol tərtib etmək və ya cinayət məsuliyyətinə cəlb edilməsi barədə müvafiq tədbirlər görmək;

Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə və istifadə sahəsində pozuntu hallarını aradan qaldırmaq haqqında icrası məcburi olan göstərişlər vermək və digər tədbirlər görmək.

IV. MİLLİ PARKIN ELMİ TƏDQİQAT FƏALİYYƏTİ

Milli Parkın elmi tədqiqat fəaliyyəti rekreasiya məqsədilə istifadə olunan şəraitdə ekoloji vəziyyətin proqnozlaşdırılmasına və qiymətləndirilməsinə, səciyyəvi və nadir təbiət komplekslərinin (o cümlədən bioloji müxtəlifliyin) elmi cəhətdən əsaslanmış üsullarla qorunmasına yönəldilir.

Milli Parkda elmi tədqiqat fəaliyyəti Milli Parkın elm şöbəsinin işçiləri tərəfindən aparılır.

Milli Parkda tədqiqatlar kənar elmi təşkilatların və ayrı-ayn mütəxəssislərin cəlb edilməsi ilə aparıla bilər.

Milli Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif, tədris tədbirlərinin həyata keçirilməsi və ekoloji maarifləndirmə işinin təşkil edilməsi məqsədilə Şura yaradıla bilər. Şuranın tərkibi və Əsasnaməsi Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir.

Milli Parkın elmi və herbari fondları yaradılır və daimi saxlanılır.

Milli Parkın elmi əsərlər çap etdirmək hüququ vardır.

Milli Parkda elmi tədqiqat işində əldə edilmiş nəticələrin məqsədi:

heyvan və bitki ehtiyatlarının qorunub saxlanılmasının, törədilib çoxaldılmasının və səmərəli istifadə edilməsinin elmi əsaslarını işləyib hazırlamaq və Milli Parkın ərazisində yayılmış vəhşi heyvanların sayının optimal normadan artığının vaxtilə müvafiq ərazidə yayılmış və nəsli kəsilmiş heyvan növlərinin əvvəlki yerlərinə baytarlıq-sanitariya tələblərinə uyğun olaraq köçürülməsini həyata keçirmək;

Milli Parkın ərazisində təbiət komplekslərinin təbii halda saxlanılmasını təmin edən tədbirləri, təbiət kompleksləri komponentlərinin faydalı məhsuldarlığının qiymətləndirilməsi və yüksəldilməsi metodlarını işləyib hazırlamaq;

Milli Parka bitişik ərazilərdə təbii ehtiyatlardan təsərrüfat məqsədilə istifadə edilməsinin səmərəliliyini müəyyənləşdirmək və nəticələrini aşkara çıxarmaq;

zərərli heyvan və alaq otlarına qarşı mübarizə metodlarını, ilk növbədə bioloji metodların layihələrini işləyib hazırlamaq;

su rejimində, torpaq və bitki örtüyünün xassələrində, heyvanların sayında və bitkilərin (fitosenozların) məhsuldarlığında dəyişikliklərin proqnozlaşdırılması məqsədilə həmin dəyişikliklərin səbəbini öyrənmək;

təbiətdə cərəyan edən proseslər haqqında sistemləşdirilmiş faktiki materiallar və nəzəri nəticələr hesabına elmi bilikləri zənginləşdirmək;

Milli Parkın hüdudlarından kənarda, təsərrüfat məqsədləri üçün istifadə edilən ərazilərdə eyni və ya oxşar bioekoloji metodları işləyib hazırlamaq.

Elmi tədqiqatların aparılması metodları Milli Parkın rejiminin tələblərinə zidd olmamalıdır. Aparılan işlərin nəticəsi olaraq hazırlanmış elmi təkliflər tətbiq oluna bilər.

Milli Parkın aparacağı elmi tədqiqat işlərini, görəcəyi elmi, texniki və sair tədbirləri Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hər təqvim ili üçün təsdiq etdiyi və maliyyələşdirdiyi planlar üzrə onun elm şöbəsinin işçiləri Milli Parkla bu sahədə əməkdaşlığı Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi

müqavilələr əsasında müvafiq profilli elmi tədqiqat idarələri və ali məktəblər ilə həyata keçirirlər.

V. MİLLİ PARKIN TƏSƏRRÜFAT FƏALİYYƏTİ

5.1. Milli Parkın təsərrüfat fəaliyyəti təbiət və tarix-mədəniyyət obyektlərinin tələb olunan səviyyədə mühafizəsindən, onlara xidmət və bərpa tədbirlərinin həyata keçirilməsindən, təbiətdə idarə olunan istirahət və turizm tədbirlərinin təşkilindən ibarətdir.

Təbiətdə istirahətin və turizmin inkişafı təsdiq edilmiş layihə sənədləri əsasında Milli Parkın ərazisində yerləşən binaların və qurğuların ayn-ayrı fiziki və hüquqi şəxslərə icarəyə (və ya istifadəyə) verilməsi yolu ilə həyata keçirilə bilər.

Milli Parkın ərazisində mehmanxanaların, kempinqlərin, turbazaların, iaşə və digər obyektlərin tikintisi və istifadəsi, əhalinin istirahəti məqsədilə digər şəraitlərin yaradılması Milli Parkın fiziki və hüquqi şəxslərlə bağladığı və ekoloji ekspertizadan keçmiş müqavilələr əsasında həyata keçirilə bilər.

VI. MİLLİ PARKIN MÜHAFİZƏSİNƏ, QORUNMASINA VƏ İSTİFADƏSİNƏ DÖVLƏT NƏZARƏTİ

Milli Parkın vəziyyətinə, mühafizəsi, qorunması və bərpası üzrə tədbirlərin yerinə yetirilməsinə, qanunvericilikdə nəzərdə tutulmuş qaydalara və tələblərə əməl olunmasına dövlət nəzarətini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

VII. MİLLİ PARKIN FƏALİYYƏTİNİN TƏŞKİLİ

Milli Parkın strukturu, ştat cədvəli və xərclər smetası Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir.

Milli Parka direktor rəhbərlik edir.

Direktor Milli Parkın fəaliyyətinə görə şəxsən məsuliyyət daşıyır.

Direktor aşağıdakı səlahiyyətlərə malikdir:

Milli Parkın işinə ümumi rəhbərliyi həyata keçirir və onun fəaliyyətində qanunvericiliyin tələblərinə əməl olunmasını təmin edir;

təbiəti mühafizə, elmi tədqiqat və biotexniki planların layihələrinin hazırlanmasını təşkil edir, onların müvafiq qaydada təsdiq edildikdən sonra yerinə yetirilməsini təmin edir;

Milli Parkda elmi tədqiqat işlərinin planlarının, tapşırıqların yerinə yetirilməsinin gedişi haqqında müvafiq şöbələrin və ayrı-ayrı əməkdaşların hesabatlarmı dinləyir;

Milli Parkın ixtisaslı kadrlarla komplektləşdirilməsini təşkil edir, kadrların ixtisaslarının artırılması istiqamətində qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görür;

Milli Parkın mühafizə rejimi, elmi tədqiqatların və onların tətbiqinin nəticələri haqqında hesabatları, habelə maliyyə-təsərrüfat fəaliyyəti barədə mühasibat, maliyyə və statistika hesabatlarını müəyyən olunmuş qaydada aidiyyəti üzrə təqdim edir;

Milli Parkın maddi-texniki təminatını təşkil edir;

Milli Parkın fəaliyyətinə aid olan məsələlərlə əlaqədar məhkəmələrdə çıxış edir, müvafiq prosessual hüquq və vəzifələri həyata keçirir;

Milli Parkın Şurasının fəaliyyətinə rəhbərlik edir.

7.5. Milli Parkın bütün işçiləri Milli Parkın rejiminin pozulması hallarının qarşısının alınmasında mühafizə işçilərinə kömək göstərməlidirlər.

Milli Parkın təbiət ərazilərindən və obyektlərindən istifadə qanunvericilikdə nəzərdə tutulmuş hallarda ödənişli ola bilər.

Əhali və ictimai birliklər Milli Parkın mühafizəsinə dair təkliflərini verə bilər. Bu təkliflərə Milli Park tərəfindən baxılır.

Milli Parkın ərazisi və obyektləri hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və maraqlarına xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

Milli Parkın hüquqi və fiziki şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır.

Milli Parkın rejiminin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulması nəticəsində Milli Parka vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və təbiətin mühafizəsi ilə bağlı digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

Milli Parkın mühafizə rejimini həyata keçirən vəzifəli şəxslərinə xidməti vəzifələrini yerinə yetirərkən xüsusi geyim forması daşımaq, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN BƏZİ FƏRMANLARINA VƏ SƏRƏNCAMLARINA ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 10 iyun tarixli 880 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar qərara alıram:

I. Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına və sərəncamlarına aşağıdakı əlavə və dəyişikliklər edilsin:

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydalan"nın 2 nömrəli əlavəsinin "İdxal" bölməsinin altıncı abzasında rəyi tələb olunan dövlət orqanlarının siyahısında "Azəravtonəqliyyat" Dövlət Konserni" sözləri "Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

"Azərbaycan Respublikasının 1997-ci il 30 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 693 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 177) 2-ci bəndinin doqquzuncu abzasında "Azəravtoyol" Dövlət Şirkəti" sözləri "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

"Tarixi "İpək yolu"nun bərpası üzrə Beynəlxalq Bakı Konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 4 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 10, maddə 612) 5-ci və 6-cı bəndlərində "Azəravtonəqliyyat" Dövlət Konserni, "Azəravtoyol" Dövlət Şirkəti" sözləri "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 11, maddə 666) 2-ci bəndinə aşağıdakı dəyişikliklər edilsin:

səkkizinci abzasda "Azəravtonəqliyyat" Dövlət Konserni" sözləri "Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

beşinci, altıncı, doqquzuncu və iyirmi üçüncü abzaslarda "Azəravtoyol" Dövlət Şirkəti" sözləri "Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

on doqquzuncu abzasda "Azəravtonəqliyyat" Dövlət Konserni" sözləri "Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin və həmin abzasdan ",Azərbaycan Respublikasının "Azəravtoyol" Dövlət Şirkəti" sözləri çıxarılsın;

iyirminci və iyirmi birinci abzaslarda "Azəravtoyol" Dövlət Şirkəti, Azərbaycan Respublikasının "Azəravtonəqliyyat" Dövlət Konserni" sözləri "Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

5. "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 8 iyul tarixli 149 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 7, maddə 411) 2-ci bəndinin səkkizinci abzasında "Azəravtonəqliyyat" Dövlət Konserni" sözləri "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

"Avtomobil yollan haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 3, I kitab, maddə 166) 2-ci bəndinin üçüncü və dördüncü abzaslarında "Azəravtoyol" Dövlət Şirkəti" sözləri "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, III kitab, maddə 612; 2001-ci il, № 7, maddə 462, № 12, maddə 755; 2002-ci il, № 1, maddə 49, № 5, maddələr 260, 275, № 8, maddələr 478, 484, 486; 2003-cü il, № 6, maddə 299, № 8, maddə 434, № 9, maddə 478, № 10, maddələr 546, 547, 560, 571, 582; 2004-cü il, № 1, maddələr 19, 26, № 2, maddə 68, № 3, maddə 138, № 4, maddə 235, № 5, maddələr 340, 341, 343, 345, 346, № 8, maddələr 607, 608; Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 noyabr tarixli 145 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1-ci bəndin ikinci - beşinci abzasları müvafiq olaraq 1.1 - 1.4-cü bəndlər, 2-ci bəndin ikinci - iyirmi səkkizinci abzaslan müvafiq olaraq 2.1 - 2.27-ci bəndlər, 3-cü bəndin ikinci - qırx üçüncü abzaslan müvafiq olaraq 3.1 - 3.42-ci bəndlər hesab edilsin;

2.7-ci bənddə "Nazirlər Kabineti yanında Mənzil-Kommunal Təsərrüfatı Komitəsi" sözləri "Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

3.18-ci bənddə "müvafiq nazirliyi yaradılanadək Azərbaycan Respublikasının "Azərbaycan Hava Yollan" Dövlət Konserni" sözləri "Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

3.19-cu bənddə "müvafiq nazirliyi yaradılanadək Azərbaycan Dövlət Dəmir Yolu" sözləri "Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

3.20-ci bənddə "müvafiq nazirliyi yaradılanadək Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi" sözləri "Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

3.21-ci bənddə "Nazirlər Kabineti yanında Mənzil-Kommunal Təsərrüfatı Komitəsi" sözləri "Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 598; Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 33 nömrəli Fərmanı) 10.53-cü bəndi çıxarılsın.

9. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 noyabr tarixli 596 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Reklam yayımına icazə (razılıq) verilməsi Qaydalan"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 704; 2003-cü il, № 10, maddə 563) 3.1-ci və 3.5-ci bəndlərində "Azəravtoyol" Dövlət Şirkəti" sözləri "Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 753nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 8, maddə 473) "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər) üzrə həyata keçiriləcək, əsas tədbirlər"inin 5.9-cu bəndinə aşağıdakı əlavə və dəyişiklik edilsin:

"Gənclər, İdman və Turizm Nazirliyi" sözlərindən sonra "Nəqliyyat Nazirliyi" sözləri əlavə edilsin;

"Azəravtoyol" DK" sözləri çıxarılsın.

"Azərbaycan Respublikası ilə İslam İnkişaf Bankı arasında imzalanmış Ələt-Qazıməmməd yolunun yenidən qurulması işlərinə kredit ayrılması barədə "Borc Sazişi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 31 avqust tarixli 652 nömrəli Sərəncamının 2-ci bəndində "Azəravtoyol" Dövlət Şirkəti" sözləri "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf üçün kredit haqqında Sazişin (Azərbaycan Magistral Avtomobil Yolları Layihəsinin) təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 6 sentyabr tarixli 798 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 606) 2-ci bəndində "Azəravtoyol" Dövlət Şirkətinə" sözləri "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 18 fevral tarixli 1152 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 2, maddə 107) ilə təsdiq edilmiş milli proqramlara aşağıdakı dəyişikliklər edilsin:

"Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram"ın 10-cu Bölməsinin 73-cü və 74-cü bəndlərindən "Azəravtoyol" Dövlət Şirkəti" sözləri çıxarılsın;

"Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram"da:

1-ci Bölmənin 1.2.4-cü bəndinin üçüncü abzasında "Azəravtoyol" Dövlət Şirkəti" sözləri "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

4-cü Bölmənin 4.1.3-cü bəndindən "Azəravtoyol Dövlət Şirkəti" sözləri çıxarılsın.

14. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

Azərbaycan Respublikasında avtomobil yollan şəbəkəsinin yeniləşdirilməsi və inkişafına dair və Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair Dövlət Proqramlarının layihələrini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

15. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə tapşırılsın ki, bu Fərmandan irəli gələn məsələləri həll etsin.

II. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 dekabr 2004-cü il
№ 159

## “AZƏRBAYCAN RESPUBLİKASININ ABŞERON MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ”NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun 21-ci maddəsini rəhbər tutaraq qərara alıram:

“Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmandan irəli gələn məsələləri öz səlahiyyətləri daxilində həll etsinlər.

Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 aprel 2005-ci il
№ 227

*Azərbaycan Respublikası Prezidentinin*
*2005-ci il 27 aprel tarixli 227 nömrəli Fərmanı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

### Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında ƏSASNAMƏ

I. ÜMUMİ MÜDDƏALAR

Azərbaycan Respublikasının Abşeron Milli Parkı (bundan sonra - Milli Park) ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi və nəsli kəsilməkdə olan nadir flora və fauna növlərinin (Xəzər suitisi, ceyran, kəkilli dalğıc, gümüşü qağayı, yaşılbaş ördək, ağquyruq dəniz qartalı və s.) qorunub saxlanılması və ekoturizmin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 8 fevral tarixli 622 nömrəli Sərəncamı ilə Bakı şəhərinin Əzizbəyov rayonunun inzibati ərazisində yaradılmışdır.

Milli Park xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin və obyektlərinin yerləşdiyi, təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və başqa məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi tədqiqat idarəsi statusuna malik ərazidir.

Milli Park öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin normativ hüquqi aktlarını və bu Əsasnaməni rəhbər tutur.

Milli Parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazidə olan torpaq, su, bitki və heyvanlar aləmi onun daimi istifadəsinə verilir.

Milli Parkın hüdudlarına ayrı-ayrı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada digər torpaq istifadəçilərinin və mülkiyyətçilərinin torpaq sahələri də daxil edilə bilər.

Milli Parkdan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə əməl etmək şərti ilə təbiəti mühafizə, elrni tədqiqat, ətraf mühitin monitorinqi, sağlamlaşdırma, təlim-tərbiyə, turizm və istirahət (rekreasiya) məqsədləri üçün istifadə edilə bilər.

Milli Parkda onun məqsədli təyinatına, təbiət komplekslərinin və ayrı-ayrı obyektlərin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan başqa fəaliyyət növləri Milli Parkın fiziki və hüquqi şəxslərlə bağlanmış və ekoloji ekspertizadan keçmiş müqavilələri əsasında həyata keçirilir.

Xüsusi mühafizəni təmin etmək üçün Milli Parka bitişik olan torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonalar müəyyən edilə bilər. Bu zonaların torpaqlarında xüsusi mühafizə olunan təbiət ərazilərinin təbiət komplekslərinə və obyektlərinə zərərli təsir göstərən hər cür fəaliyyət qadağandır.

Milli Park dövlət büdcəsindən, yerli büdcələrdən, büdcədənkənar vəsaitlərdən, ətraf mühitin mühafizəsi üzrə fondların vəsaitləri hesabına və qanunvericilikdə qadağan edilməyən digər maliyyə mənbələrindən maliyyələşdirilir.

Milli Parkın idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarənin xüsusi fondu və vəsaitləri ola bilər. Bu fondun və vəsaitlərin yaradılması və onlardan istifadə qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Milli Parkın pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır. Pasportda Milli Parkın əhəmiyyəti, adı, yerləşdiyi yer, yaranma tarixi, torpaqdan daimi istifadə hüququna dair Dövlət aktının qeydiyyat nömrəsi və tarixi, mühafizə olunan ərazinin xarakteristikası, onun ümumi görünüşünün sxemi, qorunan nadir fauna və flora növləri, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər öz əksini tapmalıdır.

Bu ərazinin pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində dövlət qeydiyyatına alınmaqla Milli Parkda saxlanılır.

1.12.. Milli Parkda təbiət qoruq fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazinin perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

1.13. Milli Park müstəqil balansa, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən dövlət mülkiyyətində olan əmlaka, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Milli Parkın adı əks olunan möhürə, müvafiq blank və ştamplara, xəzinə hesablarına, bayraq və emblemə malikdir.

II. MİLLİ PARKIN YARADILMASININ MƏQSƏDLƏRİ

2.1. Milli Parkın yaradılmasının məqsədləri aşağıdakılardır:

təbiət komplekslərini, nadir və etalon təbiət ərazilərini, tarix mədəniyyət obyektlərini qoruyub saxlamaq;

turizm və istirahət (rekreasiya) üçün şərait yaratmaq;

təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

2.1.4. əhalini ekoloji maarifləndirmək; 2.1.5 ekoloji monitorinqi həyata keçirmək;

2.1.6. zədələnmiş təbiət, tarix-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

III. MİLLİ PARKIN XÜSUSİ MÜHAFİZƏ REJİMİNİN XÜSUSİYYƏTLƏRİ

3.1. Milli Parkın ərazisində onun təbiət, tarix-mədəniyyət və digər xüsusiyyətləri nəzərə alınmaqla, xüsusi mühafizənin ayrı-ayn rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;
təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;
turizm və istirahət (rekreasiya) zonaları;
turistlərə və başqalarına xidmət göstərilən zonalar;
Milli Parkını fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

Milli Parkın ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonaları üzrə bölgüsü Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Milli Parkın turizm və istirahət (rekreasiya) zonalarında turizm və istirahət (rekreasiya) məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayn növlərinə (ov, idman, həvəskar balıq ovu və s.) yol verilir.

Mili Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilə bilər.

Mili Parkın ərazisində aşağıdakılar qadağan edilir:

təbiət komplekslərinə və tarix-mədəniyyət obyektlərinin varlığına təhlükə yaradan hər bir fəaliyyət;

geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

hidroloji rejimin dəyişməsinə səbəb olan işlərin aparılması;

xüsusi ekoloji təhlükə yaradan kimya sənayesi, metallurgiya, nüvə energetikası və sair müəssisələrin fəaliyyəti;

Milli Parkın fəaliyyəti ilə bağlı olmayan magistral yolların, boru kəmərlərinin, elektrik xətlərinin və digər kommunikasiyaların tikintisi;

müəyyən olunmuş yerlərdən kənar dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması;

dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması üçün müəyyən olunmuş yerlərdən və ümumi istifadə olunan quru və su yollarından kənar mexaniki nəqliyyat vasitələrinin hərəkəti və dayanacağı, ev heyvanlarının köçürülməsi;

yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası;

Milli Parkın ərazisində ekoloji, elmi, estetik, mədəni və rekreasiya dəyərini aşağı sala bilən digər fəaliyyət növləri qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırıla və yaxud qadağan edilə bilər.

Milli Parkın mühafizəsi onun mühafizə xidməti tərəfindən həyata keçirilir. Bu işə Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Milli Parkın direktoru və mühafizə işləri üzrə direktor müavini öz səlahiyyətləri daxilində rəhbərlik edirlər.

Milli Parkın mühafizə xidmətinin aşağıdakı hüquqları vardır:

Milli Parkda xüsusi mühafizənin hüquqi rejimini pozmuş şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada nəqliyyat vasitələrinə baxış keçirmək, şeyləri və sənədləri götürmək, şəxsi axtarış və fiziki şəxsdə olan şeyləri yoxlamaq;

Milli Parkın ərazisində və onun mühafizə zonasında mövcud qanunvericiliyə və xüsusi mühafizənin hüquqi rejiminə zidd olan fiziki və hüquqi şəxslərin fəaliyyətini dayandırmaq;

Milli Parkda xüsusi mühafizənin hüquqi rejimini pozmuş şəxslər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında protokollar tərtib etmək və ya cinayət məsuliyyətinə cəlb edilməsi barədə müvafiq tədbirlər görmək;

Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə və istifadə sahəsində pozuntu hallarını aradan qaldırmaq haqqında icrası məcburi olan göstərişlər vermək və digər tədbirlər görmək.

## IV. MİLLİ PARKIN ELMİ TƏDQİQAT FƏALİYYƏTİ

Milli Parkın elmi tədqiqat fəaliyyəti rekreasiya məqsədilə istifadə olunan şəraitdə ekoloji vəziyyətin proqnozlaşdırılmasına və qiymətləndirilməsinə, səciyyəvi və nadir təbiət komplekslərinin (o cümlədən bioloji müxtəlifliyin) elmi cəhətdən əsaslanmış üsullarla qorunmasına yönəldilir.

Milli Parkda elmi tədqiqat fəaliyyəti Milli Parkın elm şöbəsinin işçiləri tərəfindən aparılır.

Milli Parkda elmi tədqiqatlar kənar elmi təşkilatların və ayn-ayrı mütəxəssislərin cəlb edilməsi ilə aparıla bilər.

Milli Parkda müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif, tədris tədbirlərinin həyata keçirilməsi və ekoloji maarifləndirmə işinin təşkil edilməsi məqsədilə Şura yaradıla bilər. Şuranın tərkibi və Əsasnaməsi Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir.

Milli Parkın elmi və herbari fondları yaradılır və daimi saxlanılır.

Milli Parkın elmi əsərlər çap etdirmək hüququ vardır.

Milli Parkda elmi tədqiqat işində əldə edilmiş nəticələrin məqsədi:

heyvan və bitki ehtiyatlarının qorunub saxlanılmasının, törədilib çoxaldılmasının və səmərəli istifadə edilməsinin elmi əsaslarını işləyib hazırlamaq və Milli Parkın ərazisində yayılmış vəhşi heyvanların sayının optimal normadan artığının vaxtilə müvafiq əraziyə yayılmış və nəsli kəsilmiş heyvan növlərinin əvvəlki yerlərinə baytarlıq-sanitariya tələblərinə uyğun olaraq köçürülməsini həyata keçirmək;

Milli Parkın ərazisində təbiət komplekslərinin təbii halda saxlanılmasını təmin edən tədbirləri, təbiət kompleksləri komponentlərinin faydalı məhsuldarlığının qiymətləndirilməsi və yüksəldilməsi metodlarını işləyib hazırlamaq;

Milli Parka bitişik ərazilərdə təbii ehtiyatlardan təsərrüfat məqsədilə istifadə edilməsinin səmərəliliyini müəyyənləşdirmək və nəticələrini aşkara çıxarmaq;

zərərli heyvan və alaq otlarına qarşı mübarizə metodlarını, ilk növbədə bioloji metodların layihələrini işləyib hazırlamaq;

su rejimində, torpağın və bitki örtüyünün xassələrində, heyvanların sayında və bitkilərin (fitosenozların) məhsuldarlığında dəyişikliklərin proqnozlaşdırılması məqsədilə həmin dəyişikliklərin səbəbini öyrənmək;

təbiətdə cərəyan edən proseslər haqqında sistemləşdirilmiş faktiki materiallar və nəzəri nəticələr hesabına elmi bilikləri zənginləşdirmək;

4.7.7. Milli Parkın hüdudlarından kənarda, təsərrüfat məqsədləri üçün istifadə edilən ərazilərdə eyni və ya oxşar bioekoloji metodları işləyib hazırlamaq.

Elmi tədqiqatların aparılması metodları Milli Parkın rejiminin tələblərinə zidd olmamalıdır. Aparılan işlərin nəticəsi olaraq hazırlanmış elmi təkliflər tətbiq oluna bilər.

Milli Parkın aparacağı elmi tədqiqat işlərini, görəcəyi elmi, texniki və sair tədbirləri hər təqvim ili üçün Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi və maliyyələşdirdiyi planlar üzrə onun elm şöbəsinin işçiləri, Milli Parkla bu sahədə əməkdaşlığı Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi müqavilələr əsasında müvafiq profilli elmi tədqiqat idarələri və ali məktəblərlə həyata keçirirlər.

## V. MİLLİ PARKIN TƏSƏRRÜFAT FƏALİYYƏTİ

5.1. Milli Parkın təsərrüfat fəaliyyəti təbiət və tarix-mədəniyyət obyektlərinin tələb olunan səviyyədə mühafizəsindən, onlara xidmət və bərpa tədbirlərinin həyata keçirilməsindən, təbiətdə idarə olunan istirahət və turizm tədbirlərinin təşkilindən ibarətdir.

Təbiətdə istirahətin və turizmin inkişafı təsdiq edilmiş layihə sənədləri əsasında Milli Parkın ərazisində yerləşən binaların və qurğuların ayrı-ayrı fiziki və hüquqi şəxslərə icarəyə (və ya istifadəyə) verilməsi yolu ilə həyata keçirilə bilər.

Milli Parkın ərazisində mehmanxanaların, kempinqlərin, turbazaların, iaşə və digər obyektlərin tikintisi və istifadəsi, əhalinin istirahəti məqsədilə digər şəraitlərin yaradılması Milli Parkın fiziki və hüquqi şəxslərlə bağlanmış və ekoloji ekspertizadan keçmiş müqavilələri əsasında həyata keçirilə bilər.

VI. MİLLİ PARKIN MÜHAFİZƏSİNƏ, QORUNMASINA
VƏ İSTİFADƏSİNƏ DÖVLƏT NƏZARƏTİ

Milli Parkın vəziyyətinə, mühafizəsi, qorunması və bərpası üzrə tədbirlərin yerinə yetirilməsinə, qanunvericiliklə nəzərdə tutulmuş qaydalara və müvafiq tələblərə əməl olunmasına dövlət nəzarətini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

VII. MİLLİ PARKIN FƏALİYYƏTİNİN TƏŞKİLİ

Milli Parkın strukturu, ştat cədvəli və xərclər smetası Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir.

Milli Parka direktor rəhbərlik edir.

Direktor Milli Parkın fəaliyyətinə görə şəxsən məsuliyyət daşıyır.

Direktor aşağıdakı səlahiyyətlərə malikdir:

Milli Parkın işinə ümumi rəhbərliyi həyata keçirir və onun fəaliyyətində qanunvericiliyin tələblərinə əməl olunmasını təmin edir.

təbiəti mühafizə, elmi tədqiqat və biotexniki planların layihələrinin hazırlanmasını təşkil edir, onların müvafiq qaydada təsdiq edildikdən sonra yerinə yetirilməsini təmin edir;

Milli Parkda elmi tədqiqat işlərinin, planlarının, tapşırıqların yerinə yetirilməsinin gedişi haqqında müvafiq şöbələrin və ayrı-ayn əməkdaşların hesabatlarını dinləyir;

Milli Parkın ixtisaslı kadrlarla komplektləşdirilməsini təşkil edir, kadrların ixtisaslarının artırılması istiqamətində qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görür;

Milli Parkın mühafizə rejimi, elmi tədqiqatların və onların tətbiqinin nəticələri haqqında hesabatları, habelə maliyyə-təsərrüfat fəaliyyəti barədə mühasibat, maliyyə və statistika hesabatlarını müəyyən olunmuş qaydada aidiyyəti üzrə təqdim edir;

Milli Parkın maddi-texniki təminatını təşkil edir;

Milli Parkın fəaliyyətinə aid olan məsələlərlə əlaqədar məhkəmələrdə çıxış edir, müvafiq prosessual hüquq və vəzifələri həyata keçirir;

Milli Parkın Şurasının fəaliyyətinə rəhbərlik edir.

Milli Parkın bütün işçiləri Milli Parkın rejiminin pozulması hallarının qarşısının alınmasında mühafizə işçilərinə kömək göstərməlidirlər.

Milli Parkın təbiət ərazilərindən və obyektlərindən istifadə qanunvericilikdə nəzərdə tutulmuş hallarda ödənişli ola bilər.

Əhali və ictimai birliklər Milli Parkın mühafizəsinə dair təkliflərini verə bilərlər. Bu təkliflərə Milli Park tərəfindən baxılır.

Milli Parkın ərazisi və obyektləri hər hansı fiziki və ya hüquqi şəxsin hüquqlarına və maraqlarına xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

Milli Parkın hüquqi və fiziki şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır.

Milli Parkın rejiminin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulması nəticəsində Milli Parka vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və təbiətin mühafizəsi ilə bağlı digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

Milli Parkın mühafizə rejimini həyata keçirən vəzifəli şəxslərinə xidməti vəzifələrini yerinə yetirərkən xüsusi geyim forması daşımaq, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.

## “AZƏRBAYCAN RESPUBLİKASINDA YARADILMIŞ MİLLİ PARKLARIN ƏSASNAMƏLƏRİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 3 AVQUST TARİXLİ 106 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ “AKADEMİK HƏSƏN ƏLİYEV ADINA AZƏRBAYCAN RESPUBLİKASININ ORDUBAD MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ”DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Ordubad Milli Parkı haqqında Əsasnamə”də (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 8, maddələr 614, 625) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.7-ci bəndin ikinci cümləsində “Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin təqdimatı ilə Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən” sözləri “Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən” sözləri ilə əvəz edilsin.

2. 7.1-ci və 7.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“7.1. Milli Parkın strukturu, ştat cədvəli və xərclər smetası Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

7.2. Milli Parka Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən direktor rəhbərlik edir.”

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 avqust 2005-ci il
№ 283

## OZONDAĞIDICI MADDƏLƏRİN İDXALI VƏ İXRACI SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının qoşulduğu "Ozon qatının qorunması haqqında" Vyana Konvensiyasının "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu"nun 4-cü maddəsinə uyğun olaraq qərara alıram:

1. Müəyyən edilsin ki, "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu" ilə müəyyən olunmuş tənzimlənən ozondağıdıcı maddələrin həmin Protokolun Tərəfi (iştirakçısı) olmayan dövlətlərdən Azərbaycan Respublikasına idxalı və Azərbaycan Respublikasından bu Protokolun Tərəfi (iştirakçısı) olmayan dövlətlərə ixracı qadağandır.

2. Azərbaycan Respublikası Prezidentinin "Ozondağıdıcı maddələrlə əlaqədar idxal-ixrac fəaliyyətinin dövlət tənzimlənməsi haqqında" 2001-ci il 21 dekabr tarixli 608 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 754; 2003-cü il, № 10, maddə 585) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu" ilə müəyyən olunmuş tənzimlənən ozondağıdıcı maddələrin xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası üzrə kodları və adları göstərilməklə siyahısını iki ay müddətində hazırlayıb təsdiq etsin;

3.2. müvafiq dövlət orqanları ilə birlikdə ozondağıdıcı maddələrin idxalı və ixracı sahəsində dövlət tənzimlənməsinin icrasını təmin edən zəruri tədbirləri həyata keçirsin;

3.3. Bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 mart 2006-cı il
№ 386

## “FİTOSANİTAR NƏZARƏTİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanunun 1.0.12-ci maddəsində nəzərdə tutulmuş fitosanitar sertifikatının nümunəvi formasını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının ərazisində fitosanitar nəzarətində olan karantin obyektlərinin mühafizəsinə yönəldilmiş profilaktik tədbirlərin görülməsi, bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi və bitki karantininin tətbiq edilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanunun 7.0.6-cı maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin siyahısını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin Qanunun 8.4-cü maddəsində nəzərdə tutulmuş dövlət fitosanitar nəzarəti xidmətinin işçilərinin fərqləndirici nişanı olan geyiminin və xüsusi vəsiqələrinin formalarını və təmin edilmə qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7. həmin Qanunun 10.0.2-ci maddəsində nəzərdə tutulmuş hüquqi və fiziki şəxslərə məxsus obyektlərdə fitosanitar nəzarətinin həyata keçirilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.8. həmin Qanunun 10.0.3-cü maddəsində nəzərdə tutulmuş bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının verilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.9. həmin Qanunun 11.1.2-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasına gətirilən və Azərbaycan Respublikasından aparılan karantin nəzarətində olan materiallara, o cümlədən baqajlarda, poçt bağlamalarında və sərnişinlərin əl yüklərində gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışının keçirilməsi və laboratoriya ekspertizasının aparılması qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.10. həmin Qanunun 11.4-cü maddəsində nəzərdə tutulmuş dövlət fitosanitar müfəttişlərinin icrası məcburi olan qərarlarının və göstərişlərinin formasını, onların tərtib

edilməsi və verilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.11. həmin Qanunun 13.1-ci maddəsində nəzərdə tutulmuş fitosanitar nəzarəti məntəqələrinin yerləşdirilməsi və fəaliyyəti qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.12. həmin Qanunun 13.6-cı maddəsində nəzərdə tutulmuş karantin tətbiq edilən zərərli orqanizmlərlə sirayətlənmiş yük zərərsizləşdirildikdən sonra sahibi tərəfindən geri götürülmədikdə məhv edilmək ehtimalı olan vaxtı və yükün məhv edilməsi halları və qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.13. həmin Qanunun 14.3.2-ci maddəsində nəzərdə tutulmuş fitosanitar sertifikatının verilməsi üçün tələb olunan sənədlərin siyahısını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.14. həmin Qanunun 15.1-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallar üzərində fitosanitar nəzarətinin həyata keçirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.15. həmin Qanunun 17.4-cü maddəsində nəzərdə tutulmuş karantin elan olunan ərazilərdə fitosanitar tədbirlərin aparılması xərcləri dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilən halları müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.16. həmin Qanunun 20.2-ci və 28.1.2-ci maddələrində nəzərdə tutulmuş pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağının aparılması, qeydiyyata alınması və istifadəsinə icazə verilmiş preparatların siyahısına daxil edilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.17. həmin Qanunun 22.1-ci və 22.2-ci maddələrində nəzərdə tutulmuş istifadəyə yararsız və istifadəsi qadağan olunmuş pestisidlərin, bioloji preparatların, onların birləşmələrinin və qablarının sahibindən geri alınaraq zərərsizləşdirilməsi və ya məhv edilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.18. həmin Qanunun 23.1-ci və 34.3.2-ci maddələrində nəzərdə tutulmuş Azərbaycan Respublikasının ərazisinə idxal olunan karantin nəzarətində olan materiallarda karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda onların fitosanitar nəzarəti məntəqələrində və ya yükün təyinat yerlərində zərərsizləşdirilməsi qaydası da daxil olmaqla, karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.19. həmin Qanunun 24.1-ci və 24.2-ci maddələrində nəzərdə tutulmuş pestisid ehtiyatının yaradılması və istifadəsi qaydaları, pestisidlərin növlər üzrə ehtiyat normalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.20. həmin Qanunun 26.3-cü maddəsində nəzərdə tutulmuş qeyri-dövlət fitosanitar xidməti subyektlərinin uçotu qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.21. həmin Qanunun 27.2.11-ci maddəsində nəzərdə tutulmuş pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin uçot və hesabatının aparılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

(Çıxarılıb)

1.22. həmin Qanunun 28.1.8-ci maddəsində nəzərdə tutulmuş əkin sahəsində və digər kənd təsərrüfatına yararlı torpaqlarda aqrokimyəvi tədqiqat işlərinin aparılması, sahələrə

aqrokimyəvi pasportların verilməsi və kartoqramların hazırlanması qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.23. həmin Qanunun 28.1.10-cu maddəsində nəzərdə tutulmuş pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövriyyəsinə dair vahid statistik hesabat formalarını və təqdim edilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.24. həmin Qanunun 29.6-cı maddəsində nəzərdə tutulmuş yüksək toksiki- ekoloji təhlükəli preparatların siyahısını və tətbiqi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.25. həmin Qanunun 30.5-ci maddəsində nəzərdə tutulmuş dövlət qeydiyyatına alınmamış pestisidlərin və bioloji preparatların idxalı və tətbiqi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.26. həmin Qanunun 31.2-ci maddəsində nəzərdə tutulmuş zəhərli kimyəvi maddələrin ölkə daxilində daşınması və saxlanması qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.27. həmin Qanunun 13.8-ci maddəsinin birinci cümləsində, 22.3-cü, 24.3-cü, 27.1.2-ci, 30.4.3-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın və 13.8-ci maddəsinin ikinci cümləsində, 27.1.1-ci, 27.2.8-ci, 29.4-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.28. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.29. öz səlahiyyətləri daxilində "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun 8.3-cü, 25.3-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı" nın səlahiyyətlərini, o cümlədən həmin Qanunun 7.0.3-cü maddəsində (müvafiq əsasnamənin təsdiqi hissəsində) nəzərdə tutulmuş səlahiyyəti Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 6.2-ci, 8.4-cü, 11.4-cü, 13.1-ci, 16.4-cü və 19.3-cü (həmin Qanunun 16.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla, öz səlahiyyətləri daxilində), 20.2-ci, 22.1-ci, 22.2-ci, 24.1-ci, 24.2-ci, 29.6-cı, 31.2-ci, 34.3.2-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı" nın səlahiyyətlərini, o cümlədən həmin Qanunun 1.0.12-ci (fitosanitar sertifikatının nümunəvi formasının təsdiqi hissəsində), 7.0.6-cı, 28.1.2-ci, 28.1.8-ci, 28.1.10-cu maddələrində nəzərdə tutulmuş səlahiyyətləri Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 9.0.2-ci, 9.0.5-ci, 9.0.6-cı, 10.0.12-ci, 16.1-ci və 16.2-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları" nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

2.4. həmin Qanunun 4.0.1-ci, 9.0.10-cu, 10.0.15-ci, 16.4-cü və 19.3-cü (həmin Qanunun 16.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla, öz səlahiyyətləri daxilində), 18.1-ci, 19.2-ci, 20.3-cü, 28.3-cü, 29.7-ci, 32.3-cü, 33.2-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini, o cümlədən həmin Qanunun 7.0.3-cü maddəsində (müvafiq strukturun təsdiqi hissəsində), 10.0.15-ci maddəsində (ölkə ərazisinin fitosanitar vəziyyəti barədə hesabatın verilməsi qaydasının müəyyən edilməsi hissəsində), 28.1.1-ci

maddəsində nəzərdə tutulmuş səlahiyyətləri Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir;

2.5. həmin Qanunun 8.2-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirirlər;

2.6. həmin Qanunun 8.1-ci, 9.0-cı, 10.0-cı, 12.1.1-ci, 20.4-cü, 20.6-cı, 21.1-ci, 30.5-ci maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı” nın səlahiyyətlərini , o cümlədən həmin Qanunun 28.1.1-ci maddəsində (müvafiq dövlət proqramının həyata keçirilməsinin təmin edilməsi hissəsində) nəzərdə tutulmuş səlahiyyətləri Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti həyata keçirir.

3. Müəyyən edilsin ki:

3.1. “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun 8.3-cü maddəsinə müvafiq olaraq:

3.1.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin rəisi Azərbaycan Respublikasının baş dövlət fitosanitar müfəttişidir;

3.1.2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin rəis müavinləri Azərbaycan Respublikasının baş dövlət fitosanitar müfəttişinin müavinləridir;

3.1.3. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fitosanitar qurumunun rəhbəri Naxçıvan Muxtar Respublikasının baş dövlət fitosanitar müfəttişidir;

3.1.4. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fitosanitar qurumunun rəhbərinin müavinləri Naxçıvan Muxtar Respublikasının baş dövlət fitosanitar müfəttişinin müavinləridir;

3.1.5. rayon və şəhər karantin məntəqələrinin rəhbərləri rayon və şəhər dövlət fitosanitar müfəttişləridir;

3.1.6. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin Respublika bitki mühafizəsi mərkəzinin, bitkilərin karantin ekspertizası laboratoriyasının və fumiqasiya mərkəzinin, dövlət sərhəd fitosanitar nəzarəti məntəqələrinin rəhbərləri dövlət fitosanitar müfəttişləridir;

3.1.7. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən dövlət fitosanitar nəzarəti funksiyalarını yerinə yetirən digər vəzifəli şəxslərə və fitosanitar mütəxəssislərinə tutduqları vəzifələrə uyğun olaraq dövlət fitosanitar müfəttişi adı verilə bilər.

4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 avqust 2006-cı il
№ 441

## “İSTEHSALAT VƏ MƏİŞƏT TULLANTILARI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNADƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUNTƏTBİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının 2007-ci il 22 may tarixli 341-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin birinci hissəsinin beşinci abzasında nəzərdə tutulmuş istehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanunun 12-3-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş təhlükəli tullantıların pasportlaşdırılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanunun 12-4-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş tibbi tullantıların idarə olunmasına dair tələbləri müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin Qanunun 13-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş təhlükəli istehsalat və məişət tullantılarının, habelə təhlükəli tibbi tullantıların nəqliyyat vasitələrində daşınması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7. həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş təhlükəli tullantıların sərhədlərarası daşınması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.8. həmin Qanunun 14-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş “səlahiyyətli orqan” barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.9. həmin Qanunun 18-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş tullantıların yığılması (toplanması), yerləşdirilməsi, istifadəsi və zərərsizləşdirilməsinə görə haqqın müəyyən edilməsi qaydasını hazırlayıb təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.10. öz səlahiyyətləri daxilində “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin birinci hissəsinin beşinci abzasında (birinci halda), 12-3-cü maddəsinin

üçüncü hissəsində, 12-4-cü maddəsinin birinci hissəsində, 12-5-ci maddəsində və 14-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

2.2. həmin Qanunun 6-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları öz səlahiyyətləri daxilində həyata keçirirlər;

2.3. həmin Qanunun 6-cı maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və yerli icra hakimiyyəti orqanları öz səlahiyyətləri daxilində həyata keçirirlər;

2.4. həmin Qanunun 7-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

2.5. həmin Qanunun 12-3-cü maddəsinin birinci və ikinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

2.6. həmin Qanunun 12-4-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 iyul 2007-ci il

## "TƏBİİ MÜALİCƏ EHTİYATLARI, MÜALİCƏ-SAĞLAMLAŞDIRMA YERLƏRİ VƏ KURORTLAR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN İCRASINI TƏMİN EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini təbii müalicə ehtiyatlarının mühafizəsi sahəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, təbii müalicə ehtiyatlarının, müalicə-sağlamlaşdırma yerlərinin və kurortların öyrənilməsi, istifadəsi və inkişafı sahəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;

1.2. həmin Qanunun 9.4-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini təbii müalicə ehtiyatlarının mühafizəsi sahəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, təbii müalicə ehtiyatlarının işlənməsi və istifadəsi sahəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;

1.3. həmin Qanunun 14.5-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 411, №

8, maddə 680; 2007-ci il, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.29-cu bənd əlavə edilsin, 8.29-cu bənd müvafiq olaraq 8.30-cu bənd hesab edilsin;

"8.29. Kurort fondunun dövlət uçotunu aparmaq, kəşf edilmiş təbii müalicə ehtiyatlarının dövlət ekspertizasını həyata keçirmək;".

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 noyabr 2008-ci il

## “ƏTRAF MÜHİTƏ VƏ İNSAN SAĞLAMLIĞINA MƏNFİ TƏSİR GÖSTƏRƏN VİBRASİYA VƏ SƏS-KÜY ÇİRKLƏNMƏLƏRİ NORMALARI”NIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 8 iyul tarixli 796 nömrəli Fərmanının 2.1-ci bəndinin icrası məqsədi ilə qərara alıram:

1. Müəyyən edilsin ki, nəqliyyat vasitələrinin və digər səs-küy mənbələrinin yaşayış və istirahət yerlərində, habelə insanların cəmləşdiyi digər yerlərdə ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və nüfuzedici səs-küyün yolverilən səviyyəsinə nəzarəti aşağıdakı icra hakimiyyəti orqanları həyata keçirirlər:

1.1. “Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 8 iyul tarixli 796 nömrəli Fərmanının Cədvəl 1-in 1-9-cu bəndlərinə münasibətdə - Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi;

1.2. həmin Cədvəlin 10-16-cı bəndlərinə münasibətdə - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi;

1.3. gecə vaxtı saat 23-dən səhər saat 6-dək həmin Cədvəlin 1-16-cı bəndlərinə münasibətdə - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi.

2. Bu Fərmanın 1.1-1.3-cü bəndlərinə müvafiq olaraq binalarda (mənzillərdə), idarə, müəssisə və obyektlərin daxilində hüquqi və ya fiziki şəxsin müraciəti əsasında yalnız müraciət edənin binasında (mənzilində), idarə, müəssisə və obyektinin daxilində qanunvericiliyin tələbləri nəzərə alınmaqla vibrasiya və nüfuzedici səs-küyün yolverilən səviyyəsi müəyyən edilir.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 fevral 2009-cu il

## “EKOLOJİ TƏMİZ KƏND TƏSƏRRÜFATI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun 5.0.13-cü və 20.3-cü maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin Qanunun 12.1-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini ekoloji müşahidə orqanlarının akkreditasiyası sahəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, sertifikatlaşdırma orqanlarının akkreditasiyası sahəsində Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirir;

1.3. həmin Qanunun 14.2-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının standartlarının qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanması və təsdiq edilməsi səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

1.4. həmin Qanunun 14.4-cü maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının standartları barədə müxtəlif vasitələrlə istehlakçıların tam və səhih informasiya ilə təmin edilməsi və bu sahədə maarifləndirmə işlərinin aparılması üzrə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi öz səlahiyyətləri daxilində, ekoloji təmiz kənd təsərrüfatı subyektlərinin siyahısını mətbuatda dərc etdirməklə, ictimaiyyətin məlumatlandırılması üzrə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirirlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsində nəzərdə tutulmuş ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 may 2010-cu il

**AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİNİN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNƏ DÖVLƏT NƏZARƏTİNİ HƏYATA KEÇİRƏN VƏ ƏTRAF MÜHİTDƏNİSTİFADƏNİN TƏNZİMLƏNMƏSİ SAHƏSİNDƏ ÇALIŞAN ƏMƏKDAŞLARININ SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ İLƏ ƏLAQƏDAR BƏZİ TƏDBİRLƏR HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ətraf mühitin mühafizəsinə dövlət nəzarətini həyata keçirən və ətraf mühitdən istifadənin tənzimlənməsi sahəsində çalışan əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və onlar tərəfindən qulluq vəzifələrinin icrasına nəzarəti artırmaq məqsədi ilə qərara alıram:

1. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının pozulmasına görə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən cərimələrdən daxil olan vəsaitin 25 faizindən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ətraf mühitin mühafizəsinə dövlət nəzarətini həyata keçirən və ətraf mühitdən istifadənin tənzimlənməsi sahəsində çalışan əməkdaşlarının aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

2.1. ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydalarının pozulması ilə əlaqədar törədilmiş inzibati xətalara görə cərimələrin yalnız bank və ya plastik kart vasitəsilə ödənilməsini təmin etmək üçün qanunvericiliyə müvafiq dəyişikliklər edilməsi barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 22 fevral tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmiş "Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu haqqında Əsasnamə"ni bir ay müddətində bu Fərmana uyğunlaşdırsın;

2.3. iki ay müddətində mərkəzi icra hakimiyyəti orqanları əməkdaşlarının həvəsləndirilməsi üçün nəzərdə tutulan və həmin orqanların tabeliyində yaradılan fondların vəsaitindən istifadə haqqında hesabatın dərc edilməsi barədə müvafiq formanı təsdiq etsin, habelə həmin hesabatın dərc olunması qaydasını və müddətini müəyyən etsin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, ətraf mühitin mühafizəsinə dövlət nəzarətini həyata keçirən və ətraf mühitdən istifadənin tənzimlənməsi sahəsində çalışan əməkdaşlar tərəfindən qulluq vəzifələrinin icrası və inzibati xətalara baxılması zamanı qanunvericiliyin tələblərinə ciddi riayət olunmasına nəzarəti gücləndirsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 iyul 2011-ci il.

## “MƏDƏNİ BİTKİLƏRİN GENETİK EHTİYATLARININ MÜHAFİZƏSİ VƏ SƏMƏRƏLİ İSTİFADƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ 2011-Cİ İL 13 DEKABR TARİXLİ 273-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında” Azərbaycan Respublikasının 2011-ci il 13 dekabr tarixli 273-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında” Azərbaycan Respublikasının 2011-ci il 13 dekabr tarixli 273-IVQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. “Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında” Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsində nəzərdə tutulmuş mədəni bitkilərin genetik ehtiyatlarının milli kolleksiyalarının formalaşdırılması, mühafizəsi və istifadəsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanunun 15.2-ci maddəsində nəzərdə tutulmuş mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsinə və səmərəli istifadəsinə dövlət nəzarətinin təşkili qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin Qanunun 20.2-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasına məxsus ənənəvi mədəni brend bitkilərin və onların areallarının siyahısını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7. həmin Qanunun 20.4-cü maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasına məxsus ənənəvi mədəni brend bitkilərin yayıldığı areallarda bu cür bitkilərin becərilməsinin davam etdirilməsi və sahələrin genişləndirilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.8. həmin Qanunun 21.2-ci maddəsində nəzərdə tutulmuş ölkə daxilində genetik modifikasiya olunmuş bitkilərin mövcudluğu və yayılma zonasının aşkarlanması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.9. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.10. həmin Qanunun 6.2-ci maddəsində, 9.3-cü maddəsinin birinci və üçüncü cümlələrində, 9.4-cü, 9.5-ci, 10.2-ci maddələrində, 10.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 15.1-ci, 16.1-ci, 16.2-ci, 17.1-ci, 18.1-ci, 18.2-ci, 18.3-cü, 21.2-ci (ikinci halda) və 21.4-cü maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın

səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.11. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Qanunun 11.2-ci, 15,2-ci, 20.2-ci, 20.4-cü və 21.2-ci (birinci halda) maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 fevral 2012-ci il

## “AZƏRBAYCAN RESPUBLİKASININ SAMUR-YALAMA MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ”NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə uyğun olaraq qərara alıram:

1. “Azərbaycan Respublikasının Samur-Yalama Milli Parkı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun 42-ci maddəsinə uyğun olaraq, xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən elmi, mədəni, tədris, turizm və rekreasiya, məhdud təsərrüfat məqsədləri ilə ödənişli əsaslarla istifadə qaydasını və ödənişin məbləğini 2 ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 iyun 2013-cü il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2013-cü il 25 iyun tarixli Fərmanı ilə*
*təsdiq edilmişdir*

### Azərbaycan Respublikasının Samur-Yalama Milli Parkı haqqında ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Samur-Yalama Milli Parkı (bundan sonra - Milli Park) ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi, bioloji müxtəlifliyin, o cümlədən nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin (şabalıdyarpaq palıd, dəmirağacı, eldar şamı, ilanbalığı, kür qızılbalığı, nərə, uzunburun nərə, dəniz sıfı, çapaq, kütüm, xəşəm, şahmayı, cüyür, böyük qırğı, məzar qartalı, adi qızılquş, bozqırmuymulu qızılquş, fısıldayan quləlak və s.) qorunub saxlanılması və ekoturizmin inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Xaçmaz rayonunun inzibati ərazisində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 noyabr tarixli 2518 nömrəli Sərəncamına uyğun olaraq yaradılmışdır.

1.2. Milli Park xüsusi ekoloji, tarixi, estetik, bioloji əhəmiyyət daşıyan təbiət komplekslərinin və obyektlərinin yerləşdiyi, ətraf mühiti mühafizə, maarifçilik, elmi, mədəni, ekoturizm məqsədləri üçün istifadə olunan təbiəti mühafizə və elmi tədqiqat idarəsi statusuna malik ərazidir.

1.3. Milli Park öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin normativ hüquqi aktlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. Milli Parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və həmin ərazidəki torpaq, su, bitki və heyvanlar aləmi onun daimi istifadəsinə verilir.

1.5. Milli Parkda onun məqsədli təyinatına, təbiət komplekslərinin və obyektlərinin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan başqa fəaliyyət növləri Milli Parkla hüquqi və fiziki şəxslər arasında bağlanmış və ekoloji ekspertizadan keçirilmiş müqavilələr əsasında həyata keçirilir.

1.6. Xüsusi mühafizəni təmin etmək üçün Milli Parka bitişik olan torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonalar “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir.

1.7. Milli Park Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsaitlər, ətraf mühitin mühafizəsi üzrə fondların vəsaitləri, qrantlar və ianələr hesabına maliyyələşdirilir.

1.8. Milli Parkın idarə edilməsi və mühafizəsi üçün yaradılan idarənin xüsusi fondunun və vəsaitlərinin yaradılması və istifadəsi qaydasını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

1.9. Milli Parkın pasportunu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi hazırlayır. Pasportda Milli Parkın adı, yerləşdiyi yer, yaradılma tarixi, əhəmiyyəti, torpaqdan daimi istifadə hüququna dair sənədin qeydiyyat nömrəsi və tarixi, mühafizə olunan ərazinin xüsusiyyətləri, onun ümumi görünüşünün sxemi, ərazisində müəyyən edilən fəaliyyət zonaları, qorunan nadir fauna və flora növləri, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər öz əksini tapmalıdır. Bu ərazinin pasportu Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində dövlət qeydiyyatına alınmaqla, Milli Parkda saxlanılır.

1.10. Milli Parkda təbiət qoruq fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazinin perspektiv inkişaf şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədi ilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

1.11. Milli Park müstəqil balansa, istifadəsində olan dövlət əmlakına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Milli Parkın adı əks edilən möhürə, blank və ştamplara, xəzinə hesablarına, bayraq və emblemə malikdir.

2. Milli Parkın yaradılmasının məqsədləri

2.0. Milli Parkın yaradılmasının məqsədləri aşağıdakılardır:

2.0.1. təbiət komplekslərini, genetik fondu, bioloji müxtəlifliyi, nadir və etalon təbiət ərazilərini, tarix-mədəniyyət obyektlərini qoruyub saxlamaq;

2.0.2. turizm və rekreasiya üçün şərait yaratmaq;

2.0.3. təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

2.0.4. əhalini ekoloji cəhətdən maarifləndirmək;

2.0.5. ekoloji monitorinqi həyata keçirmək;

2.0.6. zədələnmiş təbiət, tarix-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

3. Milli Parkın xüsusi mühafizə rejiminin xüsusiyyətləri

3.1. Milli Parkın ərazisi və obyektləri hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

3.2. Milli Parkın fiziki və hüquqi şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır.

3.3. Milli Parkın ərazisində onun təbiət, tarix-mədəniyyət və ekoloji xüsusiyyətləri nəzərə alınmaqla, xüsusi mühafizənin rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

3.3.1. xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

3.3.2. təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;

3.3.3. turizm və rekreasiya zonaları;

3.3.4. turistlərə, elmi və maarifləndirmə məqsədli şəxslərə xidmət göstərilən zonalar;

3.3.5. Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

3.4. Milli Parkın ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonaları üzrə bölgüsü Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

3.5. Milli Parkın turizm və rekreasiya zonalarında turizm və rekreasiya məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə (ov, idman, həvəskar balıq ovu və s.) yol verilir.

3.6. Milli Parkda elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilir.

3.7. Milli Parkın ərazisində aşağıdakılar qadağan edilir:

3.7.1. təbiət komplekslərinə, genetik fonda, bioloji müxtəlifliyə və tarix-mədəniyyət obyektlərinin varlığına təhlükə yaradan hər bir fəaliyyət;

3.7.2. geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

3.7.3. hidroloji rejimin dəyişməsinə səbəb olan işlərin aparılması;

3.7.4. kimya sənayesi, metallurgiya, nüvə energetikası və xüsusi ekoloji təhlükə yaradan digər müəssisələrin fəaliyyəti;

3.7.5. Milli Parkın fəaliyyəti ilə bağlı olmayan magistral yolların tikintisi, Milli Parkın fəaliyyəti ilə bağlı olmayan boru kəmərlərinin, elektrik xətlərinin və digər kommunikasiyaların çəkilməsi;

3.7.6. müəyyən olunmuş yerlərdən kənarda tonqalların yandırılması, turizm və rekreasiya zonaları istisna olmaqla, dayanacaqların təşkili və çadırların qurulması;

3.7.7. bu məqsədlər üçün müəyyən olunmuş yerlərdən və ümumi istifadə olunan quru və su yollarından kənar mexaniki nəqliyyat vasitələrinin hərəkəti və dayanacağı, ev heyvanlarının köçürülməsi;

3.7.8. meşələrdə əsas istifadə qırıntısı;

3.7.9. yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası.

3.8. Milli Parkın ərazisində onun ekoloji, elmi, estetik, mədəni və rekreasiya dəyərini aşağı sala bilən digər fəaliyyət növləri də Milli Park tərəfindən məhdudlaşdırılır və ya qadağan edilir.

3.9. Milli Parkın mühafizəsini onun mühafizə xidməti həyata keçirir. Bu işə Milli Parkın direktoru və direktorun mühafizə işləri üzrə müavini öz səlahiyyətləri daxilində rəhbərlik edirlər.

3.10. Milli Parkın mühafizə xidmətinin aşağıdakı hüquqları vardır:

3.10.1. Milli Parkın ərazisində və onun mühafizə zonasında xüsusi mühafizə rejimini pozanların sənədlərini yoxlamaq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, nəqliyyat vasitələrini, gəmiləri, ov alətlərini, əldə olunmuş ov məhsullarını

yoxlamaq, hüquqpozmaya səbəb olmuş alətləri, cihazları və əşyaları, qanunsuz əldə edilmiş məhsulları, habelə müvafiq sənədləri götürmək;

3.10.2. fiziki və hüquqi şəxslərin Milli Parkın ərazisində və onun mühafizə zonasında "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan fəaliyyətini dayandırmaq;

3.10.3. Milli Parkın ərazisindən istifadə qaydalarının, həmin ərazinin mühafizə rejiminin pozulmasına görə inzibati xəta haqqında protokollar tərtib etmək;

3.10.4. Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə və istifadə sahəsində pozuntu hallarını aradan qaldırmaq haqqında icrası məcburi olan göstərişlər vermək.

3.11. Milli Parkın rejiminin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

3.12. Milli Parka vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ödənilir.

4. Milli Parkın elmi tədqiqat fəaliyyəti

4.1. Milli Parkın elmi tədqiqat fəaliyyəti rekreasiya məqsədi ilə istifadə şəraitində ekoloji vəziyyətin proqnozlaşdırılmasına və qiymətləndirilməsinə, səciyyəvi və nadir təbiət komplekslərinin, o cümlədən bioloji müxtəlifliyin elmi cəhətdən əsaslandırılmış üsullarla qorunmasına yönəldilir.

4.2. Milli Parkda elmi tədqiqat fəaliyyətini Milli Parkın elm şöbəsinin işçiləri həyata keçirirlər.

4.3. Milli Parkda elmi tədqiqatlara kənar elmi təşkilatların və mütəxəssislərin cəlb edilməsinə yol verilir.

4.4. Milli Parkda elmi tədqiqatlar, mədəni-maarif, tədris tədbirlərinin həyata keçirilməsi və ekoloji maarifləndirmə işinin təşkili məqsədi ilə Şura yaradıla bilər. Şuranın fəaliyyətinə Milli Parkın direktoru rəhbərlik edir. Şuranın tərkibini Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri təsdiq edir. Şuranın Əsasnaməsi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilir.

4.5. Milli Parkın elmi və herbari fondları yaradılır və daimi saxlanılır.

4.6. Milli Parkın elmi əsərlər çap etdirmək hüququ vardır.

4.7. Milli Parkda aparılan elmi tədqiqat işlərində əldə edilmiş nəticələrdən aşağıdakı məqsədlər üçün istifadə olunur:

4.7.1. heyvan və bitki ehtiyatlarının qorunub saxlanılmasının, artırılmasının və onlardan səmərəli istifadə edilməsinin elmi əsaslarını işləyib hazırlamaq və Milli Parkın ərazisində yayılmış vəhşi heyvanların sayının optimal normadan artığının müvafiq ərazidə yayılmış və nəsli kəsilmiş heyvan növlərinin əvvəlki yerlərinə baytarlıq-sanitariya tələblərinə uyğun olaraq köçürülməsini həyata keçirmək;

4.7.2. Milli Parkın ərazisində təbiət komplekslərinin təbii halda saxlanılmasını təmin edən tədbirləri, təbiət kompleksləri komponentlərinin faydalı məhsuldarlığının qiymətləndirilməsi və yüksəldilməsi metodlarını işləyib hazırlamaq;

4.7.3. Milli Parka bitişik ərazilərdə təbii ehtiyatlardan təsərrüfat məqsədləri üçün istifadənin səmərəliliyini müəyyənləşdirmək və nəticələrini aşkara çıxarmaq;

4.7.4. ziyanverici heyvanlara və alaq otlarına qarşı mübarizə metodlarını, ilk növbədə bioloji metodların layihələrini işləyib hazırlamaq;

4.7.5. su rejimində, torpağın və bitki örtüyünün xassələrində, heyvanların sayında və bitkilərin (fitosenozların) məhsuldarlığında dəyişikliklərin proqnozlaşdırılması məqsədi ilə həmin dəyişikliklərin səbəbini öyrənmək;

4.7.6. təbiətdə cərəyan edən proseslər haqqında sistemləşdirilmiş faktiki materiallar və nəzəri nəticələr hesabına elmi bilikləri zənginləşdirmək;

4.7.7. Milli Parkın hüdudlarından kənarda, təsərrüfat məqsədləri üçün istifadə edilən ərazilərdə eyni və ya oxşar bioekoloji metodları hazırlamaq.

4.8. Elmi tədqiqatların aparılması metodları Milli Parkın rejiminin tələblərinə zidd olmamalıdır. Aparılan işlərin nəticələri hazırlanmış elmi təkliflər çərçivəsində tətbiq edilir.

4.9. Milli Park elmi tədqiqat işlərini, həyata keçirəcəyi elmi-texniki və digər elmi tədbirləri hər təqvim ili üçün Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi və maliyyələşdirdiyi planlar üzrə aparır. Milli Parkla bu sahədə əməkdaşlıq, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi müqavilələr əsasında, müvafiq profilli elmi tədqiqat idarələri və ali təhsil müəssisələri ilə birgə həyata keçirilir.

5. Milli Parkın təsərrüfat fəaliyyəti

5.1. Milli Parkın təsərrüfat fəaliyyəti təbiət və tarix-mədəniyyət obyektlərinin mühafizəsindən, onlara xidmət və onların bərpası üzrə tədbirlərin həyata keçirilməsindən, təbiətdə idarə olunan istirahət və turizm tədbirlərinin təşkilindən ibarətdir.

5.2. Milli Parkın turizm və rekreasiya, turistlərə, elmi və maarifləndirmə məqsədli şəxslərə xidmət göstərilən zonalarının ərazisində yerləşən binalar və qurğular fiziki və hüquqi şəxslərə icarəyə və ya istifadəyə turizmin, o cümlədən təbiətdə istirahətin inkişafı məqsədi ilə verilir.

5.3. Milli Parkın turizm və rekreasiya, turistlərə, elmi və maarifləndirmə məqsədli şəxslərə xidmət göstərilən zonalarının ərazisində mehmanxanaların, kempinqlərin, turbazaların və digər iaşə obyektlərinin tikintisi və istifadəsi, əhalinin istirahəti məqsədi ilə digər şəraitin yaradılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə, “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında”, “Turizm haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq Milli Parkla fiziki və hüquqi şəxslər arasında bağlanmış və ekoloji ekspertizadan keçirilmiş müqavilələr əsasında həyata keçirilir.

6. Milli Parkın mühafizəsinə, qorunmasına və istifadəsinə dövlət nəzarəti

Milli Parkın vəziyyətinə, onun mühafizəsi, qorunması və bərpası ilə bağlı tədbirlərin icrasına dövlət nəzarətini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

7. Milli Parkın fəaliyyətinin təşkili

7.1. Milli Parkın strukturunu, ştat cədvəlini və xərclər smetasını Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri təsdiq edir.

7.2. Milli Parka Milli Parkın direktoru rəhbərlik edir. Milli Parkın direktoru və direktor müavini Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

7.3. Milli Parkın direktoru aşağıdakı səlahiyyətlərə malikdir:

7.3.1. Milli Parkın işinə ümumi rəhbərliyi həyata keçirir və onun fəaliyyətində qanuniliyi təmin edir;

7.3.2. təbiəti mühafizə, elmi tədqiqat və biotexniki planların layihələrinin hazırlanmasını və yerinə yetirilməsini təmin edir;

7.3.3. Milli Parkda elmi tədqiqat işlərinin planlarının, tapşırıqların yerinə yetirilməsinin gedişi haqqında struktur bölmələrinin hesabatlarını dinləyir;

7.3.4. Milli Parkın ixtisaslı kadrlarla komplektləşdirilməsini təşkil edir, Milli Parkın dövlət qulluqçusu olan mühafizə və ekoturizm bölmələrinin vəzifəli şəxsləri istisna olmaqla,

digər şəxslərin təyinatı ilə bağlı Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdimatlar verir, kadrların əlavə təhsili istiqamətində tədbirlər görür;

7.3.5. Milli Parkın mühafizə rejimi, elmi tədqiqatların və onların tətbiqinin nəticələri haqqında hesabatları, statistik və maliyyə hesabatlarını aidiyyəti üzrə təqdim edir;

7.3.6. Milli Parkın maddi-texniki təminatını təşkil edir;

7.3.7. Milli Parkın fəaliyyətinə aid olan məsələlərlə əlaqədar məhkəmələrdə Milli Parkı etibarnaməsiz təmsil edir.

7.4. Direktor Milli Parkın fəaliyyətinə görə şəxsən məsuliyyət daşıyır.

7.5. Milli Parkın işçiləri Milli Parkın rejiminin pozulması hallarının qarşısının alınmasında mühafizə işçilərinə kömək edirlər.

7.6. Milli Parkın təbiət ərazilərindən və obyektlərindən ödənişli istifadə "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tətbiq edilir.

7.7. Əhali və qeyri-hökumət təşkilatlarının Milli Parkın mühafizəsi ilə bağlı təqdim etdiyi təkliflərin məqsədəuyğunluğuna Milli Park tərəfindən baxılır.

7.8. Milli Parkın mühafizə rejimini həyata keçirən işçiləri xidməti vəzifələrini yerinə yetirərkən üzərində fərqləndirici nişanı olan xüsusi geyim forması daşıyırlar. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həmin şəxslərə xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.

## BÖYÜKŞOR GÖLÜNÜN EKOLOJİ VƏZİYYƏTİNİN YAXŞILAŞDIRILMASI, MÜHAFİZƏSİ VƏ İSTİFADƏSİ SAHƏSİNDƏ ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 4 may tarixli 1490 nömrəli Sərəncamında nəzərdə tutulmuş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək Tədbirlər Planı"nın 2.1.21-ci yarımbəndinin icrası, habelə Böyükşor gölünün bərpa edilməsi, mühafizəsi və istifadəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə qərara alıram:

1. Bakı şəhərində yerləşən Böyükşor gölünün (bundan sonra - Göl) istifadəsi və mühafizəsi sahəsində idarəetmə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edilsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi:

2.1. Gölün (onun mühafizə zonasının) bərpa edilməsini (o cümlədən Göldə (onun mühafizə zonasında) mövcud olan istehsalat və məişət tullantılarının kənarlaşdırılmasını), mühafizəsini, ekoloji vəziyyətinin yaxşılaşdırılmasını və gələcəkdə ondan səmərəli istifadə olunmasını təmin etsin, habelə qorunub saxlanılmasına nəzarəti həyata keçirsin;

2.2. bu Fərmanın 3-cü və 4-cü hissələrində nəzərdə tutulmuş işlərin idarə edilməsini təmin etsin;

2.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Gölə (onun mühafizə zonasına) tullantı sularının axıdılmasının qarşısının alınması üçün zəruri tədbirlər görsünlər.

4. Bakı Şəhər İcra Hakimiyyəti Gölə (onun mühafizə zonasına) istehsalat və məişət tullantılarının atılmasının, Gölün səthinin azalmasına səbəb olan kənar yerlərdən torpaq qruntunun daşınması və yayılmasının qarşısının alınmasını təmin etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. bir ay müddətində Gölün (onun mühafizə zonasının) sərhədlərini dəqiqləşdirsin;

5.2. Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin əsaslandırılmış hesablamalarına uyğun olaraq bu Fərmanın 2.1-ci bəndində və 3-cü hissəsində nəzərdə tutulmuş işlərin həyata keçirilməsinin maliyyələşməsini təmin etsin;

5.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Gölə aid bütün sənədləri və digər məlumatları bir ay müddətində Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə təhvil versin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 dekabr 2013-cü il

## “AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ İLƏ İRAN İSLAM RESPUBLİKASININ YOL VƏ ŞƏHƏRİN İNKİŞAFI NAZİRLİYİ ARASINDA METEOROLOGİYA VƏ ƏLAQƏDAR MƏSƏLƏLƏRƏ DAİR” ANLAŞMA MEMORANDUMUNUN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə İran İslam Respublikasının Yol və Şəhərin İnkişafı Nazirliyi arasında meteorologiya və əlaqədar məsələlərə dair” 2014-cü il aprelin 9-da Tehran şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İran İslam Respublikası Hökumətini xəbərdar etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 iyun 2014-cü il.

## “ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2014-CÜ İL 30 SENTYABR TARİXLİ 1032-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ “ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1999-CU İL 4 AVQUST TARİXLİ 173 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 30 sentyabr tarixli 1032-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi iləqərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 173 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 483; 2003, № 10, maddə 546) 2-ci hissəsinin üçüncü abzasında “71-ci maddəsinin 1-ci hissəsində” sözləri “71-ci maddəsinin 1-ci və 2-ci hissələrində” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 oktyabr 2014-cü il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 23 NOYABR TARİXLİ 147 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ ALTIAĞAC MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 noyabr tarixli 147 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamə"ni "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 4 aprel tarixli 924-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 noyabr tarixli 147 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 911; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.8-ci bənd aşağıdakı redaksiyada verilsin

"1.8. Milli Parkın torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədi ilə onun sanitariya-mühafizə zonaları müəyyən edilir. Milli Parkın sanitariya-mühafizə zonalarının müəyyən edilməsi və həmin zonaların mühafizə rejimi "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə tənzimlənir.".

2. 3.8-ci bənddə "hüquqları" sözü "vəzifələri" sözü ilə əvəz edilsin.

3. 3.8.2-ci yarımbənddə "mühafizə zonasında mövcud qanunvericiliyə və xüsusi mühafizənin hüquqi rejiminə zidd olan fiziki və hüquqi şəxslərin" sözləri "sanitariya-mühafizə zonasında fiziki və hüquqi şəxslərin "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan" sözləri ilə əvəz edilsin.

4. 3.8.4-cü yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə əvəz edilsin, "və digər tədbirlər görmək" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 dekabr 2014-cü il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 24 APREL TARİXLİ 57 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ HİRKAN MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 24 aprel tarixli 57 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Hirkan Milli Parkı haqqında Əsasnamə"ni "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 4 aprel tarixli 924-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 24 aprel tarixli 57 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 237; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Hirkan Milli Parkı haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.7. Milli Parkın torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədi ilə onun sanitariya-mühafizə zonaları müəyyən edilir. Milli Parkın sanitariya-mühafizə zonalarının müəyyən edilməsi və həmin zonaların mühafizə rejimi "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə tənzimlənir.".

2. 3.8-ci bənddə "hüquqları" sözü "vəzifələri" sözü ilə əvəz edilsin.

3. 3.8.1-ci yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə, "nəqliyyat vasitələrini saxlamaq, qanunvericiliklə müəyyən edilmiş qaydada" sözləri "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq," sözləri ilə əvəz edilsin.

4. 3.8.2-ci yarımbənddə "mühafizə zonasında mövcud qanunvericiliyə və mühafizə rejiminə zidd olan fiziki və hüquqi şəxslərin" sözləri "sanitariya-mühafizə zonasında fiziki və hüquqi şəxslərin "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan" sözləri ilə əvəz edilsin.

5. 3.8.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.8.3. Milli Parkın ərazisində və onun sanitariya-mühafizə zonasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş əməli törədən şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görmək;".

6. 3.8.4-cü yarımbənddən "qanunvericiliklə müəyyən edilmiş qaydada" sözləri çıxarılsın.

7. 3.8.5-ci yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə əvəz edilsin, "və digər tədbirlər görmək" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 dekabr 2014-cü il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2005-Cİ İL 27 APREL TARİXLİ 227 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ ABŞERON MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 aprel tarixli 227 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə"ni "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 4 aprel tarixli 924-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 aprel tarixli 227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 302; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 8, maddə 724) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.8. Milli Parkın torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədi ilə onun sanitariya-mühafizə zonaları müəyyən edilir. Milli Parkın sanitariya-mühafizə zonalarının müəyyən edilməsi və həmin zonaların mühafizə rejimi "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə tənzimlənir.".

2. 3.8-ci bənddə "hüquqları" sözü "vəzifələri" sözü ilə əvəz edilsin.

3. 3.8.2-ci yarımbənddə "mühafizə zonasında mövcud qanunvericiliyə və xüsusi mühafizənin hüquqi rejiminə zidd olan fiziki və hüquqi şəxslərin" sözləri "sanitariya-mühafizə zonasında fiziki və hüquqi şəxslərin "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan" sözləri ilə əvəz edilsin.

4. 3.8.4-cü yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə əvəz edilsin, "və digər tədbirlər görmək" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 dekabr 2014-cü il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2008-Cİ İL 19 NOYABR TARİXLİ 19 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ ŞAHDAĞ MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 19 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Şahdağ Milli Parkı haqqında Əsasnamə"ni "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 4 aprel tarixli 924-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 19 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 975; 2011, № 2, maddə 85) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Şahdağ Milli Parkı haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.8. Milli Parkın torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədi ilə onun sanitariya-mühafizə zonaları müəyyən edilir. Milli Parkın sanitariya-mühafizə zonalarının müəyyən edilməsi və həmin zonaların mühafizə rejimi "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə tənzimlənir.".

2. 3.8-ci bənddə "hüquqları" sözü "vəzifələri" sözü ilə əvəz edilsin.

3. 3.8.1-ci yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə, "nəqliyyat vasitələrini saxlamaq, qanunvericiliklə müəyyən edilmiş qaydada" sözləri "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq," sözləri ilə əvəz edilsin.

4. 3.8.2-ci yarımbənddə "mühafizə zonasında mövcud qanunvericiliyə və mühafizə rejiminə zidd olan fiziki və hüquqi şəxslərin" sözləri "sanitariya-mühafizə zonasında fiziki və hüquqi şəxslərin "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan" sözləri ilə əvəz edilsin.

5. 3.8.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.8.3. Milli Parkın ərazisində və onun sanitariya-mühafizə zonasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş əməli törədən şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görmək;".

6. 3.8.4-cü yarımbənddən "qanunvericiliklə müəyyən edilmiş qaydada" sözləri çıxarılsın.

7. 3.8.5-ci yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə əvəz edilsin, "və digər tədbirlər görmək" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 dekabr 2014-cü il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2008-Cİ İL 19 NOYABR TARİXLİ 18 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ GÖYGÖL MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 18 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Göygöl Milli Parkı haqqında Əsasnamə"ni "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 4 aprel tarixli 924-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 18 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 974; 2011, № 2, maddə 85) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Göygöl Milli Parkı haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.8. Milli Parkın torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədi ilə onun sanitariya-mühafizə zonaları müəyyən edilir. Milli Parkın sanitariya-mühafizə zonalarının müəyyən edilməsi və həmin zonaların mühafizə rejimi "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə tənzimlənir.".

2. 3.8-ci bənddə "hüquqları" sözü "vəzifələri" sözü ilə əvəz edilsin.

3. 3.8.1-ci yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə, "nəqliyyat vasitələrini saxlamaq, qanunvericiliklə müəyyən edilmiş qaydada" sözləri "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq," sözləri ilə əvəz edilsin.

4. 3.8.2-ci yarımbənddə "mühafizə zonasında mövcud qanunvericiliyə və mühafizə rejiminə zidd olan fiziki və hüquqi şəxslərin" sözləri "sanitariya-mühafizə zonasında fiziki və hüquqi şəxslərin "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan" sözləri ilə əvəz edilsin.

5. 3.8.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.8.3. Milli Parkın ərazisində və onun sanitariya-mühafizə zonasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş əməli törədən şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görmək;".

6. 3.8.4-cü yarımbənddən "qanunvericiliklə müəyyən edilmiş qaydada" sözləri çıxarılsın.

7. 3.8.5-ci yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə əvəz edilsin, "və digər tədbirlər görmək" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 dekabr 2014-cü il.

## “AZƏRBAYCAN RESPUBLİKASINDA YARADILMIŞ MİLLİ PARKLARIN ƏSASNAMƏLƏRİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 3 AVQUST TARİXLİ 106 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanını “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 4 aprel tarixli 924-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

“Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddələr 614, 625; 2005, № 8, maddə 715; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 2, maddə 86) ilə təsdiq edilmiş:

1. “Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.8. Milli Parkın torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədi ilə onun sanitariya-mühafizə zonaları müəyyən edilir. Milli Parkın sanitariya-mühafizə zonalarının müəyyən edilməsi və həmin zonaların mühafizə rejimi “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə tənzimlənir.”;

1.2. 3.8-ci bənddə “hüquqları” sözü “vəzifələri” sözü ilə əvəz edilsin;

1.3. 3.8.2-ci yarımbənddə “müvafiq qanunvericiliyə və xüsusi mühafizənin hüquqi rejiminə zidd olan fiziki və hüquqi şəxslərin” sözləri “və sanitariya-mühafizə zonasında fiziki və hüquqi şəxslərin “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan” sözləri ilə əvəz edilsin;

1.4. 3.8.4-cü yarımbənddə “mühafizə zonasında” sözləri “sanitariya-mühafizə zonasında” sözləri ilə əvəz edilsin, “və digər tədbirlər görmək” sözləri çıxarılsın.

2. “Azərbaycan Respublikasının Şirvan Milli Parkı haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.8. Milli Parkın torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədi ilə onun sanitariya-mühafizə zonaları müəyyən edilir. Milli Parkın sanitariya-mühafizə zonalarının müəyyən edilməsi və həmin zonaların mühafizə rejimi “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə tənzimlənir.”;

2.2. 3.8-ci bənddə “hüquqları” sözü “vəzifələri” sözü ilə əvəz edilsin;

2.3. 3.8.2-ci yarımbənddə “müvafiq qanunvericiliyə və xüsusi mühafizənin hüquqi rejiminə zidd olan fiziki və hüquqi şəxslərin” sözləri “və sanitariya-mühafizə zonasında fiziki və hüquqi şəxslərin “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında”

Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan" sözləri ilə əvəz edilsin;

2.4. 3.8.4-cü yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə əvəz edilsin, "və digər tədbirlər görmək" sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikasının Ağgöl Milli Parkı haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.8. Milli Parkın torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədi ilə onun sanitariya-mühafizə zonaları müəyyən edilir. Milli Parkın sanitariya-mühafizə zonalarının müəyyən edilməsi və həmin zonaların mühafizə rejimi "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə tənzimlənir.";

3.2. 3.8-ci bənddə "hüquqları" sözü "vəzifələri" sözü ilə əvəz edilsin;

3.3. 3.8.2-ci yarımbənddə "müvafiq qanunvericiliyə və xüsusi mühafizənin hüquqi rejiminə zidd olan fiziki və hüquqi şəxslərin" sözləri "və sanitariya-mühafizə zonasında fiziki və hüquqi şəxslərin "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan" sözləri ilə əvəz edilsin;

3.4. 3.8.4-cü yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə əvəz edilsin, "və digər tədbirlər görmək" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 dekabr 2014-cü il.

## “AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏBİƏT VƏ BİOSFER QORUQLARININ ÜMUMİ ƏSASNAMƏSİ”NİN VƏ “AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ PARKLARININ ÜMUMİ ƏSASNAMƏSİ”NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2001-Cİ İL 4 İYUL TARİXLİ 531 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi”nin və “Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 531 nömrəli Fərmanını “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 4 aprel tarixli 924-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

“Azərbaycan Respublikasının dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi”nin və “Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 531 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 468; 2008, № 6, maddə 500) ilə təsdiq edilmiş:

1. “Azərbaycan Respublikasının dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“3.3. Dövlət təbiət və biosfer qoruqlarının torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədi ilə onların sanitariya-mühafizə zonaları müəyyən edilir. Dövlət təbiət və biosfer qoruqlarının sanitariya-mühafizə zonalarının müəyyən edilməsi və həmin zonaların mühafizə rejimi “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə tənzimlənir.”;

1.2. 6.2-ci bənddə “hüquqları” sözü “vəzifələri” sözü ilə əvəz edilsin;

1.3. 6.2.1-ci yarımbənddə “mühafizə zonasında” sözləri “sanitariya-mühafizə zonasında” sözləri ilə, “nəqliyyat vasitələrini saxlamaq, qanunvericiliklə müəyyən edilmiş qaydada” sözləri “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq,” sözləri ilə əvəz edilsin;

1.4. 6.2.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“6.2.2. dövlət təbiət və biosfer qoruğu ərazisində və onun sanitariya-mühafizə zonasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş əməli törədən şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görmək;”;

1.5. 6.2.3-cü yarımbənddən “qanunvericiliklə müəyyən edilmiş qaydada” sözləri çıxarılsın;

1.6. 6.2.4-cü yarımbənddə “mühafizə zonasında” sözləri “sanitariya-mühafizə zonasında” sözləri ilə əvəz edilsin, “və digər tədbirlər görmək” sözləri çıxarılsın.

2. “Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“2.3. Milli parkların torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədi ilə onların sanitariya-mühafizə zonaları müəyyən edilir. Milli parkların

sanitariya-mühafizə zonalarının müəyyən edilməsi və həmin zonaların mühafizə rejimi "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə tənzimlənir.";

2.2. 4.7-ci bənddə "hüquqları" sözü "vəzifələri" sözü ilə əvəz edilsin;

2.3. 4.7.1-ci yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə, "nəqliyyat vasitələrini saxlamaq, qanunvericiliklə müəyyən edilmiş qaydada" sözləri "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq," sözləri ilə əvəz edilsin;

2.4. 4.7.2-ci yarımbənddə "mühafizə zonasında mövcud qanunvericiliyə və mühafizə rejiminə zidd olan fiziki və hüquqi şəxslərin" sözləri "sanitariya-mühafizə zonasında fiziki və hüquqi şəxslərin "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan" sözləri ilə əvəz edilsin;

2.5. 4.7.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.7.3. milli parkın ərazisində və onun sanitariya-mühafizə zonasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş əməli törədən şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görmək;";

2.6. 4.7.4-cü yarımbənddən "qanunvericiliklə müəyyən edilmiş qaydada" sözləri çıxarılsın;

2.7. 4.7.5-ci yarımbənddə "mühafizə zonasında" sözləri "sanitariya-mühafizə zonasında" sözləri ilə əvəz edilsin, "və digər tədbirlər görmək" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 dekabr 2014-cü il.

## "OVÇULUQ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 26 MAY TARİXLİ 69 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

"Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 may tarixli 69 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 342) 2.2-ci bəndindən "13.1-ci maddəsində," sözləri çıxarılsın və aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. həmin Qanunun 13.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində olan "Hərbi Ovçuluq İttifaqı" Məhdud Məsuliyyətli Cəmiyyətinin üzvlərinə münasibətdə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir;".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 dekabr 2014-cü il.

## “AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ YANINDA GEODEZİYA VƏ KARTOQRAFİYA ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN YARADILMASI VƏ FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 5 fevral tarixli 453 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi yaradılsın.

2. “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

3. Ləğv edilmiş Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin tabeliyində olmuş Dövlət Aerogeodeziya Müəssisəsi və Bakı Kartoqrafiya Fabriki Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin tabeliyinə verilsin.

4. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin işçilərinin say həddi 45 ştat vahidi müəyyən edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin cari il üçün maliyyə təminatı ilə bağlı məsələləri on gün müddətində həll etsin;

5.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyini müvafiq bina və zəruri avadanlıqlarla təmin etsin;

5.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 sentyabr 2015-ci il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2015-ci il 14 sentyabr tarixli Fərmanı ilə*
*təsdiq edilmişdir*

**Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi haqqında**
**ƏSASNAMƏ**

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi (bundan sonra – Agentlik) geodeziya, topoqrafiya, xəritəçəkmə, qravimetriya və kartoqrafiya, həmçinin dövlət əhəmiyyətli coğrafi məlumat sistemlərinin yaradılması sahələrində işlərin aparılmasını təmin edən icra hakimiyyəti orqanıdır.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Əsasnaməsini, qərarlarını, əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Agentlik bu Əsasnamədə nəzərdə tutulan vəzifə və hüquqlarını Azərbaycan Respublikasının bütün ərazisində bilavasitə və yerli bölmələri vasitəsilə həyata keçirir.

1.4. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Agentlik müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və öz adı əks olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.6. Agentliyin saxlanma xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr, habelə tabeliyində olan qurumların fəaliyyət istiqamətləri üzrə göstərdiyi xidmətlərə görə alınan haqlardan daxil olan vəsaitlərdən maliyyələşdirilir.

1.7. Agentlik Bakı şəhərində yerləşir.

2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya, qravimetriya, kartoqrafiya və xəritəçəkmə fəaliyyətini həyata keçirir;

2.1.2. ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi işlərini həyata keçirir;

2.1.3. dövlət əhəmiyyətli coğrafi məlumat sistemlərinin yaradılmasını təmin edir;

2.1.4. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya fəaliyyətinə dövlət nəzarətini həyata keçirir;

2.1.5. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

3. Agentliyin vəzifələri

3.1. Agentlik bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya, xəritəçəkmə, qravimetriya, kartoqrafiya ilə bağlı işləri təşkil etmək və həyata keçirmək, habelə ərazi vahidlərinin sərhədlərini müəyyən etmək;

3.1.2. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək;

3.1.3. dövlət əhəmiyyətli coğrafi məlumat sistemlərinin yaradılması, ümumcoğrafi, torpaq, geobotaniki, siyasi-inzibati, elmi məlumat və digər sahələrarası mövzu xəritələrinin, atlaslarının, kartoqrafik tədris vasitələrinin layihələşdirilməsini, tətbiqini və nəşrini təmin etmək;

3.1.4. dövlət topoqrafik xəritələrin və planların hazırlanmasını, ümumdövlət, müdafiə, elmi-tədqiqat və digər məsələlərin həllini təmin edən dövlət plan və yüksəklik, o cümlədən peyk geodeziya və qravimetrik şəbəkələrin yaradılmasını və işçi vəziyyətində saxlanmasını təmin etmək;

3.1.5. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə birlikdə Azərbaycan Respublikasının dövlət sərhədlərinin, o cümlədən sərhəd sularının və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin delimitasiyası, demarkasiyası və redemarkasiyası işlərini həyata keçirmək;

3.1.6. dəqiqliyinə və məzmununa görə ümumdövlət, müdafiə, elmi-tədqiqat və digər məsələlərin həllini təmin edən dövlət topoqrafik xəritələrin, habelə qrafiki, rəqəmli, fotoqrafik və başqa formalı planların yaradılması, yeniləşdirilməsi və nəşri, geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), qravimetriya, topoqrafiya və kartoqrafiya işlərinin həyata keçirilməsində, materialların istifadəsində dövlətin müdafiəsini və təhlükəsizliyini təmin etmək;

3.1.7. vahid dövlət koordinat, yüksəklik, qravimetrik ölçmə sistemlərinin, topoqrafik xəritə və planların miqyas sıralarını təyin etmək və geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya və kartoqrafiya materiallarının və məlumatlarının metroloji təminatını həyata keçirmək;

3.1.8. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya və kartoqrafiya sahəsində dövlət proqramlarını hazırlamaq və aidiyyəti orqanlarla birlikdə onları yerinə yetirmək;

3.1.9. geodeziya, topoqrafiya, qravimetriya və kartoqrafiya sahələrində beynəlxalq təşkilatlarla, xarici ölkələrlə elmi-texniki əməkdaşlıq etmək, onların təcrübəsini öyrənmək və tətbiq etmək, müvafiq müqavilələrə uyğun olaraq xarici ölkələrin ərazisində geodeziya, topoqrafiya, qravimetriya və kartoqrafiya işlərinin yerinə yetirilməsini təşkil etmək;

3.1.10. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya haqqında qanunvericiliyin tələblərinə hüquqi və fiziki şəxslər tərəfindən riayət olunmasına nəzarət etmək;

3.1.11. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya fəaliyyətinin dövlət tənzimlənməsi ilə bağlı məsələlərə dair təlimatların və metodiki göstərişlərin yerinə yetirilməsini təmin etmək və icrasına nəzarət etmək;

3.1.12. Azərbaycan Respublikasının ərazisində baş verən dəyişikliklərə uyğun olaraq topoqrafik, inzibati, coğrafi və məlumat xəritələrində olan bütün dəyişikliklərin yeni nəşr olunan xəritələrdə əks etdirilməsini təmin etmək;

3.1.13. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin sərhədlərinin müəyyən edilməsi və xəritələrinin

hazırlanması üçün məlumatları aidiyyəti dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan almaq;

3.1.14. vahid koordinat və hündürlük sistemində obyekt və sənaye komplekslərinin, şəhər və başqa yaşayış məntəqələrinin ərazisinin 1:2000 və daha böyük, tikilməmiş (açıq) ərazilərdə isə 1:5000 və daha kiçik miqyaslı topoqrafik xəritələrinin təzələnməsini və çoxməqsədli topoqrafik planaalmasını, habelə ərazi vahidlərinin ərazisindən asılı olaraq sahəsi 4 kv.km-ə qədər olduqda - 1:5000, 4 kv.km-dən 25 kv.km-ə qədər olduqda - 1:10000, 25 kv.km-dən 100 kv.km-ə qədər olduqda - 1:25000, 100 kv.km-dən artıq olduqda - 1:50000 miqyasda tərtib edilməsini həyata keçirmək;

3.1.15. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırmaqla aerofotoplanaalma işlərini həyata keçirmək və digər təşkilatları həmin məlumatlarla müəyyən olunmuş qaydada təmin etmək;

3.1.16. Azərbaycan Respublikasının müdafiəsini və təhlükəsizliyini təmin edən geodeziya, topoqrafiya, kartoqrafiya, hidroqrafiya və digər işləri, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə birlikdə isə delimitasiya və demarkasiya işlərini həyata keçirmək;

3.1.17. torpaq, su, meşə, şəhər və digər kadastr işlərinin aparılması üçün geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), istinadın yaradılması, topogeodeziya və kartoqrafiya plan və xəritələrinin tərtibatı, yeniləşdirilməsi və təminatı işlərini həyata keçirmək;

3.1.18. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiyanın inkişafı üçün aerokosmik məlumatlar əsasında yer səthinin torpaq və bitki örtüyünü tədqiq etmək;

3.1.19. ölkə ərazisində aparılan geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya işlərinin nəticələri və kartoqrafiya təminatı haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə məlumatlar vermək;

3.1.20. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırmaqla mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq ölkə ərazisi üzrə bütün təşkilatların icra etdikləri geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya, qravimetriya və kartoqrafiya məlumatlarının saxlanılmasını və istifadəsini təmin edən tədbirlər hazırlamaq və həyata keçirmək;

3.1.21. torpaq sürüşməsi təhlükəsi olan əraziləri müəyyən edən coğrafi koordinatlar əks olunan xəritələri hazırlamaq, geodeziya tədqiqatları əsasında geodinamik (zəlzələ, sürüşmə və s.) və digər fövqəladə təbii hadisələrin proqnozlaşdırılması məqsədilə tədbirlər görmək, bu barədə digər icra hakimiyyəti orqanlarına və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə məlumat vermək;

3.1.22. ərazi vahidlərinin sərhədlərinin müəyyənləşdirilməsi, geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya, xəritəçəkmə, qravimetriya və kartoqrafiya fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi işlərinin maliyyələşdirilməsinə dair təkliflər hazırlamaq, büdcədən ayrılan vəsait əsasında dövlət sifarişlərini yerinə yetirmək və onun məqsədyönlü istifadəsinə öz səlahiyyətləri daxilində nəzarət etmək;

3.1.23. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin xəritəsini, o cümlədən topoqrafik və dəniz xəritələrini hazırlamaq;

3.1.24. xüsusi təyinatlı geodeziya və kartoqrafiya avadanlıqlarının və cihazlarının uçotunu aparmaq;

3.1.25. coğrafi obyektlərin mövcud və yeni verilən adlarını qeydiyyata almaq və onların uçotunu, habelə coğrafi obyektlərin adlarının dövlət kataloqunu aparmaq;

3.1.26. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya və kartoqrafiya materiallarının və məlumatlarının, xüsusi təyinatlı avadanlıq və cihazların ticarət dövriyyəsinə daxil edilməsi, idxalı, ixracı, uçotu və tətbiqi üçün lazımi tədbirlər görmək və müvafiq qaydada təsdiq edilmiş siyahılarla və istifadəsi üzrə metodik sənədlərlə dövlət orqanlarını təmin etmək;

3.1.27. Azərbaycan Respublikasının ərazisində quraşdırılmış Fasiləsiz Fəaliyyət Göstərən İstinad Stansiyaları Şəbəkəsində olan məlumatlardan istifadə etmək;

3.1.28. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya və kartoqrafiya sahəsində texniki normativ hüquqi aktların hazırlanmasının və tətbiqinin vahid rejim və normativ hüquqi aktlar əsasında həyata keçirilməsini təmin etmək;

3.1.29. kargüzarlıq işini təşkil etmək, geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya, qravimetriya, kartoqrafiya və bununla bağlı digər məsələlərin həllinə dair şikayət və təkliflərə baxmaq, öz səlahiyyətləri daxilində həmin məsələləri həll etmək, lazımi hallarda bu barədə müvafiq təkliflər hazırlamaq;

3.1.30. kartoqrafiya məhsullarında və texniki normativ hüquqi aktlarda Azərbaycan Respublikasının dövlət sərhədlərinin, ərazilərinin və obyektlərinin düzgün çəkilməsinə nəzarət etmək;

3.1.31. Azərbaycan Respublikasının ərazisindəki dəyişikliklərə uyğun olaraq topoqrafik, inzibati, coğrafi və məlumat xəritələrində olan dəyişiklikləri yeni nəşr olunan xəritələrdə əks etdirilməsi üçün müntəzəm olaraq operativ-məlumat xəritəsinin müasirliyini təmin etmək;

3.1.32. fəaliyyət istiqamətləri üzrə tabeliyində olan qurumların göstərdiyi xidmətlərə görə xidmət haqlarından daxilolmaların mühasibat və statistik uçotunu aparmaq, həmin vəsaitin vaxtında və tam həcmdə aidiyyəti üzrə köçürülməsini təmin etmək, göstərilən xidmətlər müqabilində alınan xidmət haqlarından təsdiq edilmiş maliyyə smetasına uyğun Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada istifadə etmək;

3.1.33. aşkar olunan qanun pozuntuları haqqında tədbirlər görülməsini təmin etmək;

3.1.34. Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təkliflər vermək;

3.1.35. “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.36. geodeziya və kartoqrafiya fəaliyyəti sahəsində kadr hazırlığını, mütəxəssislərin hazırlanması və əlavə təhsilini təmin etmək;

3.1.37. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya materiallarının, məlumatlarının dövlət qəbulunu, uçotunu və qeydiyyatını aparmaq;

3.1.38. geodeziya təyinatlı ölçmə vasitələrinin sınağı, geodeziya ölçmələrində vahidliyin təmin edilməsi, geodeziya, topoqrafiya və kartoqrafiya məhsullarının sertifikatlaşdırılmasını həyata keçirmək;

3.1.39. fəaliyyət istiqamətlərindən irəli gələn digər vəzifələri yerinə yetirmək.

4. Agentliyin hüquqları

4.1. Agentlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya fəaliyyətinə dövlət nəzarətini təmin etmək məqsədilə müvafiq tədbirlər həyata keçirmək;

4.1.2. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya fəaliyyəti sahəsində dövlət nəzarətinin həyata keçirilməsi zamanı aşkar edilən qanun

pozuntularının müəyyən olunmuş müddətdə təqsirkarlar tərəfindən aradan qaldırılması üçün müvafiq tədbirlər görmək;

4.1.3. dövlət qeydiyyatına (patent) alınmamış, yaxud sertifikatlaşdırılmamış geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya işlərini müvəqqəti dayandırmaq, qanunvericiliyin tələblərinə uyğun gəlməyən işlərin dayandırılması barədə müvafiq orqanlar və ya məhkəmə qarşısında məsələ (iddia) qaldırmaq;

4.1.4. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya işlərinin, habelə onların nəticələri olan materialların və məlumatların hazırlanmasının və istifadəsinin vahid rejim və texniki normativ hüquqi aktlar əsasında həyata keçirilməsinə nəzarət etmək;

4.1.5. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.6. öz səlahiyyətlərinə aid olan məsələlər barəsində qanunvericilik aktlarının və texniki normativ hüquqi aktların layihələrini hazırlamaq və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim etmək;

4.1.7. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya materiallarının və məlumatlarının seçilməsinə, surətlərinin çıxarılmasına və istifadəyə verilməsinə, Azərbaycan Respublikasının geodeziya və kartoqrafiya fondundan istifadəyə, geodeziya-istinad məntəqələrindən və mühəndis-texniki vasitələrdən istifadəyə, yerin səthində, suda və fəzada yerləşən obyektlər barədə verilən məlumatlara və fəaliyyət istiqamətləri üzrə göstərdiyi xidmətlərə görə xidmət haqları almaq və bu sahədən daxil olan vəsaitlərdən müəyyən olunmuş qaydada istifadə etmək;

4.1.8. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

4.1.9. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya qanunvericiliyinin pozulması ilə inzibati xətalar haqqında işlərə baxmaq və təqsirkar şəxslər barədə inzibati tənbeh tədbirləri tətbiq etmək;

4.1.10. xarici, yerli hüquqi və fiziki şəxslərdən qrant və yardımlar almaq;

4.1.11. fəaliyyət istiqamətlərindən irəli gələn digər hüquqları həyata keçirmək.

5. Agentliyin fəaliyyətinin təşkili

5.1. Agentliyin tərkibinə onun aparatı, yerli bölmələri və tabeliyində olan qurumları (hüquqi şəxslər, təşkilatlar və sair) daxildir.

5.2. Agentliyə Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən rəis rəhbərlik edir.

5.3. rəis bu Əsasnamə ilə Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.4. Agentliyin rəisinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən iki müavini vardır.

5.5. Agentliyin rəisi:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır;

5.5.3. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Agentliyin aparatının, yerli bölmələrinin və tabeliyində olan qurumlarının (hüquqi şəxslər, təşkilatlar və sair) strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edilmək üçün Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edir;

5.5.4. Agentliyin rəis müavinləri, Agentliyin aparatının şöbələrinin rəhbərləri, Agentliyin yerli bölmələrinin və tabeliyində olan qurumlarının (hüquqi şəxslər, təşkilatlar və sair) rəhbərləri və müavinləri istisna olmaqla, Agentliyin digər işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görür, habelə

tabeliyində olan qurumların (hüquqi şəxslər, təşkilatlar və sair) işçilərinin vəzifəyə təyin edilməsinə və vəzifədən azad edilməsinə razılıq verir;

5.5.5. Agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təkliflər verir;

5.5.6. səlahiyyətləri daxilində Agentliyin fəaliyyət dairəsinə aid məsələlər üzrə beynəlxalq danışıqlarda iştirak edir;

5.5.7. Agentliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı məhkəmədə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən səlahiyyətlər daxilində Nazirliyi təmsil edir;

5.5.8. Agentliyin xərclər smetasına uyğun olaraq, ona ayrılmış vəsaitin istifadəsinə sərəncam verir;

5.5.9. Agentliyin aparatının və yerli bölmələrin işçiləri tərəfindən aparılan tədbirlərə müvafiq qaydada nəzarət edir;

5.5.10. işçilərin əlavə təhsili və onların peşə hazırlığının təmin edilməsi üçün müvafiq tədbirlər görür;

5.5.11. Agentliyin yerli bölmələrinə və tabeliyində olan qurumlarına (hüquqi şəxslər, təşkilatlar və sair) icrası məcburi olan əmr və göstərişlər verir və müvafiq qaydada onların icrasını yoxlayır;

5.5.12. bütün dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Agentliyi təmsil edir;

5.5.13. Agentliyin fəaliyyəti barədə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə mütəmadi olaraq hesabat verir.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2013-CÜ İL 25 İYUN TARİXLİ 929 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ SAMUR-YALAMA MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Samur-Yalama Milli Parkı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 25 iyun tarixli 929 nömrəli Fərmanını "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1224-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 25 iyun tarixli 929 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 657) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Samur-Yalama Milli Parkı haqqında Əsasnamə"nin 3.5-ci bəndində "idman, həvəskar balıq ovu" sözləri "balıq və digər su bioresurslarının idman və həvəskar ovu" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 sentyabr 2015-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2008-Cİ İL 19 NOYABR TARİXLİ 18 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ “AZƏRBAYCAN RESPUBLİKASININ GÖYGÖL MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ”DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Göygöl Milli Parkı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 18 nömrəli Fərmanını “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1224-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 18 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 974; 2011, № 2, maddə 85; 2014, № 12, maddə 1561) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Göygöl Milli Parkı haqqında Əsasnamə”nin 3.3-cü bəndində “idman, həvəskar balıq ovu” sözləri “balıq və digər su bioresurslarının idman və həvəskar ovu” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 sentyabr 2015-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2005-Cİ İL 27 APREL TARİXLİ 227 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ ABŞERON MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 aprel tarixli 227 nömrəli Fərmanını "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1224-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 aprel tarixli 227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 302; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 8, maddə 724; 2014, № 12, maddə 1560) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə"nin 3.3-cü bəndində "idman, həvəskar balıq ovu" sözləri "balıq və digər su bioresurslarının idman və həvəskar ovu" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 sentyabr 2015-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 23 NOYABR TARİXLİ 147 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ ALTIAĞAC MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 noyabr tarixli 147 nömrəli Fərmanını "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1224-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 noyabr tarixli 147 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 911; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1559) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamə"nin 3.3-cü bəndində "idman, həvəskar balıq ovu" sözləri "balıq və digər su bioresurslarının idman və həvəskar ovu" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 sentyabr 2015-ci il.

## “AZƏRBAYCAN RESPUBLİKASINDA YARADILMIŞ MİLLİ PARKLARIN ƏSASNAMƏLƏRİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 3 AVQUST TARİXLİ 106 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanını “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1224-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

“Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddələr 614, 625; 2005, № 8, maddə 715; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 2, maddə 86; 2014, № 12, maddə 1558) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş “Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı haqqında Əsasnamə”nin 3.3-cü bəndində “idman, həvəskar balıq ovu” sözləri “balıq və digər su bioresurslarının idman və həvəskar ovu” sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Şirvan Milli Parkı haqqında Əsasnamə”nin 3.3-cü bəndində “idman, həvəskar balıq ovu” sözləri “balıq və digər su bioresurslarının idman və həvəskar ovu” sözləri ilə əvəz edilsin.

3. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Ağgöl Milli Parkı haqqında Əsasnamə”nin 3.3-cü bəndində “idman, həvəskar balıq ovu” sözləri “balıq və digər su bioresurslarının idman və həvəskar ovu” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 sentyabr 2015-ci il.

**“AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏBİƏT VƏ BİOSFER QORUQLARININ ÜMUMİ ƏSASNAMƏSİ”NİN VƏ “AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ PARKLARININ ÜMUMİ ƏSASNAMƏSİ”NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2001-Cİ İL 4 İYUL TARİXLİ 531 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi”nin və “Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 531 nömrəli Fərmanını “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1224-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

“Azərbaycan Respublikasının dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi”nin və “Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 531 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 468; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1556) aşağıdakı dəyişikliklər edilsin:

1.Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi”nin 4.1.6-cı yarımbəndində “balıq ovu” sözləri “balıq və digər su bioresurslarının ovu” sözləri ilə əvəz edilsin.

2.Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi”nin 4.2-ci bəndində “idman və həvəskar balıq ovu” sözləri “balıq və digər su bioresurslarının idman və həvəskar ovu” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 sentyabr 2015-ci il.

## “GEODEZİYA VƏ KARTOQRAFİYA HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1998-Cİ İL 18 İYUL TARİXLİ 738 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 5 fevral tarixli 453 nömrəli Fərmanının icrası ilə əlaqədar qərara alıram:

“Geodeziya və kartoqrafiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyul tarixli 738 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 7, maddə 448; 2001, № 12, maddə 755; 2004, № 1, maddə 19; 2007, № 6, maddə 601; 2008, № 9, maddə 798) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Üçüncü abzasda “Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi” sözləri “xüsusi (sahəvi) təyinatlı geodeziya fəaliyyətinə münasibətdə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, digər hallarda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi” sözləri ilə əvəz edilsin.

2. Dördüncü abzasda “Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi” sözləri “Ekologiya və Təbii Sərvətlər Nazirliyi” sözləri ilə əvəz edilsin.

3. Beşinci abzasda “Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi” sözləri “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi (xüsusi (sahəvi) təyinatlı geodeziya və kartoqrafiya üzrə)” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 fevral 2016-cı il.

## “HİDROMETEOROLOGİYA FƏALİYYƏTİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1999-CU İL 13 FEVRAL TARİXLİ 103 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 516 nömrəli Fərmanının icrası ilə əlaqədarqərara alıram:

“Hidrometeorologiya fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 103 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 2, maddə 86; 2001-ci il, № 12, maddə 755; 2002-ci il, № 8, maddə 487; 2003-cü il, № 10, maddələr 546, 585; 2007-ci il, № 2, maddə 87; 2008, № 9, maddə 798) 2-ci hissəsinin on ikinci abzasında “Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi” sözləri “dövlət torpaq kadastrının aparılması hissəsində Əmlak Məsələləri Dövlət Komitəsi” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 fevral 2016-cı il.

## “SU BİORESURSLARININ ARTIRILMASI, BƏRPASI VƏ MÜHAFİZƏSİ FONDU HAQQINDA ƏSASNAMƏ”NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Balıqçılıq haqqında” Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinin ikinci hissəsinin icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu yaradılsın.

2. “Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 iyun 2016-cı il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2016-cı il 23 iyun tarixli*
*Fərmanı ilə təsdiq edilmişdir*

### Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu haqqında ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu (bundan sonra - Fond) haqqında Əsasnamə “Balıqçılıq haqqında” Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinə əsasən hazırlanmışdır.

1.2. Fondun yaradılmasında əsas məqsəd balıq və digər su bioresurslarının artırılmasının, bərpasının, mühafizəsinin, balıqçılığın elmi təminatının və balıqçılıq sahəsində digər tədbirlərin, habelə balıqçılığın inkişafı proqramlarının maliyyələşdirilməsini təmin etməkdir.

2. Fondun vəsaitinin formalaşdırılması

2.1. Fond aşağıdakı vəsaitlər hesabına formalaşır:

2.1.1. balıqçılıq haqqında qanunvericiliyin pozulmasına görə alınan cərimələr;

2.1.2. balıq və digər su bioresurslarından istifadəyə görə ödəmələr;

2.1.3. balıq və digər su bioresurslarına vurulan zərərə görə kompensasiyalar;

2.1.4. balıqçılıq təsərrüfatı ekspertizasının maliyyələşdirilməsi məqsədi ilə daxil olan vəsaitlər;

2.1.5. dövlət və qeyri-dövlət təşkilatlarının, fiziki və hüquqi şəxslərin könüllü ianələri;

2.1.6. qanunla nəzərdə tutulan digər mənbələr.

3. Fondun vəsaitindən istifadə

3.1. Fondun vəsaiti Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin xüsusi xəzinə hesabında yığılır və həmin vəsaitdən, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırıb təsdiq etdiyi gəlir və xərclər smetası əsasında, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən istifadə olunur.

3.2. Köçürmələrin vaxtlı-vaxtında həyata keçirilməsinə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzarət edir.

3.3. Fondun vəsaiti balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarından səmərəli istifadə edilməsinə, onların mühafizəsinə, süni artırılmasına və bərpasına, balıqçılıq təsərrüfatı meliorasiyası işlərinin aparılmasına, balıq və digər su bioresurslarının mühafizəsi üçün obyektlərin tikintisinə, istismarına, mühafizə olunan sahələrin yaradılmasına və inkişaf etdirilməsinə, balıq və digər su bioresurslarının mühafizəsi sahəsinin sosial inkişafına, balıq və digər su bioresurslarının mühafizəsi və akvakultura sahəsində proqramların və layihələrin hazırlanmasına, nadir və nəsli kəsilməkdə olan balıq və digər su bioresurslarının mühafizəsinə və bərpasına, elmi tədqiqat, layihə-axtarış və təcrübi-metodiki işlərin aparılmasına, balıq və digər su bioresurslarının mühafizəsi, istifadəsinin tənzimlənməsi və akvakulturanın idarə edilməsi sahəsində işləyən mütəxəssislərin həvəsləndirilməsi məqsədi ilə onların sosial təminatına və maddi stimullaşdırılmasına, həmin sahədə işləri yerinə yetirmək üçün tələb olunan texnoloji qurğuların, cihazların, nəqliyyat vasitələrinin və digər ləvazimatın alınmasına, həmçinin xarici ölkələrlə elmi-texniki əməkdaşlığın, balıq və digər su bioresurslarının dövlət monitorinqinin təşkilinə və keçirilməsinə sərf olunur.

3.4. Sosial təminata və maddi stimullaşdırmaya yönəldilən vəsaitin məbləği Fondun vəsaitinin 5 faizindən çox olmamalıdır.

3.5. Balıq və digər su bioresurslarının mühafizəsi və akvakultura üzrə ümumdövlət və regional əhəmiyyətli tədbirlərin keçirilməsinin maliyyələşdirilməsi üçün Fonddan "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə ayrılan vəsait onlara əvəzsiz verilir.

3.6. Fondun il ərzində istifadə olunmamış vəsaiti növbəti ilin hesabına keçirilir.

4. Fondun vəsaitindən istifadəyə nəzarət

4.1. Fondun vəsaitindən səmərəli istifadə olunmasına Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzarət edirlər.

4.2. Fondun vəsaitindən istifadəyə dair illik hesabatı Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi hazırlayıb Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

**“ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2016-CI İL 30 DEKABR TARİXLİ 479-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 479-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun 64-1.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 fevral 2017-ci il.

## “HİDROMETEOROLOGİYA FƏALİYYƏTİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1999-CU İL 13 FEVRAL TARİXLİ 103 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Hidrometeorologiya fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 103 nömrəli Fərmanını “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 103 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 86; 2001, № 12, maddə 755; 2002, № 8, maddə 487; 2003, № 10, maddələr 546, 585; 2007, № 2, maddə 87; 2008, № 9, maddə 798; 2016, № 2 (II kitab), maddə 255) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında hidrometeorologiya fəaliyyətinə dövlət nəzarəti haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci hissənin altıncı abzasından “ölçmə vasitələrinin yoxlanılması və” sözləri çıxarılsın.

2. 6-cı hissənin altıncı abzasından “tələb etmək, ölçmə vasitələrini yoxlamaq” sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 mart 2017-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ İLƏ FRANSA RESPUBLİKASININ ƏTRAF MÜHİT, ENERJİ, DƏNİZ VƏ İQLİM ÜZRƏ BEYNƏLXALQ ƏLAQƏLƏR NAZİRİ ARASINDA ANLAŞMA MEMORANDUMUNUN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Fransa Respublikasının ətraf mühit, enerji, dəniz və iqlim üzrə beynəlxalq əlaqələr naziri arasında 2017-ci il martın 14-də Paris şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Fransa Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 aprel 2017-ci il.

## “EKOLOJİ TƏMİZ KƏND TƏSƏRRÜFATI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 14 APREL TARİXLİ 602-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ “EKOLOJİ TƏMİZ KƏND TƏSƏRRÜFATI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2010-CU İL 24 MAY TARİXLİ 267 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 602-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 267 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 396; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) 1.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“1.2. həmin Qanunun 12.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir;”.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 may 2017-ci il.

**“HİDROMETEOROLOGİYA FƏALİYYƏTİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 14 APREL TARİXLİ 592-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ “HİDROMETEOROLOGİYA FƏALİYYƏTİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1998-Cİ İL 19 AVQUST TARİXLİ 747 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Hidrometeorologiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 592-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Hidrometeorologiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Hidrometeorologiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Hidrometeorologiya fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 747 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 497; 2003, № 10, maddələr 546, 571; 2007, № 6, maddə 601; 2008, № 9, maddə 798; 2009, № 4, maddə 226) 2-ci hissəsinin yeddinci abzasından “və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi” sözləri çıxarılsın, cümlənin sonunda “keçirirlər” sözü “keçirir” sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 iyun 2017-ci il.

## “ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1999-CU İL 4 AVQUST TARİXLİ 173 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 173 nömrəli Fərmanını “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 479-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 fevral tarixli 1245 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

“Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 173 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 483; 2003, № 10, maddə 546; 2014, № 10, maddə 1192) 2-ci hissəsinin ikinci abzasına “66-cı maddəsinin 3-cü hissəsində” sözlərindən əvvəl “64-1.1-ci maddəsinin ikinci cümləsində,” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyul 2017-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2008-Cİ İL 8 İYUL TARİXLİ 796 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ “ƏTRAF MÜHİTƏ VƏ İNSAN SAĞLAMLIĞINA MƏNFİ TƏSİR GÖSTƏRƏN VİBRASİYA VƏ SƏS-KÜY ÇİRKLƏNMƏLƏRİ NORMALARI”NDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 8 iyul tarixli 796 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları”nı “Elm haqqında” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 8 iyul tarixli 796 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 614; 2011, № 2, maddə 85) ilə təsdiq edilmiş “Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. Cədvəl 1 – “Nüfuzedən səs-küyün yaşayış və ictimai binalarda, yaşayış tikililəri ərazisində, habelə insanların cəmləşdiyi digər yerlərdə səs təzyiqinin, səsin ekvivalent enerjisi və maksimal səviyyəsinin yolverilən normaları”nın 4-cü hissəsində “konstruktor, layihə və elmi-tədqiqat təşkilatlarında” sözləri “elmi müəssisə və təşkilatlarda” sözləri ilə əvəz edilsin.

2. Cədvəl 2 – “Binaların otaqlarında vibrasiya təcililərinin yolverilən səviyyələri” üzrə:

2.1. adında “təcililərinin” sözü “təcillərinin” sözü ilə əvəz edilsin;

2.2. 5-ci hissədə “konstruktor, layihə və elmi-tədqiqat təşkilatlarında” sözləri “, elmi müəssisə və təşkilatlarda” sözləri ilə əvəz edilsin.

3. Cədvəl 3 – “Binaların otaqlarında vibrasiya sürətlərinin yolverilən səviyyələri”nin 5-ci hissəsində “konstruktor, layihə və elmi-tədqiqat təşkilatlarında” sözləri “, elmi müəssisə və təşkilatlarda” sözləri ilə əvəz edilsin.

4. Cədvəl 4 – “Binaların otaqlarında mütləq vibrasiya yerdəyişmələrinin yolverilən səviyyələri”nin 5-ci hissəsində “konstruktor, layihə və elmi-tədqiqat təşkilatlarında” sözləri “, elmi müəssisə və təşkilatlarda” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 iyul 2017-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKMƏNİSTAN HÖKUMƏTİ ARASINDA ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair 2017-ci il avqustun 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 noyabr 2017-ci il.

## “YAŞILLIQLARIN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 31 OKTYABR TARİXLİ 840-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ “YAŞILLIQLARIN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ 2014-CÜ İL 2 MAY TARİXLİ 957-IVQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2014-CÜ İL 27 İYUN TARİXLİ 190 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 840 VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun 16.1-ci və 21.4-cü maddələrinin ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini həyata keçirəcək icra hakimiyyəti orqanları barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 2 may tarixli 957-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 iyun tarixli 190 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 640) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1.5-ci yarımbənddə “siyahısını” sözü “siyahısının tərtib edilməsi qaydasını” sözləri ilə əvəz edilsin;

2.2. 1.2-ci bənddən “7.1-ci,” sözləri çıxarılsın;

2.3. 3.1-ci bənddə “6.3-cü, 9.0.6-cı və 12.2-ci maddələrində” sözləri “6.3-cü maddəsinin birinci cümləsində, 9.0.6-cı maddəsində, 12.2-ci maddəsində (birinci halda)” sözləri ilə əvəz edilsin, “16.1-ci” sözlərindən sonra “maddəsinin birinci cümləsində” sözləri əlavə edilsin;

2.4. 3.2-ci bənddə “12.3-cü” sözləri “6.3-cü maddəsinin ikinci cümləsində, 12.3 cü maddəsində (ikinci halda), 14.7-ci maddəsinin ikinci cümləsində” sözləri ilə əvəz edilsin;

2.5. 3.2-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.3-3.5-ci bəndlər əlavə edilsin:

“3.3. həmin Qanunun 12.2-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini istifadəsində olan torpaq sahələrində yaşıllıqların uçotuna və monitorinqinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, digər torpaq sahələrində (bələdiyyə mülkiyyətində olan torpaq sahələri istisna olmaqla) yaşıllıqların uçotuna və monitorinqinə münasibətdə yerli icra hakimiyyəti orqanları, yaşıllıqların kadastrının aparılmasına münasibətdə isə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirirlər;

3.4. həmin Qanunun 12.3-cü maddəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini istifadəsində olan torpaq sahələrindəki yaşıllıqlara münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, digər torpaq sahələrindəki (bələdiyyə mülkiyyətində olan torpaq sahələri istisna olmaqla) yaşıllıqlara münasibətdə isə yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

3.5. həmin Qanunun 21.4-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini istifadəsində olan torpaq sahələrində yaşıllıqlar salınmasına münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, digər torpaq sahələrində yaşıllıqlar salınmasına münasibətdə isə yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.”.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 dekabr 2017-ci il.

## "YAŞILLIQLARIN MÜHAFİZƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2018-Cİ İL 6 MART TARİXLİ 1036-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ "YAŞILLIQLARIN MÜHAFİZƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2014-CÜ İL 2 MAY TARİXLİ 957-IVQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2014-CÜ İL 27 İYUN TARİXLİ 190 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1036-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 2 may tarixli 957-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 iyun tarixli 190 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 640; 2017, № 12 (I kitab), maddə 2286) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2-ci bənddə "14.5-ci maddəsində (hər iki halda)" sözləri "14.5-ci maddəsində (birinci və ikinci hallarda)" sözləri ilə əvəz edilsin;

3.2. "3.1." rəqəmləri "3.1-1." rəqəmləri ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.1-ci bənd əlavə olunsun:

"3.1. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 14.5-ci maddəsində (üçüncü halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.3. 3.5-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəzlənməklə aşağıdakı məzmunda 3.6-cı bənd əlavə edilsin:

“3.6. həmin Qanunun 14.5-ci maddəsində “qurum” dedikdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verdiyi torpaq sahələrinə münasibətdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi nəzərdə tutulur.”.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 mart 2018-ci il.

## “AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏBİƏT VƏ BİOSFER QORUQLARININ ÜMUMİ ƏSASNAMƏSİ”NİN VƏ “AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ PARKLARININ ÜMUMİ ƏSASNAMƏSİ”NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2001-Cİ İL 4 İYUL TARİXLİ 531 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi”nin və “Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 531 nömrəli Fərmanını “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 835-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

“Azərbaycan Respublikasının dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi”nin və “Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 531 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 468; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1556; 2015, № 9, maddə 1018; 2016, № 2 (II kitab), maddələr 234, 251) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi”nin 5.4-cü bəndində “elmi təşkilatların və” sözləri “elmi müəssisə və təşkilatların, habelə” sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi”nin 5.3-cü bəndində “elmi təşkilatların və” sözləri “elmi müəssisə və təşkilatların, habelə” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2018-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2001-Cİ İL 18 SENTYABR TARİXLİ 583 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"ni "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 835-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 598; 2004, № 2, maddə 71, № 12, maddələr 994, 1005; 2005, № 10, maddə 910; 2008, № 11, maddə 970; 2009, № 7, maddə 521, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 130, № 9, maddə 980; 2016, № 10, maddə 1630; 2017, № 3, maddələr 353, 355) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 10.18-ci bəndə "elmi-tədqiqat işlərini" sözlərindən sonra "Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə" sözləri əlavə edilsin.

2. 10.61-ci bəndə "elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin aparılmasını" sözlərindən sonra "Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2018-ci il.

**“AZƏRBAYCAN RESPUBLİKASINDA YARADILMIŞ MİLLİ PARKLARIN ƏSASNAMƏLƏRİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 3 AVQUST TARİXLİ 106 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanını “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 835-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

“Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddələr 614, 625; 2005, № 8, maddə 715; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 2, maddə 86; 2014, № 12, maddə 1558; 2015, № 9, maddə 1019) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş “Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı haqqında Əsasnamə” üzrə:

1.1. 4.3-cü bənddə “elmi təşkilatların və” sözləri “elmi müəssisə və təşkilatların, habelə” sözləri ilə əvəz edilsin;

1.2. 4.9-cu bənddə “elmi tədqiqat idarələri və” sözləri “elmi müəssisə və təşkilatlar, habelə” sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Şirvan Milli Parkı haqqında Əsasnamə” üzrə:

2.1. 4.3-cü bənddə “elmi təşkilatların və” sözləri “elmi müəssisə və təşkilatların, habelə” sözləri ilə əvəz edilsin;

2.2. 4.9-cu bənddə “elmi tədqiqat idarələri və” sözləri “elmi müəssisə və təşkilatlar, habelə” sözləri ilə əvəz edilsin.

3. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Ağgöl Milli Parkı haqqında Əsasnamə” üzrə:

3.1. 4.3-cü bənddə “elmi təşkilatların və” sözləri “elmi müəssisə və təşkilatların, habelə” sözləri ilə əvəz edilsin;

3.2. 4.9-cu bənddə “elmi tədqiqat idarələri və” sözləri “elmi müəssisə və təşkilatlar, habelə” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2018-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 23 NOYABR TARİXLİ 147 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ ALTIAĞAC MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 noyabr tarixli 147 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamə"ni "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 835-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 noyabr tarixli 147 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 911; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1559; 2015, № 9, maddə 1020) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 4.3-cü bənddə "elmi təşkilatların və" sözləri "elmi müəssisə və təşkilatların, habelə" sözləri ilə əvəz edilsin.

2. 4.9-cu bənddə "elmi tədqiqat idarələri və" sözləri "elmi müəssisə və təşkilatlar, habelə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2018-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2005-Cİ İL 27 APREL TARİXLİ 227 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ ABŞERON MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 aprel tarixli 227 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə"ni "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 835-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 aprel tarixli 227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 302; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 8, maddə 724; 2014, № 12, maddə 1560; 2015, № 9, maddə 1021) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 4.3-cü bənddə "elmi təşkilatların və" sözləri "elmi müəssisə və təşkilatların, habelə" sözləri ilə əvəz edilsin.

2. 4.9-cu bənddə "elmi tədqiqat idarələri və" sözləri "elmi müəssisə və təşkilatlar, habelə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2018-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2008-Cİ İL 19 NOYABR TARİXLİ 18 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ GÖYGÖL MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 18 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Göygöl Milli Parkı haqqında Əsasnamə"ni "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 835-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 18 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 974; 2011, № 2, maddə 85; 2014, № 12, maddə 1561; 2015, № 9, maddə 1022) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Göygöl Milli Parkı haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 4.3-cü bənddə "elmi təşkilatların və" sözləri "elmi müəssisə və təşkilatların, habelə" sözləri ilə əvəz edilsin.

2. 4.9-cu bənddə "elmi tədqiqat idarələri və" sözləri "elmi müəssisə və təşkilatlar, habelə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2018-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2013-CÜ İL 25 İYUN TARİXLİ 929 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ SAMUR-YALAMA MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 25 iyun tarixli 929 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Samur-Yalama Milli Parkı haqqında Əsasnamə"ni "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 835-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 25 iyun tarixli 929 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 657; 2015, № 9, maddə 1023) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Samur-Yalama Milli Parkı haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 4.3-cü bənddə "elmi təşkilatların və" sözləri "elmi müəssisə və təşkilatların, habelə" sözləri ilə əvəz edilsin.
2. 4.9-cu bəndin ikinci cümləsində "elmi tədqiqat idarələri və" sözləri "elmi müəssisə və təşkilatlar, habelə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2018-ci il.

## “ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2018-Cİ İL 12 İYUN TARİXLİ 1176-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1176-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun 52-ci və 58-ci maddələrinin 2-ci hissələrinə uyğun olaraq, dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.3. həmin Qanunun 52-ci maddəsinin 7-ci və 9-cu hissələrində nəzərdə tutulmuş Ekspert Komissiyası haqqında əsasnaməni Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 1-ci hissəsinin on üçüncü abzasında, 40-cı maddəsinin 2-ci hissəsində, 52-ci maddəsinin 1-ci, 2-ci, 5-ci, 7-ci, 8-ci (hər iki halda), 9-cu, 10-cu (hər iki halda) və 12-ci hissələrində, 54-cü maddəsinin 1-ci hissəsinin səkkizinci bəndində, 55-ci maddəsinin 1.2-ci bəndində, 56-cı maddəsinin 1-ci hissəsində, 57-ci maddəsinin 1-ci və 3-cü hissələrində, 58-ci maddəsinin 2-ci, 4-cü və 7-ci hissələrində, 58-1-ci maddəsinin 1.2-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Qanunun 52-ci maddəsinin 2-ci və 9-cu hissələrində, 54-cü maddəsinin 1-ci hissəsinin səkkizinci bəndində, 56-cı maddəsinin 1-ci hissəsində, 58-ci maddəsinin 2-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

3.3. həmin Qanunun 1-ci maddəsinin 1-ci hissəsinin on üçüncü abzasında, 40-cı maddəsinin 2-ci hissəsində, 52-ci maddəsinin 1-ci, 7-ci, 8-ci (birinci halda), 10-cu (hər iki halda) və 12-ci hissələrində, 55-ci maddəsinin 1.2-ci bəndində, 57-ci maddəsinin 1-ci və 3-cü hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

3.4. həmin Qanunun 58-ci maddəsinin 4-cü və 7-ci hissələrində, 58-1-ci maddəsinin 1.2-ci bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

3.5. həmin Qanunun 52-ci maddəsinin 5-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, müalicə-sağlamlaşdırma yerləri və kurortlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

3.6. həmin Qanunun 52-ci maddəsinin 8-ci (ikinci halda) hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 iyul 2018-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ İLƏ ÜMUMDÜNYA METEOROLOGİYA TƏŞKİLATI ARASINDA ANLAŞMA MEMORANDUMUNUN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Ümumdünya Meteorologiya Təşkilatı arasında 2018-ci il aprelin 24-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Ümumdünya Meteorologiya Təşkilatına bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyul 2018-ci il.

## "ƏTRAF MÜHİTƏ TƏSİRİN QİYMƏTLƏNDİRİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2018-Cİ İL 12 İYUN TARİXLİ 1175-VQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1175-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. həmin Qanunun 4.2-ci maddəsinə uyğun olaraq, ətraf mühitə təsirin, o cümlədən transsərhəd təsirin qiymətləndirilməsinin aparılması qaydasını və müddətini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.4. həmin Qanunun 4.15-ci maddəsinə uyğun olaraq, ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin ixtisas attestatının formasını və attestatın verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi qaydasını, eləcə də ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.5. həmin Qanunun 8.2-ci maddəsinə uyğun olaraq, strateji ekoloji qiymətləndirmənin aparılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.6. həmin Qanunun 17.1-ci maddəsinə uyğun olaraq, ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə sahəsində nəzarətin həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4.2-ci maddəsində, 4.3-cü maddəsinin ikinci cümləsində, 4.4-cü maddəsinin

birinci cümləsində, 4.5 – 4.7-ci, 4.12 – 4.15-ci, 4.18-ci, 4.20-ci maddələrində, 7.3-cü və 7.4-cü maddələrinin birinci cümlələrində, 8.1-ci (hər iki halda), 8.2-ci maddələrində, 8.3-cü maddəsinin ikinci cümləsində, 8.4-cü, 8.6-cı, 8.7-ci, 12.1.9-cu, 12.2.1-ci, 12.2.3 – 12.2.5-ci, 13.1.3-cü, 13.2.1-ci, 17.1-ci və 17.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Qanunun 4.2-ci, 4.15-ci, 8.2-ci və 17.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

3.3. həmin Qanunun 4.3-cü maddəsinin ikinci cümləsində, 4.4-cü maddəsinin birinci cümləsində, 4.5-ci, 4.12 – 4.14-cü, 4.18-ci, 4.20-ci maddələrində, 7.3-cü maddəsinin birinci cümləsində, 7.4-cü maddəsinin birinci cümləsində, 8.1-ci (hər iki halda) maddəsində, 8.3-cü maddəsinin ikinci cümləsində, 8.4-cü, 8.6-cı, 8.7-ci, 12.1.9-cu, 12.2.1-ci, 12.2.3 – 12.2.5-ci, 13.1.3-cü, 13.2.1-ci və 17.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

3.4. həmin Qanunun 4.6-cı maddəsində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

3.5. həmin Qanunun 4.7-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, müalicə-sağlamlaşdırma yerləri və kurortlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyul 2018-ci il.

**“YAŞILLIQLARIN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2016 CI İL 17 MART TARİXLİ 841 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 840-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar qərara alıram:

“Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 17 mart tarixli 841 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 462) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bənd üzrə:

1.1. “7.1-ci (yaşıllıqların mühafizəsinə dövlət nəzarəti, onların uçotu, kadastrı və monitorinqi istisna olmaqla),” sözləri çıxarılsın;

1.2. “işlər” sözündən sonra “, habelə yaşıllıqların uçotu və monitorinqi” sözləri əlavə edilsin;

1.3. “maddələrində” sözü (birinci halda) “maddəsində” sözü ilə əvəz edilsin;

1.4. “digər torpaq sahələrinə” sözlərindən sonra “(bələdiyyə mülkiyyətində olan torpaq sahələri istisna olmaqla)” sözləri əlavə edilsin.

2. 1.3-cü bənddə “uçotu, kadastrı və monitorinqi” sözləri “kadastrı” sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 iyul 2018-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2001-Cİ İL 18 SENTYABR TARİXLİ 583 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 840-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 598; 2004, № 2, maddə 71, № 12, maddələr 994, 1005; 2005, № 10, maddə 910; 2008, № 11, maddə 970; 2009, № 7, maddə 521, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 130, № 9, maddə 980; 2016, № 10, maddə 1630; 2017, № 3, maddələr 353, 355; 2018, № 4, maddə 689) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 10.70-1-ci bənddə "Yaşıllıqların uçotu, kadastrı və monitorinqi" sözləri "mərkəzi və yerli icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən təqdim edilən yaşıllıqların uçotu və monitorinqi" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 10.70-2 və 10.70-3-cü bəndlər əlavə edilsin:

"10.70-2. yaşıllıqların uçotu və monitorinqi barədə məlumatlar əsasında yaşıllıqların kadastrını aparır, yaşıllıqların müfəssəl siyahısını tərtib edir;

10.70-3. yaşıllıqların salınması üçün faydalı bitki cinsi və növlərini yerli iqlim şəraiti və torpaqların xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edir;".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 iyul 2018-ci il.

## "YAŞILLIQLARIN MÜHAFİZƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2014-CÜ İL 2 MAY TARİXLİ 957-IVQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2014-CÜ İL 27 İYUN TARİXLİ 190 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 840-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar qərara alıram:

"Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 2 may tarixli 957-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 iyun tarixli 190 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 640; 2017, № 12 (I kitab), maddə 2286; 2018, № 3, maddə 439) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1-1-ci bənddə "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin.
2. 3.4-cü bəndə "nəzərdə tutulmuş" sözlərindən əvvəl "və 16.1-ci maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin.
3. Aşağıdakı məzmunda 3.5-1-ci bənd əlavə edilsin:

"3.5-1. həmin Qanunun 21.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 oktyabr 2018-ci il.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN "ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" 1999-CU İL 4 AVQUST TARİXLİ 173 NÖMRƏLİ VƏ "ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ" 2000-Cİ İL 30 AVQUST TARİXLİ 392 NÖMRƏLİ FƏRMANLARINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1176-VQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alıram:

1. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 173 nömrəli Fərmanının 2-ci hissəsi (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 483; 2003, № 10, maddə 546; 2014, № 10, maddə 1192; 2017, № 7, maddə 1342) aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 1-ci hissəsinin on üçüncü abzasında, 40-cı maddəsinin 2-ci hissəsində, 52-ci maddəsinin 1-ci, 2-ci, 5-ci, 7-ci, 8-ci (hər iki halda), 9-cu, 10-cu (hər iki halda) və 12-ci hissələrində, 54-cü maddəsinin 1-ci hissəsinin səkkizinci bəndində, 55-ci maddəsinin 1.2-ci bəndində, 56-cı maddəsinin 1-ci hissəsində, 57-ci maddəsinin 1-ci və 3-cü hissələrində, 58-ci maddəsinin 2-ci, 4-cü və 7-ci hissələrində, 58-1-ci maddəsinin 1.2-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 4-cü maddəsinin 1-ci hissəsinin 1.1–1.3-cü, 1.6–1.9-cu (xüsusi elmi-ekoloji və bioloji əhəmiyyətli ətraf mühitin mühafizəsi obyektlərinin siyahısının təsdiq edilməsi hissəsində), 1.10-cu və 1.11-ci bəndlərində, 2-ci hissəsinin 2.1-ci (fəaliyyət istiqamətlərinə uyğun olaraq) bəndində, 16-cı maddəsinin ikinci hissəsində, 17-ci maddəsinin 3-cü hissəsində, 64-1.1-ci maddəsinin ikinci cümləsində, 66-cı maddəsinin 3-cü hissəsində və 79-cu maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 52-ci maddəsinin 2-ci və 9-cu hissələrində, 54-cü maddəsinin 1-ci hissəsinin səkkizinci bəndində, 56-cı maddəsinin 1-ci hissəsində, 58-ci maddəsinin 2-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin Qanunun 4-cü maddəsinin 2-ci hissəsinin 2.1-ci (fəaliyyət istiqamətlərinə uyğun olaraq), 2.2–2.6-cı bəndlərində, 18-ci maddəsinin 3-cü hissəsində, 71-ci maddəsinin 1-ci, 2-ci hissələrində və 72-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir;

2.5. həmin Qanunun 1-ci maddəsinin 1-ci hissəsinin on üçüncü abzasında, 40-cı maddəsinin 2-ci hissəsində, 52-ci maddəsinin 1-ci, 7-ci, 8-ci (birinci halda), 10-cu (hər iki halda) və 12-ci hissələrində, 55-ci maddəsinin 1.2-ci bəndində, 57-ci maddəsinin 1-ci və 3-cü

hissələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

2.6. həmin Qanunun 58-ci maddəsinin 4-cü və 7-ci hissələrində, 58-1-ci maddəsinin 1.2-ci bəndində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulurlar;

2.7. həmin Qanunun 52-ci maddəsinin 5-ci hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, müalicə-sağlamlaşdırma yerlərinə və kurortlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

2.8. həmin Qanunun 52-ci maddəsinin 8-ci (ikinci halda) hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur.”.

2. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 392 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 615; 2001, № 10, maddə 640, № 12, maddə 755; 2002, № 1, maddə 52; 2003, № 10, maddələr 546, 585; 2007, № 2, maddə 87; 2008, № 8, maddə 719; 2009, № 10, maddə 785; 2014, № 5, maddə 477; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. ikinci abzasdan “11-ci maddəsinin ikinci hissəsində,” sözləri çıxarılsın;

2.2. onuncu abzas ləğv edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 noyabr 2018-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN "AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" 2001-Cİ İL 18 SENTYABR TARİXLİ 583 NÖMRƏLİ VƏ "AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN SƏNAYEDƏ İŞLƏRİN TƏHLÜKƏSİZ GÖRÜLMƏSİNƏ DAĞ-MƏDƏN NƏZARƏTİ DÖVLƏT AGENTLİYİ HAQQINDA ƏSASNAMƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" 2007-Cİ İL 28 DEKABR TARİXLİ 695 NÖMRƏLİ FƏRMANLARINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1176-VQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 598; 2004, № 2, maddə 71, № 12, maddələr 994, 1005; 2005, № 10, maddə 910; 2008, № 11, maddə 970; 2009, № 7, maddə 521, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 130, № 9, maddə 980; 2016, № 10, maddə 1630; 2017, № 3, maddələr 353, 355; 2018, № 4, maddə 689, № 7 (I kitab), maddə 1503) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 11.22-ci bəndində "məhdudlaşdırılması və ya bu fəaliyyətə xitam verilməsi haqqında vəsatət qaldırmaq" sözləri "dayandırılması və ya qadağan edilməsi barədə qərar qəbul etmək" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1245; 2008, № 10, maddə 898; 2009, № 4, maddə 219, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2016, № 3, maddə 458; 2017, № 3, maddə 360) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.24-cü bəndində "səlahiyyətləri daxilində təhlükəli təsərrüfat fəaliyyəti növləri üzrə" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 noyabr 2018-ci il.

## “AZƏRBAYCAN RESPUBLİKASININ QIZILAĞAC MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ”NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə uyğun olaraq qərara alıram:

1. “Azərbaycan Respublikasının Qızılağac Milli Parkı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 fevral 2019-cu il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2019-cu il 22 fevral tarixli Fərmanı ilə*
*təsdiq edilmişdir*

### Azərbaycan Respublikasının Qızılağac Milli Parkı haqqında ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Qızılağac Milli Parkı (bundan sonra – Milli Park) xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi, bioloji müxtəlifliyin qorunub saxlanılması, təbii resurslardan səmərəli istifadə və ekoturizmin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli 512 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Lənkəran, Masallı və Neftçala rayonlarının inzibati ərazilərində yaradılmışdır.

1.2. Milli Park xüsusi ekoloji, tarixi, estetik, bioloji əhəmiyyət daşıyan təbiət komplekslərinin və obyektlərinin yerləşdiyi, ətraf mühiti mühafizə, maarifçilik, elmi, mədəni, ekoturizm məqsədləri üçün istifadə edilən təbiəti mühafizə və elmi müəssisə və ya təşkilat statusu olan ərazidir.

1.3. Milli Park öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik) normativ hüquqi aktlarını və digər normativ hüquqi aktları rəhbər tutur.

1.4. Milli Parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və həmin ərazidəki torpaq, su, bitki və heyvanlar aləmi onun daimi istifadəsinə verilir.

1.5. Milli Parkda onun məqsədli təyinatına, təbiət komplekslərinin və obyektlərinin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan başqa fəaliyyət

növləri Milli Parkla hüquqi və fiziki şəxslər arasında bağlanılmış və ekoloji ekspertizadan keçirilmiş müqavilələr əsasında həyata keçirilir.

1.6. Milli Parkın torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədilə onun sanitariya-mühafizə zonası müəyyən edilir. Milli Parkın sanitariya-mühafizə zonasının müəyyən edilməsi və zonanın mühafizə rejimi "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir.

1.7. Milli Park Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsaitlər, ətraf mühitin mühafizəsi fondlarının vəsaiti, habelə qanunvericiliklə qadağan olunmayan qrantlar və ianələr hesabına maliyyələşdirilir.

1.8. Milli Parkın idarə edilməsi və mühafizəsi üçün yaradılan idarənin xüsusi fondunun və vəsaitlərinin yaradılması və istifadəsi qaydasını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

1.9. Milli Parkın pasportunu Nazirlik hazırlayır. Pasportda Milli Parkın adı, yerləşdiyi yer, yaradılma tarixi, əhəmiyyəti, torpaqdan daimi istifadə hüququna dair hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın seriyası və nömrəsi, mühafizə olunan ərazinin xüsusiyyətləri, onun ümumi görünüşünün sxemi, ərazisində müəyyən edilən fəaliyyət zonaları, qorunan nadir fauna və flora növləri, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər öz əksini tapmalıdır. Pasport Nazirlikdə dövlət qeydiyyatına alınmaqla Milli Parkda saxlanılır.

1.10. Milli Parkda təbiət qoruq fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazinin perspektiv inkişaf şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

1.11. Milli Parkın müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin və Milli Parkın adı həkk olunmuş möhürü, blankları və ştampları, xəzinə hesabları, bayrağı və emblemi vardır.

2. Milli Parkın yaradılmasının məqsədləri

2.0. Milli Parkın yaradılmasının məqsədləri aşağıdakılardır:

2.0.1. təbiət komplekslərini, genetik fondu, bioloji müxtəlifliyi, nadir və etalon təbiət ərazilərini, tarix-mədəniyyət obyektlərini qoruyub saxlamaq;

2.0.2. turizm və rekreasiya üçün şərait yaratmaq;

2.0.3. təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

2.0.4. əhalini ekoloji cəhətdən maarifləndirmək;

2.0.5. ekoloji monitorinqi həyata keçirmək;

2.0.6. zədələnmiş təbiət, tarix-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

3. Milli Parkın xüsusi mühafizə rejiminin xüsusiyyətləri

3.1. Milli Parkın ərazisi və obyektləri hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

3.2. Milli Parkın fiziki və hüquqi şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır.

3.3. Milli Parkın ərazisində onun təbiət, tarix-mədəniyyət və ekoloji xüsusiyyətləri nəzərə alınmaqla, xüsusi mühafizənin rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

3.3.1. xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

3.3.2. təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;

3.3.3. turizm və rekreasiya zonaları;
3.3.4. turistlərə, elmi və maarifləndirmə məqsədli şəxslərə xidmət göstərilən zonalar;
3.3.5. Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.
3.4. Milli Park ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonalarına bölgüsünü Nazirliyin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.
3.5. Milli Parkın turizm və rekreasiya zonalarında turizm və rekreasiya məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə (ov, balıq və digər su bioresurslarının idman və həvəskar ovu və s.) yol verilir.
3.6. Milli Parkda elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilir.
3.7. Milli Parkın ərazisində aşağıdakılar qadağan edilir:
3.7.1. təbiət komplekslərinə, genetik fonda, bioloji müxtəlifliyə və tarix-mədəniyyət obyektlərinin varlığına təhlükə yaradan hər bir fəaliyyət;
3.7.2. geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;
3.7.3. hidroloji rejimin dəyişməsinə səbəb olan işlərin aparılması;
3.7.4. kimya sənayesi, metallurgiya, nüvə energetikası və xüsusi ekoloji təhlükə yaradan digər müəssisələrin fəaliyyəti;
3.7.5. Milli Parkın fəaliyyəti ilə bağlı olmayan magistral yolların tikintisi, Milli Parkın fəaliyyəti ilə bağlı olmayan boru kəmərlərinin, elektrik xətlərinin və digər kommunikasiyaların çəkilməsi;
3.7.6. müəyyən olunmuş yerlərdən kənarda tonqal yandırılması, turizm və rekreasiya zonaları istisna olmaqla, dayanacaqların təşkili və çadır qurulması;
3.7.7. bu məqsədlər üçün müəyyən olunmuş yerlərdən və ümumi istifadə olunan quru və su yollarından kənar mexaniki nəqliyyat vasitələrinin hərəkəti və dayanacağı, ev heyvanlarının köçürülməsi;
3.7.8. meşələrdə əsas istifadə qırıntısı;
3.7.9. yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası.
3.8. Milli Parkın ərazisində onun ekoloji, elmi, estetik, mədəni və rekreasiya dəyərini aşağı sala bilən digər fəaliyyət növlərini də Milli Park məhdudlaşdırır və ya qadağan edir.
3.9. Milli Parkın mühafizəsini Nazirliyin vəzifəli şəxslərindən ibarət mühafizə xidməti həyata keçirir. Bu işə Milli Parkın direktoru və direktorun mühafizə işləri üzrə müavini öz səlahiyyətləri daxilində rəhbərlik edirlər.
3.10. Milli Parkın mühafizəsini həyata keçirən Nazirliyin vəzifəli şəxsləri xidməti vəzifələrini yerinə yetirərkən üzərində fərqləndirici nişan olan xüsusi forma geyinirlər. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həmin şəxslərə xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.
3.11. Milli Parkın mühafizə xidmətinin aşağıdakı hüquqları vardır:
3.11.1. Milli Parkın ərazisində və onun mühafizə zonasında xüsusi mühafizə rejimini pozanların sənədlərini yoxlamaq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, nəqliyyat vasitələrinə və gəmilərə baxış keçirmək, sübut əhəmiyyəti olan əşyaları və sənədləri götürmək, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olan predmetin aşkar edilməsi məqsədilə şəxsi axtarış həyata keçirmək və əşyaları (o cümlədən ov və balıq ovu alətlərini, əldə olunmuş ov məhsullarını) yoxlamaq;
3.11.2. fiziki və hüquqi şəxslərin Milli Parkın ərazisində və onun mühafizə zonasında "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan fəaliyyətini dayandırmaq;
3.11.3. Milli Parkın ərazisindən istifadə qaydalarının, həmin ərazinin mühafizə rejiminin pozulmasına görə inzibati xəta haqqında protokol tərtib etmək;

3.11.4. Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə və istifadə sahəsində pozuntu hallarını aradan qaldırmaq məqsədilə icrası məcburi olan göstərişlər vermək.

3.12. Milli Parkın rejiminin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

3.13. Milli Parka vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ödənilir.

4. Milli Parkın elmi tədqiqat fəaliyyəti

4.1. Milli Parkın elmi tədqiqat fəaliyyəti rekreasiya məqsədilə istifadə şəraitində ekoloji vəziyyətin proqnozlaşdırılmasına və qiymətləndirilməsinə, səciyyəvi və nadir təbiət komplekslərinin, o cümlədən bioloji müxtəlifliyin elmi cəhətdən əsaslandırılmış üsullarla qorunmasına yönəldilir.

4.2. Milli Parkda elmi tədqiqat fəaliyyətini Milli Parkın elm şöbəsinin işçiləri həyata keçirirlər.

4.3. Milli Parkda elmi tədqiqatlara kənar elmi müəssisə və təşkilatların, habelə mütəxəssislərin cəlb edilməsinə yol verilir.

4.4. Milli Parkda elmi tədqiqat, mədəni-maarif, tədris tədbirlərinin həyata keçirilməsi və ekoloji maarifləndirmə işinin təşkili məqsədilə Şura yaradıla bilər. Şuranın fəaliyyətinə Milli Parkın direktoru rəhbərlik edir. Şuranın tərkibini və Əsasnaməsini Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri təsdiq edir.

4.5. Milli Parkın elmi və herbari fondları yaradılır və daimi saxlanılır.

4.6. Milli Parkın elmi əsərlər çap etdirmək hüququ vardır.

4.7. Milli Parkda aparılan elmi tədqiqat işlərində əldə edilmiş nəticələrdən aşağıdakı məqsədlər üçün istifadə olunur:

4.7.1. heyvan və bitki ehtiyatlarının qorunub saxlanılmasının, artırılmasının və onlardan səmərəli istifadənin elmi əsaslarını işləyib hazırlamaq və Milli Parkın ərazisində yayılmış vəhşi heyvanların sayının optimal normadan artığının müvafiq ərazidə yayılmış və nəsli kəsilmiş heyvan növlərinin əvvəlki yerlərinə baytarlıq-sanitariya tələblərinə uyğun olaraq köçürülməsini həyata keçirmək;

4.7.2. Milli Parkın ərazisində təbiət komplekslərinin təbii halda saxlanılmasını təmin edən tədbirləri, təbiət kompleksləri komponentlərinin faydalı məhsuldarlığının qiymətləndirilməsi və yüksəldilməsi metodlarını işləyib hazırlamaq;

4.7.3. Milli Parka bitişik ərazilərdə təbii ehtiyatlardan təsərrüfat məqsədləri üçün istifadənin səmərəliliyini müəyyənləşdirmək və nəticələrini aşkara çıxarmaq;

4.7.4. ziyanverici heyvanlara və alaq otlarına qarşı mübarizə metodlarını, ilk növbədə, bioloji metodların layihələrini işləyib hazırlamaq;

4.7.5. su rejimində, torpağın və bitki örtüyünün xassələrində, heyvanların sayında və bitkilərin (fitosenozların) məhsuldarlığında dəyişikliklərin proqnozlaşdırılması məqsədilə həmin dəyişikliklərin səbəbini öyrənmək;

4.7.6. təbiətdə cərəyan edən proseslər haqqında sistemləşdirilmiş faktiki materiallar və nəzəri nəticələr hesabına elmi bilikləri zənginləşdirmək;

4.7.7. Milli Parkın hüdudlarından kənarda, təsərrüfat məqsədləri üçün istifadə edilən ərazilərdə eyni və ya oxşar bioekoloji metodları hazırlamaq.

4.8. Elmi tədqiqatların aparılması metodları Milli Parkın rejiminin tələblərinə zidd olmamalıdır. Aparılan işlərin nəticələri hazırlanmış elmi təkliflər çərçivəsində tətbiq edilir.

4.9. Milli Park elmi tədqiqat işlərini, həyata keçirəcəyi elmi-texniki və digər elmi tədbirləri hər təqvim ili üçün Nazirliyin təsdiq etdiyi və maliyyələşdirdiyi planlar üzrə aparır.

Milli Parkla bu sahədə əməkdaşlıq, Nazirliyin təsdiq etdiyi müqavilələr əsasında, müvafiq profilli elmi müəssisə və təşkilatlar, habelə ali təhsil müəssisələri ilə birgə həyata keçirilir.

5. Milli Parkın təsərrüfat fəaliyyəti

5.1. Milli Parkın təsərrüfat fəaliyyəti təbiət və tarix-mədəniyyət obyektlərinin mühafizəsindən, onlara xidmət və onların bərpası üzrə tədbirlərin həyata keçirilməsindən, təbiətdə idarə olunan istirahət və turizm tədbirlərinin təşkilindən ibarətdir.

5.2. Milli Parkın turizm və rekreasiya, turistlərə, elmi və maarifləndirmə məqsədli şəxslərə xidmət göstərilən zonalarının ərazisində yerləşən binalar və qurğular fiziki və hüquqi şəxslərə icarəyə və ya istifadəyə turizmin, o cümlədən təbiətdə istirahətin inkişafı məqsədilə verilir.

5.3. Milli Parkın turizm və rekreasiya, turistlərə, elmi və maarifləndirmə məqsədli şəxslərə xidmət göstərilən zonalarının ərazisində mehmanxanaların, kempinqlərin, turbazaların və digər iaşə obyektlərinin tikintisi və istifadəsi, əhalinin istirahəti məqsədilə digər şəraitin yaradılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Turizm haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq Milli Parkla fiziki və hüquqi şəxslər arasında bağlanılmış və ekoloji ekspertizadan keçirilmiş müqavilələr əsasında həyata keçirilir.

6. Milli Parkın mühafizəsinə, qorunmasına və istifadəsinə dövlət nəzarəti

Milli Parkın vəziyyətinə, onun mühafizəsi, qorunması və bərpası ilə bağlı tədbirlərin icrasına dövlət nəzarətini Nazirlik həyata keçirir.

7. Milli Parkın fəaliyyətinin təşkili

7.1. Milli Parkın strukturunu, ştat cədvəlini və xərclər smetasını Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri təsdiq edir.

7.2. Milli Parka onun direktoru rəhbərlik edir. Milli Parkın direktoru və direktorun müavinləri Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

7.3. Milli Parkın direktoru aşağıdakı səlahiyyətləri yerinə yetirir:

7.3.1. Milli Parka ümumi rəhbərliyi və nəzarəti həyata keçirir;

7.3.2. təbiəti mühafizə, elmi tədqiqat və biotexniki planların layihələrinin hazırlanmasını və yerinə yetirilməsini təmin edir;

7.3.3. Milli Parkda elmi tədqiqat işlərinin planlarının, tapşırıqların yerinə yetirilməsinin gedişi haqqında struktur bölmələrinin hesabatlarını dinləyir;

7.3.4. Milli Parkın ixtisaslı kadrlarla komplektləşdirilməsini təşkil edir, kadrların əlavə təhsili istiqamətində qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görür;

7.3.5. Milli Parkın mühafizə rejimi, elmi tədqiqatların və onların tətbiqinin nəticələri haqqında hesabatları, statistik və maliyyə hesabatlarını aidiyyəti üzrə təqdim edir;

7.3.6. Milli Parkın maddi-texniki təminatını təşkil edir;

7.3.7. Milli Parkı təmsil edir.

7.4. Direktor Milli Parkın fəaliyyətinə görə şəxsən məsuliyyət daşıyır.

7.5. Milli Parkın işçiləri Milli Parkın rejiminin pozulması hallarının qarşısının alınmasında mühafizə xidmətinin işçilərinə kömək edirlər.

7.6. Milli Parkın təbiət ərazilərindən və obyektlərindən ödənişli istifadə "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tətbiq edilir.

7.7. Əhalinin və qeyri-hökumət təşkilatlarının Milli Parkın mühafizəsi ilə bağlı təqdim etdiyi təkliflərin məqsədəuyğun olub-olmadığına Milli Parkda baxılır.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2004-CÜ İL 24 APREL TARİXLİ 57 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ HİRKAN MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ, 2004-CÜ İL 3 AVQUST TARİXLİ 106 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AKADEMİK HƏSƏN ƏLİYEV ADINA AZƏRBAYCAN RESPUBLİKASININ ZƏNGƏZUR MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ, "AZƏRBAYCAN RESPUBLİKASININ ŞİRVAN MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ VƏ "AZƏRBAYCAN RESPUBLİKASININ AĞGÖL MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ, 2004-CÜ İL 23 NOYABR TARİXLİ 147 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ ALTIAĞAC MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ, 2005-Cİ İL 27 APREL TARİXLİ 227 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ ABŞERON MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ, 2008-Cİ İL 19 NOYABR TARİXLİ 18 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ GÖYGÖL MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ VƏ 2008-Cİ İL 19 NOYABR TARİXLİ 19 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ ŞAHDAĞ MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 24 aprel tarixli 57 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 237; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1557; 2018, № 4, maddə 690) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Hirkan Milli Parkı haqqında Əsasnamə"nin 7.4.5-ci yarımbəndindən "mühasibat," sözü çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddələr 614, 625; 2005, № 8, maddə 715; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 2, maddə 86; 2014, № 12, maddə 1558; 2015, № 9, maddə 1019; 2018, № 4, maddə 691) ilə təsdiq edilmiş "Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı haqqında Əsasnamə"nin, "Azərbaycan Respublikasının Şirvan Milli Parkı haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının Ağgöl Milli Parkı haqqında Əsasnamə"nin 7.4.5-ci yarımbəndlərindən "mühasibat," sözü çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 noyabr tarixli 147 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 911; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1559; 2015, № 9, maddə 1020; 2018, № 4, maddə 692) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamə"nin 7.4.5-ci yarımbəndindən "mühasibat," sözü çıxarılsın.

4. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 aprel tarixli 227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 302; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 8, maddə 724; 2014, № 12, maddə 1560; 2015, № 9, maddə 1021; 2018, № 4, maddə 693) ilə təsdiq edilmiş "Azərbaycan

Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə"nin 7.4.5-ci yarımbəndindən "mühasibat," sözü çıxarılsın.

5. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 18 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 974; 2011, № 2, maddə 85; 2014, № 12, maddə 1561; 2015, № 9, maddə 1022; 2018, № 4, maddə 694) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Göygöl Milli Parkı haqqında Əsasnamə"nin 7.4.5-ci yarımbəndindən "mühasibat," sözü çıxarılsın.

6. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 19 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 975; 2011, № 2, maddə 85; 2014, № 12, maddə 1562; 2018, № 4, maddə 695) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Şahdağ Milli Parkı haqqında Əsasnamə"nin 7.4.5-ci yarımbəndindən "mühasibat," sözü çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 mart 2019-cu il.

## “XÜSUSİ MÜHAFİZƏ OLUNAN TƏBİƏT ƏRAZİLƏRİ VƏ OBYEKTLƏRİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2019-CU İL 5 MART TARİXLİ 1528-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ “XÜSUSİ MÜHAFİZƏ OLUNAN TƏBİƏT ƏRAZİLƏRİ VƏ OBYEKTLƏRİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2000-Cİ İL 15 İYUL TARİXLİ 366 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1528-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. geoloji parklar haqqında ümumi əsasnamə layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 366 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 506; 2003, № 10, maddə 546) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasa “hissələrində” sözündən sonra “, 40-1-ci maddəsinin üçüncü və dördüncü hissələrində” sözləri əlavə edilsin;

3.2. üçüncü və dördüncü abzaslara “biosfer qoruqlarına” sözlərindən sonra “, geoloji” sözü əlavə edilsin;

3.3. beşinci abzasda “biosfer qoruqları” sözləri “biosfer qoruqlarına, geoloji” sözləri ilə əvəz edilsin;

3.4. altıncı abzasda “və 21-ci maddəsinin dördüncü hissəsində” sözləri “, 21-ci maddəsinin dördüncü hissəsində və 40-1-ci maddəsinin üçüncü hissəsində” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 aprel 2019-cu il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN "AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ YANINDA GEODEZİYA VƏ KARTOQRAFİYA ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN YARADILMASI VƏ FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİ HAQQINDA" 2015-Cİ İL 14 SENTYABR TARİXLİ 594 NÖMRƏLİ FƏRMANININ LƏĞV EDİLMƏSİ, 2017-Cİ İL 3 MAY TARİXLİ 1361 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "RAYON (ŞƏHƏR) MƏHKƏMƏLƏRİNİN BAXDIĞI İNZİBATİ XƏTALAR HAQQINDA İŞLƏR ÜZRƏ PROTOKOL TƏRTİB ETMƏK SƏLAHİYYƏTİ OLAN VƏZİFƏLİ ŞƏXSLƏRİN SİYAHISI"NDA VƏ "AZƏRBAYCAN RESPUBLİKASININ 2019-CU İL DÖVLƏT BÜDCƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQİ İLƏ BAĞLI BİR SIRA MƏSƏLƏLƏR BARƏDƏ" 2018-Cİ İL 22 DEKABR TARİXLİ 431 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 yanvar tarixli 476 nömrəli Fərmanının icrası ilə əlaqədar qərara alıram:

1. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 sentyabr tarixli 594 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 9, maddə 981; 2017, № 3, maddə 353) ləğv edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 may tarixli 667 nömrəli, 3 may tarixli 672 nömrəli və 7 may tarixli 683 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 19-cu hissəsində "Nazirliyin Ətraf Mühitin Mühafizəsi Departamentinin direktoru" sözləri "Nazirliyin yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi" sözləri ilə əvəz edilsin və həmin hissədən "Bakı şəhəri Ekologiya və Təbii Sərvətlər Departamentinin direktoru, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi," sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2588; 2019, № 1, maddə 71; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 644 nömrəli və 19 aprel tarixli 653 nömrəli fərmanları) 1.1.1.48-ci və 1.11.3.1-ci yarımbəndlərindən "yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 may 2019-cu il.

## “EKOLOJİ TƏHLÜKƏSİZLİK HAQQINDA”, “SU TƏCHİZATI VƏ TULLANTI SULARI HAQQINDA”, “AVTOMOBİL YOLLARI HAQQINDA”, “ƏTRAF MÜHİTƏ DAİR İNFORMASİYA ALMAQ HAQQINDA”, “AVİASİYA HAQQINDA” VƏ “İNFORMASİYA ƏLDƏ ETMƏK HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNLARINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2019-CU İL 3 MAY TARİXLİ 1580-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Ekoloji təhlükəsizlik haqqında”, “Su təchizatı və tullantı suları haqqında”, “Avtomobil yolları haqqında”, “Ətraf mühitə dair informasiya almaq haqqında”, “Aviasiya haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1580-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ekoloji təhlükəsizlik haqqında”, “Su təchizatı və tullantı suları haqqında”, “Avtomobil yolları haqqında”, “Ətraf mühitə dair informasiya almaq haqqında”, “Aviasiya haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ekoloji təhlükəsizlik haqqında”, “Su təchizatı və tullantı suları haqqında”, “Avtomobil yolları haqqında”, “Ətraf mühitə dair informasiya almaq haqqında”, “Aviasiya haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikası Qanununun 44-cü maddəsinin 2-ci hissəsinin ikinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Qanunun 44-cü maddəsinin 2-ci hissəsinin ikinci abzasında “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

3.3. “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 9.8-1-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.4. həmin Qanunun 9.8-1-ci maddəsinin 2-ci hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 iyun 2019-cu il.

## "YERİN TƏKİ HAQQINDA", "İSTEHSALAT VƏ MƏİŞƏT TULLANTILARI HAQQINDA", "QAZ TƏCHİZATI HAQQINDA", "ENERGETİKA HAQQINDA" VƏ "TİKİNTİ VƏ İNFRASTRUKTUR OBYEKTLƏRİ İLƏ ƏLAQƏDAR İNVESTİSİYA LAYİHƏLƏRİNİN XÜSUSİ MALİYYƏLƏŞMƏ ƏSASINDA HƏYATA KEÇİRİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNLARINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2019-CU İL 22 OKTYABR TARİXLİ 1683-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1683-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun 36-cı maddəsinin ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş orqan (qurum) barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş orqan (qurum) barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 1-ci hissəsinin yeddinci abzasında, 10-cu maddəsinin 3-cü hissəsinin birinci və üçüncü cümlələrində və 4-cü hissəsinin ikinci cümləsində, 13-cü maddəsinin 1-ci hissəsində, 2-ci hissəsinin ikinci (hər iki halda) cümləsində və 7-ci hissəsinin birinci cümləsində, 15-ci maddəsinin 3-cü hissəsində, 16-cı və 17-ci maddələrinin birinci hissələrində, 19-cu maddəsinin 3-cü hissəsində, 21-ci maddəsinin ikinci hissəsində, 22-ci maddəsinin 2-ci və 7-ci hissələrində, 23-cü maddəsinin birinci və ikinci hissələrində, 24-cü maddəsinin 5-ci hissəsində, 27-ci maddəsinin 2-ci hissəsində, 30-cu maddəsinin 4-cü hissəsində, 32-ci

maddəsinin 5-ci və 7-ci hissələrində, 33-cü maddəsinin 4-cü hissəsində, 34-cü maddəsinin 2-ci hissəsində, 36-cı maddəsinin 2-ci, 3-cü və 4-cü (hər iki halda) hissələrində, 37-ci, 38-ci və 45-ci maddələrinin 2-ci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 13-cü maddəsinin 2-ci (birinci halda) hissəsində, 16-cı və 17-ci maddələrinin birinci hissələrində, 32-ci maddəsinin 5-ci hissəsində və 34-cü maddəsinin ikinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.3. həmin Qanunun 13-cü maddəsinin 7-ci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.4. həmin Qanunun 32-ci maddəsinin 7-ci hissəsində "orqan (qurum)" dedikdə yerin təki haqqında geoloji informasiyadan istifadəyə görə haqqın alınması qaydasının təsdiqinə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, yerin təki haqqında geoloji informasiyadan istifadəyə görə haqqın miqdarının müəyyən edilməsinə münasibətdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;

2.5. həmin Qanunun 9-cu maddəsinin 1-ci hissəsinin yeddinci abzasında, 10-cu maddəsinin 3-cü hissəsinin üçüncü cümləsində və 4-cü hissəsinin ikinci cümləsində, 13-cü maddəsinin 1-ci və 2-ci (ikinci halda) hissələrində, 15-ci maddəsinin 3-cü hissəsində (neftə və qaza münasibətdə Azərbaycan Respublikası Energetika Nazirliyinin iştirakı ilə), 19-cu maddəsinin 3-cü hissəsində, 21-ci maddəsinin 2-ci hissəsində, 27-ci maddəsinin 2-ci hissəsində, 33-cü maddəsinin 4-cü hissəsində, 37-ci və 45-ci maddələrinin 2-ci hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

2.6. həmin Qanunun 22-ci maddəsinin 2-ci hissəsində, 23-cü maddəsinin 2-ci hissəsində, 38-ci maddəsinin 2-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

2.7. həmin Qanunun 22-ci maddəsinin 7-ci hissəsində və 24-cü maddəsinin 5-ci hissəsində "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

2.8. həmin Qanunun 10-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində və 23-cü maddəsinin 1-ci hissəsində "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

2.9. həmin Qanunun 36-cı maddəsinin dördüncü (birinci halda) hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti nəzərdə tutulur;

2.10. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 1-ci hissəsində və 6-cı maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.11. həmin Qanunun 6-cı maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.12. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin 3-cü və 4-cü hissələrində, 18-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.13. həmin Qanunun 7-ci maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi (yeraltı qaz anbarlarına münasibətdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iştirakı ilə) nəzərdə tutulur;

2.14. həmin Qanunun 7-ci maddəsinin 4-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

2.15. həmin Qanunun 18-ci maddəsinin 4-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

2.16. "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 3-cü hissəsinin onuncu abzasında və 5-ci hissəsində, 10-cu maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.17. həmin Qanunun 9-cu maddəsinin 3-cü hissəsinin onuncu abzasında "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ətraf mühitə təsirə münasibətdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iştirakı ilə) nəzərdə tutulur;

2.18. həmin Qanunun 9-cu maddəsinin 5-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

2.19. həmin Qanunun 10-cu maddəsinin 1-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 noyabr 2019-cu il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN "AZƏRBAYCAN RESPUBLİKASINDA YARADILMIŞ MİLLİ PARKLARIN ƏSASNAMƏLƏRİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA" 2004-CÜ İL 3 AVQUST TARİXLİ 106 NÖMRƏLİ, "AZƏRBAYCAN RESPUBLİKASININ ALTIAĞAC MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" 2004-CÜ İL 23 NOYABR TARİXLİ 147 NÖMRƏLİ, "AZƏRBAYCAN RESPUBLİKASININ ABŞERON MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" 2005-Cİ İL 27 APREL TARİXLİ 227 NÖMRƏLİ VƏ "AZƏRBAYCAN RESPUBLİKASININ GÖYGÖL MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" 2008-Cİ İL 19 NOYABR TARİXLİ 18 NÖMRƏLİ FƏRMANLARINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1582-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 733 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qərara alıram:

1. "Azərbaycan Respublikasında yaradılmış milli parkların əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddələr 614, 625; 2005, № 8, maddə 715; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 2, maddə 86; 2014, № 12, maddə 1558; 2015, № 9, maddə 1019; 2018, № 4, maddə 691; 2019, № 3, maddə 412) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmanla təsdiq edilmiş "Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4–5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.";

1.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Şirvan Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4–5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.";

1.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ağgöl Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4–5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən

edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.”.

2. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 noyabr tarixli 147 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 911; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1559; 2015, № 9, maddə 1020; 2018, № 4, maddə 692; 2019, № 3, maddə 412) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 5.4–5.7-ci bəndlər əlavə edilsin:

“5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.”.

3. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 aprel tarixli 227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 302; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2010, № 8, maddə 724; 2014, № 12, maddə 1560; 2015, № 9, maddə 1021; 2018, № 4, maddə 693; 2019, № 3, maddə 412) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 5.4–5.7-ci bəndlər əlavə edilsin:

“5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

4. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 18 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 974; 2011, № 2, maddə 85; 2014, № 12, maddə 1561; 2015, № 9, maddə 1022; 2018, № 4, maddə 694; 2019, № 3, maddə 412) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Göygöl Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4–5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 yanvar 2020-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN "AZƏRBAYCAN RESPUBLİKASININ ŞAHDAĞ MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" 2008-Cİ İL 19 NOYABR TARİXLİ 19 NÖMRƏLİ, "AZƏRBAYCAN RESPUBLİKASININ SAMUR-YALAMA MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" 2013-CÜ İL 25 İYUN TARİXLİ 929 NÖMRƏLİ, "AZƏRBAYCAN RESPUBLİKASININ QIZILAĞAC MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" 2019-CU İL 22 FEVRAL TARİXLİ 539 NÖMRƏLİ VƏ "AZƏRBAYCAN RESPUBLİKASININ DƏNİZKƏNARI MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" 2019-CU İL 22 FEVRAL TARİXLİ 544 NÖMRƏLİ FƏRMANLARINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1582-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 733 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 19 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 975; 2011, № 2, maddə 85; 2014, № 12, maddə 1562; 2018, № 4, maddə 695; 2019, № 3, maddə 412) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Şahdağ Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4–5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

2. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 25 iyun tarixli 929 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 657; 2015, № 9, maddə 1023; 2018, № 4, maddə 696) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Samur-Yalama Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4–5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 fevral tarixli 539 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 238) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qızılağac Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.4–5.7-ci bəndlər əlavə edilsin:

"5.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.5. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair nazirlik tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.6. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.7. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

4. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 fevral tarixli 544 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 243) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dənizkənarı Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.5–5.8-ci bəndlər əlavə edilsin:

"5.5. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.6. Bu Əsasnamənin 5.5-ci bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.7. Bu Əsasnamənin 5.5-ci bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.8. Bu Əsasnamənin 5.5-ci bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 yanvar 2020-ci il.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN "SU TƏCHİZATI VƏ TULLANTI SULARI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" 2000-Cİ İL 26 YANVAR TARİXLİ 266 NÖMRƏLİ VƏ "TURİZM VƏ REKREASİYA ZONALARI HAQQINDA NÜMUNƏVİ ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" 2008-Cİ İL 20 İYUN TARİXLİ 773 NÖMRƏLİ FƏRMANLARINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Ekoloji təhlükəsizlik haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Avtomobil yolları haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Aviasiya haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1580-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 731 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qərara alıram:

1. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 45; 2001, № 12, maddə 755; 2008, № 8, maddə 719; 2010, № 3, maddə 181, № 10, maddə 848; 2011, № 4, maddə 292; 2016, № 2 (II kitab), maddə 251) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci–yeddinci abzaslar müvafiq olaraq üçüncü–səkkizinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"həmin Qanunun 44-cü maddəsinin 2-ci hissəsinin ikinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

1.2. səkkizinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

"həmin Qanunun 44-cü maddəsinin 2-ci hissəsinin ikinci abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.".

2. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 iyun tarixli 773 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 491; 2016, № 11, maddə 1801) ilə təsdiq edilmiş "Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə"nin 4.6.9-cu yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.6.9. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun əlavəsində nəzərdə tutulmuş fəaliyyət növləri üzrə ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi (ƏMTQ) tərtib edilmədən və həmin sənədin dövlət ekoloji ekspertizası aparılmadan fəaliyyətin həyata keçirilməsi, habelə ətraf mühitə təsirin qiymətləndirilməsinin aparılması tələb olunmayan, lakin dövlət ekoloji ekspertizasının obyekti olan və dövlət ekoloji ekspertizasının müsbət rəyi olmadan digər fəaliyyətin həyata keçirilməsi.".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 yanvar 2020-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN "AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏBİƏT VƏ BİOSFER QORUQLARININ ÜMUMİ ƏSASNAMƏSİ"NİN VƏ "AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ PARKLARININ ÜMUMİ ƏSASNAMƏSİ"NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA" 2001-Cİ İL 4 İYUL TARİXLİ 531 NÖMRƏLİ, "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN BƏZİ FƏRMANLARINA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏR EDİLMƏSİ HAQQINDA" 2003-CÜ İL 23 OKTYABR TARİXLİ 977 NÖMRƏLİ VƏ "AZƏRBAYCAN RESPUBLİKASININ HİRKAN MİLLİ PARKI HAQQINDA ƏSASNAMƏNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ" 2004-CÜ İL 24 APREL TARİXLİ 57 NÖMRƏLİ FƏRMANLARINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1582-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 733 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 531 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 468; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1556; 2015, № 9, maddə 1018; 2016, № 2 (II kitab), maddələr 234, 251; 2018, № 4, maddə 688) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi"nə aşağıdakı məzmunda 6.5–6.8-ci bəndlər əlavə edilsin:

"6.5. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

6.6. Bu Əsasnamənin 6.5-ci bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

6.7. Bu Əsasnamənin 6.5-ci bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

6.8. Bu Əsasnamənin 6.5-ci bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

2. "Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 977

nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 582; 2007, № 8, maddə 769, № 12, maddə 1246; 2013, № 11, maddə 1335; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2018, № 6, maddə 1221 ) 1-ci hissəsinin 5-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

2.1. ikinci–dördüncü abzaslar müvafiq olaraq üçüncü–beşinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

2.2. beşinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"həmin Qanunun 8-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.".

3. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 24 aprel tarixli 57 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 237; 2007, № 11, maddə 1110; 2008, № 6, maddə 500; 2014, № 12, maddə 1557; 2018, № 4, maddə 690; 2019, № 3, maddə 412) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Hirkan Milli Parkı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.5 – 5.8-ci bəndlər əlavə edilsin:

"5.5. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

5.6. Bu Əsasnamənin 5.5-ci bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişiklik edilir.

5.7. Bu Əsasnamənin 5.5-ci bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

5.8. Bu Əsasnamənin 5.5-ci bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 yanvar 2020-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİNİN FƏALİYYƏTİ İLƏ BAĞLI BİR SIRA TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə qərara alıram:

1. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

4. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

5. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

6. "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

7. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparatının işçilərinin say həddi 165 ştat vahidi, regional orqanlarının və yerli bölmələrinin işçilərinin say həddi 506 ştat vahidi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin Aparatının işçilərinin say həddi 55 ştat vahidi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin Aparatının işçilərinin say həddi 40 ştat vahidi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin Aparatının işçilərinin say həddi 40 ştat vahidi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin Aparatının işçilərinin say həddi 36 ştat vahidi müəyyən edilsin.

8. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 598; 2004, № 2, maddə 71, № 12, maddələr 994, 1005; 2005, № 10, maddə 910; 2008, № 11, maddə 970; 2009, № 7, maddə 521, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 130, № 9, maddə 980; 2016, № 10, maddə 1630; 2017, № 3, maddələr 353, 355; 2018, № 4, maddə 689, № 7 (I kitab), maddə 1503, № 11, maddələr 2278, 2288; 2019, № 3, maddə 407) ləğv edilsin.

9. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

9.1. Dövlət Ekoloji Ekspertiza Agentliyinin dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

9.2. strukturunun təkmilləşdirilməsi ilə bağlı tədbirləri davam etdirsin;

9.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanla təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"nin 5.1-ci bəndində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 mart 2020-ci il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2020-ci il 27 mart tarixli Fərmanı ilə*
*təsdiq edilmişdir*

## Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (bundan sonra – Nazirlik) Azərbaycan Respublikasının ərazisində və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində suların bioloji sərvətlərindən səmərəli istifadə, onların qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan və yerüstü təbii sərvətlərdən, mineral xammal ehtiyatlarından səmərəli istifadə, onların bərpası, Azərbaycan Respublikasında yerin təkinin geoloji öyrənilməsi, mühafizəsi, habelə torpaqların münbitliyinin bərpası və artırılması, bu məqsədlə onların monitorinqi (bundan sonra – torpaqların monitorinqi), bioloji müxtəlifliyin (flora (o cümlədən meşə və yaşıllıqlar), fauna (o cümlədən balıq və digər su bioloji resursları), xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri), atmosfer havasının mühafizəsi, ovçuluq təsərrüfatlarının, ov yerlərinin və ov obyektlərinin mühafizəsi və onlardan istifadə, tullantılarla bağlı fəaliyyət, ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması, habelə geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və xəritəçəkmə sahəsində (bundan sonra – müvafiq sahə) dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Azərbaycan Respublikasının digər mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Nazirliyin müstəqil balansı, sərəncamında olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Azərbaycan və ingilis dillərində öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Nazirliyin saxlanılma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Nazirlik Bakı şəhərində yerləşir.

2. Nazirliyin fəaliyyət istiqamətləri

2.0. Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.0.2. müvafiq sahədə dövlət tənzimləməsini və əlaqələndirməni həyata keçirmək;

2.0.3. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək;

2.0.4. müvafiq sahədə beynəlxalq əməkdaşlığı həyata keçirmək;

2.0.5. aidiyyəti dövlət qurumları ilə birlikdə müvafiq sahəyə investisiyaların cəlb olunması üçün tədbirlər görmək, investisiya layihələrin hazırlanmasını, həyata keçirilməsini təmin etmək;

2.0.6. qanunla müəyyən olunmuş hallarda və qaydada müvafiq sahədə təbiətdən istifadə ilə bağlı icazələrin verilməsini təşkil etmək, lisenziya və icazələrin şərtlərinə riayət olunmasına nəzarət etmək;

2.0.7. aidiyyəti dövlət qurumları ilə birlikdə tullantısız və ya aztullantılı istehsalın inkişafının təşviqi ilə bağlı tədbirləri həyata keçirmək;

2.0.8. aidiyyəti dövlət qurumları ilə birlikdə ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.0.9. müvafiq sahədə aparılan elmi tədqiqat işlərini Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə əlaqələndirmək;

2.0.10. müvafiq sahədə dövlət əmlakından səmərəli istifadə olunmasına nəzarət etmək və dövlət maraqlarının qorunmasını təmin etmək;

2.0.11. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.0.12. müvafiq sahənin inkişafını təmin etmək.

3. Nazirliyin əsas vəzifələri

3.0. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Nazirliyin vəzifələri aşağıdakılardır:

3.0.1. müvafiq sahənin inkişafına dair prioritetləri müəyyən etmək, aidiyyəti dövlət qurumları ilə birlikdə dövlət proqramlarının, inkişaf konsepsiyalarının hazırlanmasını və həyata keçirilməsini təmin etmək;

3.0.2. müvafiq sahədə dövlət tənzimləməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair təklifləri aidiyyəti üzrə təqdim etmək;

3.0.3. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək, habelə fəaliyyət istiqamətlərinin tədqiqi və təkmilləşdirilməsi üzrə aidiyyəti qurumların fəaliyyətini əlaqələndirmək və birgə zəruri tədbirlər görmək, innovativ fəaliyyəti dəstəkləmək;

3.0.4. müvafiq sahədə dövlət-özəl tərəfdaşlığını inkişaf etdirmək;

3.0.5. Azərbaycan Respublikası Prezidentinin müəyyənləşdirdiyi hallar istisna olmaqla, müvafiq sahəyə aid məsələlərə dair tarif siyasətinin formalaşdırılmasında iştirak etmək, dövlət tərəfindən tənzimlənən tariflər barədə təkliflər vermək, habelə dövlət tərəfindən tənzimlənməyən xidmətlər üzrə tətbiq olunan ödəniş siyasətinin formalaşmasında iştirak etmək;

3.0.6. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.0.7. müvafiq sahədə müəyyən edilmiş qaydada dövlətin maraqlarını təmsil etmək;

3.0.8. müvafiq sahədə müəyyən edilmiş qaydalara, qanunvericiliyin tələblərinə əməl olunmasına dövlət nəzarətini həyata keçirmək;

3.0.9. dövlət əhəmiyyətli coğrafi məlumat sistemlərinin yaradılmasını, ümumcoğrafi, elmi məlumat və digər sahələrarası mövzu xəritələrinin, atlaslarının, kartoqrafiya-tədris vasitələrinin layihələndirilməsi, tərtibi və nəşri tədbirlərini həyata keçirmək;

3.0.10. dövlət topoqrafik xəritələrinin və planlarının hazırlanmasını, ümumdövlət, müdafiə, elmi tədqiqat xarakterli və digər məsələlərin həllini təmin edən dövlət planlarının

tərtibini və yüksəklik, o cümlədən qravimetrik şəbəkələrin yaradılmasını, inkişafını və işlək vəziyyətdə saxlanmasını təmin etmək;

3.0.11. dəqiqliyinə və məzmununa görə ümumdövlət, müdafiə və elmi tədqiqat məsələlərinin həllini təmin edən dövlət topoqrafik xəritələrinin, habelə qrafikli, rəqəmli, fotoqrafik və başqa formalı planların yaradılması, yeniləşdirilməsi, nəşri və geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), qravimetriya, topoqrafiya və kartoqrafiya işlərinin həyata keçirilməsində, materiallardan istifadədə dövlətin müdafiəsini və təhlükəsizliyini təmin etmək;

3.0.12. vahid dövlət koordinat, yüksəklik, qravimetrik ölçmə sistemlərinin, topoqrafik xəritə və planlarının yeniləşdirilməsinin növbəliliyini təmin etmək, miqyas sıralarını təyin etmək və geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya və kartoqrafiya materiallarının və məlumatlarının metroloji təminatını həyata keçirmək;

3.0.13. hazırlanmış ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin xəritələrini, fəaliyyət istiqamətlərinə əsasən dəqiqliyini müəyyənləşdirməklə təsdiq etmək;

3.0.14. kartoqrafiya planlarında, xəritələrində, digər normativ texniki sənədlərdə Azərbaycan Respublikasının dövlət sərhədlərinin, ərazilərinin və obyektlərinin qanuni və düzgün çəkilişinə nəzarət etmək;

3.0.15. vahid koordinat və yüksəklik sistemində obyekt və sənaye komplekslərinin, şəhər və digər yaşayış məntəqələri ərazilərinin 1:2000 və daha böyük, tikilməmiş (açıq) ərazilərdə isə 1:5000 və daha kiçik miqyaslı topoqrafik xəritələrinin təzələnməsini və çoxməqsədli topoqrafik planaalmasını, habelə ərazi vahidlərinin ərazisindən asılı olaraq sahəsi 4 kvadratkilometrə qədər olduqda - 1:5000, 4 kvadratkilometrdən 25 kvadratkilometrə qədər olduqda - 1:10000, 25 kvadratkilometrdən 100 kvadratkilometrə qədər olduqda - 1:25000, 100 kvadratkilometrdən artıq olduqda - 1:50000 miqyasda tərtib edilməsini həyata keçirmək;

3.0.16. dövlət geodeziya-istinad məntəqələrinin və yerüstü nişanlarının yerlərinin dəyişdirilməsinə, yenidən qurulmasına və yenilərinin quraşdırılmasına (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) razılıq vermək;

3.0.17. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə razılaşdırmaqla, aerofotoplanaalma işlərini həyata keçirmək və digər təşkilatları müəyyən olunmuş qaydada həmin məlumatlarla təmin etmək;

3.0.18. Azərbaycan Respublikasının müdafiəsini və təhlükəsizliyini təmin edən geodeziya, topoqrafiya, kartoqrafiya, hidroqrafiya və digər işləri, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə birlikdə isə delimitasiya, demarkasiya və redemarkasiya işlərini həyata keçmək;

3.0.19. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiyanın inkişafı üçün aerokosmik məlumatlar əsasında yer səthini tədqiq etmək;

3.0.20. geodeziya və kartoqrafiya üzrə xüsusi təyinatlı cihaz və avadanlığın idxalının və ixracının qeydiyyatının aparılması məqsədilə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətini, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsini və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətini müvafiq metodiki sənədlərlə və siyahılarla təmin etmək;

3.0.21. coğrafi obyektlərin mövcud və yeni verilən adlarını qeydiyyata almaqla onların uçotunu aparmaq, habelə Azərbaycan Respublikasının Dövlət Geodeziya və Kartoqrafiya Fondunda material və məlumatların formalaşmasına, saxlanılmasına və onlardan istifadəyə,

həmçinin rəqəmli kartoqrafiya məlumatı banklarının, elektron xəritələrin, geodeziya məlumatları və coğrafi adlar üzrə kataloqların yaradılmasına nəzarət etmək;

3.0.22. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya və kartoqrafiya materiallarının, məlumatlarının uçotunu, habelə xüsusi təyinatlı avadanlıq və cihazların sınağını, geodeziya ölçmələrinin vahidliyini təmin etmək;

3.0.23. ölkə ərazisində quraşdırılmış fasiləsiz fəaliyyət göstərən istinad stansiya məntəqələrinin məlumatlarından dövlət əhəmiyyətli geodeziya və kartoqrafiya işlərində istifadə etmək;

3.0.24. Azərbaycan Respublikasının ərazisindəki dəyişikliklərə uyğun olaraq topoqrafik, inzibati, coğrafi və məlumat xəritələrində zəruri dəyişiklikləri yeni nəşr olunan xəritələrdə əks etdirmək üçün topoqrafik və tematik xəritələrin, operativ-məlumat xəritəsinin müasirliyini müntəzəm təmin etmək;

3.0.25. dövlət qeydiyyatına (patent) alınmamış, yaxud sertifikatlaşdırılmamış geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya işlərini müvəqqəti dayandırmaq, qanunvericiliyin tələblərinə uyğun gəlməyən işlərin dayandırılması barədə müvafiq orqanlar və ya məhkəmə qarşısında məsələ (iddia) qaldırmaq;

3.0.26. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa 3 nömrəli əlavə – "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 10-cu, 13–18-ci və 20–21-ci maddələrinə əsasən, Nazirliyin strukturuna daxil olan və olmayan tabeliyindəki qurumlar vasitəsilə icazələr, o cümlədən rəylər, hüquqmüəyyənedici sənədlər vermək, habelə lisenziya və icazələrin şərtlərinə əməl olunmasını yoxlamaq, icazələrin yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpa edilməsi və ləğvi barədə qərar qəbul etmək;

3.0.27. dövlət ekoloji ekspertizasının təşkilinə, həyata keçirilməsinə, habelə ekoloji ekspertiza rəyinin verilməsində "Ətraf mühitin mühafizəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası qanunlarının, digər normativ hüquqi aktların tələblərinə riayət olunmasına nəzarəti təmin etmək;

3.0.28. ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərə ixtisas attestatı vermək, attestatın qüvvədəolma müddətini dayandırmaq və ya onu ləğv etmək;

3.0.29. ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə təşkilatların reyestrinin aparılmasını təmin etmək, onların fəaliyyətinə nəzarəti həyata keçirmək, bu istiqamətdə məlumatları Nazirliyin rəsmi internet səhifəsində yerləşdirmək;

3.0.30. transsərhəd təsirə malik olan ekoloji ekspertiza obyektlərinin dövlət ekoloji ekspertizasının həyata keçirilməsi üçün ekspert komissiyası təşkil etmək;

3.0.31. strukturuna daxil olan qurum vasitəsilə atmosfer havasının mühafizəsi sahəsində normativlərə, qaydalara və digər tələblərə əməl olunmasına fasiləsiz nəzarət etmək;

3.0.32. atmosfer havasına atılan zərərli maddələrin hər bir stasionar mənbəyi və onların məcmusu (bütövlükdə obyekt) üçün atılmanın yol verilən həddini, habelə atmosfer havasına atılan zərərli maddələrin mənbəyi olan hüquqi və fiziki şəxslərin atılmanın yol verilən həddinə riayət etməsi mümkün olmadığı halda zərərli maddələrin müvəqqəti razılaşdırılmış atılması limitini müəyyən etmək;

3.0.33. dövlət uçotuna alınaraq normalaşdırılan atmosfer havasına atılan zərərli maddələrin və atmosfer havasına fiziki təsir mənbələrinin müəssisə, təşkilatlar, şəhər və digər yaşayış məntəqələri üzrə siyahısını müəyyən etmək, onların ekoloji təhlükəlilik dərəcəsini müəyyənləşdirmək;

3.0.34. strukturuna daxil olan qurum vasitəsilə təbiətdəki çirklənmə mənbələrinin uçotunu, təhlükə potensiallı obyektlərin qeydiyyatını aparmaq, onların ekoloji zərərlilik

dərəcəsini müəyyənləşdirmək, ətraf mühitə zərərli maddələr atılmasının (axıdılmasının) limitlərini müəyyən etmək və ona nəzarəti həyata keçirmək;

3.0.35. ətraf mühitə atılan çirkləndirici maddələrin təmizlənməsi üçün müvafiq qurğuların istismara verilməsinə, bu qurğuların vəziyyətinə, habelə çirkləndirmə mənbələrinin nəzarət cihazları ilə və tənzimləyici cihazlarla təchiz edilməsinə dair qayda və normativlərə, çirkab suların atılması qayda və şərtlərinə əməl olunmasına nəzarət etmək;

3.0.36. şəhərlərdə və Xəzər dənizinin sahillərində (Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsinin sahilboyu 20–50 metrlik zolağının altındakı torpaq sahələri istisna olmaqla) balıq məhsullarının satışı üzrə ixtisaslaşmış bazarların təşkili üçün müvafiq torpaq sahələrinin ayrılmasına razılıq verilməsini, torpaqların kateqoriyalara aid edilməsinə və onların bir kateqoriyadan digərinə keçirilməsinə rəy verilməsini təşkil etmək;

3.0.37. "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aidiyyəti qurumlarla birlikdə torpaqların münbitliyinin bərpasına və artırılmasına dair kompleks tədbirlər həyata keçirmək;

3.0.38. aidiyyəti qurumlarla birlikdə dövriyyədən çıxmış torpaqların kənd, meşə, balıqçılıq (o cümlədən akvakultura) və ya digər təsərrüfatlarda istifadə üçün yararlı vəziyyətə, yaxud bu torpaqların ayrılması şərtlərinə uyğun olaraq, regionun ekoloji tarazlığını təmin edən vəziyyətə gətirilməsi şərtlərini müəyyən etmək;

3.0.39. aidiyyəti dövlət orqanı ilə birlikdə torpaq sürüşməsi təhlükəsi olan əraziləri müəyyən edən coğrafi koordinatların əks olunduğu xəritələri hazırlamaq, geodeziya tədqiqatları əsasında geodinamik (zəlzələ, sürüşmə və s.) və digər fövqəladə təbiət hadisələrinin proqnozlaşdırılması məqsədilə tədbirlər görmək, bu barədə digər aidiyyəti icra hakimiyyəti orqanlarına məlumat vermək;

3.0.40. fəaliyyət istiqamətləri üzrə strukturuna daxil olan və tabeliyindəki qurum vasitəsilə yerüstü və yeraltı suların istismar ehtiyatlarını nəzərə almaqla, dövlət uçotunu, həmçinin su obyektlərinin monitorinqi əsasında aidiyyəti dövlət orqanı (qurumu) ilə birlikdə dövlət su kadastrını aparmaq;

3.0.41. aidiyyəti qurumlarla birlikdə su obyektlərindən səmərəli və məqsədyönlü istifadə edilməsi, yerüstü və yeraltı suların çirklənməkdən qorunması məqsədilə fasiləsiz nəzarət tədbirlərini həyata keçirmək;

3.0.42. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə su obyektlərinin monitorinqini aparmaq, su ehtiyatlarından kompleks istifadə və onların mühafizəsi sxemlərini, su təsərrüfatı balanslarını hazırlamaq;

3.0.43. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə su mühafizə zonalarında təbii ehtiyatlardan istifadə və onların mühafizəsi rejiminə riayət edilməsinə, fiziki və hüquqi şəxslərin digər təsərrüfat fəaliyyətinə nəzarət etmək;

3.0.44. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su mühafizə zonasının, sahil mühafizə zolağının ölçülərini, sərhədlərini və onlardan istifadə rejimini müəyyən etmək;

3.0.45. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tullantılarla bağlı fəaliyyətə dövlət nəzarətini həyata keçirmək;

3.0.46. ətraf mühitə və insan sağlamlığına zərərli təsirin təhlükəlilik dərəcəsindən asılı olaraq, təhlükəli tullantıları təhlükəlilik dərəcələrinə bölmək, aidiyyəti qurumlarla birlikdə sənaye, məişət tullantılarının, başqa tullantıların atılması qaydasının, onların anbara vurulması və basdırılması həcmlərinin, normalarının və limitlərinin müəyyənləşdirilməsində, ilkin uçotunun aparılması qaydalarının hazırlamasında iştirak etmək;

3.0.47. yaşıllıqların uçotu və monitorinqi haqqında məlumatları toplayaraq, Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etmək, yaşıllıqların kadastrını aparmaq, yaşıllıqların müfəssəl siyahısını tərtib etmək;

3.0.48. yerli iqlim şəraiti və torpaqların xüsusiyyətləri nəzərə alınmaqla, yaşıllıqların salınması üçün faydalı bitki cinslərini və növlərini müəyyən etmək;

3.0.49. strukturuna daxil olan qurum vasitəsilə ekoloji təhlükəsizlik sahəsində dövlət nəzarətini həyata keçirmək;

3.0.50. aidiyyəti qurumlarla birlikdə ekoloji təhlükəsizliyi təmin etmək, təbii ekoloji sistemlərə təsərrüfat fəaliyyəti və digər fəaliyyət nəticəsində dəyə biləcək zərərin qarşısını almaq üçün tədbirlər görmək;

3.0.51. strukturuna daxil olan qurum vasitəsilə torpaq qanunvericiliyinin tələblərinin pozulması ilə həyata keçirilən faydalı qazıntıların hasilatı, aqrokimyəvi, meşə-meliorasiya, geoloji kəşfiyyat və axtarış işlərində aşkar olunmuş qanun pozuntularının aradan qaldırılması sahəsində müvafiq tədbirlər görmək;

3.0.52. tabeliyindəki qurum vasitəsilə "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində fasiləsiz geoloji tədqiqatlar aparmaq, yer təkinin öyrənilməsi (axtarış, kəşfiyyat) ilə əlaqədar işləri həyata keçirmək, mineral xammal bazası haqqında informasiyanı toplamaq, sistemləşdirmək, saxlamaq, yerin dərinlik quruluşunu, seysmohidrogeodinamik şəraiti və digər təbiət hadisələrini öyrənmək;

3.0.53. yer təki sahəsində faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı məqsədilə "Dağ-mədən ayırması" statusunun verilməsini, həmçinin geoloji öyrənilmə məqsədilə ayrılan yer təki sahələrinə geoloji ayırma statusunun verilməsini tabeliyindəki qurum vasitəsilə "Yerin təki haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq həyata keçirmək, faydalı qazıntıların çıxarılması, eləcə də onların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün verilən yer təki sahələri barədə müvafiq işləri dövlət uçotuna və qeydiyyatına almaq, faydalı qazıntı yataqlarının və təzahürlərinin dövlət kadastrını aparmaq;

3.0.54. Azərbaycan Geologiya Muzeyini zənginləşdirmək, Dövlət Geoloji İnformasiya Fondunu genişləndirmək, geoloji materialların mühafizəsini və onlardan məqsədyönlü istifadəni təmin etmək;

3.0.55. istifadəyə verilən yer təki sahələrinin və onlarla əlaqədar işlərin dövlət qeydiyyatını və dövlət uçotunu tabeliyindəki qurum vasitəsilə təmin etmək, kəşf edilmiş faydalı qazıntı və proqnoz ehtiyatlarının hesabatları əsasında faydalı qazıntı ehtiyatlarının dövlət balansını və faydalı qazıntı yataqlarının və təzahürlərinin dövlət kadastrını aparmaq, yerin təkindən istifadə ilə bağlı müsabiqə və hərracların keçirilməsini təşkil etmək, bu sahədə xidmətlər göstərmək;

3.0.56. tabeliyindəki qurum vasitəsilə xarici şirkətlər və müəssisələrlə birlikdə müvafiq qaydada ölkə ərazisində, habelə başqa dövlətlərin ərazisində geoloji kəşfiyyat işlərinin aparılması üçün tədbirlər görmək;

3.0.57. milli parkların, təbiət abidələrinin, xüsusi mühafizə olunan digər ərazilərin və təbii obyektlərin təşkili və ləğvi barədə aidiyyəti üzrə təkliflər vermək, təbiət parklarının, dövlət təbiət yasaqlıqlarının əsasnamələrini təsdiq etmək;

3.0.58. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə həyata keçirilən işlərin məhdudlaşdırılması, müvəqqəti dayandırılması, o cümlədən

maliyyələşdirilməsinin dayandırılması, onların istismara verilməsinin qadağan edilməsi, təsərrüfat fəaliyyətinin və başqa fəaliyyətlərin dayandırılması, yaxud qadağan edilməsi barədə tədbirlər görmək;

3.0.59. fəaliyyət istiqamətlərinə uyğun olaraq, beynəlxalq və respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrının və monitorinqinin aparmasını həyata keçirmək;

3.0.60. xüsusi mühafizə olunan təbiət ərazilərində xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq edilən fəaliyyət zonalarını müəyyənləşdirmək, sanitariya-mühafizə zonalarının müəyyənləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdimat vermək və bu zonalardan istifadə qaydalarına nəzarət tədbirlərini həyata keçirmək;

3.0.61. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xüsusi mühafizə olunan təbiət ərazilərini və obyektlərini dövlət qeydiyyatına almaq, onlar üçün pasport hazırlamaq;

3.0.62. yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması üçün rəy vermək, xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin pasportunu qeydiyyata almaq;

3.0.63. heyvanlar aləmi haqqında qanunvericiliyə uyğun olaraq, müraciətlər əsasında heyvanlar aləmi obyektlərinin bələdiyyə mülkiyyətində və ya xüsusi mülkiyyətdə olması barədə şəhadətnamə vermək;

3.0.64. heyvanlar aləminin (o cümlədən balıq və digər su bioresurslarının) mühafizəsini və istifadəsini, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın aparılmasını təşkil etmək, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilməmiş, lakin nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan növlərini xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına daxil etmək, aidiyyəti dövlət qurumları ilə birlikdə heyvanlar aləminin dövlət uçotunu, kadastrını və monitorinqini aparmaq;

3.0.65. strukturuna daxil olan qurum vasitəsilə heyvanların tələf olmasının və yaşayış mühitinin pisləşməsinin qarşısının alınması məqsədilə aidiyyəti təşkilatların elmi-praktiki dəstəyi ilə bitki mühafizəsi vasitələrinin tətbiqi məhdudlaşdırılan və ya qadağan edilən ayrı-ayrı əraziləri müəyyən etmək;

3.0.66. nadir və nəsli kəsilməkdə olan, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na düşən və müxtəlif beynəlxalq sənədlərlə mühafizə olunan heyvan və bitki növlərinin beynəlxalq ticarətini tənzimləmək;

3.0.67. Azərbaycan Respublikasının ərazisində beynəlxalq əhəmiyyətli su-bataqlıq yerlərində UNESCO-nun "Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər haqqında" Konvensiyasının tələblərinin yerinə yetirilməsini təmin etmək;

3.0.68. strukturuna daxil olan qurum vasitəsilə zooloji kolleksiyalarla ticarətə, habelə zooloji kolleksiyaların Azərbaycan Respublikasına gətirilməsinə, onun hüdudlarından kənara aparılmasına icazə vermək, onları dövlət uçotuna almaq və dövlət reyestrinə daxil edilməsi barədə onun mülkiyyətçisinə (sahibinə) şəhadətnamə vermək;

3.0.69. ov obyektinə aid edilən vəhşi heyvanların ov mövsümündə tutulması və vurulması normasını (sayını) strukturuna daxil olan qurum vasitəsilə müəyyən etmək;

3.0.70. ovçuluq təsərrüfatlarına bitişik torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonaları strukturuna daxil olan qurum vasitəsilə müəyyən etmək;

3.0.71. yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarının yaradılması, respublika əhəmiyyətli ovçuluq təsərrüfatları istisna olmaqla ovçuluq təsərrüfatlarının aparılması məqsədilə ov yerlərini bələdiyyələrin, hüquqi və fiziki şəxslərin istifadəsinə və ya icarəsinə vermək;

3.0.72. strukturuna daxil olan qurumu vasitəsilə ovçuluq təsərrüfatlarının mühafizəsi və istifadəsi üzərində idarəetməni və dövlət nəzarətini həyata keçirmək, respublika, yaxud yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarını müəyyən etmək, yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarının təşkili və ləğvi barədə qərar qəbul etmək, onların inkişafı və yerləşdirilməsi sxemlərini təsdiq etmək;

3.0.73. ov üçün qapalı olan yerlərdə və qadağan edilmiş müddətdə zooloji material toplamaq məqsədilə və başqa elmi məqsədlərlə ovlanması qadağan edilməyən vəhşi heyvanların yalnız müvafiq elmi təşkilatların müraciətinə əsasən ovlanmasına (tutulmasına) strukturuna daxil olan qurum vasitəsilə razılıq vermək;

3.0.74. "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri pozulduqda, qiymətli balıq və digər su bioresursları növlərinin üstün mühafizə rejimini müəyyən etmək, strukturuna daxil olan qurum vasitəsilə balıqçılıq subyektlərinin uçotunu aparmaq;

3.0.75. strukturuna daxil olan qurum vasitəsilə ölkənin daxili sularında və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində suyun bioloji sərvətlərinin istismarı həcmini və elmi əsaslandırılmış rejimini müəyyən etmək;

3.0.76. balıqartırma və balıqyetişdirmə müəssisələrinin fəaliyyətinin əsas istiqamətlərini dəyişdirmədən balıqçılıq haqqında qanunvericiliyə uyğun akvakultura (o cümlədən dəniz akvakulturası (marikultura) əmtəə balıqçılığının yaradılması üçün tədbirlər görmək;

3.0.77. ixtisaslaşmış balıq məhsulları satışı bazarlarının yerləşmə sxemini aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla müəyyən etmək;

3.0.78. dövlət sifarişi ilə akvakultura təsərrüfatlarında balıq və digər su bioresurslarının artırılması, bərpası, iqlimləşdirilməsi məqsədilə akvakultura subyektləri ilə müqavilələr bağlamaq, aidiyyəti qurumlarla birgə balıq və digər su bioresurslarının artırılması, bərpası, iqlimləşdirilməsi, balıqçılıq su obyektlərinin balıqçılıq təsərrüfatının monitorinqi, kadastrı və meliorasiyası işlərini həyata keçirmək;

3.0.79. "Lisenziyalar və icazələr haqqında" və "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq, balıqovlama biletləri vermək;

3.0.80. nərə cinsli balıqların və digər qiymətli balıq növlərinin artırılması istiqamətində tədbirlər görmək;

3.0.81. dövlət meşə fondu torpaqlarının sərhədlərinin pozulması hallarının qarşısını almaq məqsədilə bu torpaqlarla həmsərhəd dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsi zamanı həmin torpaqların sərhəd xətlərinin dəqiqləşdirilməsində iştirak etmək, istifadəsi məhdudlaşdırılmış xüsusi mühafizə olunan meşə sahələrinin siyahısını müəyyən etmək;

3.0.82. strukturuna daxil olan qurum vasitəsilə meşə sahələrinin, qiymətli təbii landşaftların, habelə meşələrin mühafizəsi, yeni meşə sahələrinin salınması, onların suqoruyucu, sutəmizləyici, torpaqqoruyucu, rekreasiya və digər faydalı təbii xassələrinin saxlanılması, meşə ehtiyatlarından səmərəli istifadə olunması, meşələrin bərpası, təkrar istehsalı və meşə təsərrüfatının aparılması istiqamətində, habelə onların yanğınlardan, zərərvericilərdən və xəstəliklərdən qorunması məqsədilə tədbirlər həyata keçirmək;

3.0.83. meşələrin dövlət uçotu, dövlət meşə kadastrı, meşələrin monitorinqi və meşə quruluşu işlərini strukturuna daxil olan qurum vasitəsilə aparmaq;

3.0.84. meşəsalma məqsədilə qeyri-meşə torpaqlarında meşə salmaq, meşə fondunun məhsuldar olmayan torpaq sahələrini minimuma endirmək, meşə fonduna daxil olmayan torpaqlarda qoruyucu əkinlər yaratmaq üçün tədbirlər görmək;

3.0.85. meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaqları meşələrin bərpası məqsədilə meşə istifadəçisinə (icarəçisinə) verildikdə müqavilədə sahənin sərhədlərini meşənin xəritələrinə əsasən müəyyənləşdirməklə naturada nişanlanmasına və istifadə (icarə) müddəti dövründə sərhədlərinin qorunmasına fasiləsiz nəzarəti strukturuna daxil olan qurum vasitəsilə həyata keçirmək;

3.0.86. hidrometeorologiya, beynəlxalq aeronaviqasiya meteoroloji xidmətini, ətraf mühitin və təbii sərvətlərin dövlət monitorinqi sistemini yaratmaq, hidrometeorologiya və ətraf mühitin monitorinqi üzrə müşahidələrlə, tədqiqatlarla bağlı tədbirləri həyata keçirmək;

3.0.87. strukturuna daxil olan qurum vasitəsilə hidrometeoroloji müşahidə şəbəkəsini uçota almaq, onların köçürülməsinə, yerinin dəyişdirilməsinə, yenilərinin quraşdırılmasına, bərpa edilməsinə və fəaliyyətlərinin dayandırılmasına razılıq vermək, habelə müşahidə şəbəkələrinin ətrafında ayrılmış mühafizə zonalarının qorunmasına nəzarət etmək;

3.0.88. yerüstü suların dövlət uçotunun aparılmasını təmin etmək, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində baş verən ekoloji prosesləri kompleks şəkildə öyrənmək, regional iqlim dəyişmələrinin və digər qlobal ətraf mühit problemlərinin ölkə əhalisinə və iqtisadiyyatına təsirini araşdırmaq;

3.0.89. hidrometeorologiya fəaliyyəti sahəsində uçot və hesabat sistemlərinin hazırlanmasını və hidrometeoroloji məlumatların sertifikatlaşdırılmasını təşkil etmək, hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə Azərbaycan Respublikası Dövlət Məlumatlar Fondundan istifadəyə, onun idarə olunmasına və mühafizəsinə nəzarət etmək;

3.0.90. strukturuna daxil olan qurum vasitəsilə transsərhəd və daxili səth sularının (çaylar, göllər, su anbarları, habelə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsi) kəmiyyət və keyfiyyət məlumatlarının təhlili əsasında aidiyyəti orqanlarla (qurumlarla) birlikdə su təsərrüfatı balanslarının və su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi sxemlərini tərtib etmək, eləcə də hövzə idarəetmə planlarını hazırlamaq və həyata keçirmək;

3.0.91. strukturuna daxil olan qurum vasitəsilə "Hidrometeorologiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əhalini, dövlət orqanlarını, müəssisə və təşkilatları, kütləvi informasiya vasitələrini mövcud və gözlənilən meteoroloji, aqrometeoroloji və hidrometeoroloji, ətraf mühitin çirklənmə səviyyəsi, təhlükəli təbii hidrometeoroloji hadisələr barədə, habelə ölkə ərazisində fövqəladə halların meydana çıxmasına yol açan ətraf mühitin ekstremal şəkildə çirklənməsi barədə məlumatlarla və xəbərdarlıqlarla fasiləsiz təmin etmək;

3.0.92. hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə texniki tələblərə, norma və qaydalara əməl edilməsinə nəzarət etmək;

3.0.93. hidrometeorologiya fəaliyyəti haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada ödənişli və ödənişsiz xidmət göstərilməsini strukturuna daxil olan qurum vasitəsilə təşkil etmək;

3.0.94. beynəlxalq aeronaviqasiyaya meteoroloji xidmətin göstərilməsinə nəzarət etmək;

3.0.95. təbiəti mühafizə və təbiətdən istifadə sahəsində dövlət standartlarının hazırlanmasında iştirak etmək, təbii mühit obyektlərinin çirklənməsinə nəzarət sahəsində metodoloji rəhbərliyi həyata keçirmək;

3.0.96. Nazirliyə həvalə edilən hallarda ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması məqsədilə investisiyaların cəlb edilməsi sahəsində tədbirlər görmək və onların təyinatı üzrə istifadəsinə nəzarət etmək;

3.0.97. fəaliyyət istiqaməti üzrə tədbirlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsi vəsaitinin, xarici və beynəlxalq kredit, qrant və digər maliyyə vəsaitinin cəlb olunması üçün tədbirlər görmək, ayrılan vəsaitdən səmərəli istifadəni təmin etmək;

3.0.98. müvafiq sahədə dövlət sifarişçisi funksiyasının həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

3.0.99. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (publik hüquqi şəxslər istisna olmaqla) vəzifələrini yerinə yetirmək üçün istifadə etdikləri məqsədli büdcə vəsaitinin, digər vəsaitin xərclər smetalarını təsdiq etmək, onlardan təyinatına uyğun istifadəyə nəzarət etmək;

3.0.100. fəaliyyət sahəsində əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı zəruri tədbirləri hazırlamaq və həyata keçirmək;

3.0.101. işçilərin sosial vəziyyətinin yaxşılaşdırılmasını təmin etmək;

3.0.102. müvafiq sahədə elektron xidmətlərin təşkilini və göstərilməsini təmin etmək;

3.0.103. müvafiq sahə üzrə beynəlxalq və yerli səviyyədə proqramlar, layihələr, digər sənədlər hazırlamaq, aidiyyəti üzrə təqdim etmək, yaxud həyata keçirmək;

3.0.104. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.0.105. Nazirliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.0.106. müvafiq sahədə yüksəkixtisaslı kadrlara tələbatı öyrənmək, kadr hazırlığını təmin etmək, mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.0.107. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.0.108. müvafiq sahədə dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.0.109. ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyin pozulması nəticəsində vurulmuş zərərin həcmini müəyyən etmək və bunun əsasında təqsirkar şəxslərə bu zərərin könüllü ödənilməsinə, habelə pozuntuların aradan qaldırılmasına dair tələb irəli sürmək və ya məhkəməyə iddia təqdim etmək;

3.0.110. ov etmək üçün icazə, ovçuluq biletləri vermək, habelə ovçuluq fəaliyyəti üçün ov yerləri ayırmaq;

3.0.111. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri aşkarlandıqda isə aidiyyəti üzrə məlumat vermək;

3.0.112. fəaliyyət istiqamətləri və vəzifələri dairəsində elmi tədqiqatlar aparılmasını təşkil etmək;

3.0.113. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.0.114. insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək, onların pozulmasının qarşısını almaq;

3.0.115. Nazirlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.0.116. Nazirliyə daxil olan təklifləri ümumiləşdirmək və tədbirlər görmək;

3.0.117. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər vəzifələri yerinə yetirmək.

4. Nazirliyin hüquqları

4.0. Öz vəzifələrini həyata keçirmək üçün Nazirliyin aşağıdakı hüquqları vardır:

4.0.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.0.2. müvafiq sahədə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.0.3. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək, onlardan belə məlumatları (sənədləri) əldə etmək;

4.0.4. müvafiq sahə ilə bağlı rəy və təkliflər vermək, təhlillər, ümumiləşdirmələr və tədqiqatlar aparmaq, metodiki və analitik materiallar, tövsiyələr hazırlamaq, qarşıya çıxan problemlərin və qüsurların həlli yollarını prioritetləşdirmək;

4.0.5. müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi şirkətləri, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, ictimai əsaslarla işçi qruplar və komissiyalar yaratmaq;

4.0.6. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək, həmçinin belə tədbirlərin ölkədə və xaricdə keçirilməsini təşkil etmək;

4.0.7. xarici dövlətlərin müvafiq sahədə təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti orqanları və qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək, danışıqlar aparmaq, danışıqların aparılmasında iştirak etmək, beynəlxalq müqavilələrin layihələrini hazırlamaq, yaxud hazırlanmasında iştirak etmək, müvafiq sahə üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrasına nəzarət etmək və həmin müqavilələr üzrə öhdəliklərin icrası məqsədilə tədbirlər görmək;

4.0.8. xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, genişləndirilməsi və müvafiq sahənin təkmilləşdirilməsi barədə təkliflər təqdim etmək;

4.0.9. ekologiyanın və təbii sərvətlərin mühafizəsi sahəsində fəaliyyət göstərən ictimai təşkilatlarla birlikdə təbiətdən və təbii sərvətlərdən səmərəli istifadə haqqında bilikləri təbliğ etmək, müvafiq sahə üzrə innovativ təşəbbüslərə dəstək vermək, müsabiqələr, sərgilər, konfranslar, digər tədbirlər keçirmək;

4.0.10. aidiyyəti dövlət qurumları ilə birgə ətraf mühitin və təbii ehtiyatların monitorinqini aparmaq, bu sahədə laborator analizləri həyata keçirmək;

4.0.11. mineral xammal ehtiyatlarından istifadəyə dair tövsiyələr hazırlamaq, geologiya elmi və təcrübəsinin ən yeni nailiyyətlərinin tətbiqi, torpaqların münbitliyinin monitorinqi, geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya fəaliyyəti sahələrində dövlət siyasəti məsələlərinin, elm və texnikanın əsas istiqamətlərinin, elmi araşdırmaların və qabaqcıl xarici ölkələrin nailiyyətlərinin ümumiləşdirilməsi, öyrənilməsi və onların tətbiqi üçün mütəxəssislər, habelə elmi-texniki cəmiyyətlərin əməkdaşlarını cəlb etməklə elmi texniki şura yaratmaq;

4.0.12. torpaq mülkiyyətçilərindən, istifadəçilərindən, icarəçilərindən torpaqların münbitliyinin bərpası və mühafizəsi barədə məlumatlar almaq, onları təhlil etmək, müvafiq təkliflərlə aidiyyəti orqanlar qarşısında vəsatət qaldırmaq;

4.0.13. müəyyən olunmuş qaydada dövri mətbu orqan təsis etmək, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq, işçiləri dövlət mükafatlarına, fəxri adlara və digər təltiflərə təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

4.0.14. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər hüquqları həyata keçirmək.

5. Nazirliyin fəaliyyətinin təşkili

5.1. Nazirliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.), habelə Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanı Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Nazirliyin strukturunu, onun Aparatının və strukturuna daxil olan qurumların aparatının işçilərinin say həddini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri (bundan sonra – nazir) rəhbərlik edir. Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün nazir şəxsən məsuliyyət daşıyır.

5.4. Nazirin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən üç müavini vardır. Nazir müavinləri, nazirin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Nazir:

5.5.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Nazirliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Nazirliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və elmi-texniki şurasının əsasnamələrini, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri (əsasnamələri) Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikası Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini (əsasnamələrini) təsdiq edir;

5.5.4. bu Əsasnamənin 5.5.3-cü yarımbəndinə uyğun olaraq, Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) nizamnamələrini (əsasnamələrini) təsdiq üçün təqdim edir;

5.5.5. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların (strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və strukturuna daxil olmayan tabeliyindəki qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edir;

5.5.6. Apellyasiya Şurasının sədrini, habelə onun təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.7. Nazirliyin Aparatının, Nazirliyin strukturuna daxil olan regional bölmələrin işçilərini, Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini və onların müavinlərini (Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxslər istisna olmaqla), digər işçiləri vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.8. Nazirliyin dövlət qulluqçusu olan işçilərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı ixtisas dərəcələri verir;

5.5.9. müvafiq sahədə yüksək xidmətləri olan şəxslərə Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.5.10. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir, habelə Nazirliyin qəbul etdiyi normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.11. Nazirliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.12. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları, idarə, müəssisə və təşkilatları, hüquqi və fiziki şəxsləri ilə, habelə beynəlxalq təşkilatlarla münasibətlərdə Nazirliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.13. Nazirliyin fəaliyyət istiqamətləri üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.14. dövlət büdcəsindən ayrılan vəsaitin, həmçinin büdcədənkənar xüsusi vəsaitin sərəncamçısı olmaqla, maliyyə vəsaitini bölüşdürür, səmərəli və təyinatı üzrə xərclənməsini, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, işçilərin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.15. Nazirliyin səlahiyyətinə aid olan məsələlər ilə bağlı zəruri qanun layihələrini və digər normativ hüquqi aktları Azərbaycan Respublikasının Prezidentinə, yaxud Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir;

5.5.16. Azərbaycan Respublikasının bölgələrində, şəhərlərində, rayonlarında (şəhər rayonlarında) birbaşa ona tabe olan idarələrini (şöbələrini, bölmələrini və digər idarəetmə qurumlarını, regional orqanlarını) yaradır və ləğv edir;

5.5.17. səlahiyyətləri daxilində dövlət sirrinə aid olan məlumatların mühafizəsini təmin edir.

5.6. Nazirliyin strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.7. Nazir öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

5.8. Nazirlikdə nazirdən (Kollegiyanın sədrindən), nazirin müavinlərindən, Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanının rəhbərindən və Nazirliyin digər rəhbər işçilərindən ibarət Kollegiya yaradılır. Nazirliyin Kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Nazirliyin Kollegiyasının üzvlərinin sayını və tərkibini Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.10. Nazirliyin Kollegiyası öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirəyə çıxarır və müvafiq qərarlar qəbul edir.

5.11. Nazirliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktlar;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktlar;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktlar;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktlar;

5.11.5. nazirin təşəbbüsü ilə Nazirliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktlar;

5.11.6. bu Əsasnamənin 5.11.1–5.11.5-ci yarımbəndlərinə uyğun olaraq, Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişikliklərin edilməsi barədə hüquqi aktlar.

5.12. Nazirliyin Kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Nazirliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olduqda, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Nazirliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, nazir bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Nazirliyin Kollegiyasının şəxsi fikirləri (xüsusi rəyi) olan üzvləri bu barədə məlumatı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.14. Nazirliyin Kollegiyasının iclaslarına zəruri hallarda digər icra hakimiyyəti orqanlarının və təşkilatların, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

5.15. Nazirlikdə müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şura, habelə digər ictimai şuralar yaradıla bilər.

5.16. Nazirlik ətraf mühitin mühafizəsinə, o cümlədən meşə təsərrüfatı, xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin mühafizəsinə və onlardan istifadəyə, balıq ovunun tənzimlənməsinə dövlət nəzarətini həyata keçirən aidiyyəti işçilərini təsviri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən xüsusi geyimlə, nəzarət-ölçü cihazları və digər xüsusi vasitələrlə, habelə qanuna uyğun olaraq xidməti silahla təmin edir.

*Azərbaycan Respublikası Prezidentinin*
*2020-ci il 27 mart tarixli Fərmanı ilə*
*təsdiq edilmişdir*

**Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti haqqında**
**ƏSASNAMƏ**

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti (bundan sonra – Xidmət) meşə fondundan istifadə, onun mühafizəsi, qorunması, meşəsalma və meşələrin bərpası sahəsində (bundan sonra - müvafiq sahə) dövlət siyasətinin həyata keçirilməsində iştirak edən, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik) strukturuna daxil olan qurumdur.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, bu Əsasnaməni və Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Xidmət bu Əsasnamədə nəzərdə tutulan vəzifələri və hüquqları Azərbaycan Respublikasının bütün ərazisində bilavasitə və yerli bölmələri vasitəsilə həyata keçirir.

1.4. Xidmət bu Əsasnamədə nəzərdə tutulan vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Xidmətin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Xidmət Bakı şəhərində yerləşir.

2. Xidmətin fəaliyyət istiqamətləri

2.0. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək;

2.0.2. meşə fondu torpaqlarından səmərəli istifadə, meşələrin cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığının yüksəldilməsi, habelə ölkə ərazisinin meşəlik faizinin artırılması istiqamətində fəaliyyəti həyata keçirmək;

2.0.3. meşələrdən, meşə-parklardan və meşədənkənar ərazilərdən yüksək genetik xüsusiyyətlərə malik, meşəəmələgətirici, relikt və endemik ağac və kol cinslərinin seleksiya əsasında seçilməsi, toxumların tədarükü, uçotu, analiz olunub yoxlanılması, eləcə də saxlanılması, nəqli və mübadiləsi sahələrində fəaliyyəti həyata keçirmək;

2.0.4. dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər tərəfindən müvafiq sahə üzrə qanunvericiliyin tələblərinə riayət olunması üçün tədbirlər görmək;

2.0.5. aidiyyəti elmi müəssisə və təşkilatları cəlb etməklə, müvafiq sahə üzrə elmi tədqiqat fəaliyyətinin həyata keçirilməsini təşkil etmək;

2.0.6. meşələrin qorunması, meşə fondundan səmərəli istifadə, meşələrin məhv olmaqdan, zədələnməkdən, xəstəlik və zərərvericilərdən, yanğından, çirklənmədən və digər mənfi təsirlərdən mühafizəsi məqsədilə fəaliyyəti həyata keçirmək.

3. Xidmətin vəzifələri

3.0. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.0.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, hazırlanmış layihələrə dair rəy və təklifləri Nazirliyə təqdim etmək;

3.0.2. meşələrin mühafizəsi, bərpası, meşə fondundan səmərəli və məqsədyönlü istifadənin təmin olunması, meşələrin torpaqqoruyucu, susaxlayıcı, iqlimtənzimləyici, sağlamlaşdırıcı və digər faydalı funksiyalarının artırılması istiqamətində dövlət proqramlarının və inkişaf konsepsiyalarının layihələrinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.0.3. Nazirliyin razılığı ilə müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.0.3. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarının, qeyri-hökumət təşkilatlarının fəaliyyətini əlaqələndirmək;

3.0.4. meşə təsərrüfatı tədbirlərinin səmərəliliyinin artırılması, meşələrin mühafizəsi, suqoruyucu, mühityaradıcı, sağlamlaşdırıcı və digər faydalı təbii xüsusiyyətlərinin saxlanılması və gücləndirilməsi sahələrində elmi tədqiqatların və monitorinqlərin aparılmasını təşkil etmək;

3.0.5. meşə yanğınlarına qarşı əhali arasında maarifləndirmə işi aparılmasına, yanğına qarşı mineral zolaqların çəkilməsinə və digər mühafizə tədbirlərinin yerinə yetirilməsinə yönəldilmiş fəaliyyəti əlaqələndirmək;

3.0.6. meşələrin mühafizəsi və qorunması məqsədilə yanğınla mübarizə tədbirlərini həyata keçirmək, yüksək yanğın təhlükəsi dövründə əhalinin, nəqliyyat vasitələrinin meşəyə girməsini, habelə ayrı-ayrı meşə fondu sahələrində müəyyən iş növlərinin aparılmasını məhdudlaşdırmaq və ya qadağan etmək;

3.0.7. qoruq meşələrində, milli parklarda və xüsusi mühafizə edilən ərazilərdə yanğın təhlükəsizliyi, meşə toxumçuluğu, yabanı meyvə və digər meşə sərvətləri tədarükü ilə əlaqədar olaraq, fiziki şəxslərin həmin sahələrdə olmasını və meşə sərvətləri yığmasını məhdudlaşdırmaq və qadağan etmək;

3.0.8. meşə fondunun zərərvericilərdən, xəstəliklərdən mühafizəsi məqsədilə fasiləsiz monitorinqlər aparmaq, zərərverici və xəstəlik mənbələrini aşkara çıxarmaq, cari, ekspedisiya, aviavizual və digər meşəpatoloji müşahidə tədbirlərini həyata keçirmək, bu barədə perspektiv plan, yekun material, təlimat hazırlamaq;

3.0.9. meşə təsərrüfatı qurumlarının qiymətli ağac cinslərindən ibarət yüksək məhsuldarlıqlı, mühityaradıcı və qoruyucu funksiyaları olan yeni meşə sahələri salmasını təşkil etmək;

3.0.10. meşələrin dövlət uçotunu, dövlət meşə kadastrını, meşələrin monitorinqini və meşə quruluşu işlərini aparmaq;

3.0.11. meşələrin bərpası və yenidən əkilməsi (rekonstruksiyası) işlərinin elm və texnikanın, qabaqcıl təcrübənin nailiyyətlərindən istifadə etməklə təşkili sahəsində təklif və tövsiyələr hazırlamaq;

3.0.12. meşəbərpa, meşə əkini, əkin materiallarının yetişdirilməsi, onlara qulluq, təbii bərpaya kömək, az əhəmiyyətli və aşağı sıxlıqlı (doluluqlu) ağacların rekonstruksiya edilməsi tədbirlərini təşkil etmək;

3.0.13. hidromeşəmeliorativ tədbirlərin və torpaqların rekultivasiyasının, habelə çay və göllərin kənarlarının, dərə-yarğan və qumluqların, digər əlverişsiz torpaqların meşələşdirilməsi işlərinin meşə quruluşu layihələrinə və meşə əkinlərinə olan tələblərə uyğun aparılmasını təşkil etmək;

3.0.14. meşə əkinlərinin texniki qəbulu, inventarlaşdırılması, meşə ilə örtülü sahəyə keçirilməsi və sairlə bağlı sənədlərin tərtib olunması işlərini təşkil etmək;

3.0.15. qeyri-meşə torpaqlarında meşə salmaq, meşə fondunun məhsuldar olmayan torpaq sahələrini minimuma endirmək, meşə fonduna daxil olmayan torpaqlarda qoruyucu əkinlər yaratmaq;

3.0.16. meşəbərpa işlərinin həcminin, onların aparılma üsullarının və bərpa olunacaq ağac cinslərinin müəyyənləşdirilməsi, həmçinin meşəbərpa tədbirlərinin, meşə toxumları tədarükü və əkin materialları yetişdirilməsi işlərinin meşə təsərrüfatı qurumları tərəfindən yerinə yetirilməsinə nəzarət etmək;

3.0.17. meşə təsərrüfatı qurumları tərəfindən meşə toxumluq sahələrinin seçilməsinə, bərpa olunacaq ağac cinslərinin toxumlarının hazırlanmasına və tədarükünə, onların keyfiyyətinin, habelə toxum ehtiyat fondunun miqdarı, saxlanılması və əkin materialları yetişdirilməsi işlərinin texniki şərtlərə uyğun olmasına nəzarət etmək;

3.0.18. meşələrin məhsuldarlığının artırılması məqsədilə elmi cəhətdən əsaslandırılmış meşəqırma sistemini tətbiq etmək, meşələrin bərpasını, onların cins tərkibinin yaxşılaşdırılmasını, habelə seleksiya-genetika əsasında daimi meşə toxumçuluğu bazasının yaradılmasını təmin etmək;

3.0.19. meşə fondunun vəziyyəti üzərində fasiləsiz müşahidələr aparılmasında, zərərli orqanizmlərin mənbələrinin aşkar edilməsində və həmin yerlərdə fitosanitar tədbirlərin görülməsi, bu halların yayılmasının qarşısının alınması, onların aradan qaldırılması tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

3.0.20. aidiyyəti dövlət qurumu ilə birlikdə meşə fondunda zərərvericilərin və xəstəliklərin çoxalmasının, eləcə də yayılmasının icmalına və proqnozuna dair məlumatlara əsasən meşə zərərverici həşəratlarına və xəstəliklərə qarşı profilaktik və fitosanitar tədbirlərin perspektiv planını, həmçinin meşələrin fitosanitar vəziyyəti barədə yekun materialları hazırlamaq, fitosanitar tədbirləri həyata keçirmək məqsədilə müvafiq hesabatlar tərtib etmək;

3.0.21. səpin üsulu ilə meşə əkinləri salındıqda səpin qaydasını, ilkin sıxlıq normasını və digər texnoloji tələbləri, yol verilən cərgə aralarının enini, əkin (səpin) yerlərinin arasını və meşəbitmə zonasını müəyyənləşdirmək;

3.0.22. əkin materiallarının seleksiya əsasında seçilmiş yüksək genetik xüsusiyyətli ağac və kol cinslərindən tədarük edilmiş toxumlar hesabına yetişdirilməsini, genefondun, endemik və relikt ağac və kol cinslərinin qorunub mühafizə edilməsini, onların areallarının genişləndirilməsini, meşəbərpa və meşə meliorasiya tədbirlərinin həyata keçirilməsini təşkil etmək;

3.0.23. meşə təsərrüfatının təşkili planı və texniki layihələr əsasında meşəbitmə şəraitinə uyğun müasir texnologiyalar tətbiq etməklə, meşəbərpa və meşəsalma tədbirlərinin həyata keçirilməsi üçün tədbirlər görmək;

3.0.24. ekoloji və iqtisadi cəhətdən meşə təsərrüfatında daha səmərəli hesab edilən, tezböyüyən cinslərdən ibarət plantasiyalar salınmasını təşkil etmək;

3.0.25. meşə fondu sahələrinin zibillənmə, çirklənmə, bataqlıqlaşma və su altında qalma hallarının qarşısının alınması, yararlı hala gətirilməsi (bərpa edilməsi), məhsuldarlığının artırılması, onların susaxlayıcı, mühittənzimləyici və digər faydalı funksiyalarının artırılması məqsədilə görülən tədbirlərə nəzarət etmək;

3.0.26. meşə quruluşu layihələri əsasında oduncaq və aralıq istifadə üçün meşələri qırmadan sənaye məhsulları istehsal olunması barədə Nazirliyə təkliflər vermək;

3.0.27. kötüstü oduncaq buraxılışı məqsədilə meşə istifadəçilərinin hazırladıqları texnoloji xəritəyə razılıq verilməsi, habelə kötüstü oduncaq və ikinci dərəcəli meşə materiallarının tədarükü, daşınması üçün meşəqırma bileti (qırma sahələrinin düzgün seçilməsi, ayrılması), həmçinin özü yıxılmış və (və ya) qurumuş ağaclardan oduncaq hazırlanması, ağac tör-töküntüsü və ikinci dərəcəli meşə materiallarının tədarükü, daşınması üçün order vermək;

3.0.28. meşə istifadəçiləri meşə qanunvericiliyinin tələblərini pozduqda, istifadə hüququnun dayandırılması və ya məhdudlaşdırılması, habelə istifadə hüququnun məhdudlaşdırılmasına və ya dayandırılmasına səbəb olmuş vəziyyət və şərtlər aradan qaldırıldıqda, bu hüququn tam həcmdə bərpa edilməsinə dair qərar qəbul etmək;

3.0.29. meşə fondu sahələrindən elmi tədqiqat, mədəni sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadəyə dair bağlanan müqavilələrin qeydiyyatını aparmaq;

3.0.30. meşə fondunda meşələri qanunsuz qırılmadan qorumaq;

3.0.31. müvafiq sahə üzrə pozuntuların aradan qaldırılmasına dair fiziki şəxslərə, eləcə də vəzifəli və hüquqi şəxslərə qarşı tələblər irəli sürmək;

3.0.32. meşələrin mühafizə və bərpasının təmin edilməsi, təsərrüfat fəaliyyətinin və digər fəaliyyətlərin meşə fondunda təbii ekoloji sistemlərə zərərli təsirinin qarşısının alınması istiqamətində problemləri, müvafiq sahə ilə bağlı innovativ layihələrdən (o cümlədən startaplardan) istifadə imkanını araşdırmaq və Nazirliyə təkliflər vermək;

3.0.33. fəaliyyətinin təşkili ilə bağlı ayrılan dövlət büdcəsi vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.0.34. müvafiq sahə ilə bağlı sərgilərin, fotostendlərin, sənədli və qısametrajlı filmlərin hazırlanmasını, seminar və tədbirlərin keçirilməsini təşkil etmək;

3.0.35. fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, müvafiq internet saytının yaradılmasını, malik olduğu və açıqlanmalı informasiyanın həmin saytda davamlı yenilənməklə yerləşdirilməsini təmin etmək, habelə məlumatların aidiyyəti dövlət orqanlarının elektron informasiya sistemınə inteqrasiyası üçün tədbirlər görmək;

3.0.36. fəaliyyət istiqamətləri üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrasının təmin edilməsində iştirak etmək;

3.0.37. dövlət sirrinin və məxfilik rejiminin qorunmasını təmin etmək, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.0.38. fəaliyyət istiqamətləri üzrə kadr hazırlığı və əməkdaşların əlavə təhsili üçün Nazirliyə təkliflər vermək;

3.0.39. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və müvafiq tədbirlər görmək;

3.0.40. fəaliyyəti ilə bağlı yaranan arxiv sənədlərinin komplektləşdirilməsini, saxlanılmasını və uçotunu təmin etmək, bu məqsədlə “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun digər tədbirləri görmək;

3.0.41. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4. Xidmətin hüquqları

4.0. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

4.0.1. müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Nazirliyə təkliflər vermək;

4.0.2. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında Nazirliyə təkliflər vermək;

4.0.3. müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək, fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun analitik materiallar hazırlamaq, təhlillər, tədqiqatlar aparmaq, rəy və təkliflərini Nazirliyə təqdim etmək;

4.0.4. beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq etmək, onların müvafiq sahə ilə bağlı təcrübəsini öyrənmək;

4.0.5. fəaliyyət istiqamətlərinə uyğun xüsusi bülletenlər, nəşrlər buraxmaq, reklam-informasiya işlərini həyata keçirmək, müstəqil ekspert və mütəxəssisləri fəaliyyətinə cəlb etmək;

4.0.6. fəaliyyət istiqamətləri üzrə aparılan yoxlamalar (araşdırmalar, monitorinqlər) və onların nəticələri ilə bağlı görülən işlərə dair məlumatları təhlil etmək və informasiya bankı yaratmaq;

4.0.7. iqtisadi və ekoloji əhəmiyyətinə, yerləşməsinə və yerinə yetirdiyi funksiyalara uyğun ölkənin meşə fondu sahələrinin qoruyucu kateqoriyalara aid edilməsi və bir kateqoriyadan digərinə keçirilməsi barədə Nazirliyə təkliflər vermək;

4.0.8. fəaliyyət istiqamətlərindən və vəzifələrindən irəli gələn tədbirlərin həyata keçirilməsi üçün dövlət və yerli özünüidarəetmə orqanlarına, təsərrüfat subyektlərinə, vəzifəli şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan həmin məlumatları (sənədləri) almaq;

4.0.9. meşə fondundan istifadə, onun mühafizəsi, qorunması və meşələrin bərpası sahəsində dövlət idarəetməsinin təşkilinə dair Nazirliyə təkliflər vermək;

4.0.10. funksiyalarının icrası zamanı xüsusi geyimlə təmin olunmaq;

4.0.11. öz vəzifələrini icra edərkən digər dövlət orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərmək;

4.0.12. Xidmətin, habelə onun yerli bölmələrinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Nazirliyə təkliflər vermək;

4.0.13. müvafiq sahədə işçi qruplar və komissiyalar yaratmaq;

4.0.14. müvafiq sahə ilə bağlı konfranslar, seminarlar və digər tədbirlər keçirmək;

4.0.15. fəaliyyəti ilə bağlı Nazirliyə hesabatlar vermək;

4.0.16. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

5. Xidmətin fəaliyyətinin təşkili

5.1. Xidmətə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Xidmətin rəisi rəhbərlik edir.

5.2. Xidmətin rəisi Xidmətə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Xidmət rəisinin Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Xidmət rəisinin müavinləri Xidmət rəisinin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.4. Xidmətin rəisi:

5.4.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.4.2. Xidmət rəisinin müavinləri arasında vəzifə bölgüsü aparır;

5.4.3. Xidmət rəisinin müavinləri, yerli bölmələrin rəhbərləri və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər nazirinin vəzifəyə təyin etdiyi digər struktur bölmələrinin rəhbərləri istisna olmaqla, Xidmətin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, işçilərlə əmək müqavilələri bağlayır, onların fəaliyyətinə rəhbərlik edir, qanunda nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.4.4. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;

5.4.5. müəyyən olunmuş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Xidmətin strukturunu, ştat cədvəlini və xərclər smetasını, habelə struktur bölmələrinin və tabeliyindəki qurumların əsasnamələrini və ya nizamnamələrini təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.4.6. Xidmətin fəaliyyətinə dair əmr, sərəncam və göstərişlər verir, habelə onların icrasına nəzarəti həyata keçirir;

5.4.7. dövlət və yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Xidməti təmsil edir;

5.4.8. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər verir;

5.4.9. Xidmətin vəzifəli şəxslərinin qanunazidd aktlarını ləğv edir;

5.4.10. Xidmətə ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir və bu barədə hesabatı Nazirliyə təqdim edir;

5.4.11. Xidmətin illik və perspektiv iş planlarının tərtib olunmasını təmin edir;

5.4.12. Nazirliyin verdiyi səlahiyyətlər daxilində Xidmətin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı məhkəmələrdə Nazirliyi təmsil edir;

5.4.13. müvafiq sahənin inkişafına dair təklifləri, Xidmətin fəaliyyətinə dair illik hesabatları Nazirliyə təqdim edir;

*Azərbaycan Respublikası Prezidentinin*
*2020-ci il 27 mart tarixli Fərmanı ilə*
*təsdiq edilmişdir*

**Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti haqqında**
**ƏSASNAMƏ**

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti (bundan sonra – Xidmət) Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, hidrometeorologiya, o cümlədən meteorologiya, aviameteorologiya, aqrometeorologiya, hidrologiya, okeanologiya, iqlimşünaslıq və atmosfer proseslərinə fəal təsir işlərinin aparılması, məlumatların toplanılması, təhlili, hazırlanması, saxlanılması və ötürülməsi, metrologiya və standartlaşdırma fəaliyyətinin təşkili, təbii mühitin, o cümlədən atmosfer havasının, yeraltı su obyektləri istisna olmaqla, su obyektlərinin monitorinqi və su kadastrının aparılması sahələrində (bundan sonra – müvafiq sahə) dövlət siyasətinin həyata keçirilməsində iştirak edən, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik) strukturuna daxil olan qurumdur.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, bu Əsasnaməni, Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Xidmət bu Əsasnamədə nəzərdə tutulan vəzifələri və hüquqları Azərbaycan Respublikasının bütün ərazisində bilavasitə və yerli bölmələri vasitəsilə həyata keçirir.

1.4. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Xidmətin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Xidmət Bakı şəhərində yerləşir.

2. Xidmətin fəaliyyət istiqamətləri

2.0. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək;

2.0.2. Azərbaycan Respublikasının ərazisində atmosferin yüksək təbəqələri də daxil olmaqla hidrometeoroloji hadisələrin və proseslərin öyrənilməsi, təhlil edilməsi, proqnozlaşdırılması və bu sahədə elmi araşdırmaların təşkili üzrə fəaliyyəti həyata keçirmək;

2.0.3. Azərbaycan Respublikası ərazisinin, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin hidrometeoroloji rejiminin və iqlim

xüsusiyyətlərinin öyrənilməsinin, atmosfer havasının, yeraltı su obyektləri istisna olmaqla, su obyektlərinin monitorinqinin və su kadastrının aparılmasının, habelə yerüstü suların dövlət uçotunun aparılmasını təmin etmək;

2.0.4. hidrometeoroloji (meteoroloji, hidroloji, okeanoloji, aqrometeoroloji, aktinometrik, radiometeoroloji və aeroloji) müşahidələr aparılması işlərini təşkil etmək;

2.0.5. dövlət və yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahədə qanunvericiliyin tələblərinə riayət etmələri üçün tədbirlər görmək;

2.0.6. aidiyyəti elmi müəssisə və təşkilatları cəlb etməklə, müvafiq sahədə elmi tədqiqat fəaliyyətinin həyata keçirilməsini təşkil etmək.

3. Xidmətin vəzifələri

3.0. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.0.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, hazırlanmış layihələrə dair rəy və təklifləri Nazirliyə təqdim etmək;

3.0.2. Nazirliyin razılığı ilə müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.0.3. atmosfer havasının, torpağın və su obyektlərinin (yeraltı su obyektləri istisna olmaqla) vəziyyətinə antropogen və digər təsirləri qiymətləndirmək və bu istiqamətdə tövsiyələr hazırlamaq;

3.0.4. təbii fəlakət, texnogen qəzalar və süni təsirlər nəticəsində yaranan fövqəladə hallarda hidrometeorologiya, təbii mühitin çirklənməsi və fon vəziyyətinin monitorinqi üzrə müşahidə, eləcə də tədqiqatlar aparmaq, məlumatlar hazırlamaq və müvafiq orqanlara vermək;

3.0.5. təhlükəli hidrometeoroloji hadisələrin başlanması, güclənməsi və davamiyyəti barədə müvafiq dövlət orqanlarını, əhalini, kütləvi informasiya vasitələrini və iqtisadiyyatın ayrı-ayrı sahələrini operativ faktiki məlumatlarla, proqnozlarla, təbii mühitin yüksək çirklənmə səviyyəsi və onun təhlükəlilik dərəcəsi ilə bağlı xəbərdarlıqlarla, sifariş və ya sorğu əsasında rejim və faktiki məlumatlarla təmin etmək;

3.0.6. atmosfer proseslərinə fəal təsir işlərini və dövlət hidrometeorologiya şəbəkəsinin mühafizəsini həyata keçirmək;

3.0.7. hidrometeorologiya və təbii mühitin monitorinqi sahəsində istifadə olunan ölçmə vasitələrinin yoxlanılmasını və məlumatların sertifikatlaşdırılmasını təşkil etmək;

3.0.8. Nazirliklə razılaşdırmaqla, müvafiq sahə üzrə beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasının mənafeyini müdafiə etmək, hidrometeorologiya fəaliyyətinin milli və beynəlxalq hidrometeorologiya sistemləri və şəbəkəsi ilə əlaqələndirilməsini və uzlaşdırılmasını təmin etmək;

3.0.9. atmosferdə baş verən hidrometeoroloji hadisələrin, təbii, texnogen, fiziki, kimyəvi proseslərin vəziyyətinin və inkişafının müəyyənləşdirilməsi, bu proseslərin torpağa, suya, canlı orqanizmlərə və ətraf mühitə təsirinin öyrənilməsi tədbirlərini həyata keçirmək;

3.0.10. yer səthinin radiasiya balansını öyrənmək, atmosferin şəffaflıq dərəcəsini təyin etmək, aeroloji və ozonometrik ölçmələr, hidrometeoroloji şəraitin kənd təsərrüfatı bitkilərinin inkişafına təsirini müəyyən etmək üçün aktinometrik və aqrometeoroloji müşahidələr aparmaq;

3.0.11. yerüstü suların dövlət uçotunu aparmaq, atmosferdə, su obyektlərində, habelə quruda hidrometeoroloji proseslərin müşahidəsinin həyata keçirilməsi, regional iqlim dəyişmələrinin ölkə əhalisinə və iqtisadiyyatına təsirinin araşdırılması, eləcə də adaptasiya tədbirləri ilə bağlı təkliflər hazırlamaq və Nazirliyə təqdim etmək;

3.0.12. hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə elmi-texniki bazanın yaradılması, inkişafı, müşahidə və tədqiqatlar aparılması, məlumatların toplanılması, qeydiyyatı, təhlili, saxlanılması və istifadəsi üzrə milli hidrometeorologiya sisteminin fasiləsiz iş rejimini təmin etmək;

3.0.13. Xəzər dənizinin (gölünün), çayların, göllərin, su anbarlarının, digər su obyektlərinin rejiminin, su ehtiyatlarının vəziyyətinin öyrənilməsini, hidrometeorologiya üzrə faktiki məlumatları, proqnoz və xəbərdarlıqları, gözlənilən təbii təhlükəli hadisələr və təbii mühitin yüksək çirklənmə dərəcəsi və təhlükəsi barədə məlumatları Nazirliklə razılaşdırılmış plan-sxem üzrə dövlət idarəetmə orqanlarına və təşkilatlarına, kütləvi informasiya vasitələrinə, təsərrüfat subyektlərinə, əhaliyə çatdırmaq;

3.0.14. hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə normativ texniki tələblərə, norma və qaydalara əməl edilməsinə nəzarəti həyata keçirmək;

3.0.15. hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə Azərbaycan Respublikası Dövlət Məlumatlar Fondundan istifadəyə və onun mühafizəsinə nəzarəti həyata keçirmək;

3.0.16. Nazirliyin razılığı ilə tabeliyindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatların istehsalçılarının, habelə digər hüquqi və fiziki şəxslərin əldə etdikləri müşahidə məlumatlarını, o cümlədən təhlükəli və xüsusi təhlükəli hidrometeoroloji hadisələrin, təbii mühitin ekstremal çirklənməsi barədə məlumatları qeydə almaq və təhlil edərək hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə Azərbaycan Respublikasının Dövlət Məlumatlar Fonduna daxil etmək;

3.0.17. Nazirliyin razılığı ilə hidrometeorologiya və təbii mühitin monitorinqi sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr üzrə götürdüyü öhdəliklərin yerinə yetirilməsində, konfranslarda, seminarlarda və beynəlxalq təşkilatların digər tədbirlərində iştirak etmək;

3.0.18. hidrometeorologiya və təbii mühitin çirklənməsi üzrə fasiləsiz müşahidələrin, tədqiqatların və hidrometeoroloji hadisələrin uçotunu aparmaq;

3.0.19. Nazirliyin razılığı ilə hidrometeoroloji müşahidə şəbəkəsini uçota almaq, onların köçürülməsini, yerlərinin dəyişdirilməsini, yenilərinin quraşdırılmasını, bərpa edilməsini və fəaliyyətinin dayandırılmasını təmin etmək, habelə müşahidə şəbəkələrinin ətrafında ayrılmış mühafizə zonalarının qorunmasına nəzarəti həyata keçirmək;

3.0.20. atmosfer, su, torpaq çirklənməsinin müşahidəsi, onların vəziyyətinin kompleks qiymətləndirilməsi və proqnozu barədə yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarını, müəssisələri, təşkilatları və əhalini məlumatlarla təmin etmək;

3.0.21. hidrometeorologiya fəaliyyəti haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada ödənişli və ödənişsiz xidmətlərin göstərilməsini təmin etmək;

3.0.22. hidrometeoroloji müşahidə məntəqələrinin işinin təşkili, müşahidə məlumatlarının operativ toplanılması, yoxlanılması, təhlil edilməsi, eləcə də hidrometeorologiya fəaliyyəti haqqında qanunvericiliklə müəyyən olunmuş qaydada yerli, regional və beynəlxalq təşkilatlara yayılması üçün tədbirlər görmək;

3.0.23. yer səthində, yerüstü su obyektlərində və atmosferdə radiasiya fonu üzərində sistematik müşahidələr aparmaq;

3.0.24. təbii və antropogen təsirlər nəticəsində ozon təbəqəsində gedən dəyişikliklər, eləcə də atmosferdə ozonun ümumi miqdarı üzərində müşahidələr və tədqiqatlar aparmaq;

3.0.25. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində hidrometeoroloji və səviyyə rejimini öyrənmək məqsədilə müşahidələr təşkil etmək;

3.0.26. transsərhəd və daxili səth sularının (çaylar, göllər, su anbarları, habelə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi) kəmiyyət və keyfiyyət

məlumatlarının təhlili əsasında su təsərrüfatı balanslarının və su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi sxemlərini tərtib etmək, eləcə də hövzə idarəetmə planlarını hazırlamaq və həyata keçirmək;

3.0.27. yerüstü suların dövlət uçotunu və su obyektlərinin monitorinqi əsasında aidiyyəti dövlət orqanı (qurumu) ilə birlikdə dövlət su kadastrını aparmaq;

3.0.28. hidrometeoroloji hadisələrin (sel, daşqın, leysan yağışları, quraqlıq, dolu, qar uçqunu, qasırğa, güclü külək və dənizdə dalğalanma, səviyyə tərəddüdü, buz örtüyü və s.) öyrənilməsini təmin etmək və onların törədə biləcəyi fəsadların qarşısının alınması üçün təkliflər hazırlamaq və Nazirliyə təqdim etmək;

3.0.29. atmosferdə, yer səthində və yerüstü su obyektlərində baş verən proseslərin uçotunu aparmaq;

3.0.30. hidrometeoroloji şəraitə, iqlimə, təbii mühitə antropogen fəaliyyətin təsirini təhlil etmək və onun mənfi nəticələrinin aradan qaldırılması ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

3.0.31. fövqəladə hadisələrə səbəb olan, yaxud ölkə əhalisi və iqtisadiyyatı üçün təhlükə törədən və dağıntılarla nəticələnən təhlükəli hidrometeoroloji hadisələrin meyarlarını yeniləməklə, dəyə biləcək ziyanın minimuma endirilməsi məqsədilə mövcud norma və metodların müntəzəm olaraq təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

3.0.32. hidrometeorologiya sahəsində məlumatların toplanılması, saxlanılması, istifadəsi, ötürülməsi, regional və beynəlxalq səviyyədə məlumatların mübadiləsi üçün Ümumdünya Meteorologiya Təşkilatının təlimatlarına uyğun olaraq informasiya və telekommunikasiya sisteminin inkişaf etdirilməsi barədə təklifləri Nazirliyə təqdim etmək;

3.0.33. hidrometeorologiya və təbii mühitin monitorinqi sahəsində mütərəqqi üsulların tətbiqi məqsədilə beynəlxalq standartlara uyğun olaraq metodika və təlimatların hazırlanması barədə təklifləri Nazirliyə təqdim etmək;

3.0.34. Nazirliyin müvafiq qurumlarında istifadə olunan ölçmə vasitələrinin metroloji təminatı üçün tədbirlər görmək;

3.0.35. qlobal və regional iqlim şəbəkəsinə daxil olan məntəqələrdə və digər məntəqələrdə müşahidələr, iqlim dəyişmələri ilə bağlı tədqiqatlar aparmaq və milli hesabatlar hazırlayaraq Nazirliyə təqdim etmək;

3.0.36. hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə müsabiqələr, seminarlar, treninqlər, sərgilər təşkil etmək;

3.0.37. hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə norma və standartların müəyyənləşdirilməsində iştirak etmək;

3.0.38. Nazirliyin razılığı ilə beynəlxalq aeronaviqasiya meteoroloji xidməti göstərmək;

3.0.39. hüquqi və fiziki şəxslərin sifarişi ilə hidrometeorologiya və təbii mühitin çirklənməsi ilə bağlı müşahidələr, tədqiqatlar aparmaq və məlumatlar hazırlamaq;

3.0.40. hidrometeorologiya və təbii mühitin çirklənməsi üzrə müşahidə nəticələrinin təhlilinin və araşdırılmasının həyata keçirilməsində iştirak etmək, hesabatlar hazırlamaq və arxivləşdirmək;

3.0.41. fəaliyyətinin təşkili ilə bağlı ayrılan dövlət büdcəsi vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.0.42. fəaliyyət istiqamətləri üzrə beynəlxalq, məhəlli, milli və yerli səviyyədə proqram və layihələrin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.0.43. dövlət sirrinin və məxfilik rejiminin qorunmasını təmin etmək, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.0.44. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və açıqlanmalı informasiyanın həmin saytda davamlı yenilənməklə yerləşdirilməsini təmin etmək;

3.0.45. fəaliyyət istiqamətləri üzrə kadr hazırlığı və əməkdaşların əlavə təhsili üçün Nazirliyə təkliflər vermək;

3.0.46. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və müvafiq tədbirlər görmək;

3.0.47. fəaliyyəti ilə bağlı yaranan arxiv sənədlərinin komplektləşdirilməsini, saxlanılmasını və uçotunu təmin etmək, bu məqsədlə "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun digər tədbirlər görmək;

3.0.48. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4. Xidmətin hüquqları

4.0. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

4.0.1. müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Nazirliyə təkliflər vermək;

4.0.2. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında Nazirliyə təkliflər vermək;

4.0.3. müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək, fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun analitik materiallar hazırlamaq, təhlillər, tədqiqatlar aparmaq, rəy və təkliflərini Nazirliyə təqdim etmək;

4.0.4. beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq etmək, onların müvafiq sahə ilə bağlı təcrübəsini öyrənmək;

4.0.5. fəaliyyət istiqamətlərinə uyğun xüsusi bülletenlər, nəşrlər buraxmaq, reklam-informasiya işlərini həyata keçirmək, müstəqil ekspert və mütəxəssisləri fəaliyyətinə cəlb etmək;

4.0.6. fəaliyyət istiqamətləri üzrə aparılan yoxlamalar (araşdırmalar, monitorinqlər) və onların nəticələri ilə bağlı görülən işlərə dair məlumatları təhlil etmək və informasiya bankını yaratmaq;

4.0.7. fəaliyyət istiqamətlərindən və vəzifələrindən irəli gələn tədbirlərin həyata keçirilməsi üçün dövlət və yerli özünüidarəetmə orqanlarına, təsərrüfat subyektlərinə, vəzifəli şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan həmin məlumatları (sənədləri) almaq;

4.0.8. hidrometeorologiya fəaliyyəti haqqında qanunvericiliklə müəyyən olunmuş qaydada hüquqi və fiziki şəxslərlə bağlanılan müqavilələr əsasında təbii mühitin fon vəziyyətinin monitorinqi və bu sahədə laborator analizləri, habelə hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatların verilməsini həyata keçirmək;

4.0.9. müşahidə şəbəkəsini beynəlxalq tələblərə cavab verən cihaz və avadanlıqla təmin etmək məqsədilə Nazirliyə təkliflər vermək;

4.0.10. mürəkkəb fiziki-coğrafi və zərərli şəraitdə (yüksək dağlıq zonada, adada, açıq dənizdə, laboratoriyalarda) təbii mühitin monitorinqi və hidrometeoroloji rejim üzrə müşahidələr və işlər, kimyəvi analizlər aparan işçilərini ərzaq, xüsusi geyim və digər fərdi mühafizə vasitələri ilə təmin etmək;

4.0.11. müşahidə şəbəkəsinin fasiləsiz fəaliyyətinin təmin edilməsi məqsədilə hidrometeoroloji təlimatlara uyğun olaraq stansiya və məntəqələr üçün ayrılmış ərazilərdə yol verilmiş qanun pozuntularının aradan qaldırılmasına dair tədbirlər görmək;

4.0.12. mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi və fiziki şəxslərdən hidrometeorologiya və təbii mühitin monitorinqi sahəsində işlərin görülməsinə, həmçinin məlumatların qeydiyyatına, hazırlanmasına, istifadəsinə, saxlanılmasına aid sənədləri, habelə cihaz və avadanlığın meteoroloji təminatı barədə arayış və onların sertifikatlarını tələb etmək;

4.0.13. tabeliyindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatların istehsalçılarından, habelə digər hüquqi və fiziki şəxslərdən müşahidə məlumatlarını, o cümlədən təhlükəli və xüsusi təhlükəli hidrometeoroloji hadisələr, təbii mühitin ekstremal çirklənməsi barədə əldə etdikləri məlumatları tələb etmək;

4.0.14. Nazirliyin müvafiq qurumlarının ölçmə vasitələrinə beynəlxalq standartlar və yeni texnologiyalar səviyyəsində texniki təminatın həyata keçirilməsi məqsədilə Nazirliyə təkliflər təqdim etmək;

4.0.15. hidrometeorologiya haqqında qanunvericiliyin pozulduğu hallar aşkar olunduqda, müvafiq protokol tərtib etmək və bu pozuntuların aradan qaldırılması məqsədilə qanunvericilikdə nəzərdə tutulan digər tədbirlər görmək;

4.0.16. hidrometeorologiya fəaliyyəti haqqında qanunvericiliyin pozulmasının qarşısının alınması üçün köməkçi vasitə kimi şəkilçəkmə, səsyazma və videoçəkiliş aparmaq;

4.0.17. funksiyalarının icrası zamanı xüsusi geyimlə təmin olunmaq;

4.0.18. müvafiq sahədə işçi qruplar və komissiyalar yaratmaq;

4.0.19. müvafiq sahə ilə bağlı konfranslar, seminarlar və digər tədbirlər keçirmək;

4.0.20. fəaliyyəti ilə bağlı Nazirliyə hesabatlar vermək;

4.0.21. öz vəzifələrini icra edərkən digər dövlət orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərmək;

4.0.22. Xidmətin, habelə yerli bölmələrinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə təkliflər vermək;

4.0.23. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

5. Xidmətin fəaliyyətinin təşkili

5.1. Xidmətə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Xidmətin rəisi rəhbərlik edir.

5.2. Xidmətin rəisi bu Əsasnamə ilə Xidmətə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Xidmət rəisinin Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Xidmət rəisinin müavinləri Xidmət rəisinin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.4. Xidmətin rəisi:

5.4.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.4.2. Xidmət rəisinin müavinləri arasında vəzifə bölgüsü aparır;

5.4.3. Xidmət rəisinin müavinləri, yerli bölmələrin rəhbərləri və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin vəzifəyə təyin etdiyi digər struktur bölmələrinin rəhbərləri istisna olmaqla, Xidmətin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, işçilərlə əmək müqavilələri bağlayır, onların fəaliyyətinə rəhbərlik edir, qanunda nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür,

5.4.4. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;

5.4.5. müəyyən olunmuş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Xidmətin strukturunu, ştat cədvəlini və xərclər smetasını, habelə struktur bölmələrinin və

tabeliyindəki qurumların əsasnamələrini və ya nizamnamələrini təsdiq edilməsi üçün Nazirliyə təqdim edir;

5.4.6. Xidmətə ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir və bu barədə hesabatı Nazirliyə təqdim edir;

5.4.7. Xidmətin fəaliyyətinə dair əmr, sərəncam və göstərişlər verir, habelə onların icrasına nəzarəti həyata keçirir;

5.4.8. dövlət və yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Xidməti təmsil edir;

5.4.9. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər verir;

5.4.10. Xidmətin vəzifəli şəxslərinin qanunazidd aktlarını ləğv edir;

5.4.11. Xidmətin illik və perspektiv iş planlarının tərtib olunmasını təmin edir;

5.4.12. Nazirlik tərəfindən verilən səlahiyyətlər daxilində Xidmətin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı məhkəmələrdə Nazirliyi təmsil edir;

5.4.13. müvafiq sahənin inkişafına dair təklifləri, Xidmətin fəaliyyətinə dair illik hesabatı Nazirliyə təqdim edir.

*Azərbaycan Respublikası Prezidentinin*
*2020-ci il 27 mart tarixli Fərmanı ilə*
*təsdiq edilmişdir*

**Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında**
**ƏSASNAMƏ**

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti (bundan sonra – Xidmət) Azərbaycan Respublikasının ərazisində və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin və təbii ehtiyatların (yerin təki istisna olmaqla), o cümlədən ekoloji baxımdan torpağın münbitliyinin qorunması, bioloji müxtəlifliyin, flora (o cümlədən meşə və yaşıllıqlar), fauna (o cümlədən balıq və digər su bioloji resursları), xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin mühafizəsi, atmosfer havasının çirklənməsinin qarşısının alınması və su ehtiyatlarından səmərəli istifadə, tullantıların idarə olunması sahələrində (bundan sonra – müvafiq sahə) Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət edilməsinə dövlət nəzarətinin həyata keçirilməsində iştirak edən, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik) strukturuna daxil olan qurumdur.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, bu Əsasnaməni və Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Xidmət bu Əsasnamədə nəzərdə tutulan vəzifələri və hüquqları Azərbaycan Respublikasının bütün ərazisində bilavasitə həyata keçirir.

1.4. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Xidmətin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Xidmət Bakı şəhərində yerləşir.

2. Xidmətin fəaliyyət istiqamətləri

2.0. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək;

2.0.2. məişət və istehsalat tullantılarının, atmosfer havasına və su hövzələrinə atılan tullantıların idarə edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin mühafizəsi sahəsində, habelə ovçuluq təsərrüfatlarının, ov yerlərinin və ov obyektlərinin mühafizəsində, bütövlükdə ətraf mühitə zərərli fiziki təsir göstərən fəaliyyət sahələrində qayda və normalara əməl olunmasına fasiləsiz nəzarəti həyata keçirmək;

2.0.3. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək;

2.0.4. ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək;

2.0.5. dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər tərəfindən müvafiq sahələr üzrə qanunvericiliyin tələblərinə riayət olunması üçün tədbirlər görmək.

3. Xidmətin vəzifələri

3.0. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.0.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, hazırlanmış layihələrə dair rəy və təkliflərini Nazirliyə təqdim etmək;

3.0.2. Nazirliyin razılığı ilə müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.0.3. aidiyyəti qurumlarla birlikdə təhlükəli ekoloji vəziyyətlərin yaranması və genişlənməsi təhlükəsi yaradan halların və hadisələrin aşkarlanmasında, habelə proqnozlaşdırılmasında iştirak etmək;

3.0.4. “Atmosfer havasının mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət nəzarətini həyata keçirmək;

3.0.5. ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və nüfuzedici səs-küyün yolverilən səviyyəsinə nəzarət etmək;

3.0.6. dövlət uçotuna alınan və normalaşdırılan atmosfer havasına atılan zərərli maddələrin və ona fiziki təsir mənbələrinin müəssisə, təşkilatlar, şəhər və digər yaşayış məntəqələri üzrə siyahısının müəyyən edilməsi üçün Nazirliyə təkliflər vermək, atmosfer havasına zərərli təsirlərin dövlət uçotunun aparılmasında, onların ekoloji təhlükəlilik dərəcəsinin müəyyənləşdirilməsində iştirak etmək;

3.0.7. atmosfer havasına atılan zərərli maddələrin və ona fiziki təsir mənbələrinin inventarlaşdırılmasının yekun sənədinə razılıq vermək və bu işlərə metodiki rəhbərliyi həyata keçirmək;

3.0.8. su obyektlərindən səmərəli və məqsədyönlü istifadəyə, yerüstü və yeraltı suların çirklənməkdən qorunmasına fasiləsiz nəzarəti həyata keçirmək;

3.0.9. su mühafizə zonalarında təbii ehtiyatlardan istifadə və onların mühafizəsi rejiminə riayət edilməsinə, fiziki və hüquqi şəxslərin digər təsərrüfat fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.0.10. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tullantılara bağlı fəaliyyətə dövlət nəzarətini həyata keçirmək;

3.0.11. tullantıların əmələ gəlməsi anından tam kənarlaşdırılmasınadək dövlət uçotunun və hesabatının aparılmasında iştirak etmək, təhlükəli tullantıların idarə olunmasına dair Nazirliyə təkliflər vermək,

3.0.12. təhlükəli tullantıların inventarlaşdırılmasına, uçotuna və pasportlaşdırılmasına nəzarətin həyata keçirilməsində iştirak etmək, təsnifat sisteminə yeni təhlükəli tullantı növlərinin daxil edilməsi barədə təklifləri Nazirliyə təqdim etmək;

3.0.13. tullantıların həcmi (kütləsi), növü və digər xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilən tullantıların yığılması (toplanması), yerləşdirilməsinə, istifadəsinə və zərərsizləşdirilməsinə görə haqqın çirkləndiricilər tərəfindən ödənilməsini tələb etmək;

3.0.14. "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aidiyyəti qurumlarla birlikdə torpaqların münbitliyinin bərpasına və artırılmasına dair kompleks tədbirlərin həyata keçirilməsində iştirak etmək, torpaqların münbitlik xassələrini səciyyələndirən göstəricilərin uçotunu, monitorinqini aparmaq və bu barədə məlumat bankı yaratmaq;

3.0.15. faydalı qazıntıların hasilatı, aqrokimyəvi, meşə-meliorasiya, geoloji kəşfiyyat və torpaq qanunvericiliyinin tələblərinin pozulması ilə həyata keçirilən digər işlərin dayandırılmasında iştirak etmək, qadağan edilməsi təklifi ilə bu işləri həyata keçirən və ya onların həyata keçirilməsinə razılıq verən, yaxud belə işlərə nəzarət edən mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, bələdiyyələrə müraciət etmək məqsədilə Nazirliyə təkliflər vermək;

3.0.16. aidiyyəti qurumlarla birlikdə ekoloji təhlükəsizliyi təmin etmək, təbii ekoloji sistemlərə təsərrüfat və digər fəaliyyət nəticəsində dəyə biləcək zərərin qarşısını almaq üçün tədbirlər görmək;

3.0.17. yaşıllıqların uçotu və monitorinqi haqqında məlumatları toplamaq və Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təşkil etmək, yaşıllıqların kadastrını aparmaq, yaşıllıqların müfəssəl siyahısını tərtib etmək;

3.0.18. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə həyata keçirilən işlərin məhdudlaşdırılması və müvəqqəti dayandırılması, o cümlədən maliyyələşdirilməsinin dayandırılması, onların istismara verilməsinin qadağan edilməsi, təsərrüfat fəaliyyətinin və başqa fəaliyyətlərin dayandırılması və ya qadağan edilməsi ilə bağlı tədbirlər görmək;

3.0.19. təbii ehtiyatlardan istifadə və ətraf mühitin mühafizəsi sahəsində ayrı-ayrı fəaliyyət növlərinin həyata keçirilməsi üçün verilən lisenziya və icazənin, təbiətdən istifadə müqavilələrinin (kontraktların) şərtlərinə əməl edilməsini yoxlamaq, onların dayandırılması və ya ləğvi barədə qərar qəbul etmək;

3.0.20. informasiya təminatını təşkil etmək, təhlükəli və fövqəladə ekoloji vəziyyət yaranması barədə əhaliyə məlumat vermək və ekoloji təhlükəsizlik sahəsində vətəndaşların təlimatlandırılmasını təmin etmək;

3.0.21. "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ekoloji təhlükəsizlik sahəsində dövlət nəzarətini həyata keçirmək;

3.0.22. ətraf mühitin, heyvanlar və bitki aləminin mühafizəsinə, bərpasına və onlardan istifadəyə dövlət nəzarətini həyata keçirmək;

3.0.23. meşə fondunun vəziyyətinə, istifadəsinə, mühafizəsinə, qorunmasına, meşələrin bərpasına dövlət nəzarətini həyata keçirmək;

3.0.24. xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsinə dövlət nəzarətini həyata keçirmək;

3.0.25. balıq və digər su bioresurslarından istifadəyə və onların mühafizəsinə dövlət nəzarətini həyata keçirmək;

3.0.26. ekoloji maarifləndirmə işini təşkil etmək;

3.0.27. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarının, qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsində iştirak etmək;

3.0.28. fəaliyyətinin təşkili ilə bağlı ayrılan dövlət büdcəsi vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.0.29. dövlət sirrinin və məxfilik rejiminin qorunmasını təmin etmək, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.0.30. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və açıqlanmalı informasiyanın həmin saytda davamlı yenilənməklə yerləşdirilməsini təmin etmək;

3.0.31. fəaliyyət istiqamətləri üzrə kadr hazırlığı və əməkdaşların əlavə təhsili üçün Nazirliyə təkliflər vermək;

3.0.32. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və müvafiq tədbirlər görmək;

3.0.33. fəaliyyəti ilə bağlı yaranan arxiv sənədlərinin komplektləşdirilməsini, saxlanılmasını və uçotunu təmin etmək, bu məqsədlə "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun digər tədbirləri görmək;

3.0.34. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4. Xidmətin hüquqları

4.0. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

4.0.1. Azərbaycan Respublikasının müvafiq sahə üzrə beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Nazirliyə təkliflər vermək;

4.0.2. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında Nazirliyə təkliflər vermək;

4.0.3. müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək, fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun analitik materiallar hazırlamaq, təhlillər, tədqiqatlar aparmaq, rəy və təkliflərini Nazirliyə təqdim etmək;

4.0.4. beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq etmək, onların müvafiq sahə ilə bağlı təcrübəsini öyrənmək;

4.0.5. fəaliyyət istiqamətlərinə uyğun xüsusi bülletenlər, nəşrlər buraxmaq, reklam-informasiya işlərini həyata keçirmək, müstəqil ekspert və mütəxəssisləri fəaliyyətinə cəlb etmək;

4.0.6. fəaliyyət istiqamətləri üzrə aparılan yoxlamalar (araşdırmalar, monitorinqlər) və onların nəticələri ilə bağlı görülən işlərə dair məlumatları təhlil etmək və informasiya bankı yaratmaq;

4.0.7. vəzifələrinə uyğun olaraq normativləri və digər göstəriciləri, onların müəyyən edilməsi üsullarının beynəlxalq standartlar, elmi-texniki tərəqqi və ekoloji vəziyyətin tələbləri nəzərə alınmaqla mütəmadi olaraq təkmilləşdirilməsi üçün Nazirliyə təkliflər vermək;

4.0.8. müvafiq sahə üzrə pozuntuların aradan qaldırılmasına dair qanunla müəyyən olunan qaydada fiziki şəxslərə, habelə vəzifəli şəxslərə və hüquqi şəxslərə qarşı tələblər irəli sürmək;

4.0.9. fəaliyyət istiqamətlərindən və vəzifələrindən irəli gələn tədbirlərin həyata keçirilməsi üçün dövlət və yerli özünüidarəetmə orqanlarına, təsərrüfat subyektlərinə, vəzifəli şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan həmin məlumatları (sənədləri) almaq;

4.0.10. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, müəssisə, idarə, təşkilatlara və digər obyektlərə, o cümlədən hərbi və müdafiə obyektlərinə maneəsiz (xidməti vəsiqələri, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin obyektlərinə daxil olarkən, həmçinin yoxlamanın həyata keçirilməsi haqqında qərarın surətini və yoxlamanın sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı təqdim etməklə) daxil olmaq, öz xidməti vəzifələrini yerinə yetirmək üçün zəruri sənədlərlə, o cümlədən analizlərin nəticələri ilə pulsuz tanış olmaq;

4.0.11. aidiyyəti qurumlarla birlikdə ekoloji təhlükəsizliyin təmin edilməsinə dair tədbirlərdə qarşılıqlı fəaliyyət göstərmək;

4.0.12. ekoloji tələblərin və ətraf mühitin keyfiyyət normativlərinin pozulması ilə həyata keçirilən ekoloji cəhətdən təhlükəli yüklərin (məmulatların), tullantıların və xammal ehtiyatlarının Azərbaycan Respublikasının ərazisinə gətirilməsinə və həmçinin onun ərazisindən tranzit yolu ilə daşınmasına dair qərarın qəbul olunmasında iştirak etmək;

4.0.13. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət funksiyalarının icrası zamanı xüsusi geyimlə təmin olunmaq, xüsusi vasitələr, xidməti silah gəzdirmək və saxlamaq;

4.0.14. Xidmətin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Nazirliyə təkliflər vermək;

4.0.15. ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulduğu hallar aşkar edildikdə, müvafiq protokol tərtib etmək və bu pozuntuların aradan qaldırılması məqsədilə qanunvericilikdə nəzərdə tutulan digər tədbirlər görmək;

4.0.16. müvafiq sahədə işçi qruplar və komissiyalar yaratmaq;

4.0.17. müvafiq sahə ilə bağlı konfranslar, seminarlar və digər tədbirlər keçirmək;

4.0.18. fəaliyyəti ilə bağlı Nazirliyə hesabatlar vermək;

4.0.19. öz vəzifələrini icra edərkən digər dövlət orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərmək;

4.0.20. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

5. Xidmətin fəaliyyətinin təşkili

5.1. Xidmətə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir.

5.2. Xidmətin rəisi Xidmətə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Xidmət rəisinin Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Xidmət rəisinin müavinləri Xidmət rəisinin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.4. Xidmətin rəisi:

5.4.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.4.2. Xidmət rəisinin müavinləri arasında vəzifə bölgüsü aparır;

5.4.3. Xidmət rəisinin müavinləri, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər nazirinin vəzifəyə təyin etdiyi digər struktur bölmələrinin rəhbərləri istisna olmaqla, Xidmətin işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, işçilərlə əmək müqavilələri bağlayır, onların fəaliyyətinə rəhbərlik edir, qanunda nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.4.4. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;

5.4.5. müəyyən olunmuş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Xidmətin strukturunu, ştat cədvəlini və xərclər smetasını, habelə struktur bölmələrinin əsasnamələrini təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.4.6. dövlət və yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Xidməti təmsil edir;

5.4.7. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər verir;

5.4.8. Xidmətin vəzifəli şəxslərinin qanunazidd aktlarını ləğv edir;

5.4.9. Nazirliyin verdiyi səlahiyyətlər daxilində Xidmətin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı məhkəmələrdə Nazirliyi təmsil edir;

5.4.10. Xidmətə ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir və bu barədə hesabatı Nazirliyə təqdim edir;

5.4.11. Xidmətin illik və perspektiv iş planlarının tərtib olunmasını təmin edir;

5.4.12. müvafiq sahənin inkişafına dair təklifləri, Xidmətin fəaliyyətinə dair illik hesabatları Nazirliyə təqdim edir;

5.4.13. Xidmətin fəaliyyətinə dair əmr, sərəncam və göstərişlər verir, habelə onların icrasına nəzarəti həyata keçirir.

*Azərbaycan Respublikası Prezidentinin*
*2020-ci il 27 mart tarixli Fərmanı ilə*
*təsdiq edilmişdir*

**Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında**
**Bioloji Müxtəlifliyin Qorunması Xidməti haqqında**
**ƏSASNAMƏ**

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti (bundan sonra – Xidmət) Azərbaycan Respublikasının ərazisində və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində bioloji müxtəlifliyin, genetik fondun və təbii ekoloji sistemin qorunub saxlanılması, bərpası, artırılması, davamlı inkişafı, xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərindən məqsədli istifadə, heyvanlar aləminin və ovçuluq təsərrüfatlarının inkişafı, maarifləndirmə, ekoturizmin və rekreasiyanın təşkili və inkişafı sahələrində (bundan sonra – müvafiq sahə) dövlət siyasətinin həyata keçirilməsində iştirak edən, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik) strukturuna daxil olan qurumdur.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan

Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, bu Əsasnaməni və hüquqi aktlarını rəhbər tutur.

1.3. Xidmət bu Əsasnamədə nəzərdə tutulan vəzifələri və hüquqları Azərbaycan Respublikasının bütün ərazisində bilavasitə və yerli bölmələri vasitəsilə həyata keçirir.

1.4. Xidmət vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Xidmətin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Xidmət Bakı şəhərində yerləşir.

2. Xidmətin fəaliyyət istiqamətləri

2.0. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək;

2.0.2. bioloji müxtəlifliyin və təbii ekosistemlərin mühafizəsi və səmərəli istifadəsi, xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili, genişləndirilməsi və idarə edilməsi fəaliyyəti həyata keçirmək;

2.0.3. heyvanlar aləmi obyektlərinin mühafizəsi və səmərəli istifadəsi fəaliyyətini həyata keçirmək;

2.0.4. bioloji müxtəlifliyin və genetik fondun qorunub saxlanması, o cümlədən balıq və digər su bioresurslarının bərpası, artırılması (o cümlədən süni yolla), davamlı inkişafı üçün zəruri tədbirlər görmək;

2.0.5. xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən məqsədli istifadə, heyvanlar aləminin və ovçuluq təsərrüfatlarının inkişafı, ekoturizmin və rekreasiyanın təşkili, eləcə də inkişafı sahəsində fəaliyyəti təmin etmək;

2.0.6. dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər tərəfindən müvafiq sahə üzrə qanunvericiliyin tələblərinə riayət olunmasını təşkil edir;

2.0.7. aidiyyəti elmi müəssisə və təşkilatları cəlb etməklə, müvafiq sahə üzrə elmi tədqiqat fəaliyyətinin həyata keçirilməsini təşkil etmək.

3. Xidmətin vəzifələri

3.0. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.0.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, hazırlanmış layihələrə dair rəy və təkliflərini Nazirliyə təqdim etmək;

3.0.2. Nazirliyin razılığı ilə müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.0.3. xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin fasiləsiz olaraq mühafizə rejiminin pozulmasının qarşısını almaq;

3.0.4. bioloji müxtəlifliyin qorunub saxlanılması, artırılması (o cümlədən süni yolla), davamlı inkişafı, flora və faunanın (o cümlədən balıq və digər su bioresurslarının) bərpası və bioloji sərvətlərdən səmərəli istifadə istiqamətində dövlət proqramlarının, inkişaf konsepsiyalarının layihələrinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.0.5. “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üçün pasport hazırlamaq və onları dövlət qeydiyyatına almaq;

3.0.6. respublika və ya bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili və ləğvi, beynəlxalq əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin müəyyən edilməsi, digər xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması barədə “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təkliflər hazırlayıb Nazirliyə təqdim etmək;

3.0.7. milli parkların ərazilərində xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonalarının müəyyənləşdirilməsinə, ekoturizmin inkişaf etdirilməsinə dair Nazirliyə təkliflər vermək və bu sahədə fəaliyyətin tənzimlənməsini təmin etmək;

3.0.8. beynəlxalq və respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrını və monitorinqini aparmaq;

3.0.9. milli parklarda və dövlət təbiət qoruqlarında həyata keçirilən işlərə dair hesabatları tələb etmək;

3.0.10. xüsusi mühafizə olunan təbiət ərazilərinə və obyektlərinə yaxın ərazilərdə nəzərdə tutulan fəaliyyət həyata keçirildikdə, həmin fəaliyyətə dair ətraf mühitə təsirin qiymətləndirilməsində nümayəndə qismində iştirak etmək;

3.0.11. xüsusi mühafizə olunan təbiət ərazilərində təbii sərbəstlik şəraitində olan heyvanlar aləmi obyektlərindən, onları təbii mühitdən ayırmamaqla, elmi tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün istifadə edilməsinə (müşahidə, nişanlama, şəkilçəkmə və s.) razılıq vermək;

3.0.12. “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq vəhşi heyvanların yaşayış mühitinin ekoloji vəziyyətini, faunanın, o cümlədən suyun bioloji sərvətlərinin həyat fəaliyyəti məhsullarının əldə edilməsini və davamlı olaraq bioloji müxtəliflik sahəsində elmi tədqiqatlar və monitorinqlər aparılmasını tənzimləmək;

3.0.13. heyvanlar aləmi obyektlərinin dövlət uçotu, dövlət kadastrı və dövlət monitorinqini həyata keçirmək;

3.0.14. bitki və heyvanlar aləminin (o cümlədən balıq və digər su bioresurslarının) mühafizəsini və istifadəsini, Azərbaycan Respublikasının “Qırmızı Kitabı”nın aparılmasını təşkil etmək, Azərbaycan Respublikasının “Qırmızı Kitabı”na daxil edilməmiş, lakin nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan növlərini xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına daxil etmək, aidiyyəti dövlət qurumları ilə birlikdə heyvanlar aləminin dövlət uçotu, kadastrı və monitorinqini həyata keçirmək;

3.0.15. qiymətli, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan növlərinin xüsusi mühafizə rejimini müəyyən etməklə, onların qeyri-sərbəst şəraitdə artırılması tədbirlərini görmək;

3.0.16. təbii fəlakət, antropogen təsir və digər səbəblər nəticəsində dağılmış və ya məhv olmuş heyvanlar aləmi obyektlərinin bərpası tədbirlərini həyata keçirmək;

3.0.17. vəhşi heyvanlar xəstəliyə yoluxduqda, yaşayış mühiti pisləşdikdə və məhv olmaq təhlükəsi yarandıqda, onların tələf olması hallarının aradan qaldırılması istiqamətində tədbirlər görmək;

3.0.18. qeyri-sərbəst və ya yarımsərbəst şəraitdə yetişdirilməsinə icazə verilən vəhşi heyvanların fiziki və hüquqi şəxslər tərəfindən saxlanılmasına (o cümlədən saxlama şəraitinə), istifadəsinə, artırılmasına nəzarət etmək;

3.1.19. şəhərlərdə və Xəzər dənizinin sahillərində (Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsinin sahilboyu 20 – 50 metrlik zolağının altındakı

torpaq sahələri istisna olmaqla) balıq məhsullarının satışı üzrə ixtisaslaşmış bazarların təşkili üçün müvafiq torpaq sahələrinin ayrılmasına razılıqla bağlı Nazirliyə təkliflər vermək;

3.0.20. heyvanlar aləminə, onların yaşayış mühitinə və iqtisadiyyata zərər vurulmasının qarşısını almaq məqsədilə ayrı-ayrı yırtıcı, zərərverici vəhşi heyvan növlərinin sayının tənzimlənməsinə yönəldilmiş mütəmadi tədbirlər görmək;

3.0.21. heyvanlar aləmi obyektlərinin istifadəçilərindən vəhşi heyvanların sayının və istifadəsinin ilkin uçotu, onların vəziyyəti, yaşayış yerlərinin xarakteri barədə məlumatlar tələb etmək;

3.0.22. heyvanların tələf olmasının və yaşayış mühitinin pisləşməsinin qarşısının alınması məqsədilə aidiyyəti təşkilatların elmi-praktiki dəstəyi ilə bitki mühafizəsi vasitələrinin tətbiqi məhdudlaşdırılan və ya qadağan edilən ayrı-ayrı əraziləri aidiyyəti dövlət orqanı (qurumu) ilə birgə müəyyən etmək;

3.0.23. "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda heyvanlar aləminin obyektləri üzərində mülkiyyət hüququna xitam verilməsi ilə əlaqədar iddia qaldırılmaq;

3.0.24. nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan növlərinin təbii şəraitdə qorunub saxlanılması və törəyib artması mümkün olmadıqda, elmi tədqiqat məqsədilə onların qeyri-sərbəst şəraitdə süni çoxaldılması istiqamətində tədbirlər görmək;

3.0.25. vəhşi heyvan növünün sayının azalması təhlükəsi mövcud olduqda, təbii şəraitdə bərpasına təhlükə yarandıqda, xəstəliklərə məruz qaldıqda, epizootik xəstəliklərin baş verməsi təhlükəsi yarandıqda, təbii fəlakət zamanı və heyvanların yaşayış mühitinə mənfi təsir göstərən digər hallarda heyvanlar aləmi obyektlərindən müvəqqəti və ya daimi istifadəni məhdudlaşdırmaq;

3.0.26. heyvanlar aləmi obyektlərinin istifadəçilərini vəhşi heyvanların təbii və süni yolla artmasına, onların yaşayış mühitinin qorunmasına və yaxşılaşdırılmasına, mühafizə məsələlərinə dair ekoloji proqramların həyata keçirilməsinə cəlb etmək;

3.0.27. heyvanların təbii mühitdən götürülməsi yolu ilə fiziki və hüquqi şəxslər tərəfindən zooloji kolleksiyalarının (zooparkların, zoobağların, okeanariumların və digər canlı kolleksiyaları, habelə heyvan müqəvvaları, preparatları, hissələri və qalıqları şəklində kolleksiyaların) yaradılmasına və zənginləşdirilməsinə razılıq vermək, zooloji, mineraloji və bitki kolleksiyalarının yaradılmasına, saxlanılmasına və zənginləşdirilməsinə razılıq vermək, onları dövlət uçotuna almaq, eləcə də dövlət reyestrinə daxil edilməsi barədə onun mülkiyyətçisinə (sahibinə) şəhadətnamə vermək;

3.0.28. zooloji kolleksiyalarla ticarətə, habelə zooloji kolleksiyaların Azərbaycan Respublikasına gətirilməsinə, onun hüdudlarından kənara aparılmasına icazə vermək;

3.0.29. Azərbaycan Respublikasının ərazisində beynəlxalq əhəmiyyətli su-bataqlıq yerlərində UNESCO-nun "Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər haqqında" Konvensiyasının tələblərinin yerinə yetirilməsini təmin etmək;

3.0.30. ovçuluq fəaliyyətinin "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənməsində və bu məqsədlə həmin Qanunda nəzərdə tutulmuş hallarda ovçuluq biletləri və ov üçün icazə vermək;

3.0.31. "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri pozulduqda, yanğın, daşqın, tufan, zəlzələ, torpaq sürüşməsi, quraqlıq kimi təbii fəlakət və vəhşi heyvanlar arasında epidemiya hadisələri baş verdikdə, ov yerlərində ovun məhdudlaşdırılmasına və ya dayandırılmasına dair Nazirliyə təkliflər vermək;

3.0.32. respublika və ya yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarının müəyyən edilməsi, yaradılması, yenidən təşkili, ləğvi, habelə inkişafı və yerləşdirilməsi sxemlərinin təsdiq edilməsi barədə Nazirliyə təkliflər vermək;

3.0.33. Azərbaycan Respublikasının ərazisində ovçuluğu təşkil etmək, ov mövsümünün başlanmasını və müddətini, habelə ovçuluq yerlərini müəyyən etmək, bu barədə kütləvi informasiya vasitələri ilə əhaliyə məlumat vermək;

3.0.34. ov obyektinə aid edilmiş vəhşi heyvanların dövlət uçotunun aparılması, onların ayrı-ayrı növlərinin siyahısını, ov mövsümündə tutulması və vurulması normasını (sayını) müəyyən etmək;

3.0.35. dövlət ovçuluq kadastrını, onların dövlət qeydiyyatını, ov obyektlərinin monitorinqini aparmaq;

3.0.36. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində ov etmək üçün icazə vermək;

3.0.37. ov mövsümündə həvəskar və idman ovunun həyata keçirilməsi, ovçuluq təsərrüfatlarında turizm və rekreasiya üçün şərait yaradılması istiqamətində tədbirlər görmək;

3.0.38. təbii fəlakət və digər səbəblər nəticəsində dağılmış və ya məhv olmuş respublika və yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarının, eləcə də ov yerlərinin bərpası işlərini Nazirliyin razılığı ilə təşkil etmək;

3.0.39. ovçuluq təsərrüfatlarına bitişik torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonaları müəyyən etmək;

3.0.40. yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarının yaradılması, respublika əhəmiyyətli ovçuluq təsərrüfatları istisna olmaqla, ovçuluq təsərrüfatlarının aparılması məqsədilə ov yerlərinin bələdiyyələrin, hüquqi və fiziki şəxslərin istifadəsinə (və ya icarəsinə) verilməsi barədə Nazirliyə təklif vermək;

3.0.41. ovçuluq təsərrüfatlarının mühafizəsi və istifadəsi üzərində idarəetməni və dövlət nəzarətini həyata keçirmək, respublika və ya yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarının ərazilərini müəyyən etmək, yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarının təşkil və ləğv edilməsi barədə qərar qəbul etmək, onların inkişafı və yerləşdirilməsi sxemlərini təsdiq etmək;

3.0.42. ov üçün qapalı olan yerlərdə və qadağan edilmiş müddətdə zooloji material toplamaq məqsədilə və başqa elmi məqsədlərlə ovlanması qadağan edilməyən vəhşi heyvanların yalnız müvafiq elmi təşkilatların müraciətlərinə əsasən ovlanmasına (tutulmasına) razılıq vermək;

3.0.43. "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri pozulduqda, qiymətli balıq və digər su bioresursları növlərinin üstün mühafizə rejiminin müəyyənləşdirilməsi, onların ovunun məhdudlaşdırılması və ya qadağan edilməsi barədə Nazirliyə təkliflər vermək;

3.0.44. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq balıqovlama bileti vermək;

3.0.45. Azərbaycan Respublikasında nərə cinsli balıq ehtiyatlarının qorunub saxlanılması, istifadəsi, dövriyyəsinin tənzimlənməsi və bu sahədə elmi tədqiqat işlərinin aparılması istiqamətində tədbirlər görmək;

3.0.46. xarici dövlətlərin hüquqi və fiziki şəxslərinə Azərbaycan Respublikasının su obyektlərində balıqçılığa aid qanunvericiliyə uyğun olaraq, Xəzəryanı dövlətlər arasında bağlanmış beynəlxalq müqavilələr və digər beynəlxalq hüquq normaları əsasında, balıq və digər su bioresurslarından istifadə hüququnun verilməsinə dair Nazirliyə təkliflər vermək;

3.0.47. balıqçılıq subyektlərinin uçotunu aparmaq;

3.0.48. balıq və digər su bioresurslarının artırılması, bərpası, iqlimləşdirilməsi, balıqçılıq su obyektlərinin monitorinqi, kadastrı və meliorasiyası işlərini aidiyyəti qurumlarla birgə təmin etmək;

3.0.49. Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilmiş nadir və nəsli kəsilməkdə olan balıq və digər su bioresurslarının qorunması üçün müvafiq rejim və xüsusi mühafizə olunan su sahələri (akvatoriyalar) müəyyən etmək;

3.0.50. Nazirliyin aidiyyəti qurumu ilə balıq və digər su bioresurslarının sənaye ovu ilə məşğul olan hüquqi və fiziki şəxslərə vətəgə sahələrinin, idman və həvəskar ov üçün dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərinin və ya onların müəyyən hissəsinin ayrılmasına dair tədbirlər görmək;

3.0.51. İxtisaslaşmış balıq məhsulları satışı bazarlarının yerləşmə sxeminin müəyyənləşdirilməsində iştirak etmək;

3.0.52. törədici balıqların və onların sürülərinin uçotunu aparmaq;

3.0.53. ölkənin daxili sularında və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində suyun bioloji sərvətlərinin istismarının həcmini və elmi əsaslandırılmış rejimini müəyyən etmək;

3.0.54. dövlət sifarişi ilə akvakultura təsərrüfatlarında balıq və digər su bioresurslarının artırılması, bərpası, iqlimləşdirilməsi məqsədilə akvakultura subyektləri ilə müqavilələrin bağlanılmasına dair Nazirliyə təkliflər vermək;

3.0.55. akvakultura təsərrüfatı subyektləri üçün bioloji-texnoloji əsaslandırmanı qeydiyyata almaq və şəhadətnamə vermək;

3.0.56. ölkənin daxili sularında və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində bioloji sərvətlərin ovu və artırılması üzrə işləri tənzimləməklə, onların süni yolla çoxaldılmasını həyata keçirmək;

3.0.57. hər il növbəti təqvim ili üçün balıq və digər su bioresurslarının ovunun ümumi yol verilən miqdarının (kvotasının), balıq və digər su bioresurslarının ovu üçün kvotaların ov növləri üzrə bölgüsünün müəyyənləşdirilməsi barədə təklifləri Nazirliyə təqdim etmək;

3.0.58. balıq və digər su bioresurslarının iqlimləşdirilməsinə və iqlimləşdirilmə obyektlərinin daşınmasına nəzarət etmək;

3.0.59. təbii balıqçılıq su obyektlərinə balıq və digər su bioresurslarının yeni növlərinin və hibrid formalarının buraxılmasına nəzarət etmək;

3.0.60. balıqçılıq haqqında qanunvericiliklə müəyyən olunmuş qaydada artırılması və yetişdirilməsi nəzərdə tutulan nərə cinsli, keçici, yarımkeçici balıqların törədicilərinin tədarükü məqsədilə balıq və digər su bioresurslarının ov vətəgələrinin yaradılması barədə təkliflər hazırlamaq;

3.0.61. daxili su obyektlərindən (o cümlədən xüsusi mühafizə olunan təbiət ərazilərində yerləşən) səmərəli istifadə etməklə, artırılması və yetişdirilməsi nəzərdə tutulan vətəgə əhəmiyyətli balıq növlərinin törədici fondunun yaradılmasına və qorunub saxlanılmasına dair təkliflər hazırlamaq;

3.0.62. balıqartırma və balıqyetişdirmə müəssisələrinin fəaliyyətinin əsas istiqamətlərini dəyişdirmədən balıqçılıq haqqında qanunvericiliyə uyğun akvakultura (o cümlədən dəniz akvakulturası (marikultura) əmtəə balıqçılığının yaradılmasında iştirak etmək;

3.0.63. Xəzər dənizində (gölündə) balıq və digər su bioresurslarının iqlimləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin nəzərə alınmasına, Xəzər dənizinə (gölünə) iqlimləşdirilmə məqsədilə nərə cinsli və digər qiymətli balıqların yeni növlərinin buraxılmasına nəzarət etmək;

3.0.64. balıqartırma müəssisələrində balıqçılıq haqqında texniki normativ hüquqi aktlara uyğun törədici balıqların, balıq körpələrinin və inkubasiya edilən kürülərin

inventarlaşdırılmasını aparmaq, balıq və digər su bioresursları körpələrinin su obyektlərinə buraxılışı aktını tərtib etmək;

3.0.65. müvafiq sahə ilə bağlı sərgilər, fotostendlər, ekskursiyalar, sənədli və qısametrajlı filmlər hazırlanmasını, seminar və tədbirlər keçirilməsini təşkil etmək;

3.0.66. kökünün kəsilmə təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin, habelə heyvanlar aləmi obyektlərinin beynəlxalq ticarəti (dənizdən introduksiya, ixrac, təkrar ixrac və idxal) üçün icazə (sertifikat) vermək;

3.0.67. bioloji müxtəlifliyin və təbii ekosistemlərin mühafizəsi və səmərəli istifadəsi istiqamətində problemlərin həllinə yardım göstərmək, müvafiq sahə ilə bağlı innovativ layihələrin (o cümlədən startapların) istifadə imkanını araşdırmaq və Nazirliyə təkliflər vermək;

3.0.68. fəaliyyətinin təşkili ilə bağlı ayrılan dövlət büdcəsi vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.0.69. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.0.70. fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, müvafiq internet saytının yaradılmasını, malik olduğu və açıqlanmalı informasiyanın həmin saytda davamlı yenilənməklə yerləşdirilməsini təmin etmək;

3.0.71. müvafiq sahədə dövlət və yerli özünüidarəetmə orqanlarının, qeyri-hökumət təşkilatlarının fəaliyyətini əlaqələndirmək;

3.0.72. fəaliyyət istiqamətləri üzrə kadr hazırlığı və əməkdaşların əlavə təhsili üçün Nazirliyə təkliflər vermək;

3.0.73. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və müvafiq tədbirlər görmək;

3.0.74. fəaliyyəti ilə bağlı yaranan arxiv sənədlərinin komplektləşdirilməsini, saxlanılmasını və uçotunu təmin etmək, bu məqsədlə "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun digər tədbirlər görmək;

3.0.75. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4. Xidmətin hüquqları

4.0. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

4.0.1. müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə Nazirliyə təkliflər vermək;

4.0.2. müvafiq sahədə normativ hüquqi aktların qəbul edilməsi, dəyişiklik edilməsi, aktların şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi barədə Nazirliyə təkliflər vermək;

4.0.3. müvafiq sahədə beynəlxalq təcrübəni öyrənmək, fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun analitik materiallar hazırlamaq, təhlillər, tədqiqatlar aparmaq, rəy və təkliflərini Nazirliyə təqdim etmək;

4.0.4. beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq etmək, onların müvafiq sahə ilə bağlı təcrübəsini öyrənmək;

4.0.5. fəaliyyət istiqamətlərinə uyğun olaraq xüsusi bülletenlər, nəşrlər buraxmaq, reklam-informasiya işləri həyata keçirmək, müstəqil ekspert və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

4.0.6. fəaliyyət istiqamətləri üzrə aparılan yoxlamalara (araşdırmalara, monitorinqlərə) və onların nəticələri ilə bağlı görülən işlərə dair məlumatları təhlil etmək və informasiya bankı yaratmaq;

4.0.7. fəaliyyət istiqamətlərindən və vəzifələrindən irəli gələn tədbirlərin həyata keçirilməsi üçün dövlət və yerli özünüidarəetmə orqanlarına, təsərrüfat subyektlərinə, vəzifəli şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan həmin məlumatları (sənədləri) almaq;

4.0.8. funksiyalarının icrası zamanı xüsusi geyimlə təmin olunmaq;

4.0.9. müvafiq sahədə işçi qruplar və komissiyalar yaratmaq;

4.0.10. müvafiq sahə ilə bağlı konfranslar, seminarlar və digər tədbirlər keçirmək;

4.0.11. öz vəzifələrini icra edərkən digər dövlət orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərmək;

4.0.12. Xidmətin, habelə yerli bölmələrinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Nazirliyə təkliflər vermək;

4.0.13. öz tabeliyində idarə və təşkilatların yaradılması, ləğvi və yenidən təşkili barədə Nazirliyə təkliflər vermək;

4.0.14. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

5. Xidmətin fəaliyyətinin təşkili

5.1. Xidmətə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Xidmətin rəisi rəhbərlik edir.

5.2. Xidmətin rəisi Xidmətə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Xidmət rəisinin Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Xidmət rəisinin müavinləri Xidmət rəisinin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.4. Xidmətin rəisi:

5.4.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.4.2. Xidmət rəisinin müavinləri arasında vəzifə bölgüsü aparır;

5.4.3. Xidmət rəisinin müavinləri, yerli bölmələrin rəhbərləri və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər nazirinin vəzifəyə təyin etdiyi digər struktur bölmələrinin rəhbərləri istisna olmaqla, Xidmətin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, işçilərlə əmək müqavilələri bağlayır, onların fəaliyyətinə rəhbərlik edir, qanunda nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.4.4. işçilərin peşə hazırlığı və əlavə təhsili üçün zəruri tədbirlər görür;

5.4.5. müəyyən olunmuş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Xidmətin strukturunu, ştat cədvəlini və xərclər smetasını, habelə struktur bölmələrinin və tabeliyindəki qurumların əsasnamələrini və ya nizamnamələrini təsdiq edilməsi üçün Nazirliyə təqdim edir;

5.4.6. Xidmətə ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir və bu barədə hesabatı Nazirliyə təqdim edir;

5.4.7. Xidmətin fəaliyyətinə dair əmr, sərəncam və göstərişlər verir, habelə onların icrasına nəzarəti həyata keçirir;

5.4.8. dövlət və yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Xidməti təmsil edir;

5.4.9. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər verir;

5.4.10. Xidmətin vəzifəli şəxslərinin qanunazidd aktlarını ləğv edir;

5.4.11. Xidmətin illik və perspektiv iş planlarının tərtib olunmasını təmin edir;

5.4.12. Nazirlik tərəfindən verilən səlahiyyətlər daxilində Xidmətin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı məhkəmələrdə Nazirliyi təmsil edir;

5.4.13. müvafiq sahənin inkişafına dair təklifləri, Xidmətin fəaliyyətinə dair illik hesabatı Nazirliyə təqdim edir;

*Azərbaycan Respublikası Prezidentinin*
*2020-ci il 27 mart tarixli Fərmanı ilə*
*təsdiq edilmişdir*

**Dövlət Ekoloji Ekspertiza Agentliyinin**
**NİZAMNAMƏSİ**

1. Ümumi müddəalar

1.1. Dövlət Ekoloji Ekspertiza Agentliyi (bundan sonra – Agentlik) "Ətraf mühitin mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, təsərrüfat fəaliyyətinin və digər fəaliyyətlərin dövlət ekoloji ekspertizasından keçirilməsi də daxil olmaqla, ekoloji təhlükəsizliyin tələblərinə uyğunluğunu müəyyən edən, habelə bu sahədə (bundan sonra – müvafiq sahə) xidmətlər göstərən publik hüquqi şəxsdir.

1.2. Agentlik Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.3. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, bu Nizamnaməni, Nazirliyin normativ hüquqi aktlarını və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin əmr və sərəncamlarını rəhbər tutur.

1.4. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları və digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7. Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Agentlik məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.8. Agentlik Bakı şəhərində yerləşir.

2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyətinin məqsədi dövlət ekoloji ekspertizasını həyata keçirmək, bu istiqamətdə tənzimləmə sistemini təkmilləşdirmək, institusional mexanizmləri formalaşdırmaq, müvafiq sahədə səmərəliliyi artırmaq və fəaliyyət göstərməkdir.

2.2. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. müvafiq sahənin inkişafını təmin etmək;

2.2.2. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.2.3. müvafiq sahədə aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq etmək, təkliflərin işlənilib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.2.4. ekoloji tarazlığının qorunması və təhlükəsizliyin təmin edilməsi, təbii ekoloji sistemlərə təsərrüfat və digər fəaliyyətlərin zərərli təsirinin qarşısının alınması istiqamətində problemlərin həllinə yardım göstərmək, müvafiq sahədə innovativ ideya və layihələri dəstəkləmək.

3. Agentliyin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə qanunvericilik aktlarının, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, hazırlanmış layihələrə dair rəy və təkliflərini Nazirliyə təqdim etmək;

3.1.2. müvafiq sahədə proqnozlar hazırlamaq və prioritetlər üzrə təkliflər vermək;

3.1.3. qanunla müəyyən olunan hallarda dövlət ekoloji ekspertizasının obyektləri üzrə dövlət ekoloji ekspertizasını aparmaq;

3.1.4. şəhərsalma və tikinti qanunvericiliyinə uyğun olaraq ərazi planlaşdırılması sənədlərinə rəy vermək;

3.1.5. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq nəzərdə tutulan fəaliyyətlə məşğul olan müəssisələr üzrə onların ətraf mühitə təsir göstəricilərinə dair ekoloji sənədlər (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), habelə ekoloji pasport) vermək;

3.1.6. "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə icazə vermək;

3.1.7. su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazə vermək;

3.1.8. atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirlərə icazə vermək;

3.1.9. yaşıllığın götürülməsinə dair rəy vermək;

3.1.10. istehsal üçün yabanı dərman bitkiləri xammalının tədarükünə lisenziya verilməsinə dair rəy vermək;

3.1.11. "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mikroorqanizmlərin yeni ştamlarının, bioloji aktiv maddələrin yaradılması, genetik dəyişilmiş orqanizmlərin yetişdirilməsi və başqa biotexnoloji məhsulların istehsalına dair rəy vermək;

3.1.12. Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə müəyyən edilmiş qaydada torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsinə dair sənədlərə rəy vermək;

3.1.13. ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin və təşkilatların reyestrinin aparılmasını və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərə ixtisas attestatının verilməsi üçün Nazirliyə təkilflər vermək;

3.1.14. dövlət ekoloji ekspertizası fəaliyyətini təşkil etmək və inkişaf etdirmək məqsədilə bu istiqamətdə mərkəzlərin və digər təsisatların (infrastrukturun) yaradılması ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.15. müvafiq sahə ilə bağlı innovativ layihələrin (o cümlədən startapların) istifadə imkanını araşdırmaq və təkliflər vermək;

3.1.16. beynəlxalq müqavilələrlə tənzimlənən və Agentliyin fəaliyyət istiqamətlərinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.17. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tullantıların yerləşdirilməsi, basdırılması və emalı üçün torpaq sahələrinin ayrılmasına aidiyyəti üzrə razılıq vermək;

3.1.18. irihəcmli və mürəkkəb ekoloji ekspertiza obyektlərinin dövlət ekoloji ekspertizasının həyata keçirilməsi üçün Ekspert Komissiyası yaratmaq;

3.1.19. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.20. dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, digər hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.21. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.22. Azərbaycan Respublikasının ərazisində müvafiq sahənin inkişafı üçün yerli və xarici müəssisələr, dövlət, qeyri-hökumət təşkilatları və özəl təşkilatlar ilə əməkdaşlıq etmək;

3.1.23. müvafiq sahədə elektron xidmətləri "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.24. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.25. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentliyin əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.26. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və daim yenilənməsini təmin etmək;

3.1.27. Agentliyə ayrılan kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.28. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.29. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.30. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.31. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahə üzrə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təkliflər vermək;

3.2.2. müvafiq sahə üzrə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. təbii ehtiyatlardan (faydalı qazıntılar istisna olmaqla) istifadə və onların mühafizəsi qaydalarının, habelə siyahılarının müəyyənləşdirilməsinə dair təkliflər vermək;

3.2.4. ətraf mühitin mühafizəsi üzrə texnologiyaların təkmilləşdirilməsinə və tətbiqinə dair təkliflər hazırlamaq;

3.2.5. qabaqcıl beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, onların müvafiq təcrübəsini öyrənmək;

3.2.6. Nazirliyin razılığı ilə təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.7. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

3.2.8. Agentliyin məqsədlərinə uyğun olan layihələrin maliyyələşdirilməsi məsələsini həll etmək;

3.2.9. vəzifələrinin icrası ilə bağlı əqdlər bağlamaq və bu cür əqdlərin icrasını təmin etmək;

3.2.10. Agentliyin vəsaiti hesabına maliyyələşdirilən layihələrdə vəsaitin təyinatı üzrə istifadə olunmasına nəzarət etmək məqsədilə monitorinqlər aparmaq;

3.2.11. Agentliyin fəaliyyətini təbliğ etmək;

3.2.12. fəaliyyət istiqamətlərinə uyğun ödənişli xidmətlər göstərmək;

3.2.13. icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn tədbirlər görmək;

3.2.14. daxili və xarici investisiyaların müvafiq sahəyə cəlb edilməsi və onlardan səmərəli istifadə olunması ilə bağlı tədbirlər görmək;

3.2.15. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.16. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, digər hüquqi və fiziki şəxslərə səlahiyyətlərinə aid zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.17. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.18. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, seminarlar, müşavirələr keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.19. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.20. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.21. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

4. Agentliyin idarə olunması

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanı İdarə Heyətidir.

4.3. Agentliyin İdarə Heyəti (bundan sonra – İdarə Heyəti) Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi üç nəfərdən – Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən və digər iki müavindən ibarətdir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyəti üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. Agentliyin fəaliyyətinə nəzarət etmək;

4.5.2. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Agentliyin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.3. Agentliyin strateji məqsəd və planlarını müəyyən etmək, inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə Nazirliyə təkliflər vermək;

4.5.4. Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.5. Agentliyin fəaliyyətinə nəzarət etmək;

4.5.6. Agentliyin fəaliyyətini təşkil etmək;

4.5.7. Agentliyin strukturu, əməkhaqqı fondu və işçilərinin say həddinin təsdiq edilməsi üçün Nazirliyə təkliflər vermək, Agentliyin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.5.8. Nazirliyin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirakı, həmçinin Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.9. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.5.10. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.11. bu Nizamnamə ilə müəyyən edilən vəzifələrin icrası üzrə görülmüş işlərə dair Nazirliyin müəyyən etdiyi müddətlərdə və qaydada Nazirliyə hesabatlar təqdim etmək;

4.5.12. Nazirliyin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.5.13. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.5.14. təbiətdən istifadəyə görə ödəmə sisteminə dair Nazirliyə təkliflər vermək;

4.5.15. Agentlikdə daxili audit bölməsi yaradıldığı halda həmin bölmənin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.5.16. Nazirliyin təyin etdiyi kənar auditorun audit hesabatını qəbul etmək;

4.5.17. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.18. bu Nizamnamənin 3.1.27-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.19. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və müvafiq qərar qəbul etmək;

4.5.20. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.21. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək;

4.5.22. Agentliyin Nizamnaməsi ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

4.6. İdarə Heyətinin iclası ayda bir dəfədən az olmayaraq çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən digər üzvün) səsi həlledicidir. İdarə Heyəti üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir. İclasın gündəliyinə İdarə

Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.7. İdarə Heyətinin sədri:

4.7.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.7.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslara sədrlik edir;

4.7.3. öz təşəbbüsü ilə və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.7.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.7.5. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan sərəncam və əmrlər verir;

4.7.6. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.7.7. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.7.8. Nazirliyin müəyyən etdiyi struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və digər struktur bölmələrinin ştat cədvəlini, habelə xərclər smetasını təsdiq edir;

4.7.9. Agentliyin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4.7.10. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsinə, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsinə dair qərarlar qəbul edir;

4.7.11. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.7.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.7.13. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.7.14. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.7.15. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.7.16. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.8. İdarə Heyətinin üzvləri:

4.8.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.8.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.8.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.8.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.8.5. İdarə Heyətinin qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.9. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli,

həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Agentliyin ilkin nizamnamə fondu 2 000000 (iki milyon) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, dövlət ekoloji ekspertizasına görə ödənilən haqdan, Ətraf Mühitin Mühafizəsi üzrə Dövlət Fondunun vəsaitindən, Agentliyin fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Agentliyin, onun idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində Agentliyin müstəqil sərəncam vermək hüququ vardır.

5.5. Agentliyin məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.

6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

7. Agentlikdə uçot və hesabat

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması məqsədilə kənar auditor cəlb edir.

8. Agentliyin ləğvi və yenidən təşkili

Agentliyin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

## “AZƏRBAYCAN RESPUBLİKASININ GEOLOJİ PARKLARI HAQQINDA ÜMUMİ ƏSASNAMƏ”NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

“Azərbaycan Respublikasının geoloji parkları haqqında ümumi Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 aprel 2020-ci il.

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

### Azərbaycan Respublikasının geoloji parkları haqqında ümumi ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun 40-1-ci maddəsinin 4-cü hissəsinə əsasən hazırlanmışdır və dövlət tərəfindən geoloji parkların yaradılması, idarə edilməsi və onlarda fəaliyyətin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyir.

1.2. Geoloji park xüsusi geoloji, coğrafi, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət obyektlərinin yerləşdiyi təbiəti mühafizə, maarifçilik, elmi, mədəni, turizm və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi müəssisə, yaxud təşkilat statuslu ərazidir.

1.3. Geoloji parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazidə olan torpaq, su, bitki və heyvanlar aləmi onların daimi istifadəsinə verilir.

1.4. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının ərazisində beynəlxalq əhəmiyyətli geoloji parklar müəyyən edə bilər.

1.5. Geoloji parkların hüdudlarında yerləşən torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin torpaq sahələrindən Azərbaycan Respublikasının Torpaq Məcəlləsi, “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanunu və bu Əsasnamə ilə müəyyənləşdirilmiş hüquqi rejimə riayət etməklə istifadə olunur.

1.6. “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanunu və bu Əsasnamə ilə müəyyənləşdirilmiş tələblərə əməl etməklə, təbiəti mühafizə, geoloji və coğrafi təbiət obyektlərini, nadir və etalon təbiət ərazilərini, geoloji irsi qoruyub saxlamaq şərtilə, geoloji parklardan elmi tədqiqat, mədəni-maarif və tədris tədbirləri, geoloji monitorinq, sağlamlaşdırma, təlim-tərbiyə, turizm və rekreasiya məqsədləri üçün istifadə edilə bilər.

1.7. Geoloji parklarda onların məqsədli təyinatına, təbiət komplekslərinin və obyektlərin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan şərtlərlə başqa fəaliyyət növləri həyata keçirilə bilər.

1.8. Geoloji parkın idarə edilməsi və mühafizəsi üçün “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən yaradılan idarənin xüsusi fondunun və vəsaitinin formalaşdırılması və onlardan istifadə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirilir.

1.9. Geoloji parkların təbiət qoruğu fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, onların ərazilərinin perspektiv inkişaf şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (bundan sonra – Nazirlik) xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrını aparır.

1.10. Geoloji parkın müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və geoloji parkın adı həkk olunmuş möhürü, blankları, ştampları, xəzinə və bank hesabları, bayrağı və emblemi vardır.

1.11. Geoloji parkların saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsait, ətraf mühitin mühafizəsi fondlarının vəsaiti, habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

2. Geoloji parkların yaradılması

2.1. Geoloji parklar xüsusi geoloji, coğrafi, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət obyektlərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni, turizm və digər məqsədlər üçün istifadə olunan ərazilərdə yaradılır.

2.2. Geoloji parklar Azərbaycan Respublikası Nazirlər Kabinetinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılır.

2.3. Geoloji parkların torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədilə onların sanitariya-mühafizə zonaları müəyyən edilir. Geoloji parkların sanitariya-mühafizə zonalarının müəyyən edilməsi və həmin zonaların mühafizə rejimi “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsi ilə tənzimlənir.

2.4. Geoloji parkların hər biri üçün Nazirlik pasport hazırlayır. Pasportda geoloji parkın adı, yerləşdiyi yer, yaradılma tarixi, əhəmiyyəti, torpaqdan daimi istifadə hüququna dair hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın seriyası və nömrəsi, mühafizə olunan ərazinin xüsusiyyətləri, onun ümumi görünüşünün sxemi, ərazisində müəyyən edilən fəaliyyət zonaları, xüsusi qorunan geoloji abidələr, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər öz əksini tapmalıdır. Pasport Nazirlikdə dövlət qeydiyyatına alınmaqla geoloji parklarda saxlanılır.

3. Geoloji parkların vəzifələri

3.1. Geoloji parkların vəzifələri aşağıdakılardır:

3.1.1. geoloji və coğrafi təbiət obyektlərini, nadir və etalon təbiət ərazilərini, geoloji irsi qoruyub saxlamaq;

3.1.2. turizm və rekreasiya üçün şərait yaratmaq;

3.1.3. elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirmək;

3.1.4. təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

3.1.5. əhalini maarifləndirmək;

3.1.6. geoloji monitorinqi həyata keçirmək.

4. Geoloji parkların xüsusi mühafizə rejiminin xüsusiyyətləri

4.1. Geoloji parkların ərazisi və obyektləri hər hansı fiziki və ya hüquqi şəxsin hüquq və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur və özgəninkiləşdirilə bilməz.

4.2. Geoloji parkların fiziki və hüquqi şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır.

4.3. Geoloji parkların ərazilərində, onların təbii geoloji və coğrafi xüsusiyyətləri nəzərə alınmaqla, xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

4.3.1. xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

4.3.2. geoturizm və rekreasiya zonaları;

4.3.3. geomuzeylər və tədris-məşğələ obyektləri zonaları;

4.3.4. geoloji parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

4.4. Geoloji parkların sanitariya-mühafizə zonalarında geoturizm və rekreasiya məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə (ov, balıq və digər su bioresurslarının idman və həvəskar ovu və sair) yol verilir.

4.5. Geoloji parklarda elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilə bilər.

4.6. Geoloji parkların sanitariya-mühafizə zonalarında aşağıdakılar qadağan edilir:

4.6.1. təbiət komplekslərinə, genetik fonda, bioloji müxtəlifliyə və tarix-mədəniyyət obyektlərinin varlığına təhlükə yaradan fəaliyyət;

4.6.2. geoloji-kəşfiyyat və dağ-mədən işlərinin aparılması;

4.6.3. hidroloji və hidrogeoloji rejimin dəyişməsinə səbəb olan işlərin aparılması;

4.6.4. kimya sənayesi, metallurgiya, nüvə energetikası və xüsusi ekoloji təhlükə yaradan digər müəssisələrin fəaliyyəti;

4.6.5. geoloji parkların fəaliyyəti ilə bağlı olmayan magistral yolların, boru kəmərlərinin, elektrik xətlərinin və digər kommunikasiyaların çəkilməsi, obyektlərin tikintisi;

4.6.6. müəyyən edilmiş yerlərdən kənarda tonqal yandırılması, turizm və rekreasiya zonaları istisna olmaqla, dayanacaqların təşkili və çadır qurulması;

4.6.7. bu məqsədlər üçün müəyyən edilmiş yerlərdən, ümumi istifadə olunan quru və su yollarından kənar mexaniki nəqliyyat vasitələrinin hərəkəti və dayanacağı, ev heyvanlarının köçürülməsi;

4.6.8. yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası;

4.6.9. meşələrin əsas istifadə üçün qırılması.

4.7. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, geoloji parklarda ərazilərin ekoloji, elmi, estetik, mədəni və rekreasiya dəyərini aşağı sala bilən digər fəaliyyət növləri də məhdudlaşdırıla və yaxud qadağan edilə bilər.

4.8. Geoloji parkların mühafizə rejimini həyata keçirən işçilərə xidməti vəzifələrini yerinə yetirərkən xüsusi forma geyinməklə, "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.

4.9. Geoloji parkın mühafizə xidmətinin aşağıdakı hüquqları vardır:

4.9.1. geoloji parkın ərazisində və onun mühafizə zonasında xüsusi mühafizə rejimini pozanların sənədlərini yoxlamaq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq nəqliyyat vasitələrinə və gəmilərə baxış keçirmək, sübut əhəmiyyəti olan əşyaları və sənədləri götürmək, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olan predmetin aşkar edilməsi məqsədilə şəxsi axtarış həyata keçirmək və əşyaları (o cümlədən ov və balıq ovu alətlərini, əldə olunmuş ov məhsullarını) yoxlamaq;

4.9.2. fiziki və hüquqi şəxslərin geoloji parkın ərazisində və onun mühafizə zonasında "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa və mühafizə rejiminə zidd olan fəaliyyətini dayandırmaq;

4.9.3. geoloji parkın ərazisində və onun mühafizə zonasında mühafizə və istifadə sahəsində pozuntu hallarını aradan qaldırmaq məqsədilə icrası məcburi olan göstərişlər vermək;

4.9.4. geoloji parkın ərazisində xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyi pozmuş, cinayət və ya inzibati xəta törətmiş şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada saxlamaq, onları hüquq mühafizə orqanlarına təhvil vermək.

4.10. Geoloji parkların işçiləri parklarda müəyyən olunmuş mühafizə rejiminin pozulması hallarının qarşısının alınmasında mühafizə xidmətinin əməkdaşlarına kömək göstərməlidirlər.

4.11. Fiziki və hüquqi şəxslər, vətəndaş cəmiyyəti institutları geoloji parkların mühafizəsinə dair təkliflər verə bilərlər və geoloji park həmin təklifləri nəzərə almalıdır.

4.12. Üzərində geoloji park yerləşən torpaq sahələrindən onlar mülkiyyətçilərdən, istifadəçilərdən və icarəçilərdən geri alınmadan, həmin şəxslərin razılığı və ya məhkəmənin qərarı ilə servitut hüququ (özgənin torpaq sahəsindən məhdud istifadə hüququ) əsasında istifadə olunur.

4.13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi xüsusi mühafizə olunan təbiət ərazilərinin sxemləri əsasında geoloji parkların yaradılması və genişləndirilməsi üçün torpaq sahələri müvafiq ehtiyat torpaq fondunda saxlanılır və həmin ərazilərdə torpaqlardan istifadəyə məhdudiyyətlər qoyulur.

4.14. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulması nəticəsində geoloji parka vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda və təbiətin mühafizəsi ilə bağlı digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada ödənilir.

5. Geoloji parkların elmi tədqiqat fəaliyyəti

5.1. Geoloji parkların elmi tədqiqat fəaliyyəti rekreasiya məqsədilə istifadə olunan şəraitdə ekoloji vəziyyətin proqnozlaşdırılmasına və qiymətləndirilməsinə, səciyyəvi və nadir təbiət komplekslərinin (o cümlədən bioloji müxtəlifliyin) elmi cəhətdən əsaslandırılmış üsullarla qorunmasına yönəldilir.

5.2. Geoloji parklarda elmi tədqiqatlar aparılmasına elmi müəssisə və təşkilatların, habelə ayrı-ayrı mütəxəssislərin cəlb edilməsinə yol verilir.

5.3. Hər bir geoloji parkda elmi tədqiqat, mədəni-maarif, tədris tədbirlərinin həyata keçirilməsi və ekoloji maarifləndirmə işinin təşkili məqsədilə Şura yaradılır. Şuranın fəaliyyətinə geoloji parkın direktoru rəhbərlik edir. Şuranın tərkibini və əsasnaməsini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri təsdiq edir.

5.4. Geoloji parkların elmi, paleontoloji fondu yaradılır və daimi saxlanılır.

5.5. Geoloji park əməkdaşlarının elmi əsərlər çap etdirmək hüququ vardır.

5.6. Geoloji parklarda aparılan elmi tədqiqat işlərində əldə edilmiş nəticələrdən aşağıdakı məqsədlər üçün istifadə olunur:

5.6.1. geoloji (o cümlədən hidrogeoloji) təbiət abidələrinin qorunub saxlanılmasının və onlardan səmərəli istifadənin elmi əsaslarını işləyib hazırlamaq;

5.6.2. geoloji parkların ərazisində təbiət komplekslərinin təbii halda saxlanılmasını təmin edən tədbirləri, təbiət kompleksləri komponentlərinin əhəmiyyətlilik dərəcəsinin qiymətləndirilməsi metodlarını işləyib hazırlamaq;

5.6.3. geoloji parkların tələbatına uyğun olaraq biotexniki tədbirləri həyata keçirmək, hər bir geoloji parkın ərazisində mövcud olan meşə ehtiyatlarının və faunanın uçotunu aparmaq;

5.6.4. təbiətdə baş verən proseslər barədə sistemləşdirilmiş faktiki materiallar və nəzəri nəticələr hesabına elmi bilikləri zənginləşdirmək.

5.7. Elmi tədqiqatlar aparılması metodları geoloji parkların rejiminin tələblərinə zidd olmamalıdır. Aparılan işlərin nəticələri hazırlanmış elmi təkliflər çərçivəsində tətbiq edilir.

5.8. Geoloji parkların elmi tədqiqat işləri, həyata keçiriləcək elmi-texniki və digər elmi tədbirlər hər təqvim ili üçün Nazirliyin təsdiq etdiyi və maliyyələşdirdiyi plan üzrə aparılır. Geoloji parklarla əməkdaşlıq Nazirliyin təsdiq etdiyi müqavilələr əsasında, müvafiq elmi müəssisə və təşkilatlar, habelə ali təhsil müəssisələri ilə birgə həyata keçirilir.

6. Geoloji parkların təsərrüfat fəaliyyəti

6.1. Geoloji parkların təsərrüfat fəaliyyəti geoloji təbiət abidələrinin tələb olunan səviyyədə mühafizəsindən, onlara xidmət və bərpa tədbirlərinin keçirilməsindən, təbiətdə idarə olunan istirahət və turizm tədbirlərinin təşkilindən ibarətdir.

6.2. Elmi, mədəni, tədris, turizm və rekreasiya, məhdud təsərrüfat məqsədləri üçün geoloji parkların ərazilərindən fiziki və hüquqi şəxslərin istifadəsi ödənişli əsaslarla həyata keçirilir.

6.3. Geoloji parkların geoturizm və rekreasiya, geomuzeylər və tədris-məşğələ obyektləri zonalarının ərazisində yerləşən binalar və qurğular ekoturizmin, o cümlədən təbiətdə istirahətin təşkili məqsədilə fiziki və hüquqi şəxslərə icarəyə və ya istifadəyə verilə bilər.

6.4. Geoloji parkların geoturizm və rekreasiya, geomuzeylər və tədris-məşğələ obyektləri zonalarının ərazisində mehmanxanaların, kempinqlərin, turbazaların və digər iaşə obyektlərinin tikintisi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Turizm haqqında" və "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq geoloji parklarla fiziki və hüquqi şəxslər arasında bağlanmış müqavilələr əsasında həmin obyektlərin dövlət ekoloji ekspertiza rəyi nəzərə alınmaqla həyata keçirilir.

6.5. Geoloji parklarda onların məqsədli təyinatına, habelə təbiət komplekslərinin və obyektlərin mühafizəsi, bərpası və istifadəsi üzrə "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə zidd olmayan başqa fəaliyyət növləri geoloji parklarla fiziki və hüquqi şəxslər arasında bağlanmış müqavilələr əsasında ödənişli olaraq həyata keçirilir.

6.6. Tutumu 300 nəfərdən çox olan turizm və rekreasiya obyektlərinin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

6.7. Bu Əsasnamənin 6.6-cı bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlığın dəyişdirilməsi üçün ƏMTQ sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Nazirliyin verdiyi sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla müvafiq dəyişiklik edilir.

6.8. Bu Əsasnamənin 6.6-cı bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ƏMTQ aparılmalıdır.

6.9. Bu Əsasnamənin 6.6-cı bəndində nəzərdə tutulan obyektlərə dair ƏMTQ həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həll olunur.

7. Geoloji parkların mühafizəsinə, qorunmasına və onlardan istifadəyə dövlət nəzarəti

7.1. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, geoloji parkların vəziyyətinə, mühafizəsi, qorunması və bərpası üzrə tədbirlərin yerinə yetirilməsinə dövlət nəzarətini Nazirlik həyata keçirir.

7.2. Geoloji parkların mühafizə rejiminin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN "YERİN TƏKİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ" 1999-CU İL 13 FEVRAL TARİXLİ 102 NÖMRƏLİ, "TORPAQ İCARƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" 1999-CU İL 12 MART TARİXLİ 116 NÖMRƏLİ VƏ "FAYDALI QAZINTI EHTİYATLARININ TƏSDİQ EDİLMƏSİ VƏ SİLİNMƏSİ QAYDALARININ TƏSDİQ EDİLMƏSİ HAQQINDA" 2003-CÜ İL 23 OKTYABR TARİXLİ 973 NÖMRƏLİ FƏRMANLARINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 102 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 85; 2003, № 10, maddələr 546, 582; 2007, № 8, maddə 769; 2008, № 3, maddə 174, № 8, maddə 719, № 9, maddə 798; 2014, № 2, maddə 112) ilə təsdiq edilmiş "İstifadəyə verilən yer təki sahələri haqqında geoloji informasiyanın və faydalı qazıntı ehtiyatlarının dövlət geoloji ekspertizasının keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.6-cı bəndin birinci cümləsində "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Faydalı qazıntı ehtiyatları üzrə komissiyası (bundan sonra "Faydalı qazıntı ehtiyatları üzrə komissiya" adlandırılacaq)" sözləri "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə əvəz edilsin;

1.2. 5.1-ci, 5.2-ci, 5.5-ci, 5.6-cı bəndlərdə, 6.2-ci bəndin birinci cümləsində və 6.3-cü bənddə ismin müvafiq hallarında "Faydalı qazıntı ehtiyatları üzrə komissiya" sözləri ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

1.3. 5.3-cü bənddə "Faydalı qazıntı ehtiyatları üzrə komissiyanın müzakirəsinə verir" sözləri "Agentliyə təqdim edir" sözləri ilə əvəz edilsin;

1.4. 5.4-cü bənd üzrə:

1.4.1. birinci cümlədə "Faydalı qazıntı ehtiyatları üzrə komissiyada baxılır və komissiyanın protokolu ilə" sözləri "Agentlikdə baxılır və Agentliyin qərarı ilə" sözləri əvəz edilsin;

1.4.2. ikinci cümlədə "protokolun" sözü "qərarın" sözü ilə əvəz edilsin;

1.5. 5.7-ci bəndin birinci cümləsində "Faydalı qazıntı ehtiyatları üzrə komissiyanın protokolu" sözləri "Agentliyin qərarı" sözləri ilə əvəz edilsin;

1.6. 6.1-ci bənd üzrə:

1.6.1. birinci cümlədə "ekoloji" sözü "geoloji" sözü ilə, "Faydalı qazıntı ehtiyatları üzrə komissiya" sözləri "Agentlik" sözü ilə, "komissiya iclasının protokoluna" sözləri isə "Agentliyin qərarına" sözləri ilə əvəz edilsin;

1.6.2. ikinci cümlədə "Komissiyanın" sözü "Agentliyin" sözü ilə əvəz edilsin.

2. "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 116 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 168; 2001, № 10, maddə 640, № 12, maddə 755; 2003, № 10, maddə 577; 2005, № 11, maddə 1016; 2006, № 7, maddə 590; 2007, № 11, maddə 1110; 2010, № 7, maddə 610; 2014, № 11,

maddə 1418; 2016, № 2, maddə 254, № 11, maddə 1818; 2018, № 6, maddə 1228) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissənin ikinci–doqquzuncu abzasları müvafiq olaraq 2.1–2.8-ci bəndlər hesab edilsin;

2.2. 2.3-cü bənddən "və bələdiyyə" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 973 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, №10, maddə 578; 2008, № 8, maddə 719) ilə təsdiq edilmiş "Faydalı qazıntı ehtiyatlarının təsdiq edilməsi və silinməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Kəşfiyyatı aparılmış faydalı qazıntı yataqlarının ehtiyatları Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyində (bundan sonra – Agentlik) dövlət ekspertizası aparıldıqdan sonra Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Faydalı Qazıntı Ehtiyatları üzrə Komissiyası tərəfindən təsdiq edilir.";

3.2. 1.4-cü və 3.6-cı bəndlərdə "Faydalı Qazıntı Ehtiyatları üzrə Komissiyanın" sözləri ismin müvafiq hallarında "Agentliyin" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2020-ci il.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN "BÖYÜKŞOR GÖLÜNÜN EKOLOJİ VƏZİYYƏTİNİN YAXŞILAŞDIRILMASI, MÜHAFİZƏSİ VƏ İSTİFADƏSİ SAHƏSİNDƏ ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA" 2013-CÜ İL 26 DEKABR TARİXLİ 61 NÖMRƏLİ FƏRMANINDA VƏ "ZIĞ GÖLÜNÜN EKOLOJİ VƏZİYYƏTİNİN YAXŞILAŞDIRILMASI, MÜHAFİZƏSİ VƏ ONDAN İSTİFADƏ SAHƏSİNDƏ ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA" 2014-CÜ İL 15 OKTYABR TARİXLİ 774 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 26 dekabr tarixli 61 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1528; 2016, № 8, maddə 1384) 1 – 2-ci hissələrində və 5.2-ci bəndində "İqtisadiyyat" sözü "Ekologiya və Təbii Sərvətlər" sözləri ilə əvəz edilsin.

2. "Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və ondan istifadə sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 oktyabr tarixli 774 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1239; 2016, № 8, maddə 1384) 1 – 2-ci hissələrində və 5.2-ci bəndində "İqtisadiyyat" sözü "Ekologiya və Təbii Sərvətlər" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Böyükşor və Zığ göllərinə aid bütün sənədləri və məlumatları bir ay müddətində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təhvil versin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 fevral 2021-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİNİN FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik):

1.1. tabeliyindəki "Geodeziya və Kartoqrafiya" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – Cəmiyyət) Nazirliyin tabeliyində publik hüquqi şəxs statuslu Geodeziya və Kartoqrafiya Agentliyinə çevrilmə yolu ilə yenidən təşkil edilsin;

1.2. tabeliyindəki Milli Geoloji Kəşfiyyat Xidmətinin (bundan sonra –Xidmət) əsasında (bu Fərmanın 4.3-cü bəndi nəzərə alınmaqla) Nazirliyin tabeliyində Geoloji Kəşfiyyat Agentliyi publik hüquqi şəxs yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Geodeziya və Kartoqrafiya Agentliyi geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) dövlət topoqrafik xəritələrinin və planlarının hazırlanması, ümumdövlət əhəmiyyətli məsələlərin həllini təmin edən dövlət planlarının tərtibi, qravimetriya, kartoqrafiya və xəritəçəkmə, dövlət əhəmiyyətli coğrafi məlumat sistemlərinin yaradılması, geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya fəaliyyətinə nəzarətin həyata keçirilməsi sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

2.2. Geoloji Kəşfiyyat Agentliyi kompleks geoloji, geofiziki, hidrogeoloji, mühəndis-geoloji, geoekoloji tədqiqatların aparılması, yeraltı suların, faydalı qazıntı yataqlarının axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı, yer təkinin dərinlik quruluşunun və seysmohidrogeodinamik şəraitinin öyrənilməsi, sənaye və mülki tikinti obyektlərinin ərazisində mühəndis-geoloji işlərinin həyata keçirilməsi sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

2.3. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin yenidən təşkili və ləğvi ilə bağlı təsisçinin səlahiyyətləri Azərbaycan Respublikasının Prezidentinə, nizamnamələrinin təsdiq edilməsi və nizamnamə fondunun miqdarının müəyyən olunması və onların dəyişdirilməsi Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulmuş digər səlahiyyətlərin həyata keçirilməsi isə Nazirliyə həvalə edilir;

2.4. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslər müvafiq olaraq Nazirliyin tabeliyindəki Cəmiyyətin və Xidmətin (bu Fərmanın 4.3-cü bəndi nəzərə alınmaqla) hüquqi varisləridir, Cəmiyyətin və Xidmətin hüquq və öhdəlikləri, habelə əmlakı aidiyyəti üzrə həmin publik hüquqi şəxslərə keçir;

2.5. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alındığı günədək Cəmiyyət və Xidmət öz fəaliyyətini davam etdirir və onların strukturu, işçilərinin say həddi, əməkhaqları (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) və əməyin ödənilməsi sistemi saxlanılır.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin nizamnamələrini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

3.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslər dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Cəmiyyətin və Xidmətin balansındakı əmlakın (bu Fərmanın 4.3-cü bəndi nəzərə alınmaqla) müvafiq olaraq həmin publik hüquqi şəxslərin balansına verilməsini təmin etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Nazirlik:

4.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin nizamnamələrinin layihəsini, habelə nizamnamə fondunun məbləğinə dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün onların nizamnamələri təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

4.3. Xidmətin strukturundakı Dövlət Geoloji İnformasiya Fondunun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin:

5.1. cari ildə saxlanılması xərclərinin Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində Nazirlik üçün nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi ilə bağlı tədbirlər görsün;

5.2. növbəti illərdə fəaliyyətinin təşkili üçün tələb olunan vəsaiti hər ilin dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 aprel 2022-ci il

## “ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ” AZƏRBAYCAN RESPUBLİKASININ MEDALININ TƏSİS EDİLMƏSİ İLƏ ƏLAQƏDAR “AZƏRBAYCAN RESPUBLİKASININ ORDEN VƏ MEDALLARININ TƏSİS EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI 2022-Cİ İL 27 MAY TARİXLİ 537-VIQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə” Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası 2022-ci il 27 may tarixli 537-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2022-ci il 27 may tarixli 537-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş “Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə”nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunla təsdiq edilmiş “Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə” Azərbaycan Respublikası medalının təsviri”nin 2.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.3. həmin Qanunla təsdiq edilmiş “Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə”nin 2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunla təsdiq edilmiş “Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə” Azərbaycan Respublikası medalının təsviri”nin 2.1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.

2. “Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər nazirinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə” Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 27 may tarixli 537-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 iyun 2022-ci il

**“AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİNİN STRUKTURUNUN VƏ İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2019-CU İL 16 YANVAR TARİXLİ 476 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

“Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 yanvar tarixli 476 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 66) 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 7.1.1-ci yarımbənddə “müəyyən edilməsi” sözlərindən sonra “, onların dəyişdirilməsi” sözləri əlavə edilsin.

2. 7.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“7.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması;”.

3. Aşağıdakı məzmunda 7.1.3-cü yarımbənd əlavə edilsin:

“7.1.3. Agentliyin yenidən təşkili və ləğv edilməsi;”.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 avqust 2022-ci il

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2020-Cİ İL 27 MART TARİXLİ 975 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "DÖVLƏT EKOLOJİ EKSPERTİZA AGENTLİYİNİN NİZAMNAMƏSİ"NDƏ DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251) ilə təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissənin adında "fəaliyyət" sözü "fəaliyyətinin" sözü ilə əvəz edilsin.

2. 2.1-ci bənd ləğv edilsin.

3. 3.1.1-ci yarımbənddə "qanunvericilik aktlarının" sözləri "normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin.

4. 3.1.23-cü yarımbənd, 4.3-cü və 4.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1.23. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;";

"4.3. İdarə Heyəti Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədri və onun müavini daxil olmaqla 3 (üç) üzvdən ibarətdir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyəti sədrinin müavini icra edir.".

5. 4.5.5-ci yarımbənd ləğv edilsin.

6. 4.5.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.5.7. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin təsdiq edilməsi, o cümlədən Agentliyin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sisteminin müəyyənləşdirilməsi məqsədilə Nazirliyə təkliflər vermək;".

7. 4.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"4.6. İdarə Heyətinin sədri ayda bir dəfədən az olmayaraq İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.".

8. Aşağıdakı məzmunda 4.6-1 – 4.6-3-cü bəndlər əlavə edilsin:

"4.6-1. İdarə Heyətinin üzvlərinə və İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.6-2. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ daxil edilərsə, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.6-3. İclasın gündəliyinə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.".

9. 4.7.7-ci yarımbənddə "Agentliyin" sözü "Özünün və Agentliyin struktur bölmələrinin" sözləri ilə əvəz edilsin.

10. 4.7.8-ci yarımbənddə "əməkhaqqı fondu" sözləri "əməyin ödənişi fondu" sözləri ilə, "ştat cədvəlini, habelə" sözləri "strukturunu, ştat cədvəlini və" sözləri ilə əvəz edilsin.

11. 4.7.9-cu yarımbənddə "əməkhaqqı fondu" sözləri "əməyin ödənişi fondu" sözləri ilə əvəz edilsin.

12. Aşağıdakı məzmunda 5.4-1-ci bənd əlavə edilsin:

"5.4-1. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə dövlət büdcəsinə köçürülür.".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 avqust 2022-ci il

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN "ƏTRAF MÜHİTƏ VƏ İNSAN SAĞLAMLIĞINA MƏNFİ TƏSİR GÖSTƏRƏN VİBRASİYA VƏ SƏS-KÜY ÇİRKLƏNMƏLƏRİ NORMALARI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA" 2008-Cİ İL 8 İYUL TARİXLİ 796 NÖMRƏLİ VƏ "SOSİAL XİDMƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2011-Cİ İL 30 DEKABR TARİXLİ 275-IVQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA" 2012-Cİ İL 29 NOYABR TARİXLİ 758 NÖMRƏLİ FƏRMANLARINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 536-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 8 iyul tarixli 796 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 614; 2011, № 2, maddə 85; 2017, № 7, maddə 1357; 2020, № 8, maddə 1036) ilə təsdiq edilmiş "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. Cədvəl 1 – "Nüfuzedən səs-küyün yaşayış və ictimai binalarda, yaşayış tikililəri ərazisində, habelə insanların cəmləşdiyi digər yerlərdə səs təzyiqinin, səsin ekvivalent enerjisi və maksimal səviyyəsinin yolverilən normaları"nın 3-cü hissəsində "ümumtəhsil internat məktəblərinin" sözləri "internat tipli ümumi təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin;

1.2. Cədvəl 2 – "Binaların otaqlarında vibrasiya təcillərinin yolverilən səviyyələri"nin 4-cü hissəsində "ümumtəhsil internat məktəblərinin" sözləri "internat tipli ümumi təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin;

1.3. Cədvəl 3 – "Binaların otaqlarında vibrasiya sürətlərinin yolverilən səviyyələri"nin 4-cü hissəsində "ümumtəhsil internat məktəblərinin" sözləri "internat tipli ümumi təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin;

1.4. Cədvəl 4 – "Binaların otaqlarında mütləq vibrasiya yerdəyişmələrinin yolverilən səviyyələri"nin 4-cü hissəsində "ümumtəhsil internat məktəblərinin" sözləri "internat tipli ümumi təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin.

2. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 noyabr tarixli 758 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1118) 1.4.2-ci yarımbəndində "ümumtəhsil internat məktəbləri" sözləri "internat tipli ümumi təhsil müəssisələri" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 yanvar 2023-cü il

## “ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2022-Cİ İL 20 DEKABR TARİXLİ 738-VIQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ “ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1999-CU İL 4 AVQUST TARİXLİ 173 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 738-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 173 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 483; 2003, № 10, maddə 546; 2014, № 10, maddə 1192; 2017, № 7, maddə 1342; 2018, № 11, maddə 2279) 2.1-ci və 2.5-ci bəndlərində “, 10-cu (hər iki halda) və 12-ci hissələrində” sözləri “hissələrində, 10-cu hissəsinin birinci cümləsində və 12-ci hissəsində” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 738-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 fevral 2023-cü il

**“AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ İLƏ LİTVA RESPUBLİKASININ ƏTRAF MÜHİT NAZİRLİYİ ARASINDA ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ”İN TƏSDİQ EDİLMƏSİ HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2023-cü il mayın 22-də Vilnüs şəhərində imzalanmış “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Litva Respublikasının Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Litva Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 iyul 2023-cü il

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASININ TƏRƏFLƏR KONFRANSININ 29-CU SESSİYASININ (COP29), KİOTO PROTOKOLUNUN TƏRƏFLƏR GÖRÜŞÜNÜN 19-CU SESSİYASININ VƏ PARİS SAZİŞİNİN TƏRƏFLƏR GÖRÜŞÜNÜN 6-CI SESSİYASININ 2024-CÜ İLDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA TƏŞKİLİ İLƏ ƏLAQƏDAR HƏYATA KEÇİRİLƏCƏK LAYİHƏLƏR ÇƏRÇİVƏSİNDƏ SAHİBKARLARA KREDİT TƏŞKİLATLARI TƏRƏFİNDƏN VERİLMİŞ KREDİTLƏR ÜZRƏ FAİZLƏRİN SUBSİDİYALAŞDIRILMASI HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarların rezident banklar və bank olmayan kredit təşkilatlarından (bundan sonra – kredit təşkilatları) manatla aldıqları kreditlərə hesablanmış faizlər Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə subsidiyalaşdırılsın.

2. “Sahibkarlara kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faiz subsidiyalarının verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki, subsidiya sahibkarlar tərəfindən 2024-cü il yanvarın 1-dən dekabrın 1-dək kredit təşkilatlarından manatla alınan kreditlərə hesablanmış faizlərə görə verilir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faizlərin subsidiyalaşdırılmasını təşkil etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə ödəniləcək faizlərin subsidiyalaşdırılmasını təmin etmək məqsədilə tələb olunan vəsaitin 2025-ci ildən başlayaraq dövlət büdcəsində nəzərdə tutulması üçün tədbirlər görsün.

7. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan təsdiqedici sənədin formasını və verilməsi qaydasını 10 (on) gün müddətində təsdiq etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 fevral 2024-cü il

*Azərbaycan Respublikası Prezidentinin*
*2024-cü il 1 fevral tarixli*

*Fərmanı ilə təsdiq edilmişdir*

**Sahibkarlara kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faiz subsidiyalarının verilməsi QAYDASI**

1. Ümumi müddəa

1.1. Bu Qayda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarların rezident banklar və bank olmayan kredit təşkilatlarından (bundan sonra – kredit təşkilatları) manatla aldıqları kreditlər üzrə onlara Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu (bundan sonra – Fond) vasitəsilə faiz subsidiyalarının verilməsinə dair tələbləri, müraciət qaydasını, faiz subsidiyası üzrə ödəniş şərtlərini və digər məsələləri tənzimləyir.

1.2. Kreditlər üzrə faizlərin subsidiyalaşdırılması Azərbaycan Respublikasının dövlət büdcəsindən Fonda ayrılmış vəsait hesabına həyata keçirilir.

2. Faiz subsidiyasının verilməsi şərtləri

2.1. Faiz subsidiyası Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr (bundan sonra – layihə) üçün Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin təsdiqedici sənədi əsasında sahibkarların 2024-cü il yanvarın 1-dən dekabrın 1-dək kredit təşkilatlarından manatla aldıqları kreditlərə verilir.

2.2. Faiz subsidiyası məbləği 1 (bir) milyon manatdan artıq olan kreditlərin illik faiz dərəcəsinin 6 (altı) faiz bəndi həcmində və 72 (yetmiş iki) aydan çox olmayan müddətə verilir. Kreditin illik faiz dərəcəsi 6 (altı) faizdən aşağı olarsa, faiz subsidiyası kreditin illik faiz dərəcəsi həcmində verilir.

2.3. Faiz subsidiyası kredit müqaviləsinin qüvvədə olduğu müddət ərzində hesablanır və 2025-ci il yanvarın 1-dən başlayaraq bu Qaydanın 4-cü hissəsinə uyğun olaraq rüblük əsasda ödənilir.

2.4. Faiz subsidiyası aşağıdakı hallarda verilmir:

2.4.1. layihə bu Qaydanın 2.1-ci bəndində göstərilən məqsədlər üçün həyata keçirilmədikdə;

2.4.2. sahibkar subsidiya üçün müraciət edən kredit təşkilatına aidiyyəti olan şəxs olduqda;

2.4.3. sahibkarın nizamnamə kapitalında dövlətin iştirak payı 50 (əlli) faizdən çox olduqda.

2.5. Kredit xətti istisna olmaqla, balansarxası öhdəliklərə faiz subsidiyası verilmir.

3. Kreditin və faiz subsidiyasının verilməsi üçün müraciət

3.1. Sahibkar kredit almaq üçün kredit təşkilatına müraciət edir.

3.2. Kredit təşkilatı müraciət daxil olduğu gündən 10 (on) iş günü müddətində sahibkar barədə məlumatları "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən əldə edir və sahibkarın bu Qaydanın 2-ci hissəsində nəzərdə tutulmuş meyarlara uyğunluğunu yoxlayır, sifariş üzrə maliyyə-kredit təhlili aparır və müvafiq qərar qəbul edir.

3.3. Kredit təşkilatı müsbət qərar verilmiş layihənin maliyyələşdirilməsini həyata keçirir və bu barədə Fonda 2 (iki) iş günü müddətində rəsmi məlumat verir.

3.4. Sahibkar kredit aldıqdan sonra faiz subsidiyası almaq üçün kredit təşkilatına müraciət edir. Kredit təşkilatı sahibkarların aşağıdakı sənədlərini 10 (on) iş günü müddətində Fonda təqdim edir:

3.4.1. sahibkarın müraciətini, o cümlədən məlumatların Fonda ötürülməsinə razılığı;

3.4.2. sahibkarın təsis sənədlərini, VÖEN-ini, hüquqi şəxsin icra orqanın rəhbərinin və ya fərdi sahibkarın şəxsiyyətini təsdiq edən sənədi;

3.4.3. kredit müqaviləsinin və ödəniş qrafikinin surətini;

3.4.4. kredit hesabatını;

3.4.5. sahibkarın rekvizitlərinə, alınmış kreditə və tələb olunan subsidiya məbləğinə dair məlumatı;

3.4.6. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən verilmiş və sahibkarın layihə çərçivəsində nəzərdə tutulmuş işləri başa çatdırmasını təsdiq edən arayışı və ya məktubu.

3.5. Fond 5 (beş) iş günü müddətində sahibkara faiz subsidiyasının verilməsi və ya ondan imtina edilməsi barədə müvafiq qərar qəbul edir və kredit təşkilatına təqdim edir.

3.6. Kredit təşkilatı faiz subsidiyasının verilməsi barədə Fondun qərarını 2 (iki) iş günü müddətində sahibkara sifarişli poçt göndərişi vasitəsilə bildirir.

4. Faiz subsidiyasının ödənilməsi

4.1. Kredit təşkilatı hər rüb üzrə hesablanmış faizlərə dair hesabatı və faiz subsidiyasının ödənilməsi barədə müraciəti 2025-ci il yanvarın 1-dən etibarən hər rüb başa çatdıqdan sonra növbəti ayın ilk 3 (üç) iş günü müddətində Fonda təqdim edir. Hesabatın formasını Fond müəyyənləşdirir.

4.2. Fond bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş müraciət daxil olduqdan sonra 3 (üç) iş günü müddətində faiz subsidiyasını aşağıdakı məbləğlərdə kredit təşkilatının hesabına köçürür:

4.2.1. bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş hesabata əsasən ödənilməli faiz subsidiyası bu Qaydanın 3.4.3-cü yarımbəndində nəzərdə tutulmuş ödəniş qrafikində göstərilən faiz subsidiyasının məbləğindən çox olduqda – ödəniş qrafikində göstərilən məbləğdə;

4.2.2. bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş hesabata əsasən ödənilməli faiz subsidiyası bu Qaydanın 3.4.3-cü yarımbəndində nəzərdə tutulmuş ödəniş qrafikində göstərilən faiz subsidiyasının məbləğindən az və ya ona bərabər olduqda – hesabatda göstərilən məbləğdə.

4.3. Sahibkara krediti üzrə ödənilən faiz subsidiyasının cəmi məbləği bu Qaydanın 3.4.3-cü yarımbəndində nəzərdə tutulmuş ödəniş qrafikində göstərilən faiz subsidiyasının cəmi məbləğindən artıq ola bilməz.

4.4. Bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş hesabatda kredit təşkilatı tərəfindən təhrif olunmuş məlumatların təqdim edilməsi aşkarlandıqda, artıq ödənilmiş faiz subsidiyası kredit təşkilatı tərəfindən Fonda geri qaytarılır.

4.5. Faiz subsidiyası yalnız bu Qaydanın 3.4.5-ci yarımbəndində nəzərdə tutulmuş sənəddə göstərilən faiz dərəcəsinə uyğun (dəbbə pulu nəzərə alınmadan) ödənilir.

5. Faiz subsidiyasının ödənilməsinin dayandırılması və ləğvi

5.1. Faiz subsidiyasının ödənilməsinə dair kredit təşkilatının Fonda müraciət tarixinə 1 (bir) iş günü qalanadək sahibkarın həmin kredit təşkilatında olan hesabı üzərində məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla sahibkar arasında müqavilədə nəzərdə tutulmuş hallarda pul vəsaitinin silinməsinə dair müvafiq

sərəncam olduqda, həmin borc tam məbləğdə ödənilənədək (öhdəlik yerinə yetirilənədək) faiz subsidiyasının ödənilməsi dayandırılır.

5.2. Bu Qaydanın 5.1-ci bəndində nəzərdə tutulmuş hallar aradan qaldırıldıqdan sonra faiz subsidiyasının ödənilməsi bərpa edilir və həmin dövrlər üçün ödənilməli faiz subsidiyası bu Qaydanın 4-cü hissəsi ilə müəyyən edilmiş qaydada kredit təşkilatının hesabına köçürülür.

5.3. Aşağıdakı hallarda sahibkara faiz subsidiyasının ödənilməsi ləğv edilir:

5.3.1. sahibkarın tələbi əsasında kredit təşkilatının Fonda müraciəti olduqda;

5.3.2. iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə məsuliyyətini təsdiqləyən qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

5.3.3. sahibkar fəaliyyətini dayandırdıqda, bu fəaliyyətə xitam verdikdə və ya onun bu fəaliyyətlə məşğul olmaq hüququ qanunla müəyyənləşdirilmiş qaydada ləğv edildikdə;

5.3.4. müqavilə üzrə ödənişlərinin icrası 90 (doxsan) gündən çox gecikən krediti restrukturizasiya olunduqda.

5.4. Bu Qaydanın 5.3.2-ci yarımbəndində nəzərdə tutulmuş hal barədə kredit təşkilatına məlumat daxil olduğu gündən 3 (üç) iş günü müddətində həmin təşkilat Fonda sifarişli poçt göndərişi vasitəsilə məlumat verir.

# SƏRƏNCAMLAR

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ "TƏHLÜKƏLİ TULLANTILARIN SƏRHƏDLƏRARASI DAŞINMASINA VƏ KƏNARLAŞDIRILMASINA NƏZARƏT HAQQINDA BAZEL KONVENSİYA"SINDAN İRƏLİ GƏLƏN BƏZİ MƏSƏLƏLƏR BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının 2001-ci il 16 fevral tarixli Qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu Birləşmiş Millətlər Təşkilatının 1989-cu il martın 22-də Bazel şəhərində imzalanmış "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sının 5-ci maddəsinə uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sı üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan təyin edilsin.

2. Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sının 5-ci maddəsində nəzərdə tutulmuş mərkəz Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzdində Təhlükəli Tullantıların İdarə Olunması Agentliyi təyin edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, sərəncamın 1-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sı üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan və 2-ci bəndinə müvafiq olaraq həmin Konvensiyanın 5-ci maddəsində nəzərdə tutulmuş mərkəz Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdində Təhlükəli Tullantıların İdarə Olunması Agentliyinin təyin olunması barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 yanvar 2004-cü il
№ 59

## "AZƏRBAYCAN RESPUBLİKASINDA HİDROMETEOROLOGİYANIN İNKİŞAF PROQRAMI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ölkədə davamlı iqtisadi inkişafa nail olunmasında əhalinin, onun əmlakının və iqtisadiyyatın ayrı-ayrı sahələrinin hidrometeoroloji təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasında hidrometeorologiyanın İnkişaf Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə bu Sərəncamın 1-ci bəndi ilə təsdiq olunan Proqramın icrasının təmin edilməsi üçün zəruri tədbirlər görsünlər.

3. Bu Sərəncam dərc olunduğu gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 yanvar 2004-cü il
№ 62

## AZƏRBAYCAN RESPUBLİKASININ HİRKAN MİLLİ PARKININ YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi, nəsli kəsilməkdə olan nadir bitki və heyvan növlərinin qorunub saxlanılması və ekoturizmin inkişaf etdirilməsi məqsədilə və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci və 21-ci maddələrini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Lənkəran və Astara rayonları inzibati ərazilərinin əlavə olunan xəritədə göstərilmiş 21435 hektarlıq sahəsində Azərbaycan Respublikasının Hirkan Milli Parkı yaradılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 fevral 2004-cü il
№ 81

## "AZƏRBAYCAN RESPUBLİKASININ İNZİBATİ XƏTALAR MƏCƏLLƏSİNİN TƏSDİQ EDİLMƏSİ, QÜVVƏYƏ MİNMƏSİ VƏ BUNUNLA BAĞLI HÜQUQİ TƏNZİMLƏMƏ MƏSƏLƏLƏRİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASININ BƏZİ QANUNLARINA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏR EDİLMƏSİ VƏ BƏZİ QANUNVERİCİLİK AKTLARININ QÜVVƏDƏN DÜŞMÜŞ HESAB EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişikliklər və əlavələr edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişikliklər və əlavələr edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

1.2. Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişikliklər və əlavələr edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 fevral 2004-cü il
№ 83

## "MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN HİDROMETEOROLOJİ TƏHLÜKƏSİZLİK KONSEPSİYASI HAQQINDA QƏRAR"I AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin hidrometeoroloji təhlükəsizlik Konsepsiyası haqqında Qərar"ı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Qərarı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 aprel 2004-cü il
№ 188

## "AZƏRBAYCAN RESPUBLİKASINDA YAY-QIŞ OTLAQLARININ, BİÇƏNƏKLƏRİN SƏMƏRƏLİ İSTİFADƏ OLUNMASI VƏ SƏHRALAŞMANIN QARŞISININ ALINMASINA DAİR DÖVLƏT PROQRAMI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında kənd təsərrüfatına yararlı torpaqların, o cümlədən təbii otlaq və biçənək sahələrinin, habelə heyvandarlıqda istifadə olunan yemin strukturunda sənaye üsulu ilə hazırlanmış yüksək qidalı konsentratların az olması təbii yem sahələrinin normadan artıq yüklənməsinə, onların nəzarətsiz istismarı nəticəsində torpaqların eroziyaya uğramasına və şoranlaşmasına səbəb olur, ölkənin meşə fonduna, su ehtiyatlarına və bütövlükdə ətraf mühitə ciddi ziyan vurur.

Ölkədə heyvandarlığı daha mütərəqqi üsullarla inkişaf etdirmək yolu ilə məhsuldarlığı yüksəltmək, yay-qış otlaqlarının və biçənəklərin mühafizəsini gücləndirmək, onlardan istifadənin səmərəsini artırmaq və biomüxtəlifliyin qorunub saxlanılmasını təmin etmək məqsədilə qərara alıram:

Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı təsdiq edilsin (əlavə olunur).

Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Dövlət Proqramının həyata keçirilməsində əlaqələndirici orqan Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyidir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

Bu Sərəncam dərc olunduğu gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 may 2004-cü il
№ 222

## AZƏRBAYCAN RESPUBLİKASINDA SU TƏCHİZATI SAHƏSİNDƏ İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının yaşayış məntəqələrində əhalinin su ilə təminatını yaxşılaşdırmaq və onunla bağlı digər xidmətlərin işini təkmilləşdirmək, bu sahəni bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirmək və onun səmərəliliyini artırmaq məqsədilə qərara alıram:

1. Abşeron Regional Səhmdar Su Cəmiyyəti "Azərsu" Səhmdar Cəmiyyəti adlandırılsın.

2. Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin "Azərsukanaltəmir" və "Azərkəndsutəchizat" istehsalat birlikləri ləğv edilsin, onların funksiyaları və tabeliyində olan müəssisə və təşkilatlar balanslarındakı əmlakla birlikdə "Azərsu" Səhmdar Cəmiyyətinə verilsin.

Bakı Şəhər İcra Hakimiyyətinin Bakı Kanalizasiya İstehsalat Birliyi ləğv edilsin, onun funksiyaları və balansında olan əmlak "Azərsu" Səhmdar Cəmiyyətinə verilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

"Azərsu" Səhmdar Cəmiyyətinin, o cümlədən onun tabeliyinə verilən müəssisə və təşkilatların borclarının tənzimlənməsi barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə birgə "Azərsu" Səhmdar Cəmiyyətinin Nizamnaməsinin yeni redaksiyasını və bu Sərəncamın icrası ilə bağlı həmin Cəmiyyətin idarəetmə strukturunun təkmilləşdirilməsi ilə əlaqədar təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 iyun 2004-cü il
№ 252

## AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİNİN "DAVAMLI ÜZVİ ÇİRKLƏNDİRİCİLƏR HAQQINDA" STOKHOLM KONVENSİYASINDA NƏZƏRDƏ TUTULMUŞ MİLLİ KOORDİNASİYA MƏRKƏZİNİN TƏYİN EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının 2003-cü il 9 dekabr tarixli 554-IIQ nömrəli Qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyasının 9-cu maddəsinə uyğun olaraq qərara alıram:

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyasının 9-cu maddəsinə uyğun olaraq məlumatların mübadiləsi məqsədilə Azərbaycan Respublikası tərəfindən milli koordinasiya mərkəzi təyin edilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən milli koordinasiya mərkəzinin təyin edilməsi barədə həmin Konvensiyanın Katibliyinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 iyul 2004-cü il
№ 329

## "AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ VƏ ALMANİYA MALİYYƏ ƏMƏKDAŞLIĞI (KFW) TƏŞKİLATI ARASINDA "CƏNUBİ QAFQAZ ÜÇÜN EKOREGİONAL TƏBİƏTİ MÜHAFİZƏ PROQRAMI"NIN HAZIRLANMASI ÜZRƏ ANLAŞMA MEMORANDUMU"NU İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Maliyyə Əməkdaşlığı (KfW) təşkilatı arasında "Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı"nın hazırlanması üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Almaniya Federal Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 avqust 2004-cü il
№ 357

## "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA ƏTRAF MÜHİTİN QORUNMASI SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2004-cü il iyulun 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında Ətraf Mühitin qorunması sahəsində əməkdaşlığa dair saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası hökumətini xəbərdar etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 avqust 2004-cü il
№ 364

### Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Ətraf mühitin qorunması sahəsində əməkdaşlığa dair SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti

iki ölkə xalqları arasında dostluq əlaqələrini gücləndirmək və ətraf mühiti qorumaq məqsədilə əməkdaşlığı inkişaf etdirmək niyyətində olduqlarını ifadə edərək;

Azərbaycan və Türkiyənin iştirakçı olduqları Konvensiyalardan irəli gələn regional və beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üçün ətraf mühit sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini qeyd edərək;

aşağıdakı məsələlər üzrə razılığa gəlmişlər:

Maddə 1

Ətraf mühitin çirklənməsinin qarşısının alınması və qorunması sahəsində qarşılıqlı əməkdaşlığın gücləndirilməsi xüsusi proqramlar və planlar vasitəsilə təmin ediləcəkdir.

Maddə 2

Tərəflər arasında ətraf mühit üzrə əməkdaşlığa aid əsas sahələr aşağıdakılar olacaqdır:

təbiətin mühafizəsi;

mühafizə olunan ərazilərin idarə olunması;

bioloji müxtəlifliyin qorunması;

ətraf mühit sahəsində Azərbaycan və Türkiyənin üzv olduğu beynəlxalq konvensiyaların həyata keçirilməsi;

- Xəzər dənizi və Qara dənizin ətraf mühitinin qorunması;
- ətraf mühitə təsirin qiymətləndirilməsi;
- tullantıların idarə olunması;
- iqlim dəyişmələri;

- meteorologiya fəaliyyəti;
- meşələrin idarə olunması;
- meşəsalma;
- Tərəflərin birgə marağında olduqları bu və ya digər sahə.

Maddə 3

Sazişin 2-ci maddəsində sadalanan sahələr üzrə əməkdaşlıq aşağıdakı şəkildə aparılacaqdır:

birgə elmi-texniki araşdırmalar/proqramlar;

əməkdaşlıq layihələrinin hazırlanması;

tədqiqat, inkişaf fəaliyyətləri və ətraf mühit üzrə ən yaxşı idarəçilik təcrübələri üzrə elmi-texniki məlumatın və sənədlərin mübadiləsi;

ən yaxşı ətraf mühit texnologiyalarının mübadiləsi;

səlahiyyətli şəxslərin, mütəxəssislərin, tədqiqatçıların və qeyri-hökumət təşkilatı nümayəndələrinin mübadiləsi;

təhsil proqramları, iclasları, konfransları və simpoziumların təşkili;

Tərəflərin zəruri hesab etdikləri hər hansı digər əməkdaşlıq formaları;

Maddə 4

Ətraf mühit sahəsində işləyən hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin əməkdaşlığı təmin olunacaqdır.

Maddə 5

Bu Sazişin qüvvəyə minməsindən sonra hər bir Tərəf bu Saziş çərçivəsində əməkdaşlıq fəaliyyətlərinin idarə edilməsinə cavabdeh olan Milli Əlaqələndirici təyin edəcəkdir. Tərəflər Milli Əlaqələndiricilərinin adları barədə bir-birini xəbərdar edəcəklər. Tərəflər qarşı Tərəfə yazılı bildiriş göndərməklə Milli Əlaqələndiricini əvəz edənləri müəyyən edə bilərlər.

Tərəflərin Milli Əlaqələndiriciləri bu Sazişin 2-ci maddəsində əks olunmuş əməkdaşlıq fəaliyyətlərinin dəqiq hazırlanmasını əhatə edən illik işçi proqramlarını hazırlayacaqdır.

Qarşılıqlı razılaşma əsasında, Milli Əlaqələndiricilər, Sazişlə müəyyən edilmiş fəaliyyətləri müzakirə etmək və ya ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair məsələləri nəzərdən keçirmək üçün istənilən zaman görüşə bilərlər.

Maddə 6

Tərəflər qarşılıqlı razılaşma əsasında milli qanunvericiliklərinə uyğun şəkildə əməkdaşlığın nəticələrini üçüncü tərəflə bölüşə bilərlər.

Maddə 7

Bu Sazişin təfsiri və ya həyata keçirilməsi zamanı ortaya çıxacaq hər hansı mübahisələr Tərəflər arasında danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 8

Bu Saziş, Tərəflərin iştirakçı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 9

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə əlavə və dəyişikliklər edilə bilər. Bu dəyişikliklər bu Sazişin 11-ci maddəsinə uyğun olaraq qüvvəyə minir.

Maddə 10

Bu Sazişin qüvvəsinin ləğv edilməsi bu Sazişə uyğun olaraq razılaşdırılmış və onun qüvvədə olduğu zaman başlanmış işlərin qüvvədə qalmasına təsir göstərməyəcək.

Maddə 11

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdə qüvvəyə minir.

Bu Saziş 5 il müddətində bağlanılır. Tərəflərin biri diplomatik kanallar vasitəsilə Sazişin qüvvəsinin başa çatmasına altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə bildiriş verməzsə, onun qüvvəsi növbəti beş il müddətinə uzadılacaqdır.

Bakı şəhərində 2004-cü il 9 iyul tarixində hər biri Azərbaycan, türk və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

| | |
|---|---|
| Azərbaycan Respublikası | Türkiyə Respublikası |
| Hökuməti adından | Hökuməti adından |
| imza | imza |

## AZƏRBAYCAN RESPUBLİKASININ ALTIAĞAC MİLLİ PARKININ YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi, Böyük Qafqazın cənub-şərq yamaclarının təbii landşaftlarının qorunub saxlanması. Ekoturizmin inkişaf etdirilməsi məqsədilə və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci və 21-ci maddələrini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Xızı və Siyəzən rayonları inzibati ərazilərinin əlavə olunan xəritədə göstərilmiş 11035 hektarlıq sahəsində Azərbaycan Respublikasının Altıağac Milli Parkı yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 avqust 2004-cü il
№ 365

## Azərbaycan Respublikası
## “Altıağac” Milli Parkına ayrılacaq torpaq sahəsinin
## P L A N I
## miqyas 1:25000



## "AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ VƏAVROPA ŞURASI KATİBLİYİ ARASINDA ZÜMRÜD ŞƏBƏKƏSİ PİLOT LAYİHƏSİ ÜZRƏ MÜQAVİLƏ"Nİ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Avropa Şurası Katibliyi arasında Zümrüd Şəbəkəsi pilot layihəsi üzrə Müqavilə"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Müqaviləni imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Avropa Şurası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 sentyabr 2004-cü il
№ 385

## "AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ VƏ ÜMUMDÜNYA TƏBİƏTİ MÜHAFİZƏ FONDU ARASINDA AZƏRBAYCAN RESPUBLİKASI ƏRAZİSİNDƏ TƏBİƏTİ MÜHAFİZƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA QARŞILIQLI ANLAŞMA MEMORANDUMU"NU İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondu arasında Azərbaycan Respublikası ərazisində təbiəti mühafizə sahəsində əməkdaşlıq haqqında Qarşılıqlı Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Qarşılıqlı Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Ümumdünya Təbiəti Mühafizə Fonduna müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 sentyabr 2004-cü il
№ 386

## "AZƏRBAYCAN RESPUBLİKASININ BƏZİ QANUNVERİCİLİK AKTLARINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ VƏ BƏZİ QANUNVERİCİLİK AKTLARININ QÜVVƏDƏN DÜŞMÜŞ HESAB EDİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2004-CÜ İL 7 SENTYABR TARİXLİ 731-IIQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikasının 2004-cü il 7 sentyabr tarixli 731-IIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. "Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikasının 2004-cü il 7 sentyabr tarixli 731-IIQD nömrəli Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikasının 2004-cü il 7 sentyabr tarixli 731-IIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 oktyabr 2004-cü il
№ 457

**AZƏRBAYCAN RESPUBLİKASININ HÖKUMƏTİ İLƏ BMT-NİN İNKİŞAF PROQRAMI ARASINDA "BMT-NİN İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASINA AZƏRBAYCANIN İKİNCİ MİLLİMƏLUMATLARI ÜÇÜN LAYİHƏ TƏKLİFİNİN HAZIRLANMASI MƏQSƏDİLƏ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ" LAYİHƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ ÜÇÜN QLOBAL EKOLOGİYA FONDU TƏRƏFİNDƏN AYRILAN QRANT ÜZRƏ SƏNƏDİ AZƏRBAYCAN RESPUBLİKASININ HÖKUMƏTİ ADINDAN İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikasının Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Azərbaycanın İkinci Milli Məlumatlan üçün layihə təklifinin hazırlanması məqsədilə özünüqiymətləndirmə" layihəsinin həyata keçirilməsi üçün Qlobal Ekologiya Fondu tərəfindən ayrılan qrant üzrə sənədi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə BMT-nin İnkişaf Proqramına müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 dekabr 2004-cü il
№ 547

## AZƏRBAYCAN RESPUBLİKASININ ELDAR ŞAMI DÖVLƏT TƏBİƏT QORUĞUNUN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının xüsusi mühafizə olunan əraziləri şəbəkəsinin genişləndirilməsi, səciyyəvi, nadir təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətdə qorunub saxlanması məqsədilə və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci və 17-ci maddələrini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Samux rayonu inzibati ərazisinin əlavə olunan xəritədə göstərilmiş 1686 hektarlıq sahəsində Azərbaycan Respublikasının Eldar Şamı Dövlət Təbiət Qoruğu yaradılsın.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 dekabr 2004-cü il
№ 550

## AZƏRBAYCAN RESPUBLİKASININ ABŞERON MİLLİ PARKININ YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi, səciyyəvi, nadir təbiət komplekslərinin və obyektlərinin, xüsusən pərayaqlı heyvanların yeganə nümayəndəsi olan suitinin təbii vəziyyətdə qorunub saxlanılması məqsədi ilə və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci və 21-ci maddələrini rəhbər tutaraq qərara alıram:

1. Bakı şəhəri Əzizbəyov rayonu inzibati ərazisinin əlavə olunan xəritədə göstərilmiş 783 hektarlıq sahəsində Azərbaycan Respublikasının Abşeron Milli Parkı yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 fevral 2005-ci il
622

## "BİOLOJİ MÜXTƏLİFLİK HAQQINDA" KONVENSİYAYA BİOTƏHLÜKƏSİZLİYƏ DAİR KARTAGENA PROTOKOLU"NUN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının "Bioloji müxtəliflik haqqında" Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokolu"na qoşulması ilə əlaqədar həmin Protokolun icrasını təmin etmək məqsədilə qərara alıram:

1. "Bioloji müxtəliflik haqqında" Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokolu"nun 19-cu maddəsinə uyğun olaraq Azərbaycan Respublikası tərəfindən milli əlaqələndirici funksiyasını yerinə yetirmək üçün və eyni zamanda səlahiyyətli milli orqan kimi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Kartagena Protokolunun 19-cu maddəsinə uyğun olaraq Azərbaycan Respublikası tərəfindən milli əlaqələndirici funksiyasını yerinə yetirmək üçün və eyni zamanda səlahiyyətli milli orqan kimi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin teyin edilməsi barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 mart 2005-ci il
№ 698

# AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİNİN İQLİM DƏYİŞMƏLƏRİ VƏ OZON MƏRKƏZİNİN "BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İQLİM DƏYİŞMƏLƏRİ HAQQINDA ÇƏRÇİVƏ KONVENSİYASINA DAİR KİOTO PROTOKOLU" ÜZRƏ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN MİLLİ SƏLAHİYYƏTLİ ORQAN TƏYİN EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İqlim Dəyişmələri və Ozon Mərkəzi 11 dekabr 1997-ci il tarixli "Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasına dair Kioto Protokolu" üzrə Azərbaycan Respublikası tərəfindən milli səlahiyyətli orqan təyin edilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İqlim Dəyişmələri və Ozon Mərkəzinin bu Sərəncamın 1-ci bəndində göstərilən Protokol üzrə milli səlahiyyətli orqan təyin edilməsi barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 aprel 2005-ci il
№ 727

## AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİNİN "SƏNAYE QƏZALARININ TRANSSƏRHƏD TƏSİRİ HAQQINDA" KONVENSİYADA NƏZƏRDƏ TUTULMUŞ SƏLAHİYYƏTLİ ORQAN TƏYİN EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının 2004-cü il 4 may tarixli 645-IIQD nömrəli Qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu 1992-ci il martın 17-də Helsinki sahəsində imzalanmış "Sənaye qəzalarının transsərhəd təsiri haqqında" Konvensiyanın 17-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həmin Konvensiya üzrə səlahiyyətli orqan təyin edilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Sənaye qəzalarının transsərhəd təsiri haqqında" Konvensiya üzrə səlahiyyətli orqan təyin edilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Baş katibinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 aprel 2005-ci il
№ 729

**AZƏRBAYCAN RESPUBLİKASININ HÖKUMƏTİ İLƏ BMT-NİN İNKİŞAF PROQRAMI ARASINDA "BMT-NİN İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASINA AZƏRBAYCANIN İKİNCİ MİLLİ MƏLUMATLARI ÜÇÜN LAYİHƏ TƏKLİFİNİN HAZIRLANMASI MƏQSƏDİLƏ ÖZÜNÜ-QİYMƏTLƏNDİRMƏ" LAYİHƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ ÜÇÜN QLOBAL EKOLOGİYA FONDU TƏRƏFİNDƏN AYRILAN QRANT ÜZRƏ SƏNƏDİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

2005-ci il yanvarın 27-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikasının Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Azərbaycanın İkinci Milli Məlumatları üçün layihə təklifinin hazırlanması məqsədilə özünüqiymətləndirmə" layihəsinin həyata keçirilməsi üçün Qlobal Ekologiya Fondu tərəfindən ayrılan qrant üzrə sənəd təsdiq edilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə BMT-nin İnkişaf Proqramım xəbərdar etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 aprel 2005-ci il
№ 746

**Azərbaycan Respublikasının Hökuməti**
**Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı/Qlobal Ekologiya Fondu**
**Tərəfdaş: Ekologiya və Təbii Sərvətlər Nazirliyi**

| | |
|---|---|
| Ölkə: | Azərbaycan Respublikası |
| Layihənin adı: | BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Azərbaycanın İkinci Milli Məlumatları üçün layihə təklifinin hazırlanması məqsədilə özünüqiymətləndirmə |
| Qlobal Ekologiya Fondunun (QEF) mövzu sahəsi: | İqlim dəyişmələri |
| Ölkənin iştirak etmə mümkünlüyü: | BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının maliyyə mexanizmi çərçivəsində iştirakı mümkündür |

| | |
|---|---|
| BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının ratifikasiya tarixi: | 16 may 1995-ci il |
| Layihəni həyata keçirən agentlik: | BMT-nin İnkişaf Proqramı (BMTİP) |
| İcraçı təşkilat: | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| Birinci Milli Məlumatlar layihəsinin təqdimat tarixi: | 23 may 2000 |
| İkinci Milli Məlumatlar layihəsinin təqdimat tarixi: | Yanvar 2005 |
| İcraçı müddəti : | 3 ay |

| | |
|---|---|
| Azərbaycan Respublikasının Hökuməti adından: ekologiya və təbii sərvətlər naziri<br>H. BAĞIROV<br>İmza tarixi: 27.01.2005 | BMT-nin İnkişaf Proqramı adından:<br>BMT-nin İnkişaf Proqramının Azərbaycan Respublikasındakı Rezident əlaqələndiricisi<br>M. BORSOTTİ |

MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

BMTİP/QEF-in standart monitorinq və hesabat mexanizmləri layihə məqsədlərinin nailiyyətində və nəticələrinin əldə edilməsində tərəqqinin və yaxud çatışmazlıqların qiymətləndirilməsində istifadə oluna bilər. Aşağıdakı mexanizmlər işlənilə bilər:

Layihə meneceri tərəfindən hər bir layihə fəaliyyəti üçün məsul tərəf fəaliyyət, zaman çərçivəsi dəqiq müəyyən edilərək, layihənin iş planı tərtib edilir;

BMTİP/QEF üçün nəzərdə tutulmuş rüblük hesabat;

Layihənin son hesabatı gözlənilən nəticələrə nail olmaq baxımından onun icrasının qiymətləndirilməsinin əsas elementlərini daxil etmək şərtilə hazırlanacaqdır.

QANUNİ KONTEKST

Layihə sənədinə Azərbaycan Respublikasının Hökuməti və BMTİP arasında 2001-ci ilin 6 fevral tarixində imzalanmış Əsas Standart Razılaşmanın 1-ci maddəsində olduğu kimi əsas vasitə kimi istinad etmək olar.

İmzalayan tərəflər etiraz etmədiyi halda, layihə sənədinə BMTİP-nın daimi nümayəndəsi aşağıdakı düzəlişləri edə bilər:

Layihə sənədinin hər hansı bir əlavəsində edilən düzəlişlər və ya əlavələr;

bu düzəlişlərə inflyasiya nəticəsində qiymətlərin qalxması ilə artıq razılaşdırılmış təzminatın yenidən bölüşdürülməsi səbəb olur, lakin layihənin yaxın zamanda nail olunacaq məqsədlərində, nəticələrində və fəaliyyətində mühüm dəyişikliklər onlara daxil edilmir;

illik məcburi düzəlişlər qabaqcadan razılaşdırılmış layihə təzminatının mərhələlərlə qoyuluşunu və ya ekspertlər üçün nəzərdə tutulmuş və digər xərclərin inflyasiya nəticəsində qalxmasını əks etdirir və yaxud da agentliyin xərclərinin elastikliyini nəzərdə tutur.

1. Vəziyyətin analizi

Azərbaycan Respublikası qlobal əhəmiyyətli mühüm neft və qaz ehtiyat-larına malikdir. Azərbaycanın enerji sektoruna neft və qazın çıxarılması, emalı, elektrik və istilik enerjisinin istehsalı, enerji ehtiyatlarının nəqli və saxlanması sistemləri daxildir. Enerji istehlak edən texnologiyaların və köhnəlmiş avadanlıqların istifadə edilməsi çirkləndiricilərin, o cümlədən istilik effekti yaradan qazların atmosferə atılması ilə nəticələnir.

Enerji sektorunun inkişafı strategiyasının həyata keçirilməsi və milli siyasətin yerinə yetirilməsi məqsədilə Sənaye və Energetika Nazirliyi yaradılmışdır.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının milli əlaqələndiricisinin ofisi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində yerləşir. İqlim dəyişmələrinin təsirinin qarşısının alınmasının vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə, Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsi məqsədilə 1997-ci ildə iqlim dəyişmələri üzrə Dövlət Komissiyası yaradılmışdır.

2. Məqsəd

Özünüqiymətləndirmənin məqsədi BMT-nin İqlim Dəyişmələri üzrə Çər-çivə Konvensiyasının Azərbaycanda həyata keçirilməsini təmin etmək üçün inventarlaşma və maraqlı tərəflərlə məsləhətləşmələr də daxil olmaqla yüksək razılaşmalar və iştirakçılıq prosesi vasitəsilə əsas prioritetləri müəyyənləşdirmək və təsdiqləməkdir.

İnventarlaşma İkinci Milli Məlumatlara (İMM) müvafiq olan həyata keçirilmiş və planlaşdırılmış fəaliyyətin nəzərə alınmasına, keçmiş fəaliyyətlərin qiymətləndirilməsinə, mövcud olan boşluqların və İMM-in hazırlanması zamanı aparılan tədqiqatların əsas prioritetlərinin təyin edilməsinə kömək göstərəcəkdir.

Maraqlı tərəflərlə məsləhətləşmələr boşluq və təkrarçılığın aradan qaldırılmasına və toplanmış məlumatın təsdiqlənməsinə kömək edəcəkdir. Özünü-qiymətləndirmə lazımi institusional hazırlıq tədbirlərinin və İMM-in hazırlanmasında, ehtiyac duyulan maliyyə vəsaitlərinin qiymətləndirilməsində kömək göstərəcəkdir.

Bütövlükdə Azərbaycan Respublikası inventarlaşmaya əsaslanaraq və aidiyyəti olan təşkilatlarla əlaqələndirilmiş şəkildə İMM-in hazırlanması üzrə təkliflər hazırlayacaq və BMTİP vasitəsilə QEF-ə təqdim edəcəkdir.

3. Layihə strategiyası

3A. İnventarlaşma tapşırığı üzrə həyata keçiriləcək fəaliyyətlərin qısa təsviri

Azərbaycanda iqlim dəyişmələri üzrə göstərilən bütün fəaliyyətləri daxil edən inventarlaşma İMM üzrə layihə təklifinin hazırlanması məqsədilə yerinə yetiriləcəkdir. İnventarlaşma tapşırığına aşağıdakı fəaliyyətlərin daxil olunması gözlənilir:

İqlim dəyişmələri üzrə imkan verən fəaliyyət çərçivəsində aparılan işin qiymətləndirilməsi. Bu qiymətləndirmə inventarlaşmanın əsas elementidir, çünki o, İMM üçün təkliflərin iqlim dəyişmələri üzrə qabaqcadan aparılmış imkan verən fəaliyyətlər nəticəsində əldə edilmiş təcrübə, nəticə və əlaqələr əsasında qurulmasını təmin edəcəkdir. Bu, Birinci Milli Məlumatların (BMM) bütün nailiyyətlərini, boşluqlarını və anlaşılmazlıqlarını toplayan qısa icmalı BMTİP/QEF-in Azərbaycanı da daxil edən "İstilik effekti yaradan qazların inventarlaşmasının keyfiyyətinin artırılması üçün potensialın yaradılması (Avropa/MDB regionu)" layihəsi ilə əlaqələndiriləcəkdir. Bu qiymətləndirmə iqlim dəyişmələrinə aid sistematik və institusional səviyyədə dəyişikliklər irəli sürəcəkdir. Bu, məlumatın təkmilləşdirilməsi üzrə əlavə tədqiqatlar və qiymətləndirmələr üçün hüquqi zəmanət verəcək və işin təkrarlanma-sının və dayandırılmasının qarşısını alacaqdır.

Yeni tədqiqatlar və iş sahələri. BMM Konvensiyanın 1-ci Əlavəsinə daxil olmayan tərəflərin milli məlumatlarının hazırlanması üzrə rəhbər prinsiplərə müvafiq olaraq hazırlanmışdır. Yekun sənədə risklərin azaldılması analizi, həssaslığın və adaptasiyanın qiymətləndirilməsi, istilik effekti yaradan qaz-ların kadastrı və ümumi milli vəziyyət kimi bölmələr daxildir. Lakin BMM-da bəzi bölmələrə toxunulmamışdır (məs. insan sağlamlığı üçün həssaslığın və adaptasiyanın qiymətləndirilməsi). Buna görə inventarlaşma iqlim dəyiş-mələri üzrə qabaqcadan aparılmış imkan verən fəaliyyətləri, heç və ya kifayət qədər diqqət yetirilməyən bölmə və sahələri, boşluqların aradan qaldırılması üçün müvafiq yeni tədqiqatları müəyyən etməlidir. Qeyd etmək lazımdır ki, BMM-in hazırlanması prosesi zamanı və geniş ictimaiyyətə açıqlanmasından sonra iqlim dəyişmələrinə olan maraq və bundan irəli gələn müxtəlif institutlar tərəfindən aparılan elmi tədqiqatların sayı artacaqdır. İnventarlaşma İMM çərçivəsində fəaliyyətlərin planlaşdırılması zamanı baxılacaq həmin tədqiqatların qeydə alınmasını nəzərdə tutmalıdır.

İMM üçün prioritetlər. Yeni tədqiqatlar və iş sahələrinin siyahısına əsaslanaraq İMM üçün prioritetlər maraqlı tərəflərlə məsləhətləşmələrdə müəyyən edilib təsdiqlənməlidir. Milli ekspertlər və maraqlı tərəflər zəruri sahələrin ön plana çəkilməsi üçün müxtəlif metodologiya və meyarları qiymətləndirəcək və onların sırasından ən münasiblərini seçəcəklər. İnventarlaşma və məsləhətləşmə prioritet sahələr üçün strategiyanın həyata keçirilməsində kömək göstərəcəkdir.

Digər proqramlarla əlaqələr. İnventarlaşma və məsləhətləşmə zamanı BMTİP/QEF-in birgə hazırladığı “Qlobal ekoloji problemlərin həlli məqsədilə imkanların artırılması üçün milli tələbatların qiymətləndirməsi” (QE-PİMTQ), “istilik effekti yaradan qazların inventarlaşmasının keyfiyyətinin artırılması üçün potensialın yaradılması (Avropa/MDB regionu)” layihələrinə və hazırda həyata keçirilən Kanadanın Dövlət idarəçilik İnstitutu tərəfindən maliyyələşdirilən Xəzər hövzəsində istilikxana qazı tullantılarının azaldılması üzrə 2002-2005-ci illər tədris proqramı və Avropa Birliyinin TACIS proqramı tərəfindən maliyyələşdirilən qlobal iqlim dəyişmələrinin qarşısının alınması üzrə öhdəliklərin həyata keçirilməsi üçün Azərbaycan, Gürcüstan, Moldova və digər dövlətlər üçün texniki yardım kimi beynəlxalq donorların sponsorluq etdiyi layihələrə rəhbərlik edən layihə qrupu ilə əlaqələr yaradılacaqdır.

BMM-in hazırlanması zamanı əldə edilmiş təcrübə və dərslər. İMM-in hazırlanmasında müsbət təcrübə ola biləcək BMM çərçivəsində qəbul edilmiş proses/razılaşmalara dair texniki məsələlərin və təcrübənin nəzərdən keçirilməsi inventarlaşmaya daxil olacaqdır. BMM-dan irəli gələn təcrübə bu günkü baxımdan aktuallığı nəzərə alınaraq qiymətləndiriləcək və İMM-da təkrarlanmağı nəzərə alınacaqdır.

3 B. Maraqlı tərəflərin ilkin siyahısı və nəzərdə tutulmuş məsləhətləşmə prosesi

Maraqlı tərəflərlə məsləhətləşmələr. İMM təklifinin hazırlanması prosesində iştirak edə biləcək aidiyyəti olan bütün maraqlı tərəflərin müəyyən edilib cəlb olunmasını təmin etmək məqsədilə aparılacaqdır. Layihə təklifinin bir hissəsi olaraq məsləhətləşmə prosesi və maraqlı tərəflərin cəlb edilməsi barədə məruzə edilməlidir. Maraqlı tərəflər onların analizi vasitəsilə müəyyən edilməli və analoji tapşırıqları həyata keçirən QEPİMTQ layihə qrupu ilə məsləhətləşməlidir. Eyni zamanda QEPİMTQ layihəsi çərçivəsində aparılan analoji məsləhətləşmələrin nəticələri müzakirə ediləcəkdir.

Məsləhətləşmələr aşağıdakılara kömək etməlidir:

İMM-də əks etdiriləcək inventarlaşmanın və milli prioritetlərin təsdiqlən-məsi;

İMM-in hazırlanması üçün təklif edilmiş institusional quruculuq üzrə razılığın əldə edilməsi;

maraqlı tərəflərin rollarının və öhdəliklərinin müəyyən edilməsi;

aidiyyəti olan bütün maraqlı tərəflərin cəlb olunması və İMM-in uyğun məsləhətləşmə mexanizmi ilə təmin edilməsi.

Maraqlı tərəflərin ilkin siyahısı aşağıdakı təşkilatlardan ibarət olacaqdır, lakin onlar bununla məhdudlaşmamalıdır:

İstilik effekti yaradan qazların kadastrının hazırlanması. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Statistika Komitəsi, İqtisadi İnkişaf Nazirliyi, Sənaye və Energetika Nazirliyi, Nəqliyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, müvafiq elmi tədqiqat institutları.

İqlim dəyişmələrinin təsirinin qiymətləndirilməsi və adaptasiya bölməsinin hazırlanması. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, elmi tədqiqat institutları (Coğrafiya İnstitutu, Botanika İnstitutu və s.), QNT.

Əsas müddəaların hazırlanması. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Sənaye və Energetika Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, özəl təşkilatlar, QNT.

Maraqlı tərəflərin məsləhətləşmələri seminarda yekunlaşdırılıb razılaşdırılacaqdır.

3 C. İdarəetmə üzrə razılaşmalar

Davamlılığı, əlaqələri və iqlim dəyişmələri üzrə mövcud fəaliyyət, İMM-in hazırlanması prosesləri və iqlim dəyişmələri üzrə digər proqramlar arasın-da mümkün əlaqəni təmin etmək məqsədilə həyata keçirilən layihə tam şəkildə Azərbaycan Respublikasının Hökuməti tərəfindən 1997-ci ildə yaradılmış iqlim dəyişmələri üzrə Dövlət Komissiyası tərəfindən koordinasiya olunacaqdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi layihə fəaliyyətlərinin planlaşdırılmasına və idarə edilməsinə, layihənin məqsədlərinə nail olunmasına, məruzə və hesabatın verilməsinə, şəffaflıq və maraqlı tərəflərin səmərəli iştirakına görə məsuliyyət daşıyır.

Layihəni idarə etmək məqsədilə layihənin milli əlaqələndiricisi (LMƏ) ilə gündəlik iş əsasında müqavilə bağlanacaqdır. LMƏ özünüqiymətləndirmə zamanı milli ekspertlər qrupu tərəfindən dəstəklənəcəkdir.

Layihənin həyata keçirilməsində əsas rol oynayan müxtəlif hökumət və qeyri-hökumət təşkilatları, elmi tədqiqat institutları və biznes sektorunda fəaliyyət göstərən şirkətlər inventarlaşmanın həyata keçirilməsi və İMM üçün təklifin hazırlanmasına cəlb olunacaqlar. Maraqlı tərəflərin ətraflı təhlili da-ha məqsədyönlü layihə fəaliyyətlərini təmin etmək məqsədilə layihənin hə-yata keçirilməsinin ilkin mərhələsində aparılacaqdır.

Nəticələr və fəaliyyətlər

Layihə təklifi İMM-in hazırlanmasının rəhbər prinsiplərinə uyğun olaraq inventarlaşmaya əsas tələbdir. Aşağıda özünüqiymətləndirmə zamanı gözlənilən nəticələr və həyata keçiriləcək fəaliyyətlər göstərilir.

Nəticə 1 . Özünüqiymətləndirmənin planlaşdırılması və idarə edilməsi:

icraçı agentlik və LMƏ özünüqiymətləndirmənin məqsədi, fəaliyyət sahə-si və gözlənilən nəticələrlə tanış etmək məqsədilə istiqamətləndirici görüş təşkil edəcəklər;

LMƏ əsas maraqlı tərəflərin özünüqiymətləndirməyə cəlb edilməsi və yardımı üzrə onlarla gələcəkdə qeyri-rəsmi məsləhətləşmələr aparacaqdır;

LMƏ özünüqiymətləndirmə üçün fəaliyyətləri, məsul olan tərəfi və zaman çərçivəsini təsvir edən ətraflı iş planını hazırlayacaqdır;

LMƏ inventarlaşmada milli ekspertləri seçəcək və onlar üçün texniki tapşırıqlar hazırlayacaqdır.

Nəticə 2.  Milli ekspertlərin əlaqəli fəaliyyətlərinin inventarlaşması:

milli ekspertlər qrupu iqlim dəyişmələri üzrə imkan verən fəaliyyətlər və digər əlaqəli proqramlar çərçivəsində həyata keçiriləcək fəaliyyətlərin qiymətləndirilməsini aparacaq və onun nəticələrini qısa icmalda təqdim edəcəklər;

milli ekspertlər BMM çərçivəsində boşluqları, anlaşılmazlıqları müəyyən edir və yeni tədqiqat/fəaliyyət sahələrini təklif edəcəklər;

milli ekspertlər metodologiyanı və İMM çərçivəsində toxunulan prioritet sahələr üçün meyarı müəyyən edəcəklər;

milli ekspertlər digər layihələr ilə əlaqələr üçün imkanları müəyyənləşdirəcək və müsbət təcrübələrin ötürülməsi üzrə məsləhət verəcəklər;

milli ekspertlər inventarlaşma üzrə hesabat hazırlayacaqlar.

Nəticə 3 . Maraqlı tərəflərlə məsləhətləşmələr:

LMƏ inventarlaşma layihəsinə cəlb olunan bütün mümkün təsisatların siyahısını aparacaq və onların mümkün rolunu, maraq sahəsini, cəlb edilmə faydasını və ehtimal olunan maneələri daxil edən maraqlı tərəflərin təhlilini edəcəkdir;

LMƏ prioritet məsələləri və yeni fəaliyyət sahələrinin seçilməsi üçün meodologiyanı/meyarı işə salmaq məqsədilə maraqlı tərəflərlə görüş təşkil edəcəkdir;

LMƏ İMM-in hazırlanması üçün layihə təklifinin qüvvəyə minməsi məqsədilə seminar təşkil edəcəkdir.

Nəticə 4. İMM üzrə layihə təklifinin hazırlanması:

LMƏ texniki tapşırıqları hazırlayacaq və İMM üzrə təklifinin hazırlanması üçün milli ekspertləri seçəcəkdir;

LMƏ-nin ümumi nəzarəti və köməyi ilə aşağıdakı məlumatı əks etdirən inventarlaşma və maraqlı tərəflərlə məsləhətləşmə haqda qısa hesabatı əlavə kimi özünə daxil edən İMM üzrə layihə təklifini hazırlayacaq və bu təklifdə aşağıdakılar öz əksini tapacaqdır:

istifadə olunan metodologiyanın təsviri;

məsləhətləşmələr aparmış təşkilatlar və maraqlı tərəflərin siyahısı;

inventarlaşmanın həyata keçirilməsinin nəticələri və kəşfləri.

LMƏ rəylərin alınması məqsədilə layihə sənədini hazırlayacaq;

rəyləri sənədə daxil edəcək və təklifi başa çatdıracaq;

QEF-in milli əlaqələndiricisi İMM üçün layihə sənədini BMTİP vasitəsilə QEF-ə təqdim edəcəkdir.

## "AZƏRBAYCAN RESPUBLİKASININ BƏZİ QANUNVERİCİLİK AKTLARINA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 aprel 2005-ci il
№ 778

## "AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ VƏ BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ SƏNAYE İNKİŞAFI TƏŞKİLATI (UNİDO) ARASINDA DAVAMLI ÜZVİ ÇİRKLƏNDİRİCİLƏR (DÜÇ) BARƏDƏ STOKHOLM KONVENSİYASININ YERİNƏ YETİRİLMƏSİ ÜZRƏ İLKİN FƏALİYYƏTİ ASANLAŞDIRMAQ ÜÇÜN SÜRƏTLƏNDİRİLMİŞ MÜMKÜNLƏŞDİRİCİ TƏDBİRLƏRLƏ ƏLAQƏDAR OLAN XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİ ÜZRƏ MÜQAVİLƏ"Nİ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNİDO) arasında Davamlı Üzvi Çirkləndiricilər (DÜÇ) barədə Stokholm Konvensiyasının yerinə yetirilməsi üzrə ilkin fəaliyyəti asanlaşdırmaq üçün sürətləndirilmiş mümkünləşdirici tədbirlərlə əlaqədar olan xidmətlərin göstərilməsi üzrə Müqavilə"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Müqaviləni imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatına müvafiq bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

Bakı şəhəri, 13 may 2005-ci il
№ 816

## AZƏRBAYCAN RESPUBLİKASININ 2004-CÜ İL 18 İYUN TARİXLİ 690-IIQ NÖMRƏLİ QANUNU İLƏ AZƏRBAYCAN RESPUBLİKASININ QOŞULDUĞU "NEFTLƏ ÇİRKLƏNDİRMƏ HALLARINA HAZIRLIĞIN TƏMİN EDİLMƏSİ, BUNLARA QARŞI MÜBARİZƏ VƏ ƏMƏKDAŞLIQ HAQQINDA" 1990-CI İL TARİXLİ BEYNƏLXALQ KONVENSİYANIN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının 2004-cü il 18 iyun tarixli 690-IIQ nömrəli qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin (a) (i) yarımbəndində nəzərdə tutulmuş səlahiyyətli milli orqanlar qismində öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndinə uyğun olaraq, "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin (a) (i) yarımbəndində nəzərdə tutulmuş səlahiyyətli milli orqanlar qismində öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinin təyin edilməsi barədə Beynəlxalq Dəniz Təşkilatının Baş Katibinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 dekabr 2005-ci il

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ İLƏ BAĞLI AZƏRBAYCAN RESPUBLİKASININ QOŞULDUĞU BEYNƏLXALQ KONVENSİYA VƏ SAZİŞLƏRDƏN İRƏLİ GƏLƏN MƏSƏLƏLƏR SAHƏSİNDƏ ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra ətraf mühitin mühafizəsi sahəsində bir çox beynəlxalq konvensiyalara və sazişlərə qoşulmuş, bununla bağlı üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində zəruri addımlar atmışdır. Son illər bu sahədə beynəlxalq təşkilatlarla əlaqələr genişlənmiş, birgə layihələr hazırlanaraq həyata keçirilmiş, ekoloji tarazlığın təmin edilməsinə, ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasına yönəldilmiş bir sıra dövlət proqramlarının icrasına başlanılmış, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan flora və faunanın qorunub saxlanılması məqsədilə milli parklar, dövlət təbiət qoruqları və dövlət təbiət yasaqlıqları yaradılmışdır. Bununla yanaşı, beynəlxalq konvensiyalardan və sazişlərdən irəli gələn öhdəliklərin tam həcmdə yerinə yetirilməsini təmin etmək üçün müvafiq dövlət orqanlarının səylərinin artırılması və bu sahədə işlərin daha da gücləndirilməsi zərurəti var.

Ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və sazişlərdən irəli gələn məsələlərin həllini sürətləndirmək məqsədilə qərara alıram:

1. "Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və sazişlərdən irəli gələn məsələlər sahəsində əlavə tədbirlər" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilən tədbirlərin həyata keçirilməsi üçün lazım olan maliyyə vəsaitini iki ay müddətində müəyyənləşdirib təsdiq etsin.

3. Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının rəhbərlərinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilən tədbirlərin yerinə yetirilməsi üçün zəruri işlər görsünlər.

4. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 mart 2006-cı il
№ 1396

*Azərbaycan Respublikası Prezidentinin*
*2006-cı il 30 mart tarixli 1396 nömrəli*
*Sərəncamı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

### Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və sazişlərdən irəli gələn məsələlər sahəsində əlavə T Ə D B İ R L Ə R

1. Beynəlxalq konvensiya və sazişlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsinin mövcud vəziyyəti

"Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 161 nömrəli Fərmanın 4-cü bəndinin doqquzuncu abzasının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və sazişlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsinin mövcud vəziyyəti araşdırılmış və bu istiqamətdə həyata keçirilməsi tələb olunan tədbirlərə dair təkliflər hazırlanmışdır.

Bu günədək Azərbaycan Respublikası ətraf mühitin mühafizəsi sahəsində 15 beynəlxalq konvensiyanı ratifikasiya etmişdir. Həmin sənədlərdən irəli gələn öhdəliklər üzrə görülmüş işlər əsasən aşağıdakılardan ibarətdir:

1. BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasını Azərbaycan Respublikası 1995-ci ildə ratifikasiya etmişdir.

1997-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsini təmin etmək məqsədilə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyası yaradılmışdır. Konvensiyanın milli əlaqələndiricisi təyin edilmiş və əlaqədar təşkilatların ekspertlərindən ibarət işçi qrupu yaradılmışdır.

Konvensiyadan irəli gələn öhdəlik və vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Qlobal Ekologiya Fondu (QEF) və BMT-nin İnkişaf Proqramının maliyyə yardımı ilə "Azərbaycan Respublikasının Birinci Milli Məlumatları" hazırlanmış və Konvensiyanın Katibliyinə təqdim edilmişdir.

"Birinci Milli Məlumatlar" layihəsinin birinci fazasında iqlim dəyişmələrinin təsirinin minimuma endirilməsi üçün müvafiq tədbirlər planı hazırlanmış, ikinci fazada isə iqtisadiyyatın prioritet sahələrində istilik effekti yaradan qaz tullantılarının azaldılması üçün ekoloji cəhətdən təmiz texnologiyalara dair tələbatlar qiymətləndirilmiş və həmin texnologiyaların tətbiqinə dair təkliflər hazırlanmışdır.

Hazırda "Azərbaycan Respublikasının İkinci Milli Məlumatları" hazırlanır. Bu mərhələdə əsas diqqət insan sağlamlığı, ekosistemlərə təsir, təmiz inkişaf mexanizmi üzrə layihələrin seçilməsinə yönəldiləcəkdir.

Konvensiyanın Kioto Protokolunu Azərbaycan Respublikası 2000-ci ildə ratifikasiya etmişdir. Azərbaycan Respublikası Kioto Protokolu üzrə konkret olaraq kəmiyyət öhdəlikləri götürməmişdir və yalnız həmin Protokolun Təmiz İnkişaf Mexanizmində iştirak edir. Bu məqsədlə konkret pilot layihələrinin həyata keçirilməsi üçün Kanada, Danimarka, Fransa, Yaponiya kimi inkişaf etmiş ölkələrlə müvafiq danışıqlar aparılır. 2004-cü ildə Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlaşma Memorandumu imzalanmışdır.

Fransa Hökuməti ilə karbonun udulmasına dair meşə sahələrinin genişləndirilməsi layihələrinin həyata keçirilməsi məqsədilə ilkin texniki-iqtisadi qiymətləndirmə hesabatı hazırlanmışdır.

Hazırda Avropa İttifaqının TACİS Proqramı çərçivəsində Cənubi Qafqaz ölkələrinə və Moldovaya texniki dəstək layihəsi və istilik effekti yaradan qazların kadastrına dair Qlobal Ekoloji Fondun yaradımı ilə Azərbaycanda regional layihə həyata keçirilir.

2. "Ozon qatının qorunması haqqında" Vyana Konvensiyasını, "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu"nu və Protokola aid olan müvafiq düzəlişləri Azərbaycan Respublikası 1996-cı ildə ratifikasiya etmişdir.

Ötən müddət ərzində ölkədə illik istifadə edilən ozonlaşdırıcı maddələrin (ODM) miqdarı müəyyənləşdirilmiş və həmin maddələrin istifadəsinin mərhələlər üzrə azaldılmasını nəzərdə tutan Azərbaycan Respublikasının Ozon Strategiyası hazırlanmışdır. Strategiyaya uyğun olaraq Azərbaycanda ODM-in istifadəsinin mərhələlər üzrə azaldılması qrafiki tərtib edilərək Konvensiyanın Katibliyinə göndərilmişdir.

Protokol üzrə götürülmüş öhdəliklərə görə artıq ölkədə xlorflüorkarbon tərkibli ODM-in istifadəsi və onların idxalı dayandırılmalıdır. Hazırda bu istiqamətdə və ümumiyyətlə ODM-in idxal və ixracının tənzimlənməsi üzrə müvafiq tədbirlər görülür.

Azərbaycanda Qlobal Ekologiya Fondunun maliyyə yardımı ilə ODM-dən istifadə edən müəssisələrdə (Bakı "Çinar Soyuducuları" və Sumqayıt kompressor zavodlarında) rekonstruksiya işləri aparılmış və həmin müəssisələrdə ozondağıdıcı sayılmayan alternativ maddələrdən istifadə etmək nəzərdə tutulmuşdur.

3. "Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında" Konvensiyanı Azərbaycan Respublikası 2002-ci ildə ratifikasiya etmişdir. Konvensiyanın Milli Əlaqələndiricisi təyin olunmuş və bu sahədə işlərin aparılması üçün işçi qrupu yaradılmışdır. Azərbaycan Respublikası üzrə atmosfer havasına atılan tullantılar barədə 2002-ci il üzrə məlumatların Konvensiyanın Katibliyinə verilməsi təmin olunmuş və sonrakı illər üzrə belə məlumatların hazırlanması davam etdirilir.

Konvensiyanın "Ağır metallar", "Davamlı üzvi çirkləndiricilər" və "Turşululuğun azaldılması, evtrofikasiya və yerin ozon qatının bərpası" Protokollarını ratifikasiyaya hazırlamaq üzrə işçi qrupu tərəfindən müvafiq tədbirlər görülür.

4. "Sənaye qəzalarının transsərhəd təsiri haqqında" Konvensiya Azərbaycan Respublikası tərəfindən 2004-cü ildə ratifikasiya edilmişdir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Konvensiya üzrə səlahiyyətli orqan təyin edilmişdir.

Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsinə kömək məqsədilə Almaniyanın Təbiəti və Ətraf Mühiti Mühafizə, Nüvə Reaktorlarının Təhlükəsizliyi üzrə Federal Nazirliyinin maliyyə dəstəyi ilə "Kür çayı hövzəsində qəza vəziyyətinin xəbərdarlıq edilməsi üçün tədbirlərin hazırlanması və tətbiq edilməsi" layihəsi həyata keçirilir. Layihəyə əsasən Cənubi Qafqaz dövlətlərində Kür çayı hövzəsində qəza vəziyyətinin xəbərdarlıq edilməsi məntəqələrinin yaradılması və müvafiq avadanlıqlarla təchiz edilməsi nəzərdə tutulmuşdur.

5. BMT-nin "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında" Bazel Konvensiyasına Azərbaycan Respublikası 2001-ci ildə qoşulmuşdur.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Bazel Konvensiyası üzrə səlahiyyətli orqan təyin edilmişdir.

"Təhlükəli tullantıların pasportlaşdırılması" Qaydası və "Azərbaycan Respublikasında təhlükəli tullantıların idarə olunmasının Dövlət Strategiyası" təsdiq edilmişdir.

Həmçinin təhlükəli tullantıların basdırılması üçün beynəlxalq standartlara uyğun poliqon inşa edilmiş və 2004-cü ildən təhlükəli tullantıların saxlanması üzrə Milli Mərkəz fəaliyyətə başlamışdır.

6. BMT-nin Ciddi quraqlıq və yaxud səhralaşma baş verən ölkələrdə, xüsusilə Afrikada səhralaşma ilə mübarizə üzrə Konvensiyasını Azərbaycan Respublikası 1998-ci ildə ratifikasiya etmişdir.

Ötən müddətdə Konvensiyanın Azərbaycanda həyata keçirilməsi haqqında Milli Məruzə hazırlanmış, Milli Fəaliyyət Planının hazırlanması üçün məlumatlar təhlil edilmiş, ölkənin müxtəlif bölgələrində Konvensiyanın məqsədləri mövzusunda seminarlar keçirilmiş və digər işlər görülmüşdür. Hazırda səhralaşma problemləri ilə əlaqədar Meşələrin Bərpası Proqramının əməli həyata keçirilməsinə başlanmış, proqram üzrə ildə 3,9 min ha meşə əkini

və 5,9 min ha təbii bərpaya kömək tədbirləri nəzərdə tutulmuşdur. 2004-cü ildə “Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı” təsdiq edilmişdir. Texnogen təsirlər nəticəsində çirklənmiş torpaqların reabilitasiyası və rekultivasiyası üzrə də bir sıra layihələr həyata keçirilir.

Konvensiyanın yerinə yetirilməsi üzrə aidiyyəti nazirliklərin və idarələrin, eləcə də qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət Koordinasiya Şurası yaradılmışdır.

7. “Davamlı üzvi çirkləndiricilər haqqında” Stokholm Konvensiyası Azərbaycan Respublikası tərəfindən 2003-cü ildə ratifikasiya olunmuşdur. Konvensiya üzrə səlahiyyətli orqan kimi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi müəyyən edilmişdir. Nazirlikdə Konvensiya ilə bağlı geniş məlumatlar toplanmış, aidiyyəti təşkilatların mütəxəssislərindən ibarət işçi qrup yaradılmış və müvafiq təkliflər planı hazırlanmışdır.

Konvensiyanın qüvvəyə minməsi ilə əlaqədar 2004-cü ildə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində müxtəlif nazirliklərin, idarələrin, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə “Pestisidlər, ətraf mühit və əhalinin sağlamlığı” mövzusunda geniş toplantı keçirilmişdir. İşçi qrupun üzvləri tərəfindən ölkənin regionlarında keçirilən görüşlərdə davamlı üzvi çirkləndiricilər barədə məlumatlar verilmiş və bu maddələrin ətraf mühit və sosial sahə üçün təhlükəsi barədə maarifləndirmə işləri aparılmışdır.

2005-ci ilin iyul ayından etibarən Qlobal Ekoloji Fondun və BMT-nin Sənaye İnkişafı Təşkilatının dəstəyi ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində Milli Fəaliyyət Planının hazırlanması prosesinə başlanılmışdır.

8. BMT-nin “Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə” Konvensiyasını Azərbaycan Respublikası 2000-ci ildə ratifikasiya etmişdir. Eyni zamanda, 22 oktyabr 2002-ci ildə Azərbaycan Respublikası Konvensiyanın “Su və Sağlamlıq” Protokoluna qoşulmuşdur. Protokol 2005-ci ildən hüquqi qüvvəyə minmişdir.

Konvensiya çərçivəsində 2002-2003-cü illərdə TACİS Proqramının xətti ilə maliyyələşdirilən “Çayların birgə idarə olunması” layihəsi yerinə yetirilmişdir. Layihənin əsas məqsədi transsərhəd çirklənmələr sahəsində müşahidələr aparmaq, onları qiymətləndirmək və daim nəzarətdə saxlamaq, çirklənmənin aradan qaldırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsini təmin etməkdir. Layihənin yerinə yetirilməsi zamanı 4 transsərhəd çayın, o cümlədən Kür çayının monitorinqi aparılmışdır.

Konvensiya çərçivəsində, eyni zamanda beynəlxalq göllərin monitorinqi və qiymətləndirilməsi üzrə pilot layihələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Hazırda Candar gölü beynəlxalq təşkilatlar tərəfindən tərtib olunmuş 15 prioritet gölün siyahısına daxil edilmişdir.

Transsərhəd çaylarda çirklənmənin monitorinqinin müntəzəm olaraq aparılması üçün Qazax və Beyləqan rayonlarının ərazisində müasir tələblərə cavab verən analitik tədqiqat laboratoriyaları yaradılmış və müvafiq avadanlıqla təmin olunmuşdur.

9. “Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında” Beynəlxalq Konvensiyaya (MARPOL) Azərbaycan Respublikası 2004-cü ildə qoşulmuşdur (5 əlavəsi ilə birlikdə).

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq struktur bölmələri tərəfindən həyata keçirilən Xəzər dənizinin mühafizəsi, o cümlədən dənizin gəmilər vasitəsilə çirklənməsinin qarşısının alınması istiqamətində fəaliyyəti sözügedən Konvensiyanın tələblərinə uyğun aparılır.

10. BMT-nin “Bioloji müxtəliflik haqqında” Konvensiyası Azərbaycan Respublikası tərəfindən 2000-ci ildə ratifikasiya olunmuşdur.

Azərbaycan Respublikasının ərazisində bütün vacib ekosistemlərin, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan flora və fauna növlərinin qorunub saxlanılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, son iki il ərzində Azərbaycan Respublikasında 6 Milli Park (Ordubad, Şirvan, Ağ göl, Hirkan, Altıağac, Abşeron milli parkları), 2 dövlət təbiət qoruğu (Şahbuz, Eldar şamı) və Qax Hirkan və Arazboyu dövlət təbiət yasaqlıqları yaradılmış, 5 dövlət təbiət qoruğunun (Türyançay, Pirqulu, İlisu, İsmayıllı, Qarayazı) ərazisi genişləndirilmişdir.

Hazırda xüsusi mühafizə olunan təbiət əraziləri 604,5 min hektarı əhatə edir ki, bu da ölkə ərazisinin 7 faizini təşkil edir. Eyni zamanda, Azərbaycan Respublikasında bioloji müxtəlifliklə bağlı BMT-nin İnkişaf Proqramı, Qlobal Ekoloji Fond, Almaniyanın İnkişaf Bankı (KfW) və digər beynəlxalq təşkilatlarla birgə müxtəlif layihələr hazırlanır və həyata keçirilir.

11. YUNESKO-nun "Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyəti olan sulu-bataqlıq yerlər haqqında" Beynəlxalq Konvensiyası (Ramsar Konvensiyası) və ona əlavə edilmiş dəyişikliklər haqqında Protokol və düzəlişlər Azərbaycan Respublikası tərəfindən 2000-ci ildə ratifikasiya olunmuşdur. Konvensiya üzrə işçi qrupu yaradılmışdır.

Ramsar Siyahısına daxil edilmiş Qızılağac Dövlət Təbiət Qoruğu və Ağ göl Milli Parkının İnformasiya sənədləri 2004-cü ildə yeniləşdirilərək Konvensiyanın Katibliyinə göndərilmişdir. Ağ göl Dövlət Təbiət Qoruğunun bazasında 17 924 ha sahədə Ağ göl Milli Parkı yaradılmış, xüsusi mühafizə olunan təbiət ərazisi statusu qazanmış ətraf ərazilərdə ümumilikdə biomüxtəlifliyin qorunması təmin edilmişdir.

12. "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiya (CİTES Konvensiyası) Azərbaycan Respublikası tərəfindən 1998-ci ildə ratifikasiya olunmuşdur.

1999-cu ildə CİTES üzrə İnzibati Orqan kimi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi təyin edilmişdir. Ötən müddət ərzində İnzibati Orqan tərəfindən idxal və ixrac əməliyyatlarını tənzimləyən 110 icazə sertifikatı verilmişdir. CİTES Katibliyi tərəfindən tələb olunan hesabatlar mütəmadi olaraq tərtib edilmiş və qarşı tərəfə çatdırılmışdır. CİTES Katibliyi ilə İnzibati Orqan arasında məlumat mübadiləsi təşkil edilmişdir. Onun tövsiyəsi əsasında Xəzəryanı ölkələr arasında ilk dəfə olaraq Azərbaycan Respublikasında "Nərəcinsli balıq ehtiyatlarının istifadəsinin və dövriyyəsinin tənzimlənməsi Qaydaları" hazırlanmışdır.

13. YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyasını Azərbaycan Respublikası 1998-ci ildə ratifikasiya etmişdir.

Azərbaycan Respublikasının ərazisində yerləşən 4 təbii abidə (Hirkan Dövlət Qoruğu, "Bakı mərtəbəsi" dağı, Lökbatan palçıq vulkanı və Binəqədi dördüncü dövr fauna və flora qəbiristanlığı) YUNESKO-nun Ümumdünya Mədəni və Təbii İrs Fondunun siyahısına daxil edilmək üçün təqdim olunmuşdur.

Hirkan Dövlət Qoruğunun daha əhəmiyyətli olduğunu nəzərə alaraq, onun layihə-smeta sənədləri hazırlanıb Ümumdünya İrs Mərkəzinə göndərilmişdi. Lakin Hirkan Dövlət Qoruğunun ərazisi 2906 ha olmaqla nadir Hirkan meşələrini tam əhatə etmədiyindən 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 21435,0 ha ərazidə Hirkan Milli Parkı və 2005-ci ildə 2252 ha ərazidə Hirkan Dövlət Təbiət Yasaqlığı yaradılmış və beləliklə, nominasiya üçün yuxarıda qeyd olunan ərazi Hirkan Meşələri adını almışdır.

14. BMT-nin "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, qərar qəbul edilməsində ictimaiyyətin iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında" Orxus Konvensiyasını Azərbaycan Respublikası 1999-cu ildə ratifikasiya etmişdir.

Konvensiyanın müddəalarının yerinə yetirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binasında Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Bakıdakı nümayəndəliyinin yardımı ilə Ətraf Mühitə dair İctimai Məlumat Mərkəzi (Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi) yaradılmışdır.

Lazımi texniki imkanlara malik olan Mərkəz ətraf mühitə dair informasiyadan istifadə və qərar qəbul edilməsində ictimaiyyətin iştirakının təmin edilməsi, ətraf mühit məsələlərində şəffaf ictimai mühitin yaradılması və uğurlu idarəçiliyin bərqərar edilməsinə yardım məqsədi daşıyır. Bu baxımdan qeyri-hökumət təşkilatlarının, dövlət orqanlarının, beynəlxalq təşkilatların nümayəndələri və ətraf mühit məsələləri ilə maraqlanan hər bir şəxs Mərkəzin fəaliyyətindən maneəsiz istifadə etmək imkanına malikdir.

15. “Sərhədlərarası kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Konvensiya (Espo Konvensiyası) Azərbaycan Respublikası tərəfindən 1999-cu ildə ratifikasiya edilmişdir.

Konvensiya üzrə götürülmüş öhdəliklərin yerinə yetirilməsi üçün işçi qrupu təşkil olunmuşdur. İşçi qrupu tərəfindən ətraf mühitə təsirin qiymətləndirilməsi ilə bağlı bir sıra təlimatların layihələri hazırlanmışdır.

Hesabat dövründə dövlət ekspertizasına təqdim olunan irimiqyaslı layihələr (bp tərəfindən işlənilən Azəri-Çıraq-Günəşli yatağının Faza-3 mərhələsi, Lukoyl şirkətinin D 222 kontrakt sahəsi, Ekson-Mobil şirkətinin Zəfər-Məşəl kontrakt sahəsi) haqqında geniş məlumat Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və sifarişçinin elektron səhifələrində yerləşdirilmiş, Orxus mərkəzində, kütləvi informasiya vasitələrində işıqlandırılmışdır.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2004-cü ildə ətraf mühit ilə bağlı 20-dən çox normativ hüquqi akt beynəlxalq tələblərə uyğun hazırlanaraq müvafiq orqanlarla razılaşdırılmışdır.

Beynəlxalq konvensiya və sazişlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər

| Tədbirlər | İcraçılar | İcra müddəti |
|---|---|---|
| BMT-nin “İqlim dəyişmələri haqqında” Çərçivə Konvensiyası | | |
| İqlim dəyişmələrinin təsirinin qiymətləndirilməsi və gözlənilən itkilərin minimuma endirilməsi üçün adaptasiya tədbirlərini özündə ehtiva edən Milli İqlim Proqramının hazırlanması | ETSN,İİN, AMEA, TN, KTN, FHN | 2006-cı il |
| Qərar qəbul edən şəxslər üçün iqlim dəyişmələrinin mövcud və gözlənilən təsiri, bu sahədə yeniləşən tədqiqatların nəticələri haqqında məlumat kitabçalarının hazırlanması | ETSN, İİN, AMEA, TN, KTN | 2006-2007-ci illər |
| Gözlənilən təsirlərin miqyası və onun fəsadlarının qiymətləndirilməsi məqsədilə daha həssas sahələr üzrə elmi tədqiqat işlərinin aparılması | ETSN, AMEA, SN, KTN, FHN | 2006-2007-ci illər |
| “Ozon qatının qorunması haqqında” Vyana Konvensiyası | | |
| Ozondağıdıcı maddələrin əvəzedicilərindən istifadə olunması məqsədilə | İİN, SEN, müvafiq müəssisələr, | 2006-2010-cu illər |

| | | |
|---|---|---|
| müəssisələrdə rekonstruksiya işlərinin aparılması | ETSN | |
| 1 | 2 | 3 |
| Monreal protokolunun Pekin düzəlişinin ratifikasiya olunmaq üçün hazırlanması | ETSN, XİN | 2006-2007-ci illər |
| “Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında” Konvensiya | | |
| Konvensiyanın 9 protokolunun ratifikasiya olunmaq üçün hazırlanması | ETSN, XİN | 2006-2007-ci illər |
| Atmosfer havasının monitorinq sisteminin təkmilləşdirilməsi məqsədilə müvafiq cihazlarla təchiz olunmuş müşahidə məntəqələrinin yaradılması | ETSN, DƏİEDK | 2006-2008-ci illər |
| “Sənaye qəzalarının transsərhəd təsiri haqqında” Konvensiya | | |
| Sənaye qəzaları zamanı xəbərdarlıq və qarşılıqlı yardım məqsədləri üçün müvafiq avadanlıqlarla təmin olunmuş daimi fəaliyyət göstərən rabitə məntəqəsinin yaradılması | FHN, ETSN, DƏİEDK | 2006-cı il |
| Sənaye qəzaları haqqında xəbərdarlığın alınması və ötürülməsi məqsədilə ölkə ərazisində səmərəli xəbərdarlıq sistemlərinin yaradılması | FHN, ETSN, DƏİEDK | 2006-2008-ci illər |
| BMT-nin “Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında” Bazel Konvensiyası | | |
| İstehsal proseslərində və xidmət sahələrində əmələ gələn təhlükəli tullantıların inventarlaşdırılması | ETSN | 2006-2008-ci illər |
| “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikası Qanununun Bazel Konvensiyasının tələblərinə uyğunlaşdırılması | ETSN, İİN, SEN | 2006-cı il |
| Təhlükəli tullantı istehsalçılarının qeydiyyatı və təhlükəli tullantıların saxlanılması qaydalarının layihələrinin hazırlanması | ETSN, İİN, SEN | 2006-cı il |
| BMT-nin Ciddi quraqlıq və yaxud səhralaşma baş verən ölkələrdə, xüsusilə Afrikada səhralaşma ilə mübarizə üzrə Konvensiyası | | |
| “Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram” və “Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı” üzrə nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsinə nəzarətin gücləndirilməsi | ETSN, İİN, KTN, DTXK, AMEA | 2006-2010-cu illər |
| BMT-nin İnkişaf Proqramı xətti ilə həyata keçirilən “Torpaqların davamlı idarə | ETSN, DTXK, KTN, AMEA | 2006-2008-ci illər |

| | | |
|---|---|---|
| edilməsi üçün imkanların yaradılması" layihəsinin yerinə yetirilməsi | | |
| Abşeron yarımadasında texnogen təsirlər nəticəsində pozulmuş torpaq sahələrinin reabilitasiyası | ETSN, SEN, YİHO, bələdiyyələr | 2006-2010-cu illər |
| "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyası | | |
| Qobustan ərazisində xüsusi poliqonda mövcud olan davamlı üzvi çirkləndirici siyahısına daxil olan pestisid qalıqlarının yenidən inventarlaşdırılması, çeşidlənməsi, quyuların bərpası və sahənin mübarizəsinin təmin edilməsi | ETSN, KTN, SN, YİHO | 2006-2007-ci illər |
| BMT-nin Sənayenin İnkişafı Təşkilatı xətti ilə həyata keçirilən "Milli Fəaliyyət Planı" layihəsinin yerinə yetirilməsi | ETSN, KTN, SN | 2006-2007-ci illər |
| BMT-nin "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə" Konvensiyası | | |
| Su obyektlərinin, xüsusilə Kür çayının çirklənməsinin qarşısını almaq məqsədilə mövcud təmizləyici qurğuların bərpa edilməsi və yenilərinin tikintisi üzrə təkliflərinin hazırlanması | İİN, "AMST" ASC, "Azersu" ASC, YİHO | 2006-cı il |
| Transsərhəd çayların monitorinq sisteminin təkmilləşdirilməsi məqsədilə müvafiq cihazlarla təchiz olunmuş laboratoriyaların yaradılması | ETSN, İİN, DƏİEDK | 2006-2008-ci illər |
| "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" Konvensiya | | |
| Xəzər dənizinin həssas ərazilərinin xüsusi rayon elan edilərək Konvensiyanın 1-ci qoşmasına daxil edilməsi istiqamətində tədbirlərin görülməsi | ETSN, DDA | 2006-2007-ci illər |
| BMT-nin "Bioloji müxtəliflik haqqında" Konvensiyası | | |
| Bioloji müxtəliflik sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması | ETSN, ƏN | 2006-2008-ci illər |
| Xüsusi mühafizə olunan təbiət əraziləri sisteminin genişləndirilməsi | ETSN | 2006-2008-ci illər |
| Nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan flora və fauna növlərinin bərpası, artırılması və onların keçmiş areallarına köçürülməsi | ETSN, AMEA | 2006-2009-ci illər |
| YUNESKO-nun "Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyəti olan sulu-bataqlıq yerlər haqqında" Beynəlxalq Konvensiyası | | |
| Ramsar Siyahısına yeni su-bataqlıq ərazilərinin daxil edilməsi istiqamətində işlərin aparılması | ETSN, AMEA, KTN | 2006-2007-ci illər |

| | | |
|---|---|---|
| Su-bataqlıq ərazilərində monitorinqin aparılması məqsədilə maddi-texniki bazanın gücləndirilməsi | ETSN, KTN | 2006-2008-ci illər |
| Su-bataqlıq ərazilərində ornitoloji və elmi-kütləvi tədbirlərin həyata keçirilməsi | ETSN, AMEA, KTN | 2006-2007-ci illər |
| "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiya (CİTES Konvensiyası) | | |
| Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi üzrə işlərin aparılması | ETSN, ƏN | 2006-2008-ci illər |
| Sahələrarası əlaqələndirmənin gücləndirilməsi | ETSN, DGK, AMEA | 2006-2007-ci illər |
| YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası | | |
| Azərbaycan Respublikasında mövcud olan nadir təbiət abidələrinin YUNESKO-nun Ümumdünya mədəni və təbii irs Fondunun siyahısına salınması istiqamətində tədbirlərin həyata keçirilməsi | ETSN, XİN, MTN, AMEA | 2006-2007-ci illər |
| Hirkan Milli Parkında təbiət muzeyinin yaradılması | ETSN, AMEA, MTN | 2006-2007-ci illər |
| BMT-nin "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, qərar qəbul edilməsində ictimaiyyətin iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında Orxus Konvensiyası | | |
| Konvensiyanın müddəalarının ölkə ərazisində icrasını təmin etmək məqsədilə müxtəlif regionlarda Orxus İctimai Ekoloji İnformasiya Mərkəzlərinin təşkil edilməsi | ETSN, İİN, DƏİEDK, TN | 2006-2008-ci illər |
| Əhalinin Konvensiya barədə məlumatlandırılması məqsədilə ölkənin müxtəlif bölgələrində dövlət orqanları və ictimaiyyət üçün iclasların, seminarların və digər tədbirlərin keçirilməsi | ETSN, TN | 2006-2008-ci illər |
| "Sərhədlərarası kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Konvensiya (Espo Konvensiyası) | | |
| Konvensiya üzrə milli qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması işlərinin davam etdirilməsi | ETSN, XİN, ƏN | 2006-2008-ci illər |

İxtisarlar:
ETSN - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
İİN - Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi
AMEA - Azərbaycan Milli Elmlər Akademiyası
TN - Azərbaycan Respublikasının Təhsil Nazirliyi
KTN - Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
ƏN - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

FHN - Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi
SN - Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
SEN - Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi
XİN - Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi
MTN - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi
DGK - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
DƏİEDK - Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi
DTXK - Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi
DDA - Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası
YİHO - Yerli icra hakimiyyəti orqanları
"AMST" ASC - "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti

## “AZƏRBAYCAN RESPUBLİKASINDA EKOLOJİ VƏZİYYƏTİN YAXŞILAŞDIRILMASINA DAİR 2006-2010-CU İLLƏR ÜÇÜN KOMPLEKS TƏDBİRLƏR PLANI”NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası hazırda iqtisadi yüksəliş dövrünü yaşayır. Ölkənin geniş sosial-iqtisadi islahatlara söykənən ümumi inkişaf konsepsiyasında ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqın rifahının yaxşılaşması naminə istifadəsi məsələləri mühüm yer tutur.

Son illər iqtisadiyyatın, o cümlədən mədənçıxarma və emal sənayesi sahələrinin, tikinti kompleksinin sürətli inkişafı ətraf mühitə antropogen təsirin artması ilə müşahidə olunur. Belə ki, ayrı-ayrı regionlarda torpaqların, su hövzələrinin və atmosferin çirklənməsi yol verilən normativ göstəricilərdən yüksəkdir, eyni zamanda, içməli şirin suyun azalması, meşələrin seyrəkləşməsi, torpaqların eroziyası, sürüşmə və səhralaşma prosesləri fəallaşmışdır. Abşeron yarımadasında, Kür-Araz ovalığında, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Əli Bayramlı kimi sənaye mərkəzlərində ərazilərin neft, neft məhsulları, aqrokimyəvi maddələr və məişət tullantıları ilə çirkləndirilməsi halları güclənmişdir. Sənaye və məişət tullantı sularının ətraf ərazilərə axıdılması Abşeron yarımadasında süni gölməçələrin sayını artırmış və mövcud göllərin sahəsini xeyli genişləndirmişdir. Antropogen təsirlər nəticəsində meşə massivlərinin azalması və təbii biosenozların yoxa çıxması təhlükəsi yaranmışdır.

Ölkədə ətraf mühitə mənfi təsir edən amillərin qarşısının alınması və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün bir sıra vacib tədbirlər həyata keçirilməli, o cümlədən Xəzər dənizinin sahilboyu zolağında, Abşeron yarımadasında və ölkənin digər regionlarında su hövzələrinin, havanın, torpağın təbii keyfiyyətinin bərpa olunması üçün tullantı suları təmizlənməli, kanalizasiya şəbəkələri yenidən qurulmalı, çirklənmiş torpaqlar rekultivasiya edilməli, geniş sahələrdə meşələr və yaşıllıqlar salınmalı, abadlaşdırma işləri aparılmalı və digər zəruri tədbirlər həyata keçirilməlidir.

Təbii mühitə zərərli antropogen təsirlərin azaldılması, mövcud ekoloji problemlərin aradan qaldırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi məqsədi ilə qərara alıram:

1. “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

2.1. bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin qiymətləndirilməsini təmin etsin və maliyyələşdirmə mənbələrini müəyyənləşdirib təsdiq etsin;

2.2. bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilmiş Tədbirlər Planının həyata keçirilməsinə rəhbərliyi və müvafiq dövlət qurumları arasında əlaqələndirməni həyata keçirsin;

2.3. bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilmiş Tədbirlər Planının icrası barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 sentyabr 2006-cı il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2006-cı il 28 sentyabr tarixli Sərəncamı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

**Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks**
**T Ə D B İ R L Ə R P L A N I**

Sıra №-si Tədbirin adı İcraçı orqanlar İcra müddəti

1. Bakı buxtasında ekoloji vəziyyətin yaxşılaşdırılması

I mərhələ

1.1 Şəhərdaxili təsərrüfat-məişət kanalizasiya şəbəkəsinin yağış kanalizasiyası şəbəkəsindən təcrid edilməsi ilə Bakı buxtasına axıdılan fekal tullantı sularının qarşısının alınması "Azərsu" SC, BŞİH 2006-2008

1.2 Buxtanın sahil zolağında fəaliyyət göstərən iri sənaye obyektlərində (gəmi təmiri zavodları, neft emalı müəssisələri və s.) yaranan tullantı sularının müasir tələblərə uyğun təmizlənməsini təmin edən lokal təmizləyici qurğuların quraşdırılması DXDG, ARDNŞ, MN, DSX, BŞİH, ETSN, "Azərenerji" SC 2006-2009

1.3 Bakı buxtasının və çimərliklərin batmış və yarımbatmış vəziyyətdə olan gəmilərdən, sıradan çıxmış metal və beton konstruksiyalardan və digər iriqabaritli tullantılardan təmizlənməsi FHN, DXDG, ARDNŞ, DSX, MN, İİN, ETSN, BŞİH 2006-2007

II mərhələ

1.4 Bakı Beynəlxalq Dəniz Limanında və buxtanın sahil zolağında yerləşən yanalma körpülərində və pirslərdə müasir texniki, texnoloji və ekoloji tələblərə uyğun yenidənqurma işlərinin həyata keçirilməsi DXDG, ARDNŞ, BŞİH, MN, DSX 2007-2008

1.5 Gəmilərdə əmələ gələn tullantı sularının və dəniz səthindən yığılmış tullantıların zərərsizləşdirilməsini təmin edən müasir qəbuledici stansiyalara malik mərkəzləşdirilmiş sistemin yaradılması DXDG, ARDNŞ, MN, DSX, ETSN, AMEA 2007-2008

1.6. Bakı buxtasının sahil zolağında fəaliyyət göstərən və ətraf mühitə mənfi təsir edən müəssisələrin şəhərdən kənara köçürülməsinə dair təkliflərin hazırlanması və həyata keçirilməsi NK, BŞİH, SEN, ETSN, ARDNŞ, DXDG, MN, DSX, DƏİDK, DŞAK, FHN 2007-2010

2. Bibiheybət zonasında ekoloji vəziyyətin yaxşılaşdırılması

I mərhələ

2.1 Bibiheybət zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə zonanın quru və dəniz hissələrində mövcud olan kommunikasiya xətlərinin, mühəndis qurğu və avadanlıqlarının, tikililərin sökülməsi və ərazinin rekultivasiya edilərək reabilitasiyası ARDNŞ, DŞAK, BŞİH, DƏİDK, FHN, "Azərsu" SC, "Azərenerji" SC, "Azəriqaz" QSC, ETSN, DİN 2006-2009

II mərhələ

2.2 Bibiheybət ərazisində təmizləyici qurğunun inşası və ərazidə təsərrüfat-məişət və yağış kanalizasiya şəbəkəsinin yaradılması "Azərsu" SC, BŞİH, ARDNŞ, ETSN 2007-2009

3. Heydər Əliyev adına Beynəlxalq Hava Limanı ətrafında ekoloji vəziyyətin yaxşılaşdırılması

I mərhələ

3.1 Heydər Əliyev adına Beynəlxalq Hava Limanına gedən yolun yenidən qurulması ilə əlaqədar dendroloji layihənin hazırlanması və həyata keçirilməsi ETSN, BŞİH, YİH, bələdiyyələr, “Azərsu”SC, ARDNŞ, DTXK, AMST ASC 2006-2009

3.2 Hava limanı ətrafının ekoloji sağlamlaşdırılması məqsədi ilə kompleks tədqiqat işlərinin aparılması və ekoloji bərpa layihəsinin hazırlanması və həyata keçirilməsi ETSN, BŞİH, AMEA, DTXK, “Azərsu” SC, “Azal” DK, FHN, “Azərenerji” SC, AMST ASC 2006-2008

II mərhələ

3.3 Hava limanı ətrafındakı ərazilərin ekoloji təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Sədərək və Binə ticarət mərkəzlərinin ərazidən çıxarılması və təbii landşaftın bərpa edilməsi BŞİH, ETSN 2007-2009

4. Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması

I mərhələ

4.1 Böyükşor gölünün təmizlənməsi, gölün ətrafının abadlaşdırılması və şəhərin əhalisi üçün istirahət zonası kimi istifadə edilməsinə dair layihənin hazırlanması və həyata keçirilməsi ARDNŞ, “Azərsu” SC, BŞİH, ETSN, AMEA, DŞAK, MəTN, SN 2006-2010

4.2 Hövsan Aerasiya stansiyasında və digər təmizləyici qurğularda müasir tələblərə uyğun təmizlənmiş suların təkrar istifadə edilməsinə dair təkliflərin hazırlanması ETSN, AMEA, “Azərsu” SC, AMST ASC, SN 2006-2007

4.3 Zığ mexaniki təmizləyici qurğusunun yenidən qurulması “Azərsu” SC 2006-2008

4.4 Pirallahı, Çilov, Qum adaları və Neft Daşlarındakı təmizləyici qurğuların müasir tələblərə uyğun yenidən qurulması ARDNŞ, ETSN 2006-2007

4.5 Abşeron yarımadasında yerləşən kənd və qəsəbələrdə və mövsümi istirahət obyektlərində əmələ gələn bərk məişət tullantılarının utilizasiya məntəqələrinə daşınmasının təmin edilməsi BŞİH, SŞİH, ARİH, ETSN 2006-2007

4.6 Abşeron yarımadasındakı istirahət ocaqlarının ərazilərində yaranmış antisanitar vəziyyətin aradan qaldırılması üçün bərpa proqramının hazırlanması və həyata keçirilməsi SN, ETSN, DİN, BŞİH, SŞİH, ARİH 2006-2007

4.7 Abşeron yarımadasının neft-qazçıxarma idarələrinin fəaliyyət zonalarında neftlə çirklənmiş torpaqların, lay suları altında qalmış sahələrin və istehsal tullantıları ilə çirklənmiş digər ərazilərin müəyyənləşdirilməsi və Abşeron yarımadasının irimiqyaslı (1:10 000) ekoloji xəritəsinin hazırlanması DTXK, ETSN, ARDNŞ, BŞİH, YİH 2006-2007

4.8 Neft və qaz yataqlarında quyuların qazılması və təmiri zamanı yaranan şlam və qazma məhlullarının və digər təhlükəli tullantıların təhlükəli tullantılar poliqonunda zərərsizləşdirilməsinin təmin edilməsi ARDNŞ, ETSN 2006-2010

4.9 Neft hasilatı zamanı çıxan lay sularından yod-brom istehsalında istifadə olunması üçün təkliflərin hazırlanması SEN, AMEA, “Azərikimya” DŞ, ARDNŞ, İİN, SN, FHN 2006-2007

4.10 Ətraf mühitin çirklənməsinin əhalinin sağlamlığına təsirinin qiymətləndirilməsi və informasiya bankının yaradılması SN, ETSN, DSK, SEN 2006-2008

4.11 Bakı və Sumqayıt şəhərlərində, habelə şəhərlərətrafı digər yaşayış məntəqələrində yaranan bərk məişət tullantılarının utilizasiyası məqsədi ilə zibil emalı zavodunun tikilməsi NK, İİN, BŞİH, ETSN, SEN, FHN 2006-2009

4.12 Suraxanı rayonu ərazisində yod-brom istehsalı prosesində əmələ gəlmiş radioaktiv kömür tullantılarının zərərsizləşdirilməsi FHN, ETSN, “Azərikimya” DŞ, DİN, AMEA 2006-2008

4.13 Sumqayıt Səthi aktiv maddələr zavodunda xlorun alınmasında əmələ gəlmiş civə tərkibli tullantıların Təhlükəli tullantı poliqonuna daşınması və zərərsizləşdirilməsi ETSN, “Azərikimya” DŞ, FHN, DİN 2006-2009

4.14 Ceyranbatan su anbarının şərqindəki yamacda salınan yaşayış massivində yaranan tullantı sularının yeni kanalizasiya kollektoruna qoşulmasının təmin edilməsi ARİH, “Azərsu” SC, ETSN 2006-2007

II mərhələ

4.15 Bülbülə, Xocasən, Masazır, Qızılnohur və s. təbii və süni göllərin çirklənmə mənbələrinin dəqiqləşdirilməsinə, onların səviyyəsinin tənzimlənməsinə və ətrafında istirahət zonaları yaradılmasına və ya onların qurudulmasına dair təkliflərin hazırlanması və həyata keçirilməsi ETSN, ARDNŞ “Azərsu” SC, BŞİH, DŞAK, AMEA, MəTN, FHN, SN 2006-2010

4.16 Hövsan Aerasiya stansiyasının yenidən qurulması və qəza çıxış xətti ilə Xəzər dənizinə axıntının qarşısının alınması üçün dənizə sualtı çıxış xəttinin quraşdırılması “Azərsu” SC, BŞİH, ETSN 2007-2009

4.17 Neft Daşlarında və digər dəniz neft yataqlarında quyulardan, borulardan və dəniz özüllərində yerləşən digər obyektlərdən dənizə tökülən axıntı və sızıntıların qarşısının alınması ARDNŞ, ETSN 2007-2009

4.18 Ətraf ərazilərə mənfi təsirin və Xəzər dənizinə neft məhsulları ilə çirklənmiş tullantı sularının axıdılmasının qarşısını almaq məqsədi ilə Hövsan açıq kanalının qapalı tipdə yenidən qurulması və onun çıxışında təmizləyici qurğunun inşası ARDNŞ, “Azərsu” SC, ETSN, BŞİH 2007-2009

4.19 Neft mədənləri ərazilərində ekoloji vəziyyətin sağlamlaşdırılması məqsədi ilə perspektivliyi qeyri-məqbul qiymətləndirilən quyuların ləğvinə dair tədbirlərin hazırlanması və həyata keçirilməsi ARDNŞ, ETSN, FHN 2007-2009

4.20 Abşeron yarımadasında radioaktiv çirklənmənin keyfiyyət və kəmiyyət parametrlərinin öyrənilməsi, çirklənmiş ərazilərin xəritələşdirilməsi, radioekoloji vəziyyətin yaxşılaşdırılması üçün dezaktivasiya üzrə təkliflərin hazırlanması FHN, ETSN, AMEA, ARDNŞ, SN 2007-2008

4.21 Abşeron magistral kanalı boyu sızmaların və ərazilərin bataqlaşmasının qarşısını almaq məqsədi ilə kanalın əsaslı təmir edilərək yenidən qurulmasının texniki-iqtisadi əsaslandırmasının hazırlanması AMST ASC, YİH 2007-2008

4.22 Böyük Bakının təbii-iqlim, sanitar-gigiyenik və sağlamlıq şəraitinin yaxşılaşdırılmasını, həmçinin yaşıllıq sahələrinin tikinti altına ayrılmasının qarşısının alınmasını təmin edən, Bakı şəhərinin Baş Planına uyğun vahid landşaft-memarlıq planının hazırlanması ETSN, BŞİH, DŞAK, AMEA 2006-2008

4.23 Bakı şəhərində, ətraf qəsəbə və kəndlərdə və Abşeron rayonu ərazisində yaranan tullantı sularının təmizlənməsi və axıdılması üçün təmizləyici qurğuların tikilməsi və kanalizasiya şəbəkəsinin yaradılması:o cümlədən I növbədə Əzizbəyov rayonunun Türkan, Zirə və Qala qəsəbələrində formalaşan tullantı suların təmizlənməsi:-kanalizasiya şəbəkəsinin quraşdırılması - 56 km,-gücü 7 000 m3/gün olan təmizləyici qurğunun tikintisi;Sabunçu rayonunun Bilgəh qəsəbəsində formalaşan tullantı suların təmizlənməsi:-kanalizasiya şəbəkəsinin quraşdırılması - 22.5 km,-gücü 3000m3/gün olan təmizləyici qurğunun tikintisi;Novxanı -Mehdiabad - Maştağa- Pirşağı zonasında formalaşan tullantı sularının təmizlənməsi üçün təmizləyici qurğunun inşası (30 000 m3/gün);Xocasən-Lökbatan zonasında formalaşan tullantı sularının təmizlənməsi üçün təmizləyici qurğunun inşa edilməsi (200 000 m3/gün);Ələt qəsəbəsində formalaşan tullantı suların təmizlənməsi:-kanalizasiya şəbəkəsinin quraşdırılması - 15 km,-gücü 3 500 m3/gün olan təmizləyici qurğunun tikintisi; Şıxlar qəsəbəsində formalaşan tullantı suların təmizlənməsi:-kanalizasiya şəbəkəsinin

quraşdırılması - 2 km, - gücü 300 m3/gün olan təmizləyici qurğunun tikintisi;Qobustan qəsəbəsində formalaşan tullantı suların təmizlənməsi:-kanalizasiya şəbəkəsinin quraşdırılması - 18 km,-gücü 4 500 m3/gün olan təmizləyici qurğunun tikintisi;Səngəçal qəsəbəsində formalaşan tullantı suların təmizlənməsi:-kanalizasiya şəbəkəsinin quraşdırılması - 9.5 km,-gücü 1 500 m3/gün olan təmizləyici qurğunun tikintisi; Müşfiqabad qəsəbəsində formalaşan çirkab suların təmizlənməsi üçün gücü 2 500 m3/gün olan təmizləyici qurğunun tikintisi;Abşeron rayonu Pirəküşkül qəsəbəsində formalaşan tullantı suların təmizlənməsi:-kanalizasiya şəbəkəsinin quraşdırılması - 4.5 km, - gücü 500 m3/gün olan təmizləyici qurğunun tikintisi ETSN, "Azərsu" SC,BŞİH, YİH 2006-2008

4.24 NQÇİ-lərin fəaliyyət zonalarına daxil olan yataqların istismarı nəticəsində alınan lay sularının ətraf ərazilərə axıdılmasının qarşısının alınması, tarixən formalaşan gölməçələrin istifadəsinin əsaslandırılması, artıq gölməçələrin qurudulması, ərazidəki sənaye-məişət tullantı poliqonlarının ləğv edilməsi, çirklənmiş torpaqların rekultivasiyası və mədən ərazilərinin ümumi landşaft-arxitektura planına uyğun mərhələli reabilitasiyası: - 2705 ha (Qaradağ rayonu - 1277 ha, Binəqədi rayonu - 183 ha, Sabunçu rayonu - 410 ha, Suraxanı rayonu - 533 ha, Əzizbəyov rayonu -302 ha) ARDNŞ, ETSN, BŞİH, YİH 2006-2010

5. Azərbaycan Respublikasının digər ərazilərində ekoloji vəziyyətin yaxşılaşdırılması

I mərhələ

5.1 Xəzər dənizi sahilindəki ərazilərin (Abşeron yarımadası da daxil olmaqla) rekreasiya potensialının qiymətləndirilməsinə və ondan istifadənin müasir vəziyyətinə, ərazinin sağlamlıq və təbii müalicə imkanlarının daha səmərəli istifadə olunmasına dair təkliflərin hazırlanması AMEA, SN, MəTN, ARDNŞ, ETSN, BŞİH, YİH 2007-2008

5.2 Xəzər dənizinin sahili boyu (Abşeron yarımadası da daxil olmaqla) fəaliyyət göstərən kurort-müalicə, turizm və iaşə müəssisələrində, çimərliklərdə və fərdi yaşayış massivlərində kanalizasiya şəbəkəsinin və tullantı sularının təmizlənməsi üçün lokal təmizləyici qurğuların quraşdırılmasına dair təkliflərin hazırlanması və həyata keçirilməsi İİN, "Azərsu" SC, MəTN, BŞİH, YİH, ETSN, SN 2007-2009

5.3 Ölkənin yaşayış məntəqələri ərazilərindəki qanunsuz zibilliklərin ləğv edilməsi, bərk məişət tullantıları üçün poliqonların tikilməsi və onların çeşidlənərək yığılmasının və daşınmasının təşkil edilməsi BŞİH, YİH, SN, ETSN, bələdiyyələr 2006-2008

5.4 Atmosfer havasının avtonəqliyyat vasitələrindən atılan zəhərli qazlarla çirklənməsinin qarşısını almaq məqsədi ilə nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarətin gücləndirilməsi, onlar üçün atmosferə atılmanın texniki normativlərinin Avropa standartlarına (avro-3) uyğunlaşdırılması, ekoloji yoxlama-ölçü məntəqələrinin yaradılması, istismardan çıxmış nəqliyyat vasitələrinin utilizə edilməsinin təşkili, yol hərəkətinin tənzimlənməsində müasir qurğu və avadanlıqların tətbiqi ilə tıxacların aradan qaldırılması, şəhərlərdə "piyada" zonalarının artırılması və s. tədbirlərin həyata keçirilməsi DİN, ETSN, SMPDA, SEN, ARDNŞ, YİH 2006-2008

5.5 Meşə fonduna antropogen təzyiqlərin azaldılması, ölkənin iqlim, torpaq şəraiti və üzvi əkinçiliyə əsaslanan yeni meşə bağlarının salınması üzrə perspektiv sahələrin müəyyənləşdirilməsi üçün meşə quruluşu və layihələndirmə işlərinin başa çatdırılması ETSN, DTXK, KTN, YİH 2006-2010

II mərhələ

5.6 Sumqayıt şəhərindən və ona yaxın olan yaşayış məntəqələrindən Xəzər dənizinə tullantı sularının atılmasının qarşısının alınması, ərazinin sanitar vəziyyətinin və ekoloji durumunun yaxşılaşdırılması üçün kanalizasiya sistemlərinin yaradılması və yenidən qurulması "Azərsu" SC, "Azərkimya" DŞ, SŞİH, SN, ETSN 2007-2010

5.7 Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Əli Bayramlı, Mingəçevir və digər şəhərlərdə ətraf mühiti çirkləndirən yanacaq, energetika və istilik təchizatı sistemlərinin və digər sənaye obyektlərinin ekoloji tələblərə uyğun fəaliyyət göstərməsini təmin etmək üçün onlarda təmizləyici, o cümlədən qaz-toztutucu qurğuların quraşdırılması SEN, ETSN, ARDNŞ, DİN, "Azerenerji" SC 2007-2009

5.8 Meşə fonduna daxil olmayan ağac və kol bitkilərinin mühafizəsinin gücləndirilməsi, şəhərdə yaşıllıqların artırılması tədbirlərinin müəyyənləşdirilməsi üçün onların uçot sisteminin təkmilləşdirilməsi ETSN, AMST ASC, NN, YİH 2007-2008

5.9 Meşələrin qırılmasının qarşısını almaq məqsədi ilə qazlaşdırılmamış yaşayış məntəqələrindəki xəstəxanaların, məktəblərin və hərbi hissələrin daş kömürlə təchizatının təmin edilməsi İİN, SN, TN, ETSN, MN 2007-2010

5.10 Ölkənin rayon mərkəzlərinin və kəndlərinin keyfiyyətli su ilə təminatının yaxşılaşdırılması məqsədi ilə lokal sutəmizləyici sistemlərin quraşdırılmasına dair təkliflərin hazırlanması və həyata keçirilməsi ETSN, "Azərsu" SC, AMST ASC 2006-2010

5.11 Toksik xassəyə malik, istifadəsi yararsız və qadağan olunmuş pestisidlərin və aqrokimyəvi maddələrin qalıqlarının inventarlaşdırılması, geri alınması və məhvinin təmin edilməsi ETSN, KTN, SN, YİH 2006-2009

5.12 Siyəzən, Neftçala, Əli Bayramlı və s. ərazilərin neft və neft məhsulları ilə çirklənmiş torpaqlarının rekultivasiyası və mədən sahələrinin mərhələli bərpası ARDNŞ, YİH, ETSN, FHN 2007-2010

5.13 Gəncə Alüminium zavodunun fəaliyyəti nəticəsində yaranmış və şəhərin ətrafında yığılıb qalmış alunit şlamının ətraf mühitə zərərli təsirinin aradan qaldırılmasına dair layihənin hazırlanması və həyata keçirilməsi GİH, AMEA, ETSN, SEN, DTXK 2007-2009

6. Ümumi ekoloji problemlərin həllinə yönəlmiş tədbirlər

I mərhələ

6.1 Su ehtiyatlarının dəqiq qiymətləndirilməsi, onların çirklənməsinin qarşısının alınması və optimal idarə olunması üçün Açıq hidroloji monitorinq sisteminin yaradılması ETSN, AMST ASC, SN, AMEA, FHN, "Azərenerji" SC 2006-2008

6.2 İqlim dəyişmələri ilə bağlı təhlükəli hidrometeoroloji hadisələrdən dəyən ziyanın azaldılması məqsədi ilə Erkən xəbərdarlıq sisteminin yaradılması ETSN, AMEA, FHN 2006-2008

6.3 ekoloji təbliğat və maarifləndirmə tədbirlərinin gücləndirilməsi, tədris müəssisələrində ekoloji təhsilə daha geniş yer ayrılması və bu sahə üzrə kadrların hazırlanması ETSN, TN, ATRV QSC, AMEA 2006-2010

6.4 Yerin təkinin istifadəçilərinin və onların hasil etdiyi faydalı qazıntıların (neft və qaz istisna olmaqla) miqdarının müəyyən edilməsi və bu göstəricilər nəzərə alınmaqla Faydalı Qazıntıların Dövlət Balansında faydalı qazıntıların miqdarının dəqiqləşdirilməsi ETSN 2006-2007

II mərhələ

6.5 Mövcud maşınqayırma kompleksinin bazası əsasında hava və sutəmizləyici qurğuların, ölçü cihazları və avadanlıqların istehsalı üzrə müəssisələrin yaradılması SEN, İİN, AMEA 2006-2010

6.6 Bakı şəhərinin atmosfer havasının zərərli maddələrlə çirklənmə dərəcəsinin monitorinqinin təşkili (avtomatik rejimdə işləyən kompleks sisteminin yaradılması) ETSN 2006-2008

7. Qanunvericiliyin təkmilləşdirilməsi

I mərhələ

7.1 Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə aşağıdakılar barədə əlavə və dəyişikliklər edilməsi haqqında qanun layihələrinin hazırlanması:- ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalara görə inzibati tənbehin sərtləşdirilməsi;- ekoloji təhlükəsizlik qaydalarının pozulmasına görə yeni inzibati tənbeh növlərinin müəyyən edilməsi ETSN, AMEA, DİN, ƏN 2006-2007

7.2 "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa aşağıdakılar barədə əlavə və dəyişikliklər edilməsi haqqında qanun layihələrinin hazırlanması:- ekoloji normaların təkmilləşdirilməsi;- ətraf mühitə təsirin qiymətləndirilməsi;- ətraf mühitin və təbii ehtiyatların monitorinqinin aparılması;- ətraf mühitin mühafizəsi fondlarının yaradılması;- təbii sərvətlərdən istifadə hüququnun təkmilləşdirilməsi;- təbii sərvətlərdən qanunsuz istifadəyə görə maddi məsuliyyətin sərtləşdirilməsi;- ekoloji nəzarətin gücləndirilməsi ETSN, İİN, MN, AMEA, DİN, SEN, ƏN 2006-2007

7.3 Azərbaycan Respublikasının Meşə Məcəlləsinə aşağıdakılar barədə əlavə və dəyişikliklər edilməsi haqqında qanun layihələrinin hazırlanması:- meşə fondunun formalaşması;- meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin kadastrı, onların istifadəsi və qorunması;- meşədən istifadə hüquqlarının təkmilləşdirilməsi;meşələrin salınması və meşə bərpa tədbirlərinin aparılması;- meşələrə vurulmuş ziyanın hesablanması prinsiplərinin müəyyən edilməsi ETSN, AMEA, KTN, DTXK, ƏN 2007-2008

7.4 "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununa aşağıdakılar barədə əlavə və dəyişikliklər edilməsinə dair qanun layihələrinin hazırlanması:- yerin təkinin istifadəyə verilməsi qaydalarının təkmilləşdirilməsi;- torpaq qatının mühafizəsi və bərpası məsələlərinin hüquqi bazasının təkmilləşdirilməsi;- şoranlaşmaya qarşı tələblərin müəyyən edilməsi ETSN, AMEA, DTXK, ƏN 2006-2007

7.5 "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa aşağıdakılar barədə əlavə və dəyişikliklər edilməsinə dair qanun layihələrinin hazırlanması:- xüsusi mühafizə rejiminin xüsusiyyətlərinin təkmilləşdirilməsi;- xüsusi mühafizə olunan təbiət ərazilərinin zonalaşdırılması;- xüsusi mühafizə olunan təbiət ərazilərində yol verilə bilən məhdud təsərrüfat fəaliyyətinin növlərinin müəyyən edilməsi;- milli parklarda ekoturizm və istirahət məsələlərinin həll edilməsi ETSN, SN, AMEA, SEN, ƏN 2006-2007

7.6 Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə aşağıdakılar barədə əlavə və dəyişikliklər edilməsi haqqında qanun layihələrinin hazırlanması:- ekoloji cinayətlərə görə məsuliyyəti müəyyən edən normaların təkmilləşdirilməsi;- ekoloji cinayət əməllərinə görə məsuliyyət nəzərdə tutan yeni normaların əlavə edilməsi ETSN, AMEA, DİN, ƏN 2006-2007

7.7 "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa aşağıdakılar barədə əlavə və dəyişikliklər edilməsinə dair qanun layihələrinin hazırlanması:- ozon qatının mühafizəsinin təmin edilməsi;- ekoloji normativlərin müəyyən edilməsi ETSN, AMEA, SEN, ƏN 2007-2008

7.8 Azərbaycan Respublikasının Su Məcəlləsinə aşağıdakılar barədə əlavə və dəyişikliklər edilməsi haqqında qanun layihələrinin hazırlanması:- şirin su mənbələrinin mühafizəsinin təmin edilməsi;- ekoloji normativlərin təkmilləşdirilməsi. ETSN, AMEA, "Azərsu" SC, AMST ASC, ƏN 2008-2009

7.9 "Genetik ehtiyatların qorunması haqqında" Azərbaycan Respublikasının qanun layihəsinin hazırlanması ETSN, AMEA, KTN, ƏN 2007-2008

II mərhələ

7.10 digər normativ hüquqi aktlar üzrə:- ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən istifadə sahəsində və təbiətə vurulan ziyanın ödənilməsinə dair qüvvədə olan tariflərin müasir qiymət səviyyəsinə uyğunlaşdırılması;- ətraf mühitə vurulan ziyana görə ödəmələrin

miqdarının müəyyən olunması metodikasının yenidən hazırlanması;- atmosfer havasına atılan çirkləndiricilərin normativlərinin hesablanmasının yeni metodikasının hazırlanması;- ekoloji sertifikatlaşdırmanın aparılması metodikasının hazırlanması;- su obyektlərində istifadə olunan zərərli maddələrin təsir dərəcəsinin (toksikliyinin) qiymətləndirilməsinin vahid metodikasının hazırlanması;- enerji daşıyıcılarından səmərəli istifadə olunması, istilik enerjisi itkisinin qarşısının alınması məqsədi ilə tikinti normaları və qaydalarının tələblərinə yenidən baxılması ETSN, AMEA, ƏN, digər aidiyyəti dövlət orqanları 2006-2010

7.11 Azərbaycan Respublikasının Ekoloji Məcəlləsinin hazırlanması ETSN, AMEA, DİN, ƏN 2009 - 2010

AKRONİMLƏR:

NK – Azərbaycan Respublikasının Nazirlər Kabineti

ETSN – Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi

FHN – Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi

KTN – Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

SEN –Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi

SN – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

NN – Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi

MəTN– Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi

İİN–Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi

DİN–- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

MN –- Azərbaycan Respublikasının Müdafiə Nazirliyi

TN– Azərbaycan Respublikasının Təhsil Nazirliyi

ƏN– Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

DTXK– Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi

DƏİDK– Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi

DŞAK– Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi

DSK–Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

ARDNŞ– Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti

DXDG– Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi

DSX– Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti

BP– Azərbaycan Respublikasının Baş Prokurorluğu

SMPDA– Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi

AMEA– Azərbaycan Milli Elmlər Akademiyası

AMST ASC– Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti

ATRV QSC– Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti

BŞİH–Bakı Şəhər İcra Hakimiyyəti

SŞİH– Sumqayıt Şəhər İcra Hakimiyyəti

GİH– Gəncə Şəhər İcra Hakimiyyəti

ARİH– Abşeron Rayon İcra Hakimiyyəti YİH– yerli icra hakimiyyətləri

## ƏLİ BAYRAMLI VƏ MİNGƏÇEVİR ŞƏHƏRLƏRİNİN ƏRAZİSİNƏ YAĞAN YAĞIŞLAR NƏTİCƏSİNDƏ DƏYMİŞ ZİYANIN ARADAN QALDIRILMASI TƏDBİRLƏRİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Əli Bayramlı və Mingəçevir şəhərlərinin ərazisinə yağan leysan yağışları nəticəsində şəhər təsərrüfatına və əhaliyə dəymiş ziyanın aradan qaldırılmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2006-cı il dövlət büdcəsinin Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Əli Bayramlı Şəhər İcra Hakimiyyətinə 2,0 (iki) milyon manat və Mingəçevir Şəhər İcra Hakimiyyətinə 1,0 (bir) milyon manat vəsait ayrılsın.

2. Əli Bayramlı Şəhər İcra Hakimiyyətinə və Mingəçevir Şəhər İcra Hakimiyyətinə tapşırılsın ki, şəhər təsərrüfatına və əhaliyə dəymiş ziyanın müəyyən edilmiş qaydada qiymətləndirilməsi əsasında 2 ay ərzində dəymiş ziyanın aradan qaldırılması üçün lazımi tədbirlər görsünlər və nəticəsi barədə Azərbaycan Respublikası Prezidentinə məlumat versinlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 noyabr 2006-cı il
№ 1759

## MİNGƏÇEVİR SU ANBARININ QƏRB HİSSƏSİNDƏ, BOZDAĞDA BAŞ VERMİŞ TORPAQ SÜRÜŞMƏSİNİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI TƏDBİRLƏRİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2006-cı il oktyabrın 28-30-da yağmış güclü leysan yağışları nəticəsində Mingəçevir su anbarının qərb hissəsində, Bozdağda irimiqyaslı torpaq sürüşməsi baş vermişdir. Sürüşmə nəticəsində həmin ərazidə yerləşən Yuxarı Qarabağ kanalının suqəbuledici qurğusuna və başqa qurğulara ciddi təhlükə yaranmışdır.

Təbii fəlakətin nəticələrinin aradan qaldırılmasını təmin etmək məqsədilə qərara alıram:

1. Aşağıdakı tərkibdə Hökumət komissiyası yaradılsın:

Hökumət komissiyasının sədri

Abid Şərifov
Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikasının Fövqəladə Hallar üzrə Dövlət Komissiyasının sədri

Hökumət komissiyasının üzvləri:

Kəmaləddin Heydərov
Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Samir Şərifov
Azərbaycan Respublikasının maliyyə naziri
Hüseynqulu Bağırov
Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
Əhməd Əhmədzadə
Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri
Etibar Pirverdiyev
"Azərenerji" Səhmdar Cəmiyyətinin Prezidenti
Lütvəli Babayev
Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı
Akif Əlizadə
Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutunun direktoru

2. Hökumət komissiyasına tapşırılsın ki:

2.1. torpaq sürüşməsi baş verən ərazidə yerləşən Yuxarı Qarabağ kanalının suqəbuledici qurğusuna və başqa qurğulara yaranmış təhlükənin aradan qaldırılması üçün ilk növbədə təcili yerinə yetirilməsi vacib olan tədbirlərin həyata keçirilməsini təmin etsin;

2.2. qısa müddət ərzində təbii fəlakət baş vermiş ərazidə görüləcək bərpa işlərinin layihə-smeta sənədlərinin hazırlanıb, işlərin yerinə yetirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

3.1. təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin maliyyələşdirilməsi üzrə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 noyabr 2006-cı il
№ 1771

## AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMININ TƏSİS EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Hər il may ayının 23-ü Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı günü kimi qeyd olunsun.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 may 2007-ci il.

## ƏHALİNİN EKOLOJİ CƏHƏTDƏN TƏMİZ SU İLƏ TƏMİNATININ YAXŞILAŞDIRILMASI İLƏ ƏLAQƏDAR BƏZİ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında əhalinin ekoloji tələblərə cavab verən keyfiyyətli su ilə təminatının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən mühüm tədbirlər həyata keçirilir. Bu sahədə son illər görülən işlərə baxmayaraq, hələ də bir sıra rayonlarda əhalinin təmiz su ilə təminatında problemlərin mövcudluğu müşahidə olunur.

Qeyd olunanları nəzərə alaraq, Kür və Araz çaylarının sularından istifadə edən Naxçıvan Muxtar Respublikasının bəzi rayonlarında, habelə Yevlax, Zərdab, Ağcabədi, Kürdəmir, İmişli, Sabirabad, Saatlı, Salyan, Neftçala və Biləsuvar rayonlarında əhalinin su təminatını yaxşılaşdırmaq məqsədi ilə qərara alıram:

1. Kür və Araz çaylarının sularından istifadə edən 100 (yüz) yaşayış məntəqəsində 2007-2008-ci illərdə modul tipli sutəmizləyici qurğuların quraşdırılması üçün Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 3,0 milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, modul tipli sutəmizləyici qurğuların quraşdırılmasını və istifadəyə verilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki:

3.1. bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin ayrılmasını təmin etsin;

3.2. bu layihənin həyata keçirilməsi üçün tələb olunan əlavə vəsaiti 2008-ci il dövlət büdcəsinin formalaşdırılması zamanı nəzərə alsın.

4. Quraşdırılmış sutəmizləyici qurğuların normal və fasiləsiz istismarını və onlara texniki xidmətin göstərilməsini təmin etmək məqsədi ilə həmin qurğular qanunvericiliyə uyğun olaraq, müvafiq bələdiyyələrin istifadəsinə verilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 iyun 2007-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİNİN AZƏRBAYCAN GEOLOGİYA MUZEYİNİN FƏALİYYƏTİNİN YAXŞILAŞDIRILMASI İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ölkəmizin ərazisinin zəngin geoloji inkişaf tarixinin tədqiqi, mineral xammal mənbələri və yeraltı sərvətlərinin, habelə geologiya elminin müxtəlif sahələrində qazanılan nailiyyətlərin nümayiş etdirilməsi işində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Azərbaycan Geologiya Muzeyinin böyük rolu vardır. 1969-cu ildə yaradılmış bu muzey respublikada aparılan geoloji kəşfiyyat işlərinin nəticələrinin geniş miqyasda tanıdılması istiqamətində mühüm xidmətlər göstərmişdir.

Azərbaycan Respublikasının təbii ehtiyatlarının öyrənilməsi və onların təbliğinin daha da gücləndirilməsi ilə yanaşı, indiyədək toplanmış eksponatların qorunub saxlanması və gələcək nəsillərə çatdırılması zərurətini nəzərə alaraq, Azərbaycan Geologiya Muzeyinin maddi-texniki bazasının möhkəmləndirilməsi və fəaliyyətinin müasir standartlara uyğun qurulmasının təmin olunması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Azərbaycan Geologiya Muzeyinin inzibati binasının təmiri və muzeydə mühafizə olunan eksponatların restavrasiyası üçün Azərbaycan Respublikasının 2008-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 1 (bir) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ayrılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan işlərin yerinə yetirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 may 2008-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASINDA YAŞILLIQLARIN SALINMASI SAHƏSİNDƏ İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında qeyri-meşə fondu torpaqlarında, o cümlədən magistral avtomobil yollarının mühafizə zolaqlarında yaşıllıqların salınması, bərpası və becərilməsi sahəsinin davamlı inkişafını təmin edən idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində ölkədə yaşıllaşdırma sahəsində xidmətlər göstərən, yaşıllıqların salınması, becərilməsi, bərpası və artırılması, müvafiq infrastrukturun inkişafı ilə bağlı digər işləri yerinə yetirən "Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu" Açıq Səhmdar Cəmiyyəti təsis edilsin.

2. "Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - Cəmiyyət) səhmləri dövlətə məxsus olduğu üçün dövlətin adından müəyyən səlahiyyətlərin həyata keçirilməsi aşağıdakı dövlət orqanlarına həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

2.1.1. Cəmiyyətin Nizamnaməsinin təsdiq edilməsi;

2.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə:

2.2.1. Cəmiyyətin fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi;

2.2.2. Cəmiyyətin strukturunun, aparatının işçilərinin say həddinin və xərclər smetasının təsdiq edilməsi;

2.2.3. Cəmiyyətin sədr müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.2.4. Cəmiyyətin nümayəndəlik və filiallarının, həmçinin tabeliyində olan hüquqi şəxs statuslu qurumların rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi;

2.2.5. Cəmiyyətdən daxil olan təkliflərə baxılması və öz səlahiyyətləri daxilində müvafiq tədbirlərin görülməsi;

2.2.6. Cəmiyyətin illik hesabatlarının, mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiq edilməsi;

2.2.7. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanmasına razılıq verilməsi;

2.3. Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinə:

2.3.1. Cəmiyyətin nümayəndəlik və filiallarının yaradılması və ya ləğv edilməsinə, tabeliyində olan hüquqi şəxs statuslu qurumların yaradılması, yenidən təşkili və ya ləğv edilməsinə razılıq verilməsi;

2.3.2. qanunvericiliklə nəzərdə tutulmuş digər səlahiyyətlərin həyata keçirilməsi.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

3.1. Cəmiyyətin Nizamnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.2. qüvvədə olan qanunvericilik aktlarının bu Sərəncama uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi öz səlahiyyətləri daxilində Cəmiyyətin dövlət qeydiyyatına alınması üçün zəruri tədbirləri həyata keçirsinlər.

5. Müəyyən edilsin ki, Naxçıvan Muxtar Respublikasında bu Sərəncamın 1-ci bəndində göstərilən işlər və xidmətlər Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyun 2008-ci il.

## “AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTANIN NEFT VƏ QAZ POTENSİALI: ENERGETİKA, İQTİSADİYYAT, EKOLOGİYA. ƏMƏKDAŞLIĞIN STRATEGİYASI” BEYNƏLXALQ KONFRANSININ BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası və Türkmənistan müstəqillik əldə etdikdən sonrakı dövrdə böyük inkişaf yolu keçərək müxtəlif sahələrdə uğurlar qazanmış və hal-hazırda nəinki regionda, hətta dünya miqyasında ən dinamik inkişaf edən ölkələrdir. İki xalq arasında tarixən mövcud olmuş dostluq və qardaşlıq münasibətləri qorunub saxlanaraq bu gün daha da möhkəmləndirilir.

Türkmənistan prezidenti Qurbanqulı Berdımuxamedovun 2008-ci il 19-20 may tarixlərində Azərbaycana rəsmi səfəri ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına təkan vermişdir.

İqtisadi əlaqələrin genişlənməsində maraqlı olan ölkələrimiz iki dövlət arasında əməkdaşlığın səviyyəsini yüksəldərək, dünyada neft və qaz istehsalında mühüm yer tutmaq üçün böyük potensiala malik olduqlarını sübut etmişlər. Bu baxımdan Xəzər regionunda neft, qaz və enerji sahələrinə qoyulan irimiqyaslı beynəlxalq investisiya layihələrinin nəzərdən keçirilməsi, yeni müasir texnologiyalardan istifadə olunması, elm və ekologiya sahələrində işlərin əlaqəli aparılması, habelə əməkdaşlıq imkanlarının hərtərəfli öyrənilməsi və həmin imkanların dünyaya çatdırılması üçün Türkmənistanla birgə xüsusi konfransın keçirilməsi məqsədəuyğun hesab edilmişdir.

Azərbaycan Respublikası ilə Türkmənistan arasında ikitərəfli əməkdaşlığın gücləndirilməsinin, hər iki ölkədə enerji ehtiyatlarından daha səmərəli istifadə olunmasının, bu sahədə regional və beynəlxalq layihələrin qarşılıqlı fayda əsasında reallaşdırılmasının mühüm əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. “Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategiyası” Beynəlxalq Konfransı 2008-ci ilin sentyabr ayında Bakı şəhərində keçirilsin.

2. Bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan Konfransın hazırlanmasını və keçirilməsini təmin etmək üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri:
Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Təşkilat Komitəsinin üzvləri:
Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri
Hüseynqulu Bağırov - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini
İlqar Fətizadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini
Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini
Rövnəq Abdullayev - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti
Akif Əlizadə - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

3. Bu Sərəncamın 2-ci bəndinə əsasən yaradılmış Təşkilat Komitəsi müvafiq tədbirlər proqramını hazırlayıb yerinə yetirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 iyun 2008-ci il.

## ƏHALİNİN EKOLOJİ CƏHƏTDƏN TƏMİZ SU İLƏ TƏMİNATININ YAXŞILAŞDIRILMASI İLƏ ƏLAQƏDAR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında əhalinin ekoloji tələblərə cavab verən keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən keçirilmiş bir sıra tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasının bəzi rayonlarında, habelə Yevlax, Zərdab, Ağcabədi, Kürdəmir, İmişli, Sabirabad, Saatlı, Salyan, Neftçala və Biləsuvar rayonlarının 100 yaşayış məntəqəsində 2007-2008-ci illərdə modul tipli sutəmizləyici qurğuların quraşdırılmasına başlanılmış və bir çoxunda qurğular artıq əhalinin istifadəsinə verilmişdir.

Ölkənin regionlarında modul tipli sutəmizləyici qurğuların quraşdırılmasının gələcəkdə də davam etdirilməsi keyfiyyətli içməli su ilə bağlı problemləri olan yaşayış məntəqələrini ekoloji cəhətdən təmiz su ilə təmin edəcək və ümumilikdə əhalinin sosial rifahının yaxşılaşdırılmasına səbəb olacaqdır.

Modul tipli sutəmizləyici qurğulardan istifadə edilməsi nəticəsində ölkə əhalisinin keyfiyyətli içməli su ilə təmin edilməsi istiqamətində əldə edilmiş müsbət nəticələri nəzərə alaraq qərara alıram:

1. Kür və Araz çaylarının sularından, habelə digər su mənbələrindən istifadə edən ölkə əhalisinin keyfiyyətli içməli su ilə təmin edilməsi məqsədi ilə həmin çayların sahilboyunca yerləşən rayonların əlavə 200 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğuların quraşdırılmasına başlanılması üçün 2008-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə 2 (iki) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın birinci bəndində nəzərdə tutulan vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

- Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təklifləri əsasında yuxarıda göstərilən tədbirin həyata keçirilməsi üçün tələb olunan əlavə vəsaiti 2009-cu ilin dövlət büdcəsində nəzərdə tutulacaq dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsü zamanı nəzərə alsın;
- bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 noyabr 2008-ci il.

## BAKI ŞƏHƏRİNİN YAŞILLAŞDIRILMASI SAHƏSİNDƏ ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Son illər Azərbaycanın müxtəlif bölgələrində ekoloji vəziyyətin, o cümlədən iqlim şəraitinin sağlamlaşdırılması istiqamətində aparılan yaşıllaşdırılma işləri müvəffəqiyyətlə həyata keçirilir.
Görülən tədbirlər ölkədə, xüsusilə də sənaye mərkəzi olan Bakı şəhərində oksigen balansının stabilləşməsinə və paytaxtın estetik görünüşünün yaxşılaşdırılmasına əlverişli zəmin yaradır. Bu sahədə nəzərdə tutulan işləri sürətləndirmək məqsədi ilə qərara alıram:

1. Bakı şəhərinin yaşıllaşdırılması və ətraf landşaftın müasir dizaynla tərtib edilməsi üçün Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə 5,0 (beş) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın birinci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 aprel 2009-cu il.

## ƏHALİNİN SU TƏMİNATININ YAXŞILAŞDIRILMASI İLƏ ƏLAQƏDAR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Son illərdə Azərbaycan Respublikasında əhalinin ekoloji tələblərə cavab verən içməli su ilə təminatı və onun keyfiyyətinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

2007-ci və 2008-ci illərdə ölkəmizin 12 rayonunun, o cümlədən Naxçıvan Muxtar Respublikasının 2 rayonu daxil olmaqla, 122 kənd yaşayış məntəqələrində modul tipli sutəmizləyici qurğular quraşdırılmış, bu da 224 min nəfər əhalini içməli su ilə təmin etmişdir.

Azərbaycan Respublikasında əhalinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davam etdirilməsi məqsədi ilə qərara alıram:

Kür və Araz çaylarının sularından, habelə digər su mənbələrindən istifadə edən ölkə əhalisinin keyfiyyətli içməli su ilə təmin edilməsi məqsədi ilə həmin çayların sahilboyunca yerləşən rayonların əlavə 188 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğuların quraşdırılması üçün 2009-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə 10,0 (on) milyon manat məbləğində vəsait ayrılsın.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada təmin etsin.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 iyun 2009-cu il.

## 2009-CU İL İYULUN 17-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ VƏ ALMANİYA FEDERATİV RESPUBLİKASININ TEXNİKİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI (GTZ) ARASINDA TƏBİİ SƏRVƏTLƏRİN DAVAMLI İDARƏ OLUNMASI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU"NUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2009-cu il iyulun 17-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Təşkilatı (GTZ) arasında təbii sərvətlərin davamlı idarə olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Almaniya Federativ Respublikası tərəfini xəbərdar etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 avqust 2009-cu il.

# 2009-CU İL SENTYABRIN 16-DA SEUL ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ VƏ KOREYA RESPUBLİKASININ ƏTRAF MÜHİT SƏNAYESİ VƏ TEXNOLOGİYALAR İNSTİTUTU ARASINDA AZƏRBAYCANDA ƏTRAF MÜHİTİN İDARƏ EDİLMƏSİ ÜZRƏ BAŞ PLANIN HAZIRLANMASINA DAİR ANLAŞMA MEMORANDUMU"NUN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2009-cu il sentyabrın 16-da Seul şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Koreya Respublikasının Ətraf Mühit Sənayesi və Texnologiyalar İnstitutu arasında Azərbaycanda Ətraf Mühitin İdarə Edilməsi üzrə Baş Planın hazırlanmasına dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Koreya Respublikası tərəfini xəbərdar etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 dekabr 2009-cu il.

**“AZƏRBAYCAN RESPUBLİKASININ 2004-CÜ İL 18 İYUN TARİXLİ 690-IIQ NÖMRƏLİ QANUNU İLƏ AZƏRBAYCAN RESPUBLİKASININ QOŞULDUĞU “NEFTLƏ ÇİRKLƏNDİRMƏ HALLARINA HAZIRLIĞIN TƏMİN EDİLMƏSİ, BUNLARA QARŞI MÜBARİZƏ VƏ ƏMƏKDAŞLIQ HAQQINDA” 1990-CI İL TARİXLİ BEYNƏLXALQ KONVENSİYANIN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2005-Cİ İL 26 DEKABR TARİXLİ 1205 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. “Azərbaycan Respublikasının 2004-cü il 18 iyun tarixli 690-IIQ nömrəli Qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu “Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında” 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 1205 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №12, maddə 1195) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci bənddə “orqanlar qismində öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi” sözləri “orqan qismində Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi” sözləri ilə əvəz edilsin;

1.2. 2-ci bənddə “orqanlar qismində öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinin” sözləri “orqan qismində Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, “Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında” 1990-cı il tarixli Beynəlxalq Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin (a) (i) yarımbəndində nəzərdə tutulmuş səlahiyyətli milli orqan qismində Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin təyin edilməsi barədə Beynəlxalq Dəniz Təşkilatının Baş Katibinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 aprel 2010-cu il.

**AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİNİN TABELİYİNDƏ OLAN BƏZİ QURUMLARLA BAĞLI TƏDBİRLƏR HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin meşə mühafizəsi və bərpası müəssisələrinin və Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin milli parklarının, dövlət təbiət qoruqlarının və dövlət təbiət yasaqlıqlarının işçilərinə dövlət qulluqçusu statusunun verilməsi üçün qanunvericiliyə müvafiq dəyişikliklər edilməsi barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 aprel 2011-ci il.

## AZƏRBAYCAN RESPUBLİKASININ SAMUR-YALAMA MİLLİ PARKININ YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2006-cı il 4 aprel tarixli 88-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi və Kreditanştalt für Videraufbau, Frankfurt am Main ("KfW") arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı çərçivəsində "Samur-Yalama Milli Parkının yaradılması" layihəsi üzrə Maliyyələşdirmə Müqaviləsi" və həmin müqaviləyə dair Xüsusi Razılaşmaya uyğun olaraq Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Xaçmaz rayonunun inzibati ərazisində olan dövlət meşə fondu torpaqlarının əlavə olunan yerquruluşu planında göstərilmiş 11772,45 hektarlıq sahəsində Azərbaycan Respublikasının Samur-Yalama Milli Parkı yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 noyabr 2012-ci il.

## “HEYVANLAR ALƏMİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİBARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2012-Cİ İL 1 OKTYABR TARİXLİ 435-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 1 oktyabr tarixli 435-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 noyabr 2012-ci il.

## “EKOLOJİ TƏHLÜKƏSİZLİK HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2013-CÜ İL 1 FEVRAL TARİXLİ 552-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Ekoloji təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 1 fevral tarixli 552-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ekoloji təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ekoloji təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 mart 2013-cü il.

## “EKOLOJİ TƏMİZ KƏND TƏSƏRRÜFATI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2013-CÜ İL 1 FEVRAL TARİXLİ 550-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 1 fevral tarixli 550-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 mart 2013-cü il.

## “ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2013-CÜ İL 1 FEVRAL TARİXLİ 553-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 1 fevral tarixli 553-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 mart 2013-cü il.

## “EKOLOJİ TƏMİZ KƏND TƏSƏRRÜFATI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2013-CÜ İL 22 OKTYABR TARİXLİ 778-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 22 oktyabr tarixli 778-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 noyabr 2013-cü il.

## “ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2014-CÜ İL 4 APREL TARİXLİ 932-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 4 aprel tarixli 932-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 aprel 2014-cü il.

## ZIĞ GÖLÜNÜN EKOLOJİ VƏZİYYƏTİNİN YAXŞILAŞDIRILMASI İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraqqərara alıram:

1. Bakı şəhəri ərazisində yerləşən Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı mühəndislik və layihələndirmə işlərinin görülməsi, gölün mühafizəsinin təşkili və ətraf mühitə təsirinin qiymətləndirilməsi sənədinin hazırlanması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 oktyabr 2014-cü il.

## “EKOLOJİ TƏMİZ KƏND TƏSƏRRÜFATI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2014-CÜ İL 28 OKTYABR TARİXLİ 1093-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 28 oktyabr tarixli 1093-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 noyabr 2014-cü il.

## ƏHALİNİN EKOLOJİ CƏHƏTDƏN TƏMİZ SU İLƏ TƏMİNATININ YAXŞILAŞDIRILMASI İLƏ ƏLAQƏDAR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ölkəmizdə əhalinin keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. 2007-2014-cü illərdə 20 rayonun 272 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğular quraşdırılmış, daha 48 yaşayış məntəqəsində belə qurğuların quraşdırılması işləri aparılır. Bununla da icra edilməkdə olan layihələr hesabına 320 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğular quraşdırılmaqla, keyfiyyətli içməli su ilə təmin edilmiş əhalinin sayı 500 mini ötəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində görülən tədbirləri davam etdirmək məqsədi ilə qərara alıram:

1. Kür və Araz çaylarının sularından, habelə digər su mənbələrindən istifadə edən ölkə əhalisinin keyfiyyətli içməli su ilə təmin edilməsi məqsədi ilə Ağsu, Füzuli, Göyçay, İmişli, Kürdəmir, Qax, Sabirabad, Şəki, Ucar və Zaqatala rayonlarının 40 mindən çox əhalisi olan 50 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğuların quraşdırılması üçün 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 yanvar 2015-ci il.

## “HEYVANLAR ALƏMİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2015-Cİ İL 6 MART TARİXLİ 1226-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1226-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 aprel 2015-ci il.

## “OVÇULUQ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2015-Cİ İL 6 MART TARİXLİ 1225-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Ovçuluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1225-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ovçuluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ovçuluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 aprel 2015-ci il.

## “AZƏRBAYCAN RESPUBLİKASINDA YAŞILLIQLARIN SALINMASI SAHƏSİNDƏ İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2008-Cİ İL 13 İYUN TARİXLİ 2868 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1283-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar qərara alıram:

“Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 iyun tarixli 2868 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 537; 2010, № 7, maddə 610) 2.2.7-ci yarımbəndində “bağlanmasına razılıq verilməsi” sözləri “, eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin beş faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi” sözləri ilə əvəz olunsun.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 fevral 2016-cı il.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASININ 21-Cİ TƏRƏFLƏR KONFRANSI ZAMANI QƏBUL EDİLMİŞ "PARİS SAZİŞİ"Nİ İMZALAMAQ SƏLAHİYYƏTİNİN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 21-ci Tərəflər Konfransı zamanı qəbul edilmiş "Paris Sazişi"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verildiyi barədə Birləşmiş Millətlər Təşkilatına bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 aprel 2016-cı il
№ 1985

## AZƏRBAYCAN RESPUBLİKASINDA QARADAĞ, ÇOVDAR, GÖYDAĞ, DAĞKƏSƏMƏN FİLİZ SAHƏLƏRİNİN, KÖHNƏMƏDƏN SAHƏSİNİN VƏ KÜRƏKÇAY HÖVZƏSİ YATAQLARININ ÖYRƏNİLMƏSİ, TƏDQİQİ, KƏŞFİYYATI, İŞLƏNMƏSİ SAHƏSİNDƏ BİR SIRA TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2007-ci il 5 iyun tarixli 358-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Qaradağ, Çovdar, Göydağ, Dağkəsəmən filiz sahələrinin, Köhnəmədən sahəsinin və Kürəkçay hövzəsi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Saziş (bundan sonra — Saziş) üzrə Podratçılara məxsus olan iştirak paylarının onlar tərəfindən satılması niyyətini, beynəlxalq təcrübəyə uyğun şəkildə aparılmış qiymətləndirmə nəticəsində həmin payların əldə olunmasının iqtisadi səmərəliliyinin təsdiq olunduğunu, yuxarıda adıçəkilən yataqların daha səmərəli idarə edilməsinin zəruriliyini, qeyri-neft sənayesinin, o cümlədən, metallurgiya sahəsinin kompleks inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəfləri, eləcə də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təklifini nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, İqtisadiyyat Nazirliyinə və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinə tapşırılsın ki, Saziş üzrə Podratçı tərəflərə məxsus iştirak paylarının "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən alınması ilə bağlı zəruri tədbirlər görsünlər və görülən tədbirlərin nəticələri haqqında Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı və "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti ilə birlikdə Saziş üzrə Podratçı tərəflərə məxsus iştirak paylarının Cəmiyyət tərəfindən alınmasının maliyyələşdirilməsinə dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş alqı-satqı baş tutduqdan sonra Sazişin 26.6-cı maddəsinə uyğun olaraq Sazişə qarşılıqlı razılıq əsasında xitam verilməsi ilə bağlı zəruri tədbirlər görsün.

4. "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinə tapşırılsın ki, bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş alqı-satqı baş tutduqdan sonra Azərbaycan Respublikasında Qaradağ, Çovdar, Göydağ, Dağkəsəmən filiz sahələrinin, Köhnəmədən sahəsinin və Kürəkçay hövzəsi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənməsini və səmərəli idarə olunmasını təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 may 2016-cı il.

## “AZƏRBAYCAN RESPUBLİKASININ MEŞƏ MƏCƏLLƏSİNDƏ DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ 2016-CI İL 17 MAY TARİXLİ 245-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Meşə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 17 may tarixli 245-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Meşə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Meşə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 iyun 2016-cı il.

## "ƏTRAF MÜHİTƏ DAİR İNFORMASİYA ALMAQ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2016-CI İL 11 NOYABR TARİXLİ 399-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 11 noyabr tarixli 399-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 dekabr 2016-cı il.

## “ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2016-CI İL 11 NOYABR TARİXLİ 398-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 11 noyabr tarixli 398-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 dekabr 2016-cı il.

**ƏHALİNİN EKOLOJİ CƏHƏTDƏN TƏMİZ SU İLƏ TƏMİNATININ YAXŞILAŞDIRILMASINA DAİR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycanda əhalinin keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilmiş ardıcıl tədbirlər nəticəsində 2007-2016-cı illərdə 24 rayon üzrə əhalisinin sayı 620 min nəfərdən çox olan 384 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğular quraşdırılmış və 6143 ədəd su paylayıcı məntəqə tikilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin davam etdirilməsi məqsədi ilə qərara alıram:

1. Kür və Araz çaylarının sularından, habelə digər su mənbələrindən istifadə edən ölkə əhalisinin keyfiyyətli içməli su ilə təmin edilməsi məqsədi ilə 18 rayonun 64 min nəfərdən çox əhalisi olan 100 yaşayış məntəqəsində (siyahı əlavə olunur) modul tipli sutəmizləyici qurğuların quraşdırılması üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə 16,0 (on altı) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 fevral 2017-ci il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2017-ci il 24 fevral tarixli Sərəncamına*

*Əlavə*

**2017-ci ildə quraşdırılması nəzərdə tutulan modul tipli su təmizləyici qurğuların yaşayış məntəqələri üzrə bölgüsünə dair**
**siyahı**

Ağdaş (qurğuların sayı – 16)

Əmirarx Güvəkənd Aşağı Nemətabad Əmirmahmud Aşağı Qəsil Bəylik Ağcaqovaq Tatlar Yeniarx Aşağı Ləki Hapıtlı Ərəbşəki Cücük Yenikənd Malay Qobuüstü Hacılar Yuxarı Nemətabad

Ağsu (qurğuların sayı – 9)

Ülgüc Qaraməmmədli Dəlilər Qasımbəyli Dədəli Növcü Yuxarı Növcü Gursulu Göydəlləkli

Bərdə (qurğuların sayı – 3)

Nifçi Məşədiibişli Kafarlı

Füzuli (qurğuların sayı – 2)

Araz Zərgər Murtuzalılar

Göyçay (qurğuların sayı – 2)
Ərəbşahverdi Yenikənd
Göygöl (qurğuların sayı – 1)
Bəhrambağ
Hacıqabul (qurğuların sayı – 4)
Tağılı Şorbaçı Birinci Paşalı Qubalı
İmişli (qurğuların sayı – 1)
Ağcüyür
İsmayıllı (qurğuların sayı – 4)
Xəlilli Əyyubbəyli Gideyli Çayqovuşan
Kürdəmir (qurğuların sayı – 9)
Qoçulu Yeni Şıxımlı Ucarlı Bala Kəngərli Qurdbayram Bağman Qarabucaq (kənd) Qarabucaq (Axtaçı) Garıs Əyribənd
Laçın (qurğuların sayı – 3)
(Ağcab ədi rayonunun Taxta Körpü ərazisi) 3 Ağbulaq Fingə Sadınlar
Neftçala (qurğuların sayı – 12)
Bala Surra Şorkənd Yenikənd Mikayıllı Sarıqamış Haqverdilər Qırmızı Şəfəq Sübh 2 № -li Mayak Həsənabad Mürsəqulu Beştalı
Saatlı (qurğuların sayı – 3)
Gomuşçu Seyidlər Mollavazlı
Sabirabad (qurğuların sayı – 3)
Qəfərli Balvar Qaralı
Salyan (qurğuların sayı – 3)
Alçalı Quyçu Qırx Çıraq
Ucar (qurğuların sayı – 2)
Xələc Ramal
Yevlax (qurğuların sayı – 12)
Yaldili Gülövşə Kolanı Bünyadabad Rüstəmli İsmayılabad Göyük Dəlləklər Nurallar Ağqıraqlı Quşçu Varvara
Zərdab (qurğuların sayı – 9)
Şıxbağı Ağabağı Nəzəralılı Lələ ağacı Sarıqaya Şəftəhal Otmanoba Siləyli Kəndəbil

## “AZƏRBAYCAN RESPUBLİKASININ MEŞƏ MƏCƏLLƏSİNDƏ DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 14 FEVRAL TARİXLİ 528-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Meşə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 528-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Meşə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Meşə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 mart 2017-ci il.

## “ƏHALİNİN EKOLOJİ CƏHƏTDƏN TƏMİZ SU İLƏ TƏMİNATININ YAXŞILAŞDIRILMASINA DAİR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2017-Cİ İL 24 FEVRAL TARİXLİ 2693 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. “Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2693 nömrəli Sərəncamının 1-ci hissəsində “18” rəqəmləri “15” rəqəmləri ilə, “64” rəqəmləri “77” rəqəmləri ilə əvəz edilsin və həmin Sərəncama əlavə olunmuş siyahı yeni redaksiyada verilsin (əlavə olunur).

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 mart 2017-ci il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2017-ci il 17 mart tarixli Sərəncamına*
*Əlavə*

**2017-ci ildə quraşdırılması nəzərdə tutulan modul tipli su təmizləyici qurğuların yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı**

Rayonların adı, Qurğuların sayı, Yaşayış məntəqələrinin adı

1. Ağdaş - 25

Əmirarx, Güvəkənd, Aşağı Nemətabad, Əmirmahmud, Aşağı Qəsil, Bəylik, Ağcaqovaq, Tatlar, Yeniarx, Aşağı Ləki, Hapıtlı. Ərəbşəki, Cücük, Yenikənd, Malay, Qobuüstü, Hacılar, Yuxarı Nemətabad, Sadavat, İkinci Aral, Yuxarı Qəsil, Orta Qəsil, Şordəhnə, Şıxlı, Qarasuqumlaq, Qaradağlı, Bulaqotağı

2. Ağsu – 6

Hacıuşağı, Təklə, Dəlilər, Muradlı, Cəfərli, İlxıçı

3. Bərdə - 3

Nifçi, Məşədiibişli, Kafarlı

4. Füzuli - 2

Araz, Zərgər, Murtuzalılar

5. Göyçay - 6

Ərəbşahverdi, Xəlitli, Hacıağabəyli, Qaraxıdır, Şəkili, Çərəcə

6. Göygöl - 1

Bəhrambağ

7. Hacıqabul - 1

Ağacanlı

8. İmişli - 4

Ağcüyür, Murğuzalılı, Mürsəlli, Göhərli
9. İsmayıllı - 4
Xəlilli, Əyyubbəyli, Gideyli, Çayqovuşan
10. Kürdəmir - 4
Qoçulu, Bağman, Qarabucaq (Axtaçı) Garıs Əyribənd
11. Laçın (Ağcabədi rayonunun Taxta Körpü ərazisi) - 3
Ağbulaq, Fingə, Sadınlar
12. Neftçala - 12
Bala Surra, Şorkənd, Yenikənd, Mikayıllı, Sarıqamış, Haqverdilər, Qırmızı Şəfəq, Sübh 2 № -li Mayak, Həsənabad, Mürsəqulu, Beştalı
13. Ucar - 2
Əlikənd, Ramal
14. Yevlax - 12
Yaldili, Gülövşə, Qaraməmmədli, Bünyadabad, Rüstəmli, İsmayılabad, Aşağı Qarxun, Ərəş, Səmədabad, Ağqıraqlı, Quşçu, Varvara
15. Z ərdab - 13
Şıxbağı, Ağabağı, Nəzəralılı, Lələağacı, Sarıqaya, Şəftəhal, Otmanoba, Siləyli, Kəndəbil Hüseynxanlı, Burunlu, Allahqulubağı, Əlibəyli

Cəmi: 15 98 100

## “ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 14 APREL TARİXLİ 590-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 590-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 iyun 2017-ci il.

## "XÜSUSİ MÜHAFİZƏ OLUNAN TƏBİƏT ƏRAZİLƏRİ VƏ OBYEKTLƏRİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 31 OKTYABR TARİXLİ 835-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 835-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 dekabr 2017-ci il.

## “HEYVANLAR ALƏMİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 31 OKTYABR TARİXLİ 827-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 827-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 dekabr 2017-ci il.

## KƏND TƏSƏRRÜFATI, EKOLOGİYA VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏLƏRİNDƏ ÇALIŞAN İŞÇİLƏRİN ƏMƏKHAQLARININ ARTIRILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi sahələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə qərara alıram:

1. Dövlət büdcəsindən maliyyələşdirilən kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi sahələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 mart 2018-ci il.

## “HİDROMETEOROLOGİYA FƏALİYYƏTİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2018-Cİ İL 3 APREL TARİXLİ 1048-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Hidrometeorologiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1048-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi iləqərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Hidrometeorologiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Hidrometeorologiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2018-ci il.

**AZƏRBAYCAN RESPUBLİKASININ QIZILAĞAC MİLLİ PARKININ YARADILMASI HAQQINDA**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsini, biomüxtəlifliyin qorunub saxlanılmasını, təbii resurslardan səmərəli istifadəsini və ekoturizmin inkişafını təmin etmək məqsədi ilə qərara alıram:

1. Kiçik Qızılağac Dövlət Təbiət Yasaqlığına aid torpaqlardan 10390,89 hektar və Neftçala rayonunun inzibati ərazisində yerləşən dövlət ehtiyat fondu torpaqlarından 309,11 hektar ayrılmaqla, Qızılağac Dövlət Təbiət Qoruğunun (88360,0 hektar) bazasında bu Sərəncama əlavə edilən yerquruluşu planında göstərilmiş 99060,0 hektar sahədə Azərbaycan Respublikasının Qızılağac Milli Parkı yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 sentyabr 2018-ci il.

## “YAŞILLIQLARIN MÜHAFİZƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2018-Cİ İL 1 OKTYABR TARİXLİ 1252 VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1252 VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 oktyabr 2018-ci il.

## “AZƏRBAYCAN RESPUBLİKASINDA PLASTİK QABLAŞDIRMA TULLANTILARININ ƏTRAF MÜHİTƏ MƏNFİ TƏSİRİNİN AZALDILMASINA DAİR 2019–2020-Cİ İLLƏR ÜÇÜN TƏDBİRLƏR PLANI”NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. “Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı” təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 fevral 2019-cu il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2010-CU İL 14 İYUL TARİXLİ 1015 NÖMRƏLİ SƏRƏNCAMI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİNİN STRUKTURU"NDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 yanvar tarixli 476 nömrəli Fərmanının icrası ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 657; 2012, № 4, maddə 365, № 6, maddə 555; 2013, № 8, maddə 982; 2014, № 10, maddə 1226, № 11, maddə 1414; 2016, № 2 (II kitab), maddə 250, № 9, maddə 1505; 2017, № 5, maddə 801; 2018, № 4, maddə 721, № 9, maddə 1840) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturu" aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparatı (şöbələr və sektorlar)

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti

3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti

4. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti

5. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti

6. Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi

7. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin regional orqanları və yerli bölmələri.".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 may 2019-cu il.

## SU EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN TƏMİN EDİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

Komissiyanın sədri

Şahin Mustafayev – Azərbaycan Respublikası Baş Nazirinin müavini

Komissiyanın üzvləri

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri

Azərbaycan Respublikasının İqtisadiyyat naziri

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri

Azərbaycan Respublikasının Maliyyə naziri

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri

“Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin rəisi.

2. Komissiyaya tapşırılsın ki:

2.1. su ehtiyatlarından istifadə və su təsərrüfatının idarə olunması sahəsində mövcud vəziyyəti təhlil etsin;

2.2. su ehtiyatlarından istifadədə səmərəliliyin artırılmasını, uçotun və idarəetmənin təkmilləşdirilməsini və bu sahədə operativ əlaqələndirməni təmin etsin;

2.3. bu Sərəncamın 2.1-ci və 2.2-ci bəndlərində verilən tapşırıqların icrası üçün müvafiq dövlət orqanlarının (qurumlarının), elmi müəssisələrin (təşkilatların), ixtisaslı mütəxəssislərin, habelə beynəlxalq ekspertlərin cəlb olunmasını təmin etsin;

2.4. görülən işlər barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 aprel 2020-ci il.

## “XƏZƏR DƏNİZİNİN DƏNİZ ƏTRAF MÜHİTİNİN MÜHAFİZƏSİ HAQQINDA” ÇƏRÇİVƏ KONVENSİYASININ NEFTLƏ ÇİRKLƏNMƏ HALLARI İLƏ MÜBARİZƏDƏ REGİONAL HAZIRLIQ, CAVAB TƏDBİRLƏRİ VƏ ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOLU” ÜZRƏ SƏLAHİYYƏTLİ ORQANIN MÜƏYYƏN EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 508-IVQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında” Çərçivə Konvensiyasının Neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında Protokolu”nun 5-ci maddəsinin 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə qərara alıram:

1. 2011-ci il avqustun 12-də Aktau şəhərində imzalanmış “Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında” Çərçivə Konvensiyasının Neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında Protokolu” üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsinə uyğun olaraq “Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında” Çərçivə Konvensiyasının Neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında Protokolu” üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqanın müəyyən edilməsi barədə həmin Konvensiyanın Katibliyinə bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 iyun 2021-ci il

## AZƏRBAYCAN RESPUBLİKASININ BƏSİTÇAY DÖVLƏT TƏBİƏT QORUĞUNUN FƏALİYYƏTİNİN TƏŞKİLİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü insan hüquqlarının və çoxsaylı beynəlxalq hüquq normalarının pozulması, sosial-iqtisadi fəsadlar və mədəni irsə vurulan ziyanla yanaşı, misli görünməmiş ekoloji terror, təbii sərvətlərin genişmiqyaslı və uzunmüddətli talanı ilə nəticələnmişdir.

Ərazilərin 30 ilə yaxın işğal altında qaldığı müddət ərzində tarixi torpaqlarımızda təbiətə, bioloji müxtəlifliyə və su hövzələrinə qarşı ciddi ekoloji fəsadlar törədilmişdir. Azərbaycanın "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil edilmiş nadir təbiət inciləri məhv edilmiş, flora və faunaya külli miqdarda ziyan vurulmuşdur. Ətraf mühitin fiziki və kimyəvi çirklənməyə məruz qalması bütövlükdə regionda ekoloji tarazlığın pozulmasına gətirib çıxartmışdır.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində qarşıda duran əsas vəzifələrdən biri də məhz həmin ərazilərdə təbii və keyfiyyətli ekosistemin, bioloji müxtəlifliyin, habelə nadir və itməkdə olan bitki növlərinin bərpa edilərək sağlamlaşdırılmasıdır. Bu ərazilərdə müasir yanaşmaların tətbiqi əsasında unikal meşə fondunun və mühafizə olunan təbiət komplekslərinin fəaliyyətinin bərpa edilməsi bütövlükdə regionun "yaşıl zona"ya çevrilməsinə şərait yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad olunan ərazilərdə ətraf mühitin sağlamlaşdırılması və təbii sərvətlərdən dayanıqlı istifadənin təmin edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin, nadir təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətdə qorunub saxlanılması məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun inzibati ərazisində 107 hektar sahədə yerləşən Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun (bundan sonra – Qoruq) fəaliyyəti bərpa edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Qoruğun Əsasnaməsini və sanitariya-mühafizə zonasını dörd ay müddətində müəyyənləşdirib təsdiq etsin;

2.2. Qoruğun mühafizəsi, təbliği və fəaliyyətinin maddi-texniki təminatı ilə bağlı zəruri tədbirlər görsün;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

3.1. Qoruq ərazisində yerləşən təbiət obyektlərinin inventarlaşdırılmasını təmin etsin və işlər başa çatdıqdan sonra bu barədə məlumatları bir ay müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin;

3.2. xarici və yerli mütəxəssisləri cəlb etməklə Qoruq ərazisində ekoloji vəziyyətin qiymətləndirilməsini aparsın və işlər başa çatdıqdan sonra bir ay müddətində təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Aidiyyəti dövlət orqanları (qurumları) bu Sərəncamdan irəli gələn məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görsünlər.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 oktyabr 2021-ci il

## ƏLİCANÇAY SU ANBARININ TİKİNTİSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, habelə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq ölkədə su ehtiyatlarının artırılması, əhalinin içməli su təminatının yaxşılaşdırılması, əkinəyararlı torpaqlarda müasir təsərrüfatlar yaradılmasının təşviqi və əhalinin məşğulluğunun dəstəklənməsi məqsədilə qərara alıram:

1. Oğuz və Şəki rayonları ərazisində Əlicançay su anbarı tikilsin.

2. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi:

2.1. Əlicançay su anbarının tikintisi ilə bağlı müvafiq tədbirlər görülməsini təmin etsin;

2.2. Əlicançay su anbarının tikintisi nəticəsində içməli su ilə təmin ediləcək yaşayış məntəqələri və suvarma suyu ilə təmin edilməsi nəzərdə tutulan əkin sahələri üzrə prioritetləşdirmə aparmaqla, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və aidiyyəti yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış təkliflərini 5 (beş) ay müddətində "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiyaya (bundan sonra – Komissiya) təqdim etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Şəki Şəhər İcra Hakimiyyəti, Oğuz Rayon İcra Hakimiyyəti və digər aidiyyəti dövlət orqanları (qurumları) Əlicançay su anbarının tikintisindən irəli gələn məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görsünlər.

4. Komissiya bu Sərəncamın 2-ci və 3-cü hissələrində nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən su anbarının tikintisinin cari ildə və növbəti illərdə maliyyələşdirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər görsünlər.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 iyul 2023-cü il

## AZƏRBAYCAN RESPUBLİKASINDA 2024-CÜ İLİN “YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ” ELAN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 dekabr 2023-cü il

## M.B.BABAYEVİN BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASININ TƏRƏFLƏR KONFRANSININ 29-CU SESSİYASININ (COP29), KİOTO PROTOKOLUNUN TƏRƏFLƏR GÖRÜŞÜNÜN 19-CU SESSİYASININ VƏ PARİS SAZİŞİNİN TƏRƏFLƏR GÖRÜŞÜNÜN 6-CI SESSİYASININ PREZİDENTİ MÜƏYYƏN EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası ətraf mühitin qorunmasına, iqlim dəyişmələrinin qarşısının alınmasına xüsusi əhəmiyyət verir.

Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonası elan olunması, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin təzahürüdür.

İqlim dəyişmələrinin qarşısının alınması sahəsində Azərbaycanın həyata keçirdiyi fəaliyyət beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Məhz bu səbəbdən, iştirakçıların sayına və səviyyəsinə, müzakirəyə çıxarılan məsələlərin aktuallığına görə dünyada ən mötəbər tədbirlərdən biri hesab edilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) dünya ölkələrinin yekdil qərarı ilə 2024-cü ildə Azərbaycanda keçiriləcəkdir.

Azərbaycan beynəlxalq ictimaiyyətin ona böyük hörmət və etimadının göstəricisi olan bu nüfuzlu sessiyanın yüksək səviyyədə təşkil edilməsi, ölkəmiz və bəşəriyyət üçün uğurlu nəticələrlə yekunlaşması naminə bütün zəruri tədbirləri görəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, habelə formalaşmış beynəlxalq təcrübəni nəzərə alaraq qərara alıram:

1. Muxtar Bahadur oğlu Babayev Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının Prezidenti müəyyən edilsin.
2. Müəyyən edilmiş Prezidentə (President-Designate) Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasına və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasına hazırlıq işlərinin aparılması və sədrliyin həyata keçirilməsi üçün məsul nümayəndələrdən ibarət heyətin formalaşdırılması səlahiyyəti verilsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 dekabr 2023-cü il

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASININ TƏRƏFLƏR KONFRANSININ 29-CU SESSİYASININ (COP29), KİOTO PROTOKOLUNUN TƏRƏFLƏR GÖRÜŞÜNÜN 19-CU SESSİYASININ VƏ PARİS SAZİŞİNİN TƏRƏFLƏR GÖRÜŞÜNÜN 6-CI SESSİYASININ KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR TƏŞKİLAT KOMİTƏSİNİN YARADILMASI HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının təşkili və keçirilməsinin təmin edilməsi məqsədilə qərara alıram:

1. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri

Samir Nuriyev – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri

Təşkilat Komitəsinin üzvləri:

Muxtar Babayev – Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti

Ceyhun Bayramov – Azərbaycan Respublikasının xarici işlər naziri

Mikayıl Cabbarov – Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Vilayət Eyvazov – Azərbaycan Respublikasının daxili işlər naziri

Anar Ələkbərov – Azərbaycan Respublikası Prezidentinin köməkçisi

Hikmət Hacıyev – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri

Kəmaləddin Heydərov – Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Teymur Musayev – Azərbaycan Respublikasının səhiyyə naziri

Rəşad Nəbiyev – Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Arif Səmədov – Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi

Pərviz Şahbazov – Azərbaycan Respublikasının energetika naziri

Samir Şərifov – Azərbaycan Respublikasının maliyyə naziri

Şahin Bağırov – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Vüqar Əhmədov – “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri

Ruslan Əliyev – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyinin baş direktoru

Eldar Əzizov – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Vüsal Hüseynov – Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

Anar Quliyev – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Elçin Quliyev – Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Vüqar Qurbanov – Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru

Ülvi Mehdiyev – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

Saleh Məmmədov – Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri

Zaur Mikayılov – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri

Əli Nağıyev – Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Fuad Nağıyev – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Balababa Rzayev – "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Samir Rzayev – "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Təşkilat Komitəsi:

2.1. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planı hazırlayıb həyata keçirsin;

2.2. əməliyyat şirkətinin yaradılması ilə əlaqədar tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulan Tədbirlər Planının icrası ilə bağlı maliyyələşdirməni təmin etsin və digər zəruri məsələlərin həlli üçün tədbirlər görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 yanvar 2024-cü il

**İlham Əliyevin ekoloji siyasəti**

**Dayanıqlı inkişaf və yaşıl dünya**

**(2003-2023)**

**3 cilddə**

**III cild**

Fərmanlar və Sərəncamlar